AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# ZƏNGƏZUR FOLKLOR ÖRNƏKLƏRİ

## I CİLD

BAKI – 2021

**LAYİHƏ RƏHBƏRİ:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
Akademik

**REDAKSİYA HEYƏTİ:** **Əfzələddin ƏSGƏR**
filologiya üzrə elmlər doktoru, dosent

**Sərxan XAVƏRİ**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Hikmət QULİYEV**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Səfa QARAYEV**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**TƏRTİBÇİ:** **İlkin RÜSTƏMZADƏ**
*filologiya üzrə fəlsəfə doktoru*

**Zəngəzur folklor örnəkləri**. I cild. Bakı, Elm və təhsil, 2021, 356 səh.

folklor.az

A $\frac{4603000000}{N-098-2021}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2021

# TƏRTİBÇİDƏN

Zəngəzur folklorunun toplanmasına hələ Sovet dövründən başlanmışdır. O dövrdə bu bölgənin folklorunun toplanmasında xüsusi əməyi olan şəxslər arasında Əhliman Axundovun adını çəkmək yerinə düşərdi. Əslən Zəngəzur mahalının Əliquluuşağı kəndindən olan Əhliman Axundov bölgə folklorunun toplanmasında yaxından iştirak etmiş, onun bölgədən yazıya aldığı folklor örnəkləri beş cildlik "Azərbaycan nağılları", 1970-ci ildə işıq üzü görmüş iki cildik "Azərbaycan nağılları" toplusunda, həmçinin 1960-cı illərdə "Azərbaycan folkloru antologiyası" seriyasından buraxılan iki cildlik kitabda çap olunmuşdur.

Bölgəyə növbəti folklor ezamiyyələri 1988-1989-cu illərdə ermənilərin Azərbaycana qarşı ərazi iddialarının baş qaldırdığı dövrə təsadüf edir. Vəli Nəbioğlu, Muxtar Kazımoğlu və Əfzələddin Əsgərdən ibarət heyət həmin dövrdə Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonlarında olmuş, bölgədə yaşayan sakinlərlə görüşərək folklor örnəklərini yazıya almışlar. Həmin nümunələr əsasında 1995-ci ildə "Bu yurd bayquşa qalmaz" kitabı, 2005-ci ildə isə "Azərbaycan folkloru antologiyası"nın XII cildi nəşr olunmuşdur. Bölgə folkloruna həsr olunumuş növbəti kitab isə 2009-cu ildə Rəşid Təhməzoğlunun topladığı materiallar əsasında işıq üzü görmüş və həmin materiallar "Azəbaycan folkloru antologiyası"nın XIX cildinə daxil edilmişdir.

Bölgə işğal altında olduğu illərdə də Zəngəzur folklorunun toplanması davam etmişdir. AMEA Folklor İnstitutunun 2012-2014-cü illərdə həyata keçirdiyi "Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması" layihəsi çərçivəsində Qarabağ ilə yanaşı, Zəngilan, Qubadlı, Laçın və  Kəlbəcər sakinlərindən də folklor örnəkləri yazıya alınaraq "Qarabağ: folklor da bir tarixdir" kitabının müxtəlif cildlərində dərc olunmuşdur. Bu bölgədən ənənəvi folklor nümunələri ilə yanaşı, 1905, 1918-ci illərdə erməni-müsəlman münaqişəsinə dair, həmçinin Sovet rejiminə qarşı mübarizə aparmış qaçaqlar haqqında xatirələr də ilk dəfə yazıya alınmışdır.

Folklor İnstitutunun "Sosial-demoqrafik proseslər kontekstində Zəngəzur folkloru: milli-mədəni yaddaş və bəşəri zənginlik" elmi tədqiqat proqramı çərçivəsində hazırlanan bu kitab "Azərbaycan folkloru antologiyası"nın XII cildi, "Qarabağ: folklor da bir tarixdir" toplularında dərc olunan materiallar, həmçinin layihə iştirakçılarının son illər topladığı nümunələr əsasında hazırlanmışdır. Kitabda əsasən Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarından toplanmış nümunələrə, az miqdarda da Laçın və Qafan rayon sakinlərindən yazıya alınmış mətnlərə yer verilmişdir. Kitab elmi auditoriya üçün nəzərdə tutulduğundan mətnlər bölgəyə məxsus ləhcə və şivə xüsusiyyətləri gözlənilməklə dərc olunmuşdur.

Bölgədən toplanmış materialların janr çeşidliyinə və əhatə dairəsinə diqqət yetirsək, buranın folklor sarıdan nə qədər zəngin olduğunu görmək olar. Geniş repertuarı, ifaçılıq manerası ilə seçilən Xuduş Cəbrayılov, Abbas Abbasov, Zərnigar Məmmədova kimi söyəyicilərin varlığı bölgənin zəngin folklor ənənələrindən xəbər verir. Folklor ənənəsinin son dövrlərə qədər yaşamasında vaxtilə bölgədə mövcud olmuş folklor məclislərinin böyük rolu vardır. Klassik folklorun əsas daşıyıcılarına diqqət yetirsək, onları böyük əksəriyyətinin həmin məclislərdə iştirak etmiş şəxslər olduğunu görərik. Klassik folklor məhz onlar sayəsində bu gün də yaşamını sürdürür.

Bölgədə geniş yayılmış folklor məclislərindən biri yun daramaq üçün evlərdə təşkil olunan iməciliklər idi. İməcilik payız aylarında keçirilərdi. Bir gün qabaqcadan ev sahibi onun evində yun daranacağını qonşulara xəbər verər, səhəri gün isə qonşudakı qız-gəlinlər ona köməyə gələrdilər. Ev sahibi qızları həvəsləndirmək üçün kimin əlçimi çox olardısa, ona nəmər verərdi. İş prosesini yüngülləşdirmək üçün ev sahibi həmin məclisə nağıl söyləyicilərini də dəvət edərdi. Kəlbəcər rayonunun Ağcakənd kəndində belə məclislərə çox vaxt Əhliyyət adlı şəxs çağrılar, o da maraqlı söhbətləri ilə camaatın başını qatardı. Məclisi daha da şənləndirmək üçün qız-gəlinlər qırmızı kəlağayıdan gərdək

qurar, ağ yundan qız, qara yundan oğlan fiquru düzəldərdilər. Oğlana qara bığ qoyardılar. Qız yun darayanların guya birinin qızı olardı, oğlan isə guya ev yiyəsinin oğlu olardı. Gərdəyi düzəldib bəylə gəlini onun arxasında oturdardılar. Qızlardan biri deyərdi: "Bəynən gəlini tağdan asmışam, ev yiyəsi gəlsin düşürsün". Ev yiyəsi də yaxşı yemək bişirib orada işləyən qız-gəlinə yemək verərdi.

Bundan əlavə, payızdan başlayaraq yaza qədər evlərdə "qara" nağıl gecələri, tapmaca gecələri təşkil olunardı. Tapmaca gecələri daha maraqlı olardı, kim tapmacanın cavabını tapa bilməsə, borclu qalardı. Onda tapmacanı söyləyən deyərdi: "Satıram". Yerdən biri deyərdi: "Alıram". Soruşardılar: "Hansı cəzanı çəksin?" Tapmaca deyən dillənərdi: "Qab götürsün, getsin filan bulaqdan bir qab su gətirsin, camaat su içsin". Tapmacanın cavabını tapa bilməyən gedib su gətirərdi, amma bu dəfə bəhanə gətirərdilər ki, sənin şahidin yoxdur, bəlkə, suyu başqa yerdən doldurub gətirmisən. Onun yanına bir nəfəri şahid qoşub təkrar su gətirməyə göndərərdilər. Tapmacanı tapmayan şəxsə digər cəzalar da verilərdi. Məsələn, dik ayaq üstə durmaq və s. Bəzən tapmacanı deyən şəxs ürəyi yumuşaqlıq göstərər, bir az ayaq üstə durduqdan sonra həmin şəxsi bağışlayardı. Yun daramaq üçün təşkil edilən iməciliklərdə də tapmacalar deyilərdi. Həmin məclisdə qızlar iki dəstəyə bölünər və üz-üzə durub bir-birinə tapmaca deyərdilər.

**Folklor söyləyiciləri.** Bu gün klassik folklor özünün böhran dövrünü yaşayır. Klassik folkloru dəstəkləyən, onun inkişafını saxlayan təsərrüfat tipinin dəyişməsi ənənəvi folklor məclislərinin sıradan çıxmasına və klassik folklorun arealının daralmasına gətirib çıxarmışdır. Klassik folklorun düşdüyü bu durum 1988-1989-cu illərdə bölgədə folklor ezamiyyəsində olmuş şəxslərin də diqqətini cəlb etmişdir. Əfzələddin Əsgər "Azərbaycan folkloru antologiyası"nın XII cildinə yazdığı ön sözdə bölgə folklorunun toplanması zamanı müşahidə etdiklərinə əsaslanaraq yazırdı: "Klassik folklor gözümüzün qarşısında yoxa çəkilir. Nəinki söyləyici və ya ifaçı (ravi, naqqal) məktəbləri sıradan çıxıb,

hətta tək-tük professional söyləyicilərə də təsadüf etmək, demək olar ki, mümkün deyil[1]. Bu müşahidələr sonrakı dövrlərdə aparılan toplamalar zamanı da öz təsdiqini tapmışdır. 2012-2014-cü illərdə Qarabağ folklorunun toplanması zamanı ağıçı istisina olmaqla professional söyləyicilərə təsadüf olunmamışdır.

Folklor toplayıcılarının da qeyd etdiyi kimi, keçən əsrin 80-ci illərinə qədər folklor məclisləri artıq bölgədə sıradan çıxmışdır. Ənənəvi toyların sıradan çıxması dastan ifaçılığına ciddi zərbə vurduğu kimi, folklor məclislərinin sıradan çıxması da professional söyləyiciliyin tarix səhnəsindən çıxmasına səbəb olmuşdur. Bu gün klassik folklor örnəklərini yaşadan vaxtilə həmin məclislərdə iştirak etmiş, orada söylənilən sözləri güclü hafizələri sayəsində yaddaşlarında saxlamış şəxslərdir. Yalnız sual-savab əsasında onların xatırladığı bu mətnlər uzun müddət ifa olunmadığından keçən əsrdə toplanmış folklor mətnləri ilə müqayisədə kasad, bədii cəhətdən zəif təsir bağışlayır, təsvirlərin bəsitliyi, ənənəvi formulların azlığı ilə diqqəti daha çox cəlb edir. Bütün bunların səbəbi də klassik folklorun ifa olunduğu məclislərin sıradan çıxmasıdır.

Bununla belə, bu gün söyləyicilər arasında klassik folkloru bilən, geniş repertuara sahib söyləyicilərə hələ də təsadüf etmək mümkündür. Belə söyləyicilər güclü hafizəyə sahib şəxslərdir, uşaq ikən onların yanında söylənilmiş mətnləri güclü hafizələri sayəsində yaddaşlarında saxlamışlar. Belə söyləyicilərdən biri Cəbrayıl rayonundan olan Abbas Abbasovdur.

Abbas Mahmud oğlu Abbasov 1938-ci ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub. Babası Hacı Abbas həcc ziyarətində, ana babası Məşhəd ziyarətində olub. Atası Mahmud kişi isə kəndin mollası olub. Dindar ailədə böyüdüyündən hələ kiçik yaşlarından dinə maraq göstərən Abbas kişi babasından, atasından Quranın müəyyən surələrini öyrənib. 1958-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai sinif müəllimliyi

---

[1] Azərbaycan folkloru antologiyası. – Bakı: "Səda", – 2005, – c. XII, – s. 13

fakültəsinə qəbul olub. 1962-ci ildə ali təhsilini başa vurub Soltanlıya qayıdıb və 30 ildən artıq Soltanlı kəndində ibtidai sinif müəllimi işləyib. İxtisasının müəllim olmasına, səkkiz kəndin metodisti işləməsinə baxmayaraq, əhali arasında daha çox molla kimi tanınır. Ona görə də hamı onu Molla Abbas deyə çağırır. Abbas kişinin dediyinə görə, atası dünyasını dəyişəndən sonra kənddə molla olmadığından yas yerlərinə gizlin gedib fatihə verər, Quran oxuyarmış. 1993-cü ildən sonra isə sərbəst mollalıq etməyə başlayıb. Abbas kişi danışdığı nağılları atasından eşidib. Güclü hafizəsi sayəsində onları yadında saxlayıb. Onun repertuarından altı nağıl yazıya alınıb ki, onlardan biri – "Üç vəsiyyət" nağılı bu topluya daxil edilmişdir.

Repertuarının rəngarəngliyi ilə seçilən söyləyicilərdən digəri isə Hürü Balaca qızı Həsənovadır. O, 1941-ci ildə Zəngilan rayonunun Sobu kəndində anadan olub, 2020-ci ilin iyun ayında 79 yaşında Bakı şəhərində vəfat edib. Sobu kəndi istər yerləşdiyi coğrafi mövqeyi, istər təbiəti, istərsə də adət-ənənələrə bağlılığı baxımından xüsusilə seçilir. Bir tərəfdən tarixi Zəngəzur torpaqlarında, indiki Ermənistan ərazisinə keçiddə, digər tərəfdən isə Cənubi Azərbaycanla tarixi mədəni-mənəvi əlaqədə olan bu kəndin sakinləri Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətaiyə bağlı Şamlı tayfasındandırlar. Kənddə müqəddəs hesab olunan iki ziyarətgah mövcud idi. Onlardan biri el arasında Seyid Qurban ocağı, digəri isə Ağalıq otağı adlanırdı.

Hürü Həsənova orta təhsilli idi. Onun xalq təbabətinə dair bilikləri, türkəçarə üsullarla xəstələri müalicə etmək qabiliyyəti var idi. Zəngilan rayonu 1993-cü ildə Ermənistan tərəfindən işğal olunanda bir çoxları kimi Hürü nənə də ailəsi ilə birlikdə Bakı şəhərində yataqxanada məskunlaşmışdı. Onun ağbirçəkliyi, hikmətli deyimlərlə zəngin olan söz-söhbətləri, dərdi-azarı olanlara türkəçarə üsullarla şəfa bəxş etməsi insanlar arasında ona xüsusi sevgi və münasibət formalaşdırmışdı. Təəssüflər olsun ki, Hürü nənə bəzi bitki və otların müalicəvi xüsusiyyətləri barədə məlumat versə də, müalicə üsulları, onların təfərrüatları haqqın-

da danışmaq istəmirdi. Bunu həmin biliklərin sirr olaraq saxlanılmasının vacibliyi, deyildiyi halda təsirinin azalacağı, kimlərinsə (bizdən yeylər, müqəddəslər və s.) xoşuna gəlməyəcəyi ilə əsaslandırırdı.

Bir folklor söyləcisi kimi Hürü nənənin repertuarında nağıllar, mifoloji mətnlər, atalar sözləri və məsəllər, bayatı və qarğışlar üstünlük təşkil edir. Özünün dediyinə görə, bu nümunələri nənəsinin bacısından – Telli qocasından öyrənmişdir. Hürü nənə uzun müddət kənddəki Ağalıq otağında qulluq edən Xoşu xalanın yanında olduğu üçün onun da söz-söhbətlərini dinləyərək yaddaşına həkk edib. Kitabda yer alan "Qıllıca", "Nargilə", "Yazılanı pozmaq olmaz" nağılları, bir sıra bayatılar ondan qeydə alınıb. Çox təəssüf ki, sağlığında Hürü nənədən yuxularla bağlı məlumatları qeydə ala bilmədik. Yeri gəlmişkən onu deyək ki, bu kənddə yuxularla bağlı dərin inam mövcud idi və yuxuların necə yozulması, yuxuda görülənlərin hansı mənanı bildirməsi haqqında Hürü nənə geniş təsəvvürə malik idi.

Hürü nənənin folklor söyləyiciliyi gündəlik məişət söhbətləri, ünsiyyət kontekstində daha təbii şəkildə baş tuturdu. O, istənilən mövzu barədə danışanda mütləq atalar sözü, məsəl, xatirə və s. ilə fikrini qüvvətləndirərdi. Kənddəki ocaqlara xüsusi rəğbəti olduğundan nitqində tez-tez "ocaq haqqı", "qurban olduğum", "yoluna fəda olduğum" kimi ifadələrə rast gəlmək olurdu. Onun xüsusi həyəcan və həssaslıqla danışdığı "Nargilə" və "Qıllıca" nağılları idi.

Hürü Həsənovanın dilindən qeydə alınan folklor örnəkləri arasında qarğışlar da diqqəti cəlb edir. Burada xüsusilə qafiyəli şəkildə qurulan nümunələr maraq doğurur:

Səni görüm al olasan,
Tay-tuşuna xar olasan.
Atan, anan boynun büksün,
Ellər kəfənin biçsin.

Çoban, itin qudursun,
Ərxəcində su dursun.
Qıymıram qərqiş edəm,
Yeddi il dilin tutulsun.

Hürü Həsənovanın kitabda yer alan vətən həsrətli, el soraqlı bayatıları isə onun qaçqınlıq dönəmində yaşadığı ağrı-acıların, keçirdiyi hiss və həyəcanın ifadəsidir. Onun dilindən qeydə alınan həmin bayatılarda vətən nisgili aydın şəkildə hiss olunmaqdadır.

**Folklor mətnləri.** Zəngəzur folklor sarıdan Azərbaycanın maraqlı bölgələrindən biridir. “Yelənni”, “Padşah oyunu” kimi ritual xarakterli bir çox qədim oyunların bu günə qədər bölgədə yaşamını sürdürməsi bölgənin mühafizəkar təbiətindən xəbər verir. Bu mühafizəkarlığı sayəsində bölgədən qədim mərasimlərə dair maraqlı nümunələr, yeni-yeni süjetlər və ya ənənəvi süjetərin yeni variantlarını qeydə almaq mümkündür. Bu topluda bölgədən yazıya alınmış mifoloji mətnlərin, əfsanə və rəvayətlərin, inancların, nağılların, lətifə və bayatıların yer almasına baxmayaraq, bölgə folklor janarları baxımından daha zəngindir.

Bölgənin dağlıq ərazi olması, meşə örtüyünün və heyvanlar aləminin zənginliyi burada ovçuluq sənətinin geniş yayılmasına səbəb olmuşdur. Bu da ovçuluqla bağlı inancların bu gün də aktuallığını qoruyub saxlamasına gətirib çıxarmışdır. Ovçuluqla bağlı bir çox inanclar, ovlama üsulları haqqında təsəvvürlər bu gün də bölgədə yaşamaqda davam edir və bu sənətlə məşğul olan insanların davranış normalarını, onların sənət fəaliyyətlərini tənzimləyir. Ona görə bölgədən toplanan mifoloji mətnlər arasında ovçuluqla bağlı inanclar xüsusilə diqqəti cəlb edir.

Bölgədə Hacı Qaraman, Hacı Qasım Çələbi, Mustafa Sofu, Mazan nənə, Oğlanlıca piri, Amudux piri kimi müxtəlif ocaqların olması ocaq sahibləri haqqında rəvayətlərin aktuallıq qazanmasına səbəb olmuşdur.

Bölgədə ən məşhur ocaqlardan biri Hacı Qaraman ocağıdır. Hacı Qaramanın əsl adı Əhməd Çələbi olub. Məşhur Qaraman tayfasından olan Əhməd Çələbi müridlik fəaliyyəti ilə əlaqədar Diyar-

bəkirdən Azərbaycana gəlib. Haqqında söylənilən rəvayətlərdə onun əvvəlcə indiki Cəbrayıl rayonunda Niftalılar və Nüsüs kəndləri arasındakı Quru dərə deyilən yerdə məskən saldığı, sonra isə Çələbilər kəndinə köçdüyü deyilir. Burada Əhməd kişinin qızı Yetərlə evləndiyi, bu nikahdan iki oğlu (bəzi rəvayətlərdə üç) və bir qızının olduğu deyilir. Bu ocaq Hacı Qasım Çələbi, Alı Çələbi, Yasin Çələbi kimi şəxsiyyətlər yetirmişdir. Həmin şəxslərin kəramətləri, möcüzələri ilə bağlı rəvayətlər bölgədə geniş yayılmış, həmin rəvayətlərdən bəziləri bu kitaba daxil edilmişdir.

Bölgədə ən geniş yayılmış janrlardan biri də nağıllardır. Bölgədən, demək olar ki, bütün nağıl qruplarına dair nümunələr toplanmışdır. Nağılların bu qədər canlılığını qoruyub saxlamasında vaxtilə bölgədə keçirilən nağıl gecələrinin böyük rolu vardır. Zəngilan kənd sakini Zərnigar Məmmədovanın dediyinə görə, uzun qış gecələrində ana babasının evində yığıncaqlar təşkil olunardı. Babasının söhbətlərinə, hədislərinə, nağıllarına qulaq asmaq üçün hətta başqa kəndlərdən də insanlar gələr, yolu uzun olanlar isə gecəni onlarda qalardılar. Şam vaxtı gələnlərə yemək təklif olunardı, yemək yeyildikdən sonra məclis başlayardı. Uşaqlar məclisə buraxılmazdı, amma marağı olanlar bacadan, pəncərədən söhbətlərə qulaq asardılar. Söyləyicinin dediyinə görə, anası da vaxtilə həmin məclislərdə iştirak etmiş, bildiyi nağılların əksəriyyətini oradakı yaşlılardan eşitmişdir. Zərnigar xanımın dediyinə görə, anası nağıl söyləyəndə süjetləri bir-birinə calayıb o qədər uzadardı ki, o nağıllar “Min bir gecə” nağılları kimi qurtarmaq bilməzdi. Kitaba Zərnigar Məmmədovadan yazıya alınmış bir neçə nağıl daxil edilmişdir. O, anasından “Ziqəm şah”, “Caməs” kimi bir çox maraqlı nağıllar eşitsə də, uzun müddət ifa olunmadığından onları artıq unutmuşdur.

Bölgə folkloru nə qədər regional ənənələr daxilində inkişaf etsə də, ümumazərbaycan folklorunun tərkib hissəsidir. Ona görə ümumi proseslərin bölgə folklor nümunələrindən yan keçməsi mümkün deyil. Bunu sehrli nağılların timsalında da görürük. Öz auditoriyasını itirdiyi üçün sehrli nağıllar artıq epik dövriyyədən

çıxmaq üzrədir. Bunu şifahi ənənədən toplanan sehrli nağılların sayı da göstərir. Vaxtilə nağıl toplularının böyük bir qismi sehrli nağıllardan təşkil olunduğu halda, bu gün toplularda yer alan sehrli nağılların sayı xeyli azalmış, bir çox süjetlər tamamilə dövriyyədən çıxmışdır. Sehrli nağıllardan fərqli olaraq, dini nağıllar və məişət nağılları daha da aktivləşmişlər. Bunun səbəbi həmin nağılların məzmunu ilə bağlıdır. Sehrli nağıllar qeyri-adi məzmunu ilə seçilir, burada fantastik məkanlardan – divlər ölkəsindən, pərilər diyarından bəhs olunur, əsas iştirakçıları divlər, pərilər, cinlər, əjdaha, dərya ayğırı kimi varlıqlardır. Burada insan ağlının qavramadığı şeylərdən – insanın ayla, illə deyil, günlə, saata böyüməsindən, zamanın geri qaytarılmasından,  yeddi aylıq yolun bir günə qət edilməsindən söhbət açılır. Real həyatdan uzaq olmaları, əsas məzmunlarının gerçəkliklə bağlanmaması sehrli nağılların tədricən epik dövriyyədən çıxmasına səbəb olmuşdur. Onlardan fərqli olaraq ibrətamiz məzmun daşıyan dini nağıllar, gerçəkliyi daha doğru əks etdirən məişət nağılları bu gün də aktuallığını qoruyub saxlamışdır. Bu kimi xüsusiyyətlərinə görə sehrli nağıllar tədricən epik dövriyyədən çıxdığı halda, dini nağıllar və məişət nağılları hələ də söylənilməkdə davam edir.

Bölgədə geniş yayılan janrlardan biri də lətifələrdir. Klassik folklorun digər janrlarından fərqli olaraq lətifələr bu gün də aktivliyini qoruyub saxlayan və inkşiaf edən janrlardan biridir.  Bu janr həm klassik lətifə süjetləri, həm də bölgədə yaşayan baməzə adamların başına gələn məzəli hadisələrin sonralar lətifələşməsi hesabına inkişaf edir. Ona görə bölgədə Molla Nəsrəddin, Kəlniyyət, Şah Abbas kimi klassik lətifə qəhrəmanları ilə yanaşı, Kalba Səməd, Ocaqverdi, Aşıq Oruc, Ocaqqulu kimi müasir lətifə qəhərmanlarına da rast gəlirik. Klassik lətifələrdən fərqli olaraq bu lətifələr çox vaxt geniş arealda yayıla bilmir, bir kənd və ya ətraf kəndlərdə söylənilir.

Bir çox klassik folklor janrları ilə yanaşı, bayatı ifaçılığının da bölgədə zəiflədiyi müşahidə olunur. “Qarabağ: folklor da bir tarixdir” toplusunda professional ağıçı olaraq iki şəxsin repertuarı

verilmişdir. Bunlardan biri Laçın rayonunun Vağazin kənd sakini Güllü Abasəliyeva, digəri isə Zəngilan rayonunun Ağalı kənd sakini Elmira Mikayılovadır. Toplama zamanı Elmira İsmayıl qızı Mikayılova yalnız bir neçə bayatını bədahətən ifa edə bilmişdir, onu qəhər boğduğundan bayatı söyləməyi davam etdirə bilməmişdir. Yalnız toplayıcının xahişilə bildiyi bayatıları təbi gəldikcə gəlininə demiş, o da onları bir dəftərə köçürərək bizə çatdırmışdır. Elmira xanımın ağıçılığı bir sənət kimi seçməsinin maraqlı tarixçəsi var. Özünün dediyinə görə, cavan oğlunun ölümündən sonra o, məclislərə gedərək ağı deməyə başlayıb. Ümumiyyətlə, müşahidələr göstərir ki, ağıçılıqla məşğul olanlar çox vaxt başı müsibətlər çəkmiş şəxslərdir. Onları dilləndirən, danışdıran öz ağrı-acıları, dərdləridir. Sanki onlar sinələrini boşaltmaq, ağrı-acılarını yüngülləşdirmək üçün yas yerlərini fürsət bilirlər. Bu səbəbdəndir ki, Elmira xanım da həkimin qadağasına baxmayaraq, ağıçılığı davam etdirmiş, yalnız bir tərəfi iflic olduqdan sonra bu sənəti tərk etmək məcburiyyətində qalmışdır.

Beləliklə, oxuculara təqdim olunan bu kitab Zəngəzur folkloruna həsr olunumuş növbəti kitablardan biridir. “Zəngəzur folklor örnəkləri” adı ilə çap olunan bu kitab titul səhifədə birinci cild kimi təqdim olunub. Bunun əsas səbəbi, bölgə folklorunun toplanmasının bu kitabla məhdudlaşdırılmaması, gələcəkdə bölgədən toplanacaq folklor örnəklərinin kitabın ardı, davamı kimi çap edilməsinə zəmin hazırlamaqdır. Kitabın bölgədən yazıya alınmış ən mükəmməl nümunələr əsasında tərtib olunması, janr çeşidliyi, əminik ki, bölgə folkloru haqqında aydın təsəvvürün yaranmasına kömək edəcəkdir.

# I. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1. YERLƏ GÖYÜN YARANMASI

Xudavəndi-aləm yeri, göyü yaradır. Yaranannan sora yer yerdə, göy göydə durmur, lərzəyə gəlir. Göydən vəhy gəlir qələmə. Cənab Cəbrayıl qələmə buyurur ki, yaz!

Deyib:

– Nə yazım?

Deyib:

– Allah!

Yazıb:

– Allah.

Deyib:

– Durmadı kı?

Deyib:

– Yox.

Deyib:

– Yaz!

Deyib:

– Nə yazım?

Deyib:

– Allah, Məhəmməd.

Hələ yaranmıyıb ey Məhəmməd-zad. Dünya təzə yaranıb.

Deyib:

– Durmadı?

Deyib:

– Durmadı.

Deyib:

– Yaz! Allah, Məhəmməd, Əli.

Genə durmadı. Genə deyib:

– Yaz! Allah, Məhəmməd, Əli, Fatma, Həsən.

Genə durmadı. Genə deyib:

– Allah, Məhəmməd, Əli, Fatma, Həsən və Hüseyn, – deyən kimi yer yerdə, göy göydə taraz durur. İstər ərşin, istərsə də yerin hər ikisinin altı boşdu.

## 2. İNSANIN YARANMASI

Allah bəndəni yaratmağ isdiyirmiş. Onun özünün neçə dənə mələyi varmış. O mələklərdən hangisini göndərifsə yerdən torpağ gətir, torpağ qışqırıf, heş biri gətirə bilmiyif. Yenəndə torpağ elə vahimə çıxardıf ki, məni götürmə. Axırda bu mələklərin heş biri yarıtmır, Allah Azreyili çağırır. Deyir ki, get torpaxdan bir az götür gəl.

Deyir:

– Qurban olum, axı bir belə mələklər gedib torpaxdan götürə bilmiyif. Torpax vahimə çıxardır ki, mənnən götürməyin, yaralamayın məni.

Torpax da özü bir cannıdı. Axırı Allahtala əmr eliyir ki, mən saa deyirəm get götür gəl. Azreyil yenir torpağın üsdünə. Torpax vahiməsini qaldırır, çığırır, bağırır:

– Yox, maa toxunma, məni yaralama.

Deyir:

– Ə, sənnən aparıramsa, saa qayıdacağ.

Onçun görürsən, deyir, insan torpaxdan yaranıf, torpağa da qismət olacağ. Get indi yüz illik, min illik qəbri aç, gör orda bir şey qalıb? Torpağ oluf, çıxıf gedif. Onnan sora torpax rahatçılıx tapıf. Deyif ki, əgər maa qayıdacaxsa, olar.

## 3. DÜNYANIN KƏSİRLƏRİ

Göynən üş quş gedir. Quşdar bir-birinə suval verir ki, bı dünya həx dünyadı, yoxsa nəhəx dünyadı? Uçüün biri deyir ki, bı dünya həx dünyadı. Ortancıl deyir ki, yox, nəhəx dünyadı. O ücdəki deyir ki, dünya həx deyil, üş şey kəmdi: dəryanın dibi yoxdu, qatırın balası yoxdu, göyün də ücü yoxdu.

## 4-11. QURD QADIN

Bir arvadın üç balası və bir əri varıymış. Bı durur günüzdən xəmir qatır. Bunun xəmiri çoxlu gəlir. Hə... Axşam düşür, bının vaxdı olmur xəmiri bişirməyə. Xəmir qalır. Gecə bı arvad durur, aydınnığa* suya girir. Suya girəndə Allah tərəfinnən bının boğazına canavar xəltəsi keçir. Bı gedir qoşulur canavarrara. Əri ha gözdüyür, ha gözdüyür, bı gəlib çıxmır. Bının adı da Zəhra olur. Çıxır deyir:

– Ay Zəhra, xəmir pırt-pırt.

Əri deyir ki, ay Allah, görəsən bı haana getdi? Birdən bı görür ki, uzaxda bir xeyləğ canavar ulaşır. Görür ki, arvadı da gedib qoşulub canavarrara, gedir meşiyə. Deyir:

– Ay Allah, sənə qurban olum, belə möcüzəmi olar? Bının nə günahı var idi ki, bı günə qaldı.

Bı minvalla Zəhra iki il qoşulur bu canavarrara. Allahdan rüxsət gələndə bıllar gedir ilxıdan bir heyvanı seçir, – ya qoyun olsun, ya at olsun, ya mal olsun, – onu yeyillər. Nəysə, Allah bulara icazə verəndə yeyillər, icazə vermiyəndə ağız-ağıza verib yatışıllar. Bu qadın o qədər tük gətirir ki, canavarrardan betər olur. Dişdəri də yekə-yekə uzanır.

Bir gün olur, bunun meylinə düşür ki, gedim balalarımı görüm, gəlim. Gəlir balasını görməh əvəzinə balasının birini götürür aparır, yeyir. O qədər bının avcının içi şirin imiş ki, bı daddıxca ağzının suyu tökülürmüş, dişdəri şakqıldayırmış. Gözünün yaşını tökə-tökə bı, balasını yeyir. Allahın əmridi, neynəsin. Hə... Bir ay keçənnən sora bı, genə gəlir balasının birini də götürür, yeyir. Duyux düşüllər, görüllər ki, bı, uşaxların elə öz anasıdı, gəlib balalarını aparıb yeyir.

İki ildən sora bı genə adam cildində gəlir, qayıdır insannarın içinə. Allaha qurban olum, Allah bının günahınnan keçir, bını adam cildinə salır, gətirir həyata. Bı gələnnən sora özü öz diliynən

---

* aydınnığ – ay işığında

nağıl eliyir ki, bizə Allahtala bax, belə buyurur ki, bı işdəri görün, biz də gedib eliyirdih. Filankəs deyəndə ki, malımı, qoyunumu qurt-quş yedi ha, bını qurt-quş yemirdi. Biz qalırdıx ac, Allaha üz tuturdux, Allah onu bizə bəxş edirdi, biz onu yeyirdih. Ona görə də, qurban olum Allaha, Allahın işinə heş kim qarışa bilməz.

**5**

Bizim kəntdə arvad vardı, adı Qızyetər idi. Deyirdilər ki, qurt donuna girən Qızyetər. Deməli, guya qurt gəlir, donunu atır bunun çiyninə, bu olur canavar şəklində. Anam deyirdi şəxsən mən gözümnən görmüşəm ki, canavar kimi uluyur. İsdədilər ki, onu tilsimdən çıxardallar. Çıxardammadılar, gülləynən vurdular, öldürdülər.

Qurdun kürsə gedən vaxdı idi. Bu gəlif, qurd bunu çəkif, donunu atıf arvadın üsdünə. Arvad olufdu canavar. Bularnan barabar gedif gəzif gəlirdi.

**6**

Arvat dar vaxtı bayıra çıxır. Başına dəri atıllar, olur canavar. Bir müddət canavarrarnan gəzir. Bir gün onnar bir atın üstünə hücum eliyillər. Bı arvadın – canavarın ağzı atın belində olan yarıya dəyir. O sahat bı arvat canavar dərisinnən çıxıb gəlir evlərinə. Uşaxları əvə qoymağ istəmir. Deyillər ki, dişdərin vəhşi heyvan dişdərinə oxşuyur. Arvat başına gələnnəri uşaxlarına nağıl eliyir.

**7**

Bizim kəntdə bir kişi olur. Dar vaxtı bı yuyunar, başı açıx çıxar çölə. Canavar dərisini atıllar bının başına. Arvad bını gözdüyür, bı gəlmir. Kişi hər gejə axşam gedib səhər gəlirmiş. Canavar dərisini də peyinlihdə gizdədirmiş. Arvad bını güdür. Görür ki, kişi canavar dərisi geyip getdi. Arvat kişinin qardaşdarına xəbər eliyir. Onnar güdüllər, kişi canavar dərisin gizdədib evə gələndə dərini yandırıllar. – Kişi dərini yandırmağa qoymurmuş. – Dəri yananda kişi çığırıp ayılır. Kişi ayılanda deyir ki, axır vaxtdar getmək istəmirdim. Kəndin aşağısında bir at tutmuşdux, onun yarasınnan dişliyib diksinmişdim. Canavarrar məni məcbur eliyirdi-

lər. Kişi deyirmiş ki, çöldə qalan qoyunnar bizə urzadı. Onnarın işığı gəlir, biz də gedip onnarı tapıb yeyirih.

**8**

İşıxlıda bir nəfər – Qəbil adında adam qoşulmuşdu canavara. Həmməşə canavar gələrmiş, kişi də qoşularmış o canavara, gedib hərrənif gələrmiş. Bədən geyməsi də varıymış. Qardaşı bir gün geyməni tapıb yandırır. Onnan da təsirdən düşür, ta canavara qoşulub getmir.

**9**

Zal adında bir nəfər varmış. Gejələr gedib, səhər gələrmiş əvə. Arvadı bınnan şübhələnir, güdür. Görür, kişi durdu, çıxdı bayıra, getdi girdi kərmə qalağına. Sora ordan bir qurd çıxdı, qaşdı getdi çölə. Arvad səhərə kimi gözdüyür. Görür, səhər üzü qurd genə qayıtdı girdi kərmə qalağına. Görür ki, Zal kərmə qalağınnan çıxdı əvə. Adam okqədər qurtdarnan hərrənir ki, dişdəri də dönüb olur qurd dişi. Ta soralar əvə də qayıtmır, qalır qurtdarın içində. Yağın ki, soralar tələf olur gedir.

**10**

Mənim böyüh qardaşım İslam danışırdı ki, mən uşağıydım, bostan qoruxçusuydum. Asdan addı bir adam varıydı, zərbədəs adamıydı. O uşax yeyirdi, gecə uşax aparırdı. Bilən yoxuydu ki, uşaxları kim aparır. Bı gəlif kusanda ağzınnan uşax barmağı, bir də boyunbağı düşür. Arvadı görür. Sora arvad barmaxnan boyunbağını götürüf gətirir, qohumlarınnan birinə göstərir, deyir ki, ərim kusdu, ağzınnan bir uşax barmağı, bir də boyunbağı düşdü. Bı xəbər kəndə yayılanda hamı bilir ki, uşaxları aparan Asdanıymış. Boyunbağıın yəəsi tanıyır boyunbağını. Bı məsələ açılannan sora Asdanın qaynatası mal gələn vaxtı onu pusur. Görür, bıdı, Asdan evdən çıxıf gedir şama sarı. Gözdüyür, Asdan qayıtmır. Gəlir gejə qızınnan soruşur ki, Asdan qayıtmıyıf? Qızı deyir ki, yox, axşamnan hara gedifsə, gəlif çıxmıyıf. Gejə hay düşür ki, filankəsin uşağın canavar apardı. Qaynatası günüz tüfəh götürüf As-

danın getdiyi iznən gedir, şəldə bir mağara görür. Mağarıya girir, görür ki, bir canavar mağaranın dibində yatıf. İstiyir vırsın, ancax vırmır. Deyir, bir səs eliyim, duranda vırram. Səs eliyir, görür, canavar qalxmadı. Tüfəngin burnuynan belə eliyir, görür ki, bı canavar dəyil, canavarın dərisidi. Dərini yandırır, Asdan da cahıl-cuhulların içindəymiş. Qaynatasını söyür, yıxılıp özünnən gedir. Ayılanda danışır, deyir, ta eləmərəm. Onnan sora ta uşax yemir.

**11**

Axşam vaxtı bir qadın – bizdə namaz vaxtı deyəllər, – suya gedəndə bir canavar özünün örtüyünü atır həmin qadının üstünə. Bı qadın da olur qurd, həə, qarışır qurddara. Onnara qarışsa da, onnarnan ayaqlaşmır, insandı da, onnar ava gedəndə yırtıb dağıda bilmir. Yavaş-yavaş örgənir. Guya o vaxt onnar bir heyvan yeyiblər. Guya qismət yetirif onnara. Guya başdarında alov olurdu, yanırdı. Deyir ki, elə vaxt olub ki, məsələn, ən uzax yerdə, Qaradüzdə onnar qismət yeyirmişdər. Axır bu qadın ələ keçir. Örtüyünü yırtıllar, dönür təzdən qadın olur. Dişləri-zad uzanıpmış. Adı Zalxaymış, ona "Qurd Zalxa" deyiblər.

## 12-13. ŞEYTAN

Deyillər ki, Allahtala vahimədən, nə bilim, filan-bəsmənnən uzağ olmaxçün çəkilif qəlbiyə çıxanda şeytan əl atıf tutuf ətəyinnən. Deyif:

– Mən yaranannan saa qulluğ eliyirəm. Neyçün maa bir şey tapşırmırsan?

Deyif ki, axı sənə nə tapşırım, nə verim? Deyif ki, mən sənnən bir şey xayiş eliyirəm. Deyif:

– Nədi?

Deyir:

– İnsannarın qəlbini.

Deyif:

– İnsannarın qəlbini də saa verirəm, Allahın nəhlətini də.

Şeytanı da Allah yaradıf ey, amma Allah ona axırda heylə bir cəza verif. Şeytan insanın qəlbinə girəndə nə istəsə eliyə bilər. Deyif ki, insanın qəlbini də verirəm saa, Allahın nəhlətini də. Şeytan insanın qəlbinə girəndə desə ki, Allah saa nəhlət eləsin, o saatı hər şey soyuyar, çıxar gedər. O adamın əlinnən xəta çıxmaz.

**13**

Bir gün bir kişi yola düşüb səfərə gedirmiş. Görür ki, bir dənə qaratikanın başında bir şeytan elə ağlıyır, elə çığırır ki, qaratikanın başında qalıb göydən asılı. Deyir:

– A şeytan, niyə ağlıyırsan?

Deyir:

– Atam-anam məni gəzir, hər kəs məni burdan yendirsə, atam-anam onu dünya malıynan qani eliyəcək.

Dünya malı şirin olur. Bu kişi gedir bu şeytanı qaratikanın başınnan bir zulumnan yendirir. Yendirəndə şeytan buna deyir ki, mən səə dünya malı dedim, amma sən dünya malına axınmaginən*. Mən səə nə desəm ona qulax verginən, gör nə deyirəm. Mənim atam-anam məni görəndə çox sevinəcək. Sənə dünyanı, xəzinəni baxşış verəcək. Sən onu götürməginən.

Kişi deyir:

– Vaxtaş ki heylədi, bəs mən onda neyniyim?

Şeytan deyir:

– Atama deginən ki, dünyanın malı, o xəzinə mənə lazım deyil, sən mənim özümkünə dəyməginən.

Deyir:

– Yaxşı.

Bular gedir, evə yaxınnaşanda bu şeytanın ata-anası durullar ayağa, deyillər:

– Ay Allah, sənə min şükür, balamız sağdı.

Bunun ata-anası deyir:

– Ay kişi, gəl sənə xəzinə, baxşış verək.

---

* axınmaginən – meyl etmə

Kişi deyir:

– Sənin dünya malın mənə lazım deyil. Oları qoy dursun, mənim öz xəzinəmə dəyməginən.

Şeytan deyir:

– A kişi, sən nə gözü-könlü tox adamsan. Bəs axı sən mənim balamı qaratikanın başınnan xilas etmisən. Bəs mən sənin qulluğunda neyniyim?

Kişi deyir ki, bu dünyanın hamısı sənindi. Alan da sənsən, verən də sənsən, tikən də sənsən, sökən də sənsən, paydan çıxan da sənsən. Vaxtaş ki belədi, məə sənin heş nəyin lazım deyil. Təki sən mənim balama dəyməginən. Mənim balam mənə, sənin balan sənə qismət olsun.

Ona görə belə bir misal var atalar arasında: Şeytan bala paylıyır. Atalar deyir: "Balası lazım deyil, bizim balamıza dəyməsin".

## 14-18. OVÇU İNANCLARI

Bizdə Seyid Qurban vardı, yüzüncü ovu o görüb. Bizə deyirdilər ki, yüzüncü ovu vurmuyun. Yüzüncü ova güllə atanda ovçunun gözünə ovun bazu sümüyü görükür. Əgər ona güllə atarsa, onun mütləq ölüsü çıxacaq evdən.

Seyid Qurban çox güjdü güllə atan idi. Sürgəlbərə deyirdilər; beş nəfər gedib bərənin ağzında dururdu, üç nəfər də bu tərəfdən səs eliyirdi, heyvanları bərəyə doğru qovurdu. Seyid Qurban bərədə durmuşmuş. Görür ki, əlik gəlir. Götürür ki, güllə atsın, tüfəngi yendirir. Yoldaşı deyir ki, seyid, niyə atmadın? Deyir, mənim gözümə bazu sümüyü görükdü, daha mən güllə atmıyacam. Qayıdır gəlir. Onnan soora uzun müddət güllə atmayıb.

Bir gün bizim kəndin qabağında – güney qanadında canavar toxuyub heyvana*. Seyid Qurban beşaçılanı götürüb atır, canavar çıxıb gedir. Elə bilir ki, bunun atdığı güllə canavara dəymiyib. Özünə sığışdırmır, tüfəngi çevirib öz çənəsinnən atır. Həmin ca-

* Canavar heyvanın içinə girib.

navar da bir az irəli getmiş yıxılır. Gedib görüllər ki, güllə canavarın sinəsinnən girib kürəyindən çıxıb.

**15**

Anamın babası Allahqulu məşhur ovçuymuş. Qoca arvadlardan bir nəfər, mən bilən Tamam arvatdı, yatır, yuxuda görür ki, bir qızdı, bir arvad. Maral öküzünün boynuna kəndir bağlıyıflar, kəndirin bir ucundan tutuf gəzdirillər. Bulara deyif ki, niyə belə eliyirsiz? Bu ov heyvanıdı, buraxın, getsin otdasın. Deyiflər ki, Allahqulunun balaları qırılsın, qoymur axı. Maralların hamısını qırıf, bunu da qoruyurux ki, bəlkə vurmuya. Tamam arvad səhər duruf öz yuxusunu danışır. Həmişə də deyirdi ki, maralları otaran arvadın qarğışı keçif, ona görə Allahqulunun balaları hamısı laldı.

**16**

Bizim kəndimizin bir ağır seyidi varmış. Bir gün olur bının av meylinə düşür. Deyir bir çıxım ava. Bir dənə də oğlan düşür bının dalınca. Deyir:

– Seyid, mən də sənnən gedim.

Deyir:

– Yox, ola bilməz, sən gəlməginən.

Gedir çıxır bir təpənin başına. Nə çarə eliyir, bı oğlan qayıtmır. Deyir ki, sən məni qaytarırsan, mən də qayıtmıyacam. Mən də sənnən gedəcəm. Deyir ki, yox, mən tək getməliyəm. Bu belə deyəndə, bı oğlan bir az daldalanır, yolunu dəyişir, başqa yolnan gedir.

Qurban olum, bı seyid çıxır bir təpədə durur. Bı təpədə durannan sora görür ki, bir dənə qəşəh, yekə bir əlih gəldi durdu bunun qabağında. Tüfəyi sazdıyıb bına tuşduyanda bı əlih çevrilib olur bir gəlin. Möcüzədi də bı, qurban olum Allaha. Bir də isdiyir tüfəyi çəksin düzəltsin, bı olur əlih. Üş dəfə bı tüfəyi nişan alanda bı əlih gah olur bir gəlin, gah olur əlih. Bı oğlan da – bunun dalınca gələn oğlan keçir bunnan irəli. Qurban olum Allaha, qismətdən artıx yemək olmaz. Görür ki, tüfəh səsi gəldi. Bı seyid bı əlihnən o qədər əlləşir ki, bı gah gəlin olur, gah əlih, tay bezir. Tüfəh səsi eşidəndə gedir səs gələn tərəfə. Deyir:

– Gedim görüm bı nə səs idi.

Gedir görür haman bının dalınca gələn oğlandı. Bir dənə qəşəh əlih vırıb, soyur. Deyir:

– Bəs sən hardan gəldin?

Deyir:

– Bəs sən məni qovdun, buyankı yolnan getdim.

Deyir:

– Səhərdənnən mən qalmışam o təpədə. Bir əlih görmüşəm, olub gəlin, olub əlih. Qalmışam əlində. Demə, elə qismət səninki imiş. Mən niyə belə elədim? Mən səyf elədim sənə dedim ki, gəlmə. Elə qismət sənin imiş. Sən ki şikarı vurdun, gedək bını bölək.

**17**

Vallah, bizdə afçılar "ombadurma" deyərdilər. Ovçu bir silahnan yüz ov vırsa, onun qavağında maral omba durar. Bizim tərəflərdə bir kişi ov vıranda görüf ki, tüfəngi qaldıranda bir zənən – qız xeylağıdı, silahı salanda olur ov, silahı qaldıranda olur zənən xeylağı. Üç dəfə bı minvalla eliyir, baxır ki, yox, bırda bir sirr var. Kişi gətirir silahın basdırır. Onnan indiyənə qədər deyillər ki, hər kimin qavağında ov omba dursa, silahın basdırmasa, silahın qəzəbinə gələr.

> Ovçu ovun atmasın,
> Ətin tərəziyə qoyub satmasın,
> Ovçu sənin isbin-kisbin partlasın,
> Bı dağda bir maral yaman ağladı.

**18**

Hansı avı yüzə kimi vırsan, gərəh ta o avı vırmıyasan. Vırmax istiyəndə dönüb olur məlaykə, göyərçin. Bizim kəntdə iki adam avın qanununu pozduxlarına görə cəzalanıflar. Balakişini ilan vırıf, biriin də gözü kor oluf, əyağı topal. Ona görə ki, avda əlih gözünə maleykə kimi, qız kimi görünür, bı baxmır, vırır, vırdığına görə də elə olur.

## 19-25. QARAÇUXA

Qarağaşdıda bir Məmmədrəhim vardı, Nəsib adında bir oğlu vardı, ermənilər öldürdülər. Bı indiki Nəsibin adını onnan götürüblər. O Nəsib ölənnən sora adın qoydular bına. Bir dəfə Nəsib qoyunnarı yığıb aparırmış, görür qabaxda da bir qara çuxalı adam gedir. Ha çağırır, bı cavab vermir. Gəlib evdə dədəsi Məmmədrəhimə deyir. Məmmədrəhim deyir:

– Bala, adam onu çağırmaz, söyməz, o bizim qaraçuxamızdı dana, ayax üstədi.

Elə odu-budu Nəsibin qaraçuxası ayax üstədi, neynəsə, elə deyillər, yaxşı adamdı.

**20**

Atam danışırdı ki, bir səhərisi malı verdim yaylıma. Malın içində gördüm bir adam, mənnən də layıxlı, malı alaqarannıxda çox dağılmağa qoymur. Mat-məəttəl durub mən də baxırdım. Baxdım, baxdım, gördüm, heş nə yoxdu. Nənəmə dedim, dedi, bala, o bizim qaraçuxamızdı. Saa kömək eliyirmiş ki, alaqarannıxda mal dağılmasın.

**21**

Qış vaxtıydı, getmişdim çaydan su gətirməyə. Suyu doldurub başımı qaldırdım, gördüm buzun üstündə bir qara paltarrı adam var. Adam deyəndə ki, qara paltarrı bir adamaoxşar şeyiydi. Qorxdum, başım gijəllənər. Evə gəldim, nənəm dedi ki, bala, o sənin qaraçuxandı, qoymuyub suya yıxılasan.

**22**

Bir bızavımız varıdı, gecə açılıf gedirdi, duruf gedirdih, axtarırdıx, tapammırdıx. Sora gəlif görürdüh ki, mıxa bağlıdı. Atam deyirdi ki, bala, bızavı bizim qaraçuxamız bağlıyıf.

Heyvanı ötürürdü örüşə, bizim heyvan itmirdi. Qırxdan çox atımız varıdı, Salvartıda qoyuf gəlirdih, Sisyanın başınnan. Ərəfsədə qarrıyanda atdar tökülüf gəlirdi örüşə. Deyirdilər ki, Alxan kişinin qaraçuxası var, onun heyvannarına heç zad olmur.

**23**

Bir uşax gəlif atasına deyir ki, ay dədə, çöldən heyvanı gətirirdim evə. Gördüm, dalımca bir adam gəlir. Mən qoyunun qabağını yığanda gördüm, o adam qoyunun dalını yığır. Uşax danışır ki, dədə, mən qorxdum, dedim, görən bı kimdi. Dədəsi deyir:

– Bala, o bizim qaraçuxadı, sənə köməy eliyib, bını heş kəsə danışma. Bını danışmazdar.

**24**

Qonşu Bayramuşağı kəndində (indi o kənd yoxdu) bir kişi varmış – Alı kişi. Onun çarığında buğda bitərmiş. O qəddər əkin-biçinnən məşğuluymuş ki, çarığını, corabını çıxartmağa macal tapmazmış. Bir gün bir nəfər görür ki, Alı kişinin atı qayanın başında doğdu. Qulunu az qaldı qayadan düşə. Görür ki, Alı kişi peyda oldu, qoymadı qulun qayadan düşə. Kişi qayıdıf gəlir kəndə. Görür ki, Alı kişi kənddədi. Qalır məətdəl. Deyir ki, Alı əmi, axı mən səni qəyənin başında gördüm, qulun qayadan düşürdü, sən qoymadın düşə. Alı kişi deyir, a bala, o mənim qaraçuxamdı. O qulunu sənə bağışdıyıram. Odu ki, deyillər ki, Alı kişinin qaraçuxası dikdi, yəni baxtı yaxşıdı.

**25**

Biz tərəflərdə yay evi olurdu, qamışdan hörürdülər, qıraxların da qara palçıxnan suvuyurdular. Ora sərin olurdu deyə gecə yayda hamı orda yatırdı, günüzü orda keçirirdilər. Evin içinə o qədər də girmirdilər, bir də payızda, havalar sərinniyəndə evin içinə girərdilər. Anam rəhmətdik deyirdi, gecə orda yatmışıx. Atan da axşamdan siqareti çəkər, yaxşı söndürməz. Siqaretin kötüyündən yorqan alışar. Bir də gördüm evin divarı yarıldı, bir kişi çıxdı. Dedi ki, Əntiqə, dur ayağa, uşaqlar yandı. Durdum gördüm yorqanlar alışıb. Yorqanı götürüb atdım çölə. Baxdım ki, kişi getdi həmin divarın yarığına girdi, divar bağlandı. Anam deyirdi, bizim evdə sonralar nə mundarçılıx olubsa, o kişini daha görmədim.

## 26-35. HAL ANASI

Babam keçənin üsdünü qırlıyıf, sarıyıf atın belinə. Hal atı minəndə onu tutuf. Özü də qadınmış. Dağdan gəlif arana, aranda qalıf. Bir də dübarə dağa gedəndə Qannı göl deyirih biz – rəhmətdih dədəm söhbət eliyirdi, mən də onda bozbala* gədəyəm, – orda nənəm xəmir yoğururmuş, su çatmır. Hal gəldi nənəmə dedi ki, gedif göldən su gətirim. Su gətirməyə gedəndə, dədəmin Şirin addı əmisi oluf, buna deyif ki, bu iynəni burdan çıxart, barmağıma tikan batıf, onu çıxardım. İynə çıxannan sora özünü atıf suya. Nəkqədər o xəmiri yoğurdular, xəmir qutarmadı. Axırı, deyir, nənəm getdi gölün qırağına. Adını da Firəngiz qoymuşdular. Dedi:

– Firəngiz, biz nağayrax xəmir qutarsın, xəmir qutarmır axı?

Sudan səs gəlir ki, get onnan bir kündə gətir, at bu suya. Bir kündə gətirif atıflar, onnan sora xəmirin dalı kəsilif. Gülgəz nənəmə deyif ki, mən sizə başqa qarğış eləmirəm. Yeddi nəsil evizdən zibil kəm olmasın. Biz hələ dördüncüyük. Onnandı ki, zibilimiz əysik olmur. Lap evdə heş kim olmasın, gedif görürdüh ki, genə ev zibillidi.

**27**

Şofer Valehnən rayonnan gəlirdih. Daş Veysəllidə kəhrizdər vardı. O kəhrizin üsdündə ikisi oturmuşdu. Valehə dedim ki, əyə, saxla, gedif onnarı tutax. Maşını saxlamaxnan özdərini buraxdılar suya. Getdih ki, su ləpələnirdi.

Hal nənəsi iri şeydi, canlı arvad kimi. Dodax qəlin, alt dodağı sallanır. Barmaxdan yoğundu dodağı. Tükü-başı hamısı pırpız. Sol döşünü sağ çiyninə atmışdı, sağ döşünü sol çiyninə. Hardasa döşünün uzunnuğu bu boyda idi (qurşağa qədər – top.). Mən onu gördüm. Çılpax idilər.

**28**

Mənim böyüh bajım danışırdı ki, hal dayımın yoldaşının üsdünə gəlif. Onun da uşağı olajaxmış, hamiləymiş. Deyillər, o

---

* bozbala – 12-13 yaşında uşaq

vaxtı hal hamilə qadınnarın üsdünə gəlirmiş. Babamın adı Süleyman oluf. Səs eşidif. O vaxt da camaat miçətkənin içində yatırmış axı. Babam o vaxt halı tutmuşdu. Halı saxlıyırdı, işdədirmişdər. Sora onun orda uşağı oluf. Deyif:

– Gedirəm bulağa su gətirməyə, əliizi vurmuyun, uşağın üzünü aşmax olmaz.

Babam dayımgilə-zada tapşırıf ki, əl vurmuyun. Dayımgil də uşax imişdər də, olara da maraxlı oluf da, görələr uşax necədi. Deyir, gərəh qırx gün üzünü aşmıyasan. Dayımgil üzünü açıf, uşax ölüfdü. Anasına ayan oluf, qaçıf gəlif evə. Deyif ki, Süleyman kişi, maa halallıx ver, mən gedim. Məəm uşağım öldü, burda mən qala bilmərəm. Babam halallıx verif. Deyif ki, ancax söz ver ki, yeddi arxadönənaa dəyif dolaşmıyajam.

Deyif:

– Gedirəm, yeddi arxadönənaa dəyif dolaşmıyajam. Amma səni görüm yeddi arxadönəninin küncünnən-bucağınnan zibil əysih olmasın.

Həqqi də, tezdənnən mən əyax üsdəyəm. Ha yığıf-yığışdırıram xeyri yoxdu, tör-töküntü olur.

## 29

Mənim dədəmin doğmaca dayısı özü tutub. Bının yaxşı minih atdarı olub. Səhərrər durub, gedib görür ki, atdar qan-tər içində. Atın biriin belinə qır yaxıllar. Səhər gəlib görür ki, atın belinə həm adama, həm də meymuna oxşar bir nəfər yapışıb qalıb. Tez yaxasına iynə sancıllar, gətirillər əvə. Kişi bütün damar-dəyəninə tapşırır ki, halın yaxasınnan nəbadə iynəni çəkəsiz. Halı bircə suya buraxmırmışdar. Əvdə qalan işdərin hamısını bına elətdirirmişdər. Bir xüsusiyyəti varımış ki, hər işi tərsinə eliyərmiş. Bını o ki var işdədənnən sora kişi bına tobalatma verir, sora deyir:

– Mən gedənnən sora bının iynəsin çəkərsiz, qoy çıxsın getsin, tobalatma vermişəm.

İynəni çəkillər, hal yox olur. Onnan sora bizim nəslin, yeddi arxa dönənimizin gözünə hələ hal görükmüyüb.

**30**

Bizim kəntdə bir Salman kişi vardı. Bir gün çaylaxdakı yonjalıxda ot piçirdi. Qağamnan getmişdih yanına. Böyüh bir qarağaj vardı, kölgəsinə min qoyun yerrəşərdi. Salman kişi gəldi, otdu kölgədə. Qağam dedi ki, Salman dayı, bir keşmişdən söhbət elə, qulağ asax. O halı nətər tutmuşdun onnan danış. Salman kişi dedi ki, Məhəmməd, bir gün axşam çöldən gec gəldim evə. Yorğun-arğınıydım. Sona su qoydu, suya düşdüm. Sora dedi ki, ay Salman, səhər qaymax yeyə bilmeyessən, camışdar gəlmədi. Naəllaş qalıf durdum əyağa. Yoxuşnan yenirdim, bir də gördüm ağ paltarrı yekə bir arvad dalında sənəh arxdan üzüyuxarı çıxır. Birdən ağlıma gəldi ki, bə hal olajeh. Hal da kı pak adamın gözünə görsənər. Mən də suya düşmüşdüm axı. Bir də gördüm, çatır maa. Üstümdə sancax da vardı, iynə də. Ancax karıxdım, əlimdə pıçax vardı, gecə vaxtıydı dana. Tutdum bı arvadın qolunnan pıçağı soxdum paltarın qoluna. Pıçağı soxan kimi başdadı yalvarmağa, dedi ki, burax gedim, Cır zoğallıda iki uşağımı qoyuf gəlmişəm. Buraxmadım. Dedi ki, səni and verirəm yeddi arxa dönənəə, burax gedim, gəlmişəm su aparmağa, uşaxlarım gözdüyür, ərim də taxıl döyür. Nə illah elədi, buraxmadım. Evə çatan kimi qara aftafanı qoydu ojağın üstünə, süpürgəən götdi, evi süpürdü. Üç il saxladım, ancax xəlvətə düşəndə nə illah elədim, maa əl vermədi. Hər gün gedirdi Çobantaxtdan, Qala dərəsinnən, ən çox da Qorxuşdan təzəh yığıf gətirirdi, evi silif-süpürürdü, çörəh salırdı. Xamırı qutarmax bilmirdi. Mındarrıyırdı, sora qutarırdı. Kəntdə toyda heş kim onun kimi oynuyamazdı. Kəntdə çox adam görüf onun oynamağını, hər axşam yalvarırdı ki, burax gedim. Axırda mən bilməmişəm, kimsə açıb sancağı, iynəni çıxardıf, o da çıxıf gedif.

Kəntdə danışıllar ki, o vaxt hal Salman kişini qarğıyıf. Deyif ki, sən ki mənim balalarımı yəəsiz qoydun, səən xeyir tappıyassan, yurdun kor qalsın. Elə də oluf. Salman kişi öləndə yurdunda heş kim qalmadı. Baldızı oğlu Abbasov Məhəmməd mülkünə yəə çıxdı.

**31**

Bizim kəndə Minkənddən bir arvad gəlmişdi, bir oğlu da vardı, adı da Poladıydı. Danışırdı ki, bəs qara damda olurdux. Ərim harasa getmişdi, dörd qaynım vardı, hərəsi bir sürüyə gedirdi. Axşamıydı. Mən də ağır ayağıydım, utandım çığırmağa. Uşax oldu, yudum, bələdim. Bı vaxdı bacadan bir səs gəldi: "Sərəndaz, Sərəndaz, gəlim?" Baxdım ki, bajadan baxan bir arvaddı, hama heş kimə oxşaddammadım. Qapını azca araladım, qaynımın birin çağırdım, gəldi. Dedi:

– Ustəə daş yağmasın, bə niyə demiyibsən arvad-uşaxdan çağırax?

Hal-nağılı bına dedim:

– Qağa, bir arvad bacadan baxır, bir boyunbağısı da var, sallanır, az qalır yerə dəysin. Deyir, Sərəndaz, Sərəndaz, təhsən, gəlim? Mən də qorxudan dinmirəm. Sora da çəkilir.

Qaynım dedi ki, mən gizdənəcəm, genə gəleceh. Deyərsən, gə, denən qapıdan gə. Qaynım çölə çıxan kimi həmən arvad genə bacadan dedi: "Sərəndaz, Sərəndaz, gəlim?"

Dedim.

– Gə.

Dedi:

– Hardan gəlim, bacadan, yoxsa qapıdan?

Dedim:

– Qapıdan gə.

Bı qapıdan gələndə, qaynım iynəni taxır bının yaxasına. Üç ay saxladılar, işdətdilər. Qonum-qonşuya tapşırmışdılar ki, iynəsin heş kim çəhməsin, çəhsələr, yox olaceh. Bı Polad onda bir xırda uşağıydı, hal bını aldadır, bı da iynəni çəkir. Onnan da yox oldu, getdi.

**32**

Bizim kəntdə Əhmədin babası Əli kişi bir gün Qarannıx dərədə yay vaxtı görüf kü, bir zənən xeylağı var. Uzun döşdəri var, çılpaxdı. Gözəl kadındı, ancax döşdəri yekədi, bir də ayaxları ye-

kədi, dabanı da tərsinədi. Əli kişi çox təmiz adammış. Hal da ancax təmiz adamların gözunə görükər. İndiki adamların hamısı mındardı. Əli kişi bı kadını götürüf gəlir evə, bına zənən paltarı geyindirir. Bı kadın qalır bı evdə.

Bir gün Kablayı Səkinə, hələ onda uşağıymış, gəlir Əligilə. Hal çörəh salırmış. Hal bına deyir, bala, bə iynəni çək. Uşax iynəni çəkir. Hal yox olur. Xamır eləjə qalır. Ev adamnarı bı xamırı ha kündəliyir, qurtarmır. Əli kişi duruf genə gedir Qarannıx dəriyə, bilir ki, halı görə biləceh. Həqqətən, hal görükür bının gözünə. Əli kişi deyir ki, ay bacı, bəs xamırı ha kündəliyirih, bıdı, neçə gündü qurtarmax bilmir. Bəs neyniyax? Hal deyir, əmi, get denən o xamırın kündəsinin dalınnan kəssinnər, onda azalaceh. Elə də eliyillər.

Bala, hal mındar adamnarın duşmanıdı, gözdərinə görühməz.

**33**

Kalva Səkinə nənəm bir cüt oğlan doğur, göbəyini kəsir, bağlıyır. Hal bajadan düşür. İstiyir Kalva Səkinə nənəmin ciyərini çıxartsın. Kalva Səkinə nənəm iynənin sap keçən yerini qırıb, iynəni taxır halın üstünə. Sap keçən yer qırılmıyanda, hal o deşiyə çöp salıf, iynəni üstünnən çıxardır.

Halın Narrı dərədə iki uşağı varmış. Gedip onnarı əmizdirip qayıdırmış. Bir gün Kalva Səkinə nənəmin qardaşı çöldən qara süpürgə qırıp gətirir. Hal qara süpürgəni görəndə başdıyır ağlamağa ki, balalarım öldü. Çünki qara süpürgədə tilsim var, hal onun üstünə çıxanda uşaxları ölür.

Hal Kalva Səkinə nənəmgilə kündə salırmış. Salmaxnan qurtarmırmış. Soruşurmuşdar ki, niyə qurtarmır? Deyirmiş ki, onda gərəh kündənin birini itə atam, ya da gərək teştin altına vuram. Elə eliyəndə, doğrudan da, kündə qurtarırmış.

Hal yalvarır ki, uşaxlarım öldü, məni buraxın gedim. Dabanın dağlıyıp onu buraxıllar. Hal and içir ki, yeddi arxa dönənizə qədər sizə yaxın düşmüyəcəm.

Hal deyir:

– Mənnən hər şeyi soruşduuz, amma uşaxların, cavannarın ölümünün çarasını soruşmadıız.

**34**

Deyilənlərə görə, hal zahı qadının üstünə gəlirmiş, bunun ciyərin çıxardıf aparırmış. O vaxdı bunu hal aparanda kişilər gedərmiş, harda su varsa – ciyarı suya çəkərmiş guya, sora aparıf yeermiş, – onu güllələyərmişlər, onda kadın özünə gələrmiş.

Bir dəfə, deyilənlərə görə, bir kadın heylə hal gələndə iynəni götürər sancar halın üstünə. Guya bunu saxlıyırlar, qul kimi işdədirlər. Rəvayətə görə ey, özüm görməmişəm. Bir gün bu ağlıyar, özünü öldürər ki, məni boşduyun da, gedim. Çox da qoçax, işdəh adam olub guya. Biri də diif ki, bizdən nə isdirsən, səni boşduyax. Ağsakqallar, qarasakqallar boşdamax isdəmirdi. Həmən gəlin boşduyuf. Gəlin fikirləşir, fikirləşir, diif, buna nə verim? Diif ki, qapımın ziblin saa verirəm. İynələri bunun üstündən çəkif, bu yoxa çıxıf. Hər səhər dururmuşdar ki, qapıları gül kimidi.

Diirlər, halın guya yekə döşləri olurmuş, çox da yekə adam olurmuş. Döşlərin birin belə atarmış (çiynini göstərir – top.), birin də belə atarmış.

Zahıya yaxın düşməməsi üçün yanına iynə, sancax, baş altına qılınc qoyarmışdar, su qoyarmışdar, suyun içinə nə tökürlər onu bilmirəm. Qapın ağzında əli tüfəngli, əli qılınclı adamlar durarmış, qapını qılınclayarmış.

**35**

Mənim nənə babamdı Hajı Niyazqulu, getmişmişdər dağa. Dağda bının bir atı varmış. Hər gün suyun içində gəlirmiş. – "Əə, bı nolajax?" Gedir xeylağ ağ alıf gətirir, qırsakqız alır, atın belinə doluyur. Axşam tərəfi görür ki, atın üsdündə, bıdı, bir qadın gəlir. Haldı, əmcəhli arvatdı. Tez deyir ki, iynəni gətir bıra. İynəni gətirillər bına. Taxır mının yaxasına. Bını bir ilə qədər saxlıyır. Haçan ki, deyəndə "get, tez gəl" gej gəlirmiş, "get, gej gəl" deyəndə tez gəlirmiş. Uşaxlara-zada yalvarırmış ki, bı iynəni çəkin, alın. Bı da tapşırıfmış heş kəs dəyməsin.

Vaxt gəlir bını buraxır. İynəni çəkir, deyir:
– Bala, get daa.
Daa and içir ki, yeddi arxadönənizəcən sizin nəslıza dəymiyəjəm. Yəni bizim nəslimiz sizin nəslıza dəymiyəjək. Gedir.
Gejə qoyun sürüsü – o vaxtlar Mərcannı qoyunnan məşğuluydu daa, – qapıdan gedir. Nəkqədər axtarıllar, heç harda tapbıllar. Gejənin bir vaxdı həmən kadın gəlir, çağırır:
– Baba, baba.
Deyir:
– Can bala, nə deyirsən?
Deyir:
– Baba, qoyun filan yerdədi. Qoyunu otarajayıx, arxayın səhərdənnən gəlif filan yerdən qoyunu götürüf gətirərsən, arxayın ol.
Eləmillər tənbəllik, səhərdənnən gedillər. Gedəndə indi aralıdan bı hal bılları görür, amma bılar görmür. Daa görühmür. Deyir:
– Baba, gəldin?
Deyir:
– Hə.
Deyir:
– Onda malaa yəə dur. Qoyunu qoyur bılların yanında, çıxır, gedir.
Bax, o da həylə olur.

## 36-37. CİN YIĞNAĞI

Yavər bibinin yoldaşı İbrahim də seyidiydi, Mirabdullanın oğluydu. Göyərəbasda iki dəyirman olup: biri aşağı dəyirman, biri yuxarı. Mirabdulla gəlip Mürşüdün dəyirmanına. Nööbəsi gəlip, taxıl yühlüyürmüş gecə. Axşamnan xeyli keçəndə bir də baxıp görüp ki, bıdırana, nağareynən, zurneynən gəlillər: – “Ay nöyüt alan, ay nöyüt alan!” Tökülüllər dəyirmanın qabağına. Bı kişi də əgər durup qol götürüp oyneseydi, onda taleyi pozulurdu. Kişi isdiyir dura qol çala oynuya – aqam* söypət eliyirdi e, rəh-

* aqam – ağam

mətdih. – Baxır görür ki, bı qarmaqarışıxlıx bı dediyinnən deyil. Deməh bırdan atı minip Göyərəbasa qışqıra-qışqıra, ağlıya-ağlıya gəlmişdi. Rəhmətdih aqam orda srazı başa düşüp ki, bınnar cinnərdi. Ora elə bir yerdi ki, hesab elə cin yığıncağına bənzər bir yerdi e. Kahalardı, qayaların arasındadı. Kişi ordan qaşmışdı. Bir də camahat tökülüp gedip, görüplər ki, ə, nə toy çalan, nə oynuyan, heş bir şey yoxdu.

**37**

Bizim ulu babamızın adı Ataymış, sora ona Cindil Ata dedilər. Ata İşıxlıdan bir qıznan nişannıymış. Hər gecə gedərmiş, Şıx qəbirsannığınnan keçib nişannısıynan görüşürmüş. Bir dəfə gedəndə qəbirsannıxda qulağına səs gəlirmiş, sora öz kəntdərinin arvaddarının sir-sifətində adamlar bının qabağında oynuyurmuşdar. Bı əhvalat həm gedəndə, həm də qayıdanda olurmuş. Həmməşə də Ata atın üstündə olarmış. Ata bınnara fikir verməzmiş, atı kənardan sürüb keçərmiş. Bir dəfə də keçib gedənnən sora gələjək qaynənəsi deyir ki, sir-sifətin niyə bu gündədi? Əvvəl, Atıya çıxardıb bir iynə verər, deyər ki, bı dəfə də qabağaa çıxsalar, saa nə desələr, əməl elə, fürsət tap, iynəni keçir biriin paltarına. Ata da gələr, həmən yerdə gənə yığıncax düşər. Toy-qavaldan sora bının qabağına bir qab yeməh qoyallar. Fürsət tapıb iynəni taxar birinin paltarına, cinnər çığrışıb qaçallar, iynə taxılan qalar. Sora qabağındakı yeməyə baxır, görür ki, bı yeməh at təsidi. Sora iynətaxılanı götürüb gələr evə.

Bir müddət bını evdə saxlıyıllar. Bütün işdərəköməh eliyirmiş. Çörəh salanda qurtarmırmış, bir tikəsin itə atarmış, sora qurtararmış. Atanın bir bayısı olur də evdə. Ata evdən gedənnən sora cin Atanın bayısın qara dam deyilən damın bajasınnan asırmış. Nəyə asırmışsa, bilinmirmiş ki, nədən asılıb. Ancax özü bilirmiş. Deyirmiş ki, di get, Ata, sən maa əziyyət veersən, mən də səən bajaa. Ata evə gələndə tez açarmış. Ataan tapşırığına görə kəntdə heş kim cinin iynəsini çəhmirmiş. Cin nəqqədər yalvarırmışsa, heş kim aşmırmış. Ata axırda bilir ki, cin onun bayısına əziyyət

verir. Bilmir neynəsin. Dünyagörmüş adamlar ona məslahat verillər ki, cinnər çox etiqatlıdırlar, and içdir ki, sizin nəslə toxunmecehlər, burax getsin. Ata da ona and verir, buraxır. Onnan sora deyillər ki, Atanın nəslində kimsə özünnən getsin, kiminsə gözünə cin görüksün, olmuyuf. Bınnan sora Atıya Cindil Ata deyiflər.

Bı əhvalatı maa doxsan yaşında nənəm söylüyüf.

## 38. CİN DƏYİŞƏYİ

Görürsən birinin uşağı var. Deyillər uşağı yiyəsiz qoyma, cin dəyişər. Mən, genə bağışdayın, üzr isdiyirəm, bu uşax olannan sora durdum, anam tək idi da, özüm nağarırdımsa, qayıtdım gəldim girdim içəri. Dedim:

– Ay nənə, bu qız niyə belədi?

Dedi:

– Nədi ki?

Gəldih baxdıx, gördüh ki, uşax həmən uşax dəyil. Bax, and olsun Allahın adına, ölənnərimizin goru hakqı, burun varıdı noxutdan balaca, gözdər varıdı adicə sərçə gözü, ağız pis, sifət pis. Nə qədər eliyirdim, uşağa səmt dura bilmirdim. Bir ay o uşağ heylə oldu.

Bir aydan sora zapravşik Məhəmməd nəvəsinə sünnət edirdi. Nənəm dedi ki, bala, Suqragil gələjəh ora. Nənəm getdi dedi ki, ay Suqra, bəs belə-belə da, Məhəmmədin qızı belə oluf.

Deyif:

– Yiyəsiz qoymusunuzmu?

Deyif:

– Hə.

Deyif:

– Cin dəyişif. Yaxşı olajax. Bir havrdan* olajax həmən uşax.

Ağlıyırdı, yasdığı qoyurdum ağzının üsdə ki, gəlim görüm ölüf. Görürdüm yox, ölmüyüf. İki saatda dörd putulka südü əmirdi, genə səsini kəsmirdi. Axşam çağı idi. Gördüm ağlıyır. Nənəm deyir:

---

* bir havrdan – bir müddətdən

– Bala, Allaha ağır gedər, get genə putulkanı doldur, qoy ağzına.

Getdim, gəldim dedim:

– Nənə, gəl içəri.

Baxdıx ki, uşax elə bil atkritkadı. İndi həmən qızım balalarımın hamısınnan qəşəhdi.

## 39-41. QƏDİM DƏFN ADƏTİ VƏ ÖLÜMÜN YARANMASI

Deyir, bizim peyğəmbər əleyhisalam dünyaya gələnə qədər ölüm olmuyuf. Beş yüz il, min beş yüz il yaşıyarmışdar. Qojalanı aparıf qoyurmuşdar meşələrdə, qurd-quş yeyirmiş. Amma bizim peyğəmbər dünyaya gəlif bı vəziyəti görənnən sora gedif Turi-Sənaya Allahnan kəlmə kəşip, deyip: "Xudavəndi-hədiyyət, mən millətimin belə yaşamağını istəmirəm, ölüm haxdı, yaranan torpağa getməlidi". Onnan sora ömur veriflər bizə, ölüm ömrü: yüz əlli. Hesab elə ki, yüz il də yaşayannar oluf, indi yenif yetmişə, həştada.

### 40

Bir kişinin atası bərk qojalmışdı, oğluna dedi:

– Bala, çılçanı götü, apar dədəmi qoy meşədə, gə. Çılçanı da ver birisinə. Ölmür da.

Çılçanı verir, aparır. Oğlan bıçax götümüşmüş. Kişi görür ki, bı çılçanın da yarısın kəsip gətirip. Deyir:

– A bala, onu niyə kəsdin?

Deyir ki, bırda lazımdı, mən saxlıyajam.

Deyir:

– Nəyə görə?

Deyir:

– Ona görə ki, sən də qojalassan, mən çılçanı hardan tapajem? Səni büküf ona, aparıf qoyajem meşədə.

Kişi barmağın dişdiyir: "Ay hayy, mən neynəmişəm, gör? Bı uşax mənnən nə qədər ağıllıdı".

Gedir ayrıdan atasın alır çiyninə, gətirir qoyur əvinə.

Bınnan əvvəl qojalmax yoxuydu dünya binayət olanda. Mən Kərbala Urüstəm kişini gördüm, Eynəzirdə, bı tərəfdə bir kət var, orda. Yüz əlli yaşı vardı, diş gətimişdi ayrıdan.

**41**

Babam nağıl eliyirdi ki, keşmişdə insannr ölmürmüş. Olüm yoxumuş. O qəddər insannar qojalırmış. Haman qojalmış babanı, atanı, yer varımış, ordan salırmışdar, orda ölürmüş.

Bir dəfə də bir kişinin ölüm vaxtı gəlir. Oğlu şəllənir ki, aparsın genə o təyin olunmuş yerdən salsın öldürsün. Yolda yorulur, qoyur yerə ki, dinjəlsin. Atası gülür. Oğlu baxır, deyir:

– Ata, mən səni, özün bilirsən ki, el adətinə görə ölümə aparıram, sən də gülürsən.

Deyir ki, yox eyy, ay bala, ona görə gülmürəm. Mən də atamı aparanda, bırda qoydum yerə, dinjəldim. O yadıma düşdü. Onuçun gülürəm. Onnan sora, oğlu fikirrəşir, ta aparmır. Deyir, həə, mənim də oğlum məni aparajax qojalanda. Qaytarır gətirir. Onnan sora insannara ölüm həkk olunur ilahi tərəfinnən. Guya ilahi tərəfinnən öldürməyə Əzrayıl təyin edilir. Bala, belə rəvayət eliyirdilər.

## 42. OVÇU VƏ İLAN

Söyləndə (indiki Əzizbəyovda) bir ovçu varmış. Ova çıxır, axşam evə qayıtmır. Aradan üş gün, beş gün keçir, bu ovçu evə gəlmir. Qohum-qardaş, qonum-qonşu düşür dağa-daşa, onu axtarır. Heş bir nişanası tapılmır. On günnən sora belə qərara gəlillər ki, yəqin hardasa başına bir iş gəlib, ölüp. Odu ki, ovçuya yas saxlıyıllar, ehsan verillər. Camaatın, mərəkənin lap gur vaxtı ovçu çiynində tüfəng qayıdıp gəlir. Camaat nə qədər soruşur ki, hardaydın? Bı vaxta qədər harda qalmışdın? Ovçu demir. Camaat dağılannan sora arvadına açıp danışır ki, düşdüm dərin bir quyunun dibinə. Əlimi işıxlı dünyadan üzdüm, dedim, yəqin bir günahın yiyəsiymişəm ki, düşdüm bura, burda qalacem, qurd-quş basıp yeyeceh məni. Bir az keşdi, gördüm quyunun dibində yol var, ordan işıx gəlir, işıx yavaş-yavaş mənə yaxınnaşır. Ya-

xına gəldi, gördüm qorxulu bir ilandı, məni tüfəngli-zaddı udar. İlan yaxınnaşdı mana, başın qoydu yerə, başdadı mana baxmağa. Qarannıx düşdü. Gördüm, ilan quyruğuynan bir mənim budumnan vırır, bir öz yanına yerə vırır. Başa düşdüm ki, məni çağırır yanına. Gəldim yanına. İlanın yanında gecələdim. Səhər oldu. İlan quyudan atıldı, getdi. Bir-iki sahatdan sora gəldi, quyunun başınnan bir dovşan atdı, çör-çöp atdı yanıma. Sora özü də düşdü, gəldi yanıma. İşarə elədi ki, dovşanı pişir çör-çöpnən. Çör-çöpnən od qalıyıp dovşanı pişirdim, verdim ilana, yemədi. Dovşanın ətini işarə elədi ki, ye. Yedim. Yeddi gün bı minvalla keçdi. Yeddinci gün genə səhər durup getdi. Həmişə qayıdanda başı üstə gəlirdi, bı dəfə quyruğu üstə gəldi. İşarə elədi ki, quyruğumnan yapış. Qorxa-qorxa yapışdım quyruğunnan. İlan qaldırdı quyudan çıxartdı məni. Bir əlih vırdım, verdim ona. Quyruğunu qoydu quyunun qırağına, yerə vırdı, başını yellədi. Yəni mənim barəmdə heş kimə demə. Ordan birbaş gəldim evə.

Ovçu bınnarı arvadına danışır. Bərk-bərk tapşırır ki, bı barədə heş kimə bir söz demə.

Aradan bir xeyli vaxt keçir. Bir gün ovçu yaşayan kəndə bir ilan oynadan ovsunçu gəlir. Yekə bir ilanı oynadıb camaata görsədir. Camaat baxıp deyir: "Nə yekə ilandı!". Ovçu özünü saxlaya bilməyip deyir: "Bı nə ilandı ki. Mən bir ilan görmüşəm ki, bu onun yanında yalandı". Ovsunçu ovçudan əl çəhmir ki, de görüm, o ilan hardadı? Yerini göstər, gedim tutum. Ovsunçu nə qədər yalvarırsa, ovçu quyudakı ilanın yerini demir. Çox yalvar-yaxardan sora ovçu əlaşsız qalıp ilanın yerini deyir. Deyir, bəs filan yerdə bir quyu var, ordadı. Ovsunçu deyir ki, apar məni ora, gərəh camaatın gözünün qabağında o ilanı ovsunnuyup tutam, sən də bax. Ovçu ovsunçunu həmən quyunun başına gətirir. Ovsunçu camaatın yanındaca bir duva oxuyur, quyunun başına dairəvi bir cızıx çəkir. İlan quyudan çıxır. Dairəvi cızığın içində qıvrılıp baxır. Camaatın içində ovçunu görür, tüpürür onun üzünə. İlanın tüpürcəyinin yerinnən ovçunun əti əpriyip yerə tökülür.

## 43. İLANLARIN DAVASI

Tatar[*] kəndində Alməmməd kişi varmış, dəyirmançı işdiyirdi. O rəvayət eliyirdi ki, bir gün dəyirmanı işdədirəm. Gecə qapının dalına lomu saldım, bir qədər dən töküb başımı qoyub yatdım. Gecənin bir yarısı gördüm kü, qapı basıldı, lom düşdü. İlanlar gəlib doldular dəyirmana, tirlərin üstünə. Deyir, qorxumdan yerimdən tərpənmədim, amma gözüm baxır. Biri ağ ilan idi, onların başçısı idi. Tri kəndində palaçı[**] vardı, ilanın biri gedir palaçının qapısını buduyur. Palaçı çıxır, görür ki, ilandı. Palaynan onların hamısın Arazdan keçirir, aparır tökür İrana. Tatar kəndində Sofu Vəliqulu kişi olub. Səhər Alməmməd gedir sofunun yanına, başına gələn hadisəni ona danışır. Sofu buna deyir, yaxşı ki, dəbərməmisən. Dəbərseydin sənin bir tikən qalmıyaceydi. Onlar müharibəyə gedirlər. Bir müddətdən soora həmin ilannardan biri Arazı addıyıb suynan gəlir palaçının qapısını buduyur. Palaçı gedib onları çaydan bu üzə keçirir. Görür birinin quyruğu yox, birinin nə bilim nəyi yox.

Həmin Vəliqulu kişinin ocağına ilan gəlirdi. Gedirdin ki, külün ortasında ilan qıvrılıb yatıb. O rəhmətdik deyirdi, “ay ilan, çıx get, biz işimizi görək”, onnan çıxıb gedirdilər. Daha onları öldürmək olmazdı. İlan çalan olanda onun üstünə gətirərdilər, o, yaraya tüpürərdi. O öləndən soora oğlanları içki işdilər, ondan soora o ocağa daha ilan gəlmədi.

## 44. NUHUN TUFANI

Allahtaladan Nuh peyğənbərə sada qəlir ki, ya Nuh, saa bir bala gələjək, sən elə bir şey elə ki, kafırrar saa inansın. Hə, bı da gətirir bir gəmi düzəltdirir, nə bilim, uzunnuğu nə qədər. Deyir ki, saa kim iman gətirir, olları yığarsan gəmiyə, o bəla sizə toxunmıya. İndi bı da gətirir bı gəmini düzəltdirir. Bala, bı kafırrar, bı Al-

[*] Zəngilan rayonunda kənd
[**] palaçı – bərəçi

lah nəhlət eləmişdər gəlir bı gəmini, qırağ olsun, əəx yeri qayırır. Nuh peyğənbər gedir Allahtalaynan kəlmələşir ki, saa qurban olum, başıma bir iş gəlib. Deyir ki, onu özdərinə təmizdətdirəjəm, sən tələsmə. İndi, bala, Allahtaladan bılların canına bir geyişmə darışır, mına nə cür maalicə eliyillər, xeyri olmur. İndi biri suruçur, yıxılır, qırağ olsun üzümüzdən, qılçası bılaşır zibilə. Səhərdən gedir görür ki, ora yaxşı olub. Gətirir mınnan hər yerinə sürtür, yaxşı olur. O deyir ki, sən neynədin, yaxşı oldun, bı deyir, nətər elədin, yaxşı oldun? Deyir ki, bəs belə-belə. İndi, qırağ olsun, gətirif bıllar hamısını canına yaxır. Çatmıyan da qaşıyır, yuyur, soyur. Ta gəmini elə təmizdiyillər ki, nə cür.

Hə, mının da üç oğlu varıymış. Mının biri ona iman gətirmirmiş. Allahtaladan mına sada gəlir ki, tufan qopajax, sən isdədiyin adamları yığassan gəmiyə, birdən çıxassan. Bir qəri – qoja arvat – mının da inəyi varmış, bı da gündə bir qab süt gətirirmiş. Deyərmiş, başaa dönüm, sən allah, gedəndə məni qoyuf getmə. Hə, nəysə, gedəndə hamını yığıf, bı qarı yadınnan çıxıf.

Bir qadın təndirdə çörək bişirirmiş. Bı təndirdən su pakqıldıyır çıxır. Allahtala deyir:

– Ya yer, suyu bırax, ya göy, suyu bırax.

Altı ay bı su gəlir dolur, bı şəhəri batırır. Bı qarı nənənin Allahtala inəyini də, özünü də salamat saxlıyır.

Hə, Nuh hər heyvannan bir dişi, bir erkək, insannardan da kim mına iman gətirir, hamısını yığır, götürür gedir. Yolun yarısında – ortasında görür ki, su alır oğlunun birini. Qəmlənir. Allahtala deyir ki, qəmlənmə, o, kafırrardandı. O sənin oğlun olsa da, heç ona ürəyin yanmasın. Qalıllar bırda, dağın başında. Ağrı dağı deyillər, Naxçıvan tərəfdə, həmən o dağın başına çıxır, bırda altı ay qalıllar. Özü də heyvannarın hamısına tafşırıllar ki, bir-biriza yaxın getməyin da, balalıyar artar, gəmi tutmaz.

Hə, indi qırağ olsun, görüllər ki, it bir-birinə şey olub. Pişik gedir peyğənbərə deyir ki, – indi onçun deyillər ki, itinən pişik

ləjdi[*], – itnən it görüşür. Bı da deyir ki, olmaz həylə şey, tafşırmışam. İndi onçün deyillər ki, it həylə birrəşikli qalır. Pişik də Allahtalaya üz tutur ki, bı nətər olur, bıllar Allahın buyruğunnan çıxsın, mını peyğənbər götürsün. Onçun itnən pişik ləjdi.

İndi bı qara qarqanı göndərir ki, gedin görün su azalıfsa, qayıdax gedək yerimizə. Qara qarqa gəlir, baş qarışır leşə-zada, getmir. Bı peyğənbər mına deyir ki, səni elə həməşə şərə ürcah eliyəjəm, onçun qara qarqa həmişə şər xəbər verir. bı səfər göyərçinnən kəhliyi göndərir. Rəhmətdih anam deyirdi ki, Allah ölənnəri rəhmətdih eləsin, bala, o kəhliyin, göyərçinin əəği[**] onçun qıfqırmızıdı. O suyun zərbinnən onun əyəxləri həylə qıfqırmızıdı. Hə, indi bıllar gəlir deyir ki, peyğənbər, su azalıfdı. Su azalır, altı aydan sora bılar qayıdır gəlir yerinə.

İndi Allahtala hər şeyə qadirdi. Bı qarı nənə genə bir cam süd götürüb gəlir ki, başaa dönüm, birdən məni qoyuf gedərsən. Sən allah, amanın günüdü, məni qoyuf getmə. Deyir ki, qarı nənə, vallah, sən heş yadıma düşmədin. Gör Allahın necə xoşbəxt bəndəsisən ki, səni bu tufannan Allah saxlıyıf. Heş bir şeydən başa düşmürdün?

Deyir:

– Yox, vallah. İnəh birdən üsdü yaş gəlirdi, heş başa düşmürdüm.

Deyir:

– Hə, qarı nənə, arxayın ol ee, hər şey savılıf gedif. Gör necə xoşbəxt bəndəsən ki, Allahtala səni saxlıyıf bırda.

Hə, onnan sora qayıdıf gedillər. Nuhun da tıfanı həylə olur.

## 45. GÖYDƏN GƏLƏN QURBANLIQ QOÇ

Deyillər ki, peyqumbər əsrində bütün cannılar bir-biriin dilin bilərmiş. Deyir, bir kişi gələr bir varrı adama çoban olar. Səhər qoyunu açar, buraxar çölə. Qurtdar dəstəynən gələr. Deyəllər

---

[*] ləj – yola getməyən, arası olmayan
[**] əəği – ayağı

ki, ə kişi, bizə bir qismət ver, bizim səfərimiz uzaxdı, bı arada qismətimiz yoxdu. Deyir ki, mən bı qoyunu böyün götürmüşəm, özümün də yoxumdu, mən sizə hardan verim?

Deyir:

– Gə saa and içəh, sən get ağannan icazə al.

Deyib:

– And iç.

Deyiblər:

– Zəmanənin adamı olax, əyər sənin heyvanaa xayin baxsax.

Kişi gedir, ağasına deyir:

– Mən belə şeyə təsadüf eləməmişəm.

Ağası deyir:

– Getginən doğru olsa, səkqər kürə qoyun keçən il də kısır qalıp, ver, onnar yesin.

Gəlip görür ki, qurtdar qoyuna dəymiyip. – Qoyunu qurda tapşırmax da o vaxtdan qalıp. – Qoyunu verir. Qoyunu parçalıyıllar, qarnınnan quzu çıxır. Quzunu yemillər. Deyir:

– Ay canım, quzunu mən neyniyim?

Deyillər:

– Quzuya icazə almamısan. Bizim səfərimiz uzaxdı, biz gedəsiyih.

Yol eliyir qurtdar. Həmin quzunu çəkillər ərşə. Deyillər, İbrahim peyqumbər əleyhissəlam İsmayılın başın kəsməh istiyəndə həmin qoç yenir, kəsillər. Ona görə deyillər, İsmayıl qurbanı təmiz, eyibsiz, qaragöz, qırmızı, cavan heyvan olmalıdı. Hamısı olub, dəynə, olub... sözdəri də qalıp.

## 46. FATMA NƏNƏ

Başına döndüyüm Fatma ana deyifdi ki,
Aşıx yaza nə qaldı?
Xalın yaza nə qaldı?
Ülkər yana sallandı,
Canım, çıx gör yaza nə qaldı?

Fatma nənə də qüvvəli evliya imiş. Biz indi su qıjısı deyirih ey, kəhrizdərdə bitir. Görürsən onun ağ-ağ saplaxları olur. El dağa gedəndə Fatma ananı mindiriflər dəvəyə. Biri deyif ki, ayə, nə su qıjısı ola, onnan yeyərsən.

Deyif:

– El dağdan gələndə yeyərsən.

Da bağışda, üzr isdiyirəm, Fatma nənə qoltuğunun altının tükünü qoparıf atır, külək aparıf atır suyun içinə. Gələndə görüflər su doludu su qıjısıynan. Bax, həmən o su qıjısı onun qoltuğunun tükünnən əmələ gəlif.

## 47. KƏKLİK

Peyğəmbər qovax ağajının koğuşunda gizdənibmiş. İki kəhlih var. Onnarın biri "qovaxda, qovaxda" deyə-deyə peyğəmbərin yerini deyib. Bı kəhlih sona kəhlihdi, onun əti yeməlidi.

Bir kəhlih də var, ayağı qannıdı. İmam Hüseynin qanına batıb. Həmin kəhlih gəlib İmam Hüseynin bajısının yanına. Bajısı soruşub ki, hardan gəlirsən?

Kəhlih deyir:

– İmam Hüseynin davasınnan gəlirəm, ey vay! İmam Hüseynin qanıdı, qərq olmuşam, ey vay!

Ayağı qannı kəhliyin ətini yeməy olmaz, günahdı.

## 48. XANOĞLAN VƏ BƏSTİ

Xan çinarın*, suyun** yaranma tarixini mən bilirəm. Orda bir bəy istirahət eliyirmiş. Onun gözünün ağı-qarası bir qızı varmış. Qızın adı Bəstiymiş. Bəy burda istirahət eliyirmiş. Həmin kənd də Razdərə kəndidi. Orda bir yetim uşaq olur. Okqədər səmimi, düzgün, mərifətdi olur ki... Adı Xanoğlanmış. Bəy bir gün gejə yatır. Yuxuda görür ki, bunu ağacdan asıllar. Deyir, bu nədən ötrüdü? Deyillər, sənin nə ixtiyarın var, Allaha göstəriş ve-

---

* Zəngilan rayonunda meşə

** Bəsit çay nəzərdə tutulur.

rirsən – qızın adını Bəsti qoymusan? Bəsti qoymaxla demək istəyirsən daha bəsdi da. Bəy səhər yuxudan durur, ayiləsin, uşağın yığır ki, məni bu gejə öldürürdülər. Yığışın, bir heyvan da gətirin, uşağın adını dəyişəjəm. Qıza da anasının adını qoymuşmuş. Göz bəbəyi kimi onu istiyirmiş. Bir qoyun kəsillər, qızın adın dəyişir, gözəl ziyafət verir.

Vaxt ötür. Qızın anası buna çatdırır ki, bir yetim uşaq qıza aludə olub, günün-saatın onnan keçirir. Deyir, mən bəy adam, yetim hara, mən hara? Bu nədi mənim başıma gəlir? Adamlarına tapşırır ki, oğlana bir az hədə-qorxu gəlin, aralaşsın getsin. Deyin ki, sən uşaqsan, get tayı-tuşu axtar. Bəy qızınnan sənin nə işin? Baxıllar, görüllər əməl eləmir. Axır o məqama gəlir ki, bəy deyir:

– Aparın onu öldürün.

Obaşdan durullar, gedib oğlanı tapıllar, aparıllar. Həmən Xan çinar meşəsi başlayan yerdə qəlbi bir qayalıx vardı. Aparıllar Xanoğlanı o dağdan atırlar. Xanoğlan ölür. Qız eşidir bunu. Durur atasından, anasından xəlvət qaçır gedir o dağın ətəyinə. Oğlanı tapır. Görür ölüb. Qız da dağa çıxır, özün ordan atıb öldürür. O çinar meşəsi Xanoğlanın adına bitir. Onun nə toxumu bitmir, nə çiliyi bitmir. O Bəsit çay da o qədər durudur ki, noxudu atırsan, noxud dibində görükür. O su qızın adına çıxıf axır, o çinar da oğlanın adına bitif.

## 49. MİLÇƏK SÜFRƏYƏ NİYƏ TEZ GƏLİR?

Bunu maa qaynanam danışıf. Görürsən, stola yeməh qoymamış birinci milçəh gəlir qonur. Deyillər, vaxtiynən heyvannara od gətirməh tapşırılıf. Padşah deyif ki, kim bizim ölkəyə od gətirə bilər? Hörümçəh deyif ki, mən gedif gətirərəm. Deyiflər, kim odu gətirsə, ona gözəl ənam veriləcəh. Hörümçəh gedif tapıf gətirir. Gələndə quyunun başında bunu yuxu tutuf, yatıf. Milçəh bunu götürüf aparıf verif. Padşah deyif:

– Nə isdiyirsən?

Deyif:

– İsdiyirəm süfrəni insannar düzəndə birinci mən dadım da.
Deyif:
– Hə, yaxşı, sənə verirəm də onu.
Hörümçəh gəlif görüf ki, milçəh ənamı alıf oturuf. Deyif:
– Heç eybi yoxdu, sənin payını verərəm.
İndi bilmirəm fikir vermisiz, verməmisiz, hörümçəyin qurduğu tora mütləx milçək düşməlidi. Milçəyi tutuf saxlıyır.

## 50. BALIĞIN QARNI NİYƏ QARADIR?

Peyğəmbər deyif hər küşdə evladını götsün, çıxsın gəlsin meydana. Hərə birini alıf dalına, gedifdi. Qarnı yanmamış qurbağa da bir cıkqılı balasını büküfdü bağa-bağa yarpağına, alıf dalına gedif. Deyif:
– Hamı balasını qoydu yerə, bəs sən niyə qoymursan?
Deyif:
– Utanıram.
Qurbağa balasını dalınnan yerə salanda peyğəmbər deyif:
– Allahtalanın ən gözəl bəndəsi sənsən. Suyu verdim sana.
İlana deyif:
– Torpağı verdim sana, amma ildə bircə dəfə dil çal torpağa.
Balığa deyif:
– Dəryada olduğuna baxma, dəryadan saa su qismət dəyil. Göydən yağış yağanda ağzıı tutarsan, bir damcı düşər.
Görürsən, deyillər qarnın balıx qarnı kimi yansın. Dəryada olduğuna baxma, balığın qarnı qapqara yanıfdı.

## 51. QOYUNUN QARNI NİYƏ DOYMUR?

Deyilənə görə, Musa peyğəmbərin nəysə bir günahı oluf. O günahına görə Allahtala deyif ki, yeddi gün qoyun otarassan. Yeddi gün, yeddi gejə qoyunu otarıf, gətirif qəhələ yığmax isdiyəndə peyinnihdə çıxan əvəlihdi, alax-ulaxdı, qoyun yapışıf buna. Peyğəmbər deyif:

– Səni yeddi gün, yeddi gejə mən qoymamışam yatasan, otarmışam. Ə, tit, – deyəndə qoyun qayıdır ki, pah, ağzımız indi ota çatmışdı, indi də bizi yığdılar içəri.

Onda Musa peyğəmbər ona qarğış eliyif. Deyif:

– Qoyun, sənin qarnın doymasın, dalınca gedən yorulmasın.

Həqqi də heylədi. Qırx kilometirdən qoyunu gətirirdih heç yorulmurdux, amma bir damcı yolu gedəndə yoruluruх.

## 52. PEYĞƏMBƏR VƏ QIZI

Bir arvad var idi. Gəldi gördü mən çilə aşı dəmliyirəm. Dedi ki, baxıram təmizkar, hər şeyin yerini bilənsən da. Bunnan da bağlı bir misal çəkdi. Dedi ki, peyğəmbər bir gün qızıynan gəzməyə çıxır. Qız susuyur. Atası bir qapını döyür. Görür bir qız çıxdı. Deyir:

– Maa bir isdəkan su ver, qızım susduyufdu.

Bu da götürüf verir. İsdəkan çirkli olduğu üçün qız işmir, tökür yerə. Peyğəmbərimiz deyir:

– Çox sağ ol qızım, səni görüm evdə oturuf ər çörəyi yeyəsən.

Bir az gəlillər. Qız genə deyir ki, ata, susamışam. Genə atası bir qapını döyür, gətirif bir isdəkan su verillər. Yaxşı isdəkanmış. Qız içir, deyir “çox sağ ol”. Peyğəmbərimiz də deyir:

– Çox sağ ol, səni görüm özün qazanıf, özün yeyəsən.

Nəysə, gəlillər bəri. Görür bir cavan oğlan gəlir qavaxdan. O qədər sütüldü, heş bir günahı yoxdu da. Peyğəmbərimiz baxır, deyir ki, canı yanmışın nə ölməli canı var ey. Birəz qabağa gedillər. Görür bir qoca kişi hasaynan gəlir yıxıla-dura, gücnən yeriyə-yeriyə. Deyir ki, baxtavərin nə qədər ömrü var ey. Bir də çönür arxaya, görür qızı gəlmir. Deyir:

– Qızım, niyə gəlmirsən?

Deyir:

– Sən peyğəmbərsən, bəs hakkı nahakka verirsən də. Bına adi camaat nə deyər?

Deyir:

– Gəl otur, qızım, mən saa izah eliyim niyə görə belə deyirəm. O suyunu işmədiyin qız pinti qızdı, hara getsə qayıdıf gələcəh o evə. Yoldaşı gedif çöllərdə işdiyəcəh, gələcəh, baxmıyacax təmizdi, çirklidi, qoyuf qavağına bir tikə yeyəcək ki, yatsın, tezdənnən işə gedəcəh axı. Küncü-bucağı eşələmiyəcəh görüm təmizdi, çirklidi. Amma o təmiz qız hara getsə özünün başını saxlıyacax da, bədbəxt olmuyacax. O qocanın da o qədər günahı var ki, sən təsəvvür elə, dəyir yerə, qalxır bir də yeriyir. Onu nə cəhənnəm qəbul eliyəcəh, nə cənnət. Amma o cavanın heş bir günahı yoxdu. Gedən kimi düşəcəh cənnətə.

## 53. BİSMİLLAHSIZ AÇILAN SÜFRƏ

Biri imamlarnan dosdaşır. Biri-birini qonax çağırır. İmam Hüseyn bir çolpa kəsir. Bir çolpaynan bular doyullar. Həmin şəxs sora İmam Hüseyni qonax çağırır, bir dəvə kəsir. Dəvənin yarısını yeyillər, doymullar. Deyir:

– Ay dost, nətər olur sənin çolpannan sən də doyursan, mən də doyuram, bütün sırfa doyur, yola düşür. Mən dəvənin yarı şakqasını yeyirəm, nə özüm doyuram, nə qonax?

Deyir ki, sənə Allah nəhlət eləsin, sırfa açılanda nə bismillah demirsən, nə sırfa yığılanda "əlhəmdülillah, Allah sən yetir demirsən". Amma mən, "bismillah, ya Allah" deyif başdıyıf yeyirəm, doyuram. Sırfa yığışılanda da "ələhəmdülillah, Allah sən özün yetir" deyirəm.

Kafır deyir ki, mən bunu demirəm. Deyir:

– Ona gora da sən doymazsan. Nə rizqin olmaz, nə bərkətin.

## 54. QARĞIŞ KEÇƏLƏ KAR ELƏMƏZ

Bir ölkənin padşahı ölür. Camaat yığılıb quş uçurdur ki, özünə təzə padşah seçsin. Quş gəlib bir keçəlin başına qonur.

Keçəl taxta çıxan kimi əmr eliyir ki, evbaşına bir yumurta yığılsın. Yığılır. Sora da əmr eliyir ki, hər kəs gəlsin öz yumurtasını götürüb aparsın. Hərə gəlib bir yumurta götürüb gedir.

Aradan üç gün keçir, padşah adambaşına üç qızıl yığır, on gün keçir, padşah on qızıl yığır, iyirmi gün keçir, iyirmi qızıl yığır. Camaat görür yox, balam, bu yumurta məsələsinə oxşamadı, padşah qızılları qaytarmır. Başdıyıllar qarğış eləməyə ki, Allah bu padşahı da öldürsün, canımızı qurtarsın. Ha qarğış eliyillər, padşah ölmək bilmir. Gedillər padşahın yanına, deyillər:

– Padşah sağ olsun, biz hansı padşaha qarğış eləmişik ölüb. Sənə qarğış eliyirik gücün birə beş artır. Bu nə sirdi belə?

Keçəl qımışır, deyir:

– Bının sirri yumurtadadı. Sən onun yumurtasını apardın, o, sənin yumurtanı apardı, ölkədə hamı oldu haramyeyən. Haramyeyənin qarğışı məni necə tutsun?

## 55. GÖN ARXASI, YOXSA KÖŞƏ ARXASI?

Temurləng pətşah idi. Ermənilər Temurun yanına gəlir ki, şah sağ olsun, bizə bir gön arxası torpax ver, göy-göyərti əkəh, bejərəh. Pətşah fikirrəşdi yenişə-yoxuşa ki, bir gön arxası nə olan şeydi, lap ikisin verərəm.

Dedi:

– Razıyam, hərəəzə bir gön arxası torpax verərəm, bı nədi ki?

O vaxtdar da pətşahın özünün ayrıja torpağı varıdı. Temurləng göstəriş verdi adamlarına ki, gedin ermənilərə iki gön arxası torpax verin. Ermənilər getdilər gönü köşə çəhdilər, uzun ip elədilər, gönün bir köşəsi oldu, məsələn, iki kilometr, üş kilometr. Torpağı bı qaydaynan hesapladılar verdilər ermənilərə.

Vaxt oldu məhsul götürüləndə Temurləng gördü ki, məhsul xeyli azalıp. Soruşdu adamlarınnan ki, əə, bı il məhsul niyə belə az oldu? Dedilər ki, qibleyi-aləm, torpağın filan qədərin verdirdin ermənilərə.

– Ayə, nə ermənilər?

Dedilər:

– Sən vermisən. Hərəmizə iki gön arxası.

Dedi:

– Ayə, mən gön arxası demişdim, köşə arxası ki deməmişdim. "Tfu" dedi, nəqqədir erməni vardı başdadı qırmağa. Bir-iki erməni qalmışdı. Temurləng dedi ki, bir vaxt gələjəh, eşidəjəhlər ki, erməni addı bir millət varmış, deyəjəhlər, görən nejə millətmiş bı ermənilər.

Ona görə də Temurləng bir-iki ermənini öldürmədi, sağ saxladı.

## 56-58. QIZ QALASI*

İki xan varımış İranda. Birinin yeddi oğlu bir qızı varımış, birinin beş oğlu varımış. Beş oğlu olan o biri xanın qızını götürüf gejə miniflər pəliyə, Arazdan addıyıflar bı taya. Bı tayda da bizim biçənəyimiz var. Bırda həbelə qala var, o da İrannan üz-üzədi. Ora elə bil zastavdı. Bu zastavın yanınnan keçiflər, gəliflər. Bacı, nəynən gətiriflər, nəynən tikiflərsə, burda bir qala tikiflər, bax bı əvdən yekə. Bı qalanı tikiflər, dünyada nə varmış gətiriflər. Pir Xənəzir deyirih, ağır pirdi. Bı Xənəzirdən kankan gəlif su çəkməyə. Meşənin içiynən durumba gətiriflər, bizim biçənəyin yanınnan çıxardıflar. Qızı qoyuflar ora, orda toyux hini tikiflər, toyuğacan gətiriflər. Bının, nənən qurban, əvinin üsdünü-zadını qəyiriflər, düzəldiflər. Bırdan suyu buraxanda tökülmür ordan yenişə. Zadın altınnan yer qoyuflar. Bırdan qabını-qaşığını yuyuf, işığını-zadını çəkiflər.

Bu yeddi oğlu olan gedif görüf ki, bıy, qız nə qayırır, qız yoxdu. – "Ə, qız hanı?" – "Yoxdu". Yeddi oğlu olan axtarıf, axtarıf, bilif ki, bırdadı. Biz qarabağlıyıx, olar qaradağlıdılar. Deyiflər, Qarabağda bir qala tikilif. Gejə duruflar, yığışıflar, yeddi qardaş gəliflər. Qızın adını çağırıflar, qız dinmiyif. Gediflər Gəncədə bir qoca erməni tapıflar. Deyiflər orda belə bir qala var, onun nə suyu var, nə yeri var, nə yurdu var. Qız da dillənmir, amma qız o qaladadı. Onnan sora erməni deyif ki, gedin bir qatırı yeddi gün bağlıyın, qavağına arpa tökün, saman tökün, su vermiyin ha. Nəbadanəbada su verəsiz. Suyu gösdərmiyin qatıra. Elə içəridə yemini

* Zəngilan rayonunun Əmirxanlı kəndində yerləşir.

tökün, yesin, suyu gösdərmiyin. Bı qatırı aparın əlızda. Bu qatır ayağını hayana çalsa, su ordadı. Gör erməni nə qədər bilirmiş e.

Heylə də eliyillər. Bı qalıya çıxmax üçün səki kimi yer var. Qala da qaladır ey, hər tərəfi gül, bülbül. Gəlir qatır əyağını vırır. Buranı eşillər, durunbanı tapıllar. Bı durunbanı açıllar, suyu kəsillər. Qatır suyu içir, içir, içir, dəyir yerə. Susuzdu axı neçə gündü. Özü də erməni tapşırıf ki, qatıra çox su vermiyin ha, yıxılar ölər, dəyər ürəyinə. Çünki, yeddi gün yeyif, susuzdu. Qatırı dartıf çıxardıflar. Deyillər, cəhənnəmə, qızı tapax. Gedillər. Nə qədir lom gətirillər, qıfıl gətirillər, nə gətirillər, bının yerini tapbıllar. Bınnan bir belə qopardammıllar ki, qızı çıxardalar ordan. Qayıdıf minəllər pəliyə, gedif lom gətirəllər, gupun gətirəllər. Beş gün orda çalışalar, bir belə dələməzdər. Genə gedəllər bı erməninin yanına. Erməni deyər ki, gedin iti mis qayırın. Onu lumnan, gupunnan vırın, ordan deşiləjəh. Gəlif heylə eliyillər, deşillər. Bir belə yerdən görüllər ki, qız orda oturuf, hər şeyi də yığıflar yanına. Qıza tikiflər ha o qalanı, qoyuflar içinə. Onu bir belə deşiflər, üjdən genəldiflər, üjdən genəldiflər, qızı dartıf bırdan çıxardıflar gejə. Ayının-üyünün yühlüyüflər qatırrara, Arazın qırağında miniflər pəliyə, addadıflar o üzə.

*Söyləyici bu mətni atasından eşidib.*

**57**

İranda bir Tağı xan olur. Onun yeddi oğlu, bir qızı oluf. Bı qızı Tağı xan qorqanır, saray tihdirir. Bının qırx qulluxçusu, qarabaşı olur. Gecənin bir gecəsində bir oğlan gəlir, qıza müşdəri çıxır. Qız deyir ki, mənim qardaşdarım səni öldürəcəh, bı şəhərdən gəl qaçax. Bu, dəsdəsini yığır – neçə yük qızıl, əşyalarını yığışdırır, gecə çıxıllar. Bının da bir dünyagörmüş vəziri olur, Allahverdi xan adında. Az gəlillər, çox gəlillər, bizim o Əmirxannı kəndinin üsdündə qala var, böyüh dağdı e... O dağa çıxanda Fizuli, Horadiz, Qaradonnu görünərdi. Əlqərəz, gəlif çıxıllar o dağın ətəyinə. Bı dağ da dəmyə bir yerdi, suyu-zadı yoxdu. Deyir:

– Vəzir, axı bırda mənim qoşunum dayana bilməz, susuz yerdi.

Deyir:

– Eybi yoxdu.

Altdan yuxarı gedillər. Biz Soltan Heydər deyirik, pirdi. Orda bir dənə daşdı qeybinnən, bu tikili yekəliyində, kürə gözü boyda yer deşihdi. O pirə təmizdənif, qusul verif gedirdin. Gərəh sən ordan əyilif iməhliyə-iməhliyə çıxardın. Əgər ürəyin düzdü, təmiz, düz adamsansa, o daş yol verirdi, çıxırdın. Bir əngəlin vardısa, bijdiyin vardısa, o daş gəlif birləşirdi, saa yol vermirdi, qayıdırdın geri. Soltan Heydər belə pirdi.

Vəzir nökərrərdən götürüf gəlif çıxır ora. Deyir ki, bırdan həmən qalıya su cəhməh lazımdı. Xülasey, qızıl bol, pıl bol. Buraxır pıldan, durba alıllar. Gəlif o Soltan Heydərin suyunnan həmən o Qız qalasına su çəkillər. Oranı götürür bütöv saraya, hesab elə göydən uçan quş ora qona bilmir. Bılar bir müddət qalıllar orda, qalada.

Səhər hay düşür. Görüllər qızın qulluxçusu, dəsdəsi, heç bir şeyi yoxdu. Əyə, belə şey ola bilməz. Yerə-göyə səs salıllar. Gəlif çıxıllar həmin qalıya, qızı tapıllar. İndi bının qoşunu güj gələ bilmir, qalanı ala bilmir. Xanın da bir vəziri varıymış, o da bilihliymiş. Deyir ki, qatırı bırda bağla, üş gün qatıra su vermə. Qatır harda əyağını döydü yerə, həmən yerdə yerin altıynan su gedir. Qatırı gətirif üş gün susuz saxlıyıllar. Qatır gəlif əyağın döyür yerə. Eşillər, görüllər baa, durbadan su gəlif gedir həmən qalıya. Bı suyu bırdan kəsillər. Kəsəndə qoşunu qalır susuz. Onnan sora tabe olullar, qızı götürüf gedillər. İndi həmən dağın adı qalıf – Qız qalası.

**58**

Xanazır ojağının yaxınlığında Qız qalası var. Qız qalası Arazın qırağındadı. Eşitdiyimə görə, İran şahlarının övladdarının biri qızı istiyir. Qızın qardaşdarı narazı olullar. Özdəri üçün bir qala qurullar. Qızı orda müdafiə eliyillər. Qalıya saxsı borularnan yerin altınnan su çəkillər. Bınnarı orda çox mühasirədə saxlıyıllar. Ancax onnarın iradəsini qıra bilmillər.

Axırda bir ağsaqqal peydah olur. Deyir ki, mən suyun yolunu taparam. Deyir, qatırı 40 gün yedirdin. Onu susuz saxlıyın. O,

hökmən suyun yolunu tapajax. Qatır gəlir, boru keçən yolda ayaxlarını döyür. Oranı qazıb suyun qabağını kəsillər. Qala susuz qalır. Ona görə də qalanı dağıdıb qızı aparıllar.

## 59. ƏMİRVARLI*

Teymur əyalətdəri gəzirmiş ki, görüm harda varrı var, nətər dolanıllar, vergi verə biləjəh, bilmiyəjəhlər. Gəzif gəlif çıxıflar bizim kəndə. Bizim kənt də Arazın qırağında oluf, yulğunnuxda oluf. Əvəl adı Xıdırlı oluf. Gedif deyiflər ki, ya əmir, bəs bir dənə kənd var Qarabağ zonasında, çox varrıdı. – Ulu babalarımız mal-heyvan saxlıyanmış. Tərəkəmə imiş də. – Gəlif kəndə baxıf, onnan da öz adını verif kəndə. Deyif ki, bu kənd mənim adıma olsun – Əmirvarrı. Kəndin adı ordan gəlif.

## 60. OĞLAN-QIZ DƏRƏSİ

Qubatdı rayonunda oğlan-qız dərəsi varıydı. Deyilənnərə göra, bir oğlannan bir qız bir-birini sevirmiş. Heş birinin də ata-anası bılların evlənməhlərinə razı deyilmişdər. Gün o gün olur ki, bıllar başdıyıllar qaşmağa. Qaçıllar, qoşun düşür bılların dalınca. Qaçıllar, qaçıllar, gəlillər, indi harda ki, “Oğlan-qız” dərəsi var ee, ordan keçəndə adamlar tamam yaxınnaşırdılar. Əl atıllar ki, tutsunnar. Onda oğlannan qız deyir ki, Allah, sən bizi daşa döndər. Elə ordaca daşa dönüllər. Oğlanın boyu hündür, qızın da boyu alçax olduğunnan daşın biri hündür, biri alçaxdı. O vaxdan da adı qalır “Oğlan-qız dərəsi”.

## 61. HUMAY QAYASI

Deyillər, Humay addı bir kadın varıymış, uşağı olmurmuş. Niyət eliyif gedir həmən qəyənin ortasında, o cığır görünən yerin baş tərəfində bir daş varmış, başın qoyur o daşın üsdünə, yatır, onnan sora uşağa qalır. O vaxdan ora ziyarətgah olur. Ora su

---

* Cəbrayıl rayonunda kənd adı

da çəkiblərmiş. Yeri indi də qalır. Sora qəyənin arası uçur. Aşağıda deşihdaş var ha, qabaxlar yerimiyən uşaxları da gətirif həmən daşdan keçirərmişdər.

## 62. DAŞ HƏRƏMİ – HƏRƏM DAŞI

Deyillər, el dağa gedəndə bir kadının sancısı tutur. O daşın dibində həmlini qoyur yerə. O daş kadını naməhrəm gözünnən gizdiyir, ona görə də o daşın adı qalır Daş hərəmi. Hərəm daşı da deyillər.

## 63. KOROĞLU ARŞINI

Koroğlu görüf bəzirgannar karvannan, qəflə-qatırnan gəlir. Ətraf kəntdərin camahatını yığır ora. Qəflə-qatırı boşaltdırıf. Ölçü tapılmıyıf, Koroğlu iki təpəən arasını ərşin eliyif, əliynən ölçüf, paylıyıf paltar-parçanı camahata. O vaxtdan da iki təpəən arasıın adı qalıf “Koroğlu ərşini”. Cavanşir ata gümbəzinnən azca əyənədi.

## 64. KOROĞLU DAŞI

Əfsanəyə görə, Koroğlu Qıratını minip, daşın birin tərkinə bağlıyıp, birin də qabağa. Qojaların dediyinə görə, həmin düzdə çapıb. Ağəp (Ağarüp) deyillər o düzə. Qubaddıda da var, Cəbrayılda da var, düzəngahlarda ağarüplər var. Bizdəki iki böyüh daşdı. Onun üst tərəfin yonuplar, çaladı, çırağban yeridi. Yağ tökürmüşdər, yandırırmışdar işarə üçün. Arazın o tayınnan bəri işarə verirmişdər gejələr. Bı daşdarı həmən Koroğlu gətirip qoyup.

## 65. SARI TƏPƏNİN YARANMASI

Koroğlu daşınnan o tərəfə Sarı təpə var. Deyilənə görə, Cənab Əli qoşunuynan bıra gəlib. Qoşuna deyib ki, hər kəs bıra bir torba torpax töhsün. Bırda bizdən bir yadigar qalsın. O boyda qoşun hər biri bir torba torpax töküb. Sarı təpə belə yaranıb.

## 66. QIZ QƏBRİ

Bizim kəndin yuxarı başında “Yazı” deyilən bir düzən yeri var. Onun yaxınnığında Şah yolu, Şah dərəsi, Şahtaxtı addı yerrər var. Belə danışıllar ki, şah öz qoşunuynan gəlir bırdan keçir. Şah yolu, Şah dərəsi addarı da şahnan bağlıdı. Belə danışıllar ki, şah tutduğu yeri bəlli eləməh üçün bir yerə torpax tökdürür, bir təpə əmələ gəlir. O təpə indi də durur. Şahın qızı ölür bırda. Qızı bırda basdırıllar. O qəbir indi də qalır. O qəbrə “Qız qəbri” deyillər.

## 67-68. SINIQ KÖRPÜ

Taftağ adında bir düzdə naməlum bir qız Həkəri çayının üstünnən körpü saldırmağa gəlir. Həmin çayın üstündə üş dənə kənd olur. Kəntdərin adı o vaxta qədər məlum dəyilmiş. Həmin qız öz dövlətiynən, varıynan daş yığır, lazımı torpağ yığır, yumurta yığır, fəhlə yığır. Həmin qız başdakı kəntdə bir neçə ay qalır. O qız kişi paltarında olur. Heş kəs bilmir ki, bı kadındı. Qız bı kəndin adını qoyur Korrar. Gedir bir neçə ay qalır orda, kəntdə. Bı kəntdə də hiss eliyəmmillər ki, bı kadındı. Çox qər-qər eliyən adamlarmış. Qız o kəndin də adın qoyur Qaraçılar. Sora qalır aşağı kəntdə, bir kişiin evində. Kişi tezdən durur, aftafanı doldurur isti suynan, məhrabanı da salıp qoluun üstünə, gəlir qonağın əlinə sü töhməyə. Suyu tökür, qız tez əlin çəkir. Əlin çəkən kimi ev yiyəsi deyir:

– Qızım, su istidi?

Qız baxır ki, bının qız olduğunu ev yəəsi bildi, deyir:

– Yuxarıdakı kəntdərdə bı qədər qaldım, qız olduğumu bilmədilər, siz bildiiz. Ona görə də bı kəndin adını qoydum Şıxava, yəni, Bilijilər kəndi.

Həmin körpüün sınığı bı sahat da durur.

### 68

Bir kişiin bir qızı varmış, çoxlu dövləti varmış. Deyir gərəh bir xeyirri iş görüm. Oğlan paltarı geyir, gəlir Həkəriin üstünnən körpü salmağa. Adın soruşullar, deyir, adım Alıdı. Üç ilə körpü

tihdirir. Hər il bir kəntdə qalır. Kəntdə bilmirlər ki, bı qızdı. Körpünü tihdirif qurtarır. Getməh mağamı gələndə üzün tutur kəntdərə sarı, deyir:

Alıyam, az gedərəm,
Yolları düz gedərəm,
Gəldim şıx ölkəsinə,
Qız gəldim, qız gedərəm.

## 69. AMUDUX PİRİ

Deyillər ki, bu pir Salsal pəhlivanın bajısıın qəbridi. Həzrət Əli eşidir ki, Salsal pəhlivan addı bir pəhlivan var. Deyir, necə ola ki, bı pəhlivan məni saymıya. Gəlir indiki Qalalıya, dönür olur qoca bir kişi. Salsal pəhlivan gəlib görür ki, onun otduğunda bir qoca kişi atını bağlıyıb, heş bını da saya salmır.

Deyir:

– Sən nə karəsən ki, mənim otduğuma at bağlıyırsan?

Deyir:

– Ə, gedin mənim qalxanımı, papağımı, qılıncımı gətirin.

Qırx pəhlivan Salsalın qalxanını, qırx pəhlivan papağını, qırx pəhlivan da qılıncını sürüyə-sürüyə gətirillər. Salsal pəhlivan deyir ki, gərəh əvvəlcə mənim bı zincirri qalxanımı yerdən qaldırasan, sora vırışax. Həzrət Əli deyir:

– Mənim də şərtim var, gərəh əvvəlcə mənim qəməmi yerdən qaldırasan, sora vırışax.

Salsal pəhlivan əlin atıf istiyir qəməni qaldırsın, görür qaldıra bilmir. İkiəlli yapışır, qurşağatan torpağa batır. Sora Həzrət Əli çöçələ barmağını ilişdirir Salsalın zəncirri qalxanına, fırrıyıf tulluyur göyə. Salsal görür ki, qalxan yerə düşsə, torpağa bataceh, deyir, qurban olum, elə elə ki, yerə düşməsin. Həzrət Əli qalxanı genə bir barmağıynan tutuf yerə qoyur. Başdadılar, vırışmağa. Salsal qılıncı çaldı, dərəni duman bürüdü. Duman çəkiləndə Salsal gördü, qabağında qoja kişi dəyil, bir cavan oğlandı. Bildi ki, bı Əlidi. Namısa boğuluf dedi:

– Vır.

Əli qəməni qoydu Salsalın təpəsinə, dedi:

– Haran ağrıyır?

Salsal dedi:

– Beynimin içi.

Həzrəti Əli bir az sora soruşdu ki, indi haran ağrıyır?

Salsal dedi:

– Ürəyim.

Əli dedi:

– Sənin ürəyində gavırrıx qalır.

Bını deyif qəməni çəhdi, Salsal pəhlivan iki parça oldu. Xəbər getdi Salsalın bajısına. Salsalın bajısı bir gözəl qızıydı. Həzrət Əli gördü, bıdı, bir gözəl qız gəlir, vallah, əndamına baxırsan, hayıl-mayıl olursan. Qız dedi:

– Hər kimsən, bilmirəm, əhd eləmişəm ki, qardaşımı kim öldürsə, ona gedim. Çünki çox zalımıydı. İndi sən öldürübsən, sənə gərəh gedəm.

Həzrət Əli dedi:

– Yaxşı, alaram, ancax səfərdən qayıdannan sora. Onatan gözlə. Həm də "lailləllahı" ürəhdən qəbul elə, sora alaram.

Bını deyif, Əli qoşunu gəlməmiş getdi gavırrarın üstünə. Qayıdıf gələndə gördü ki, qız xəsdədi, can üsdündədi. Amuduxda bir otax tihdirir, qız ölənnən sora aparıf basdırır ora. İndi həmin qızın qəbridir, Amuduğ piri. Onun yanında bir bulax var, bir həftə, qırx gün su gəlir, sora bir həftə, qırx gün quruyur. Deyillər ki, qız sözdə "lailləllahı" qabul eləmişdi, ürəhdə yox. İndi su gələn vaxtı "lailləllah"dı, gəlmiyən vaxtı gavırdı.

## 70. GÜMULUQ PƏHLƏVAN

Yanımda danışıblar eşitmişəm ki, bı gümbəz Gümulux pəhlivan gümbəzidi. Bajısıynan bırda yaşıyırmışdar. Gümulux pəhlivan çox uzun adam olub. Boyu beş-altı metir olarmış. Gümbəzin bir qapısı varmış, həmişə yatanda Gümulux pəhlivan ortası deşih

bir daş varıymış, gümbəzin qapısını onnan örtərmiş. Belə böyüh daşnan örtməyinin səbəbi oymuş ki, qorxurmuş bajısını qaçırdallar. Gümulux pəhlivanın bajısı çox gözəliymiş. Bı çaylarda onnan gözəl qız yoxuymuş. Gümulux pəhlivan yeddi gün yatırmış, yeddi gün oyax qalırmış. Gümbəzin qapısın da ona göra böyüh daşnan örtürmüş kü, bı yuxuda olanda gəlib bajısını qaçırmasınnar.

Aşağı kəntdərdə bir oğlan Gümulux pəhlivanın bajısını istiyirmiş. Ancax Gümuluxdan həm qorxurmuş, həm də imkan eliyib qızı qaçırəmmirmiş. Qızın da rayı varımış bı oğlana. Bir gün həmin oğlan yoldaşdarıynan gəlir qızı qaçırmağa. Haman gümbəzin ağzına çatanda qız içəridən böyüh daşın deşiyinnən işarə eliyir ki, Gümuluğun oyanmax vaxdıdı, gedip yeddi günnən sora gəlin. Bınnar qayıdıb gedillər.

Yeddi günnən sora qırx cavan oğlan gecə gəlir qızı qaçırmağa. Nəkqədər eliyillər, daşı gümbəzin ağzınnan götürə bilmillər. Gümulux yatmamışdan qabax qızı da salırmış içəri, birəlli daşın deşiyinnən yapışıb çəkirmiş gümbəzin ağzına. And içibbiş ki, kim mən yatanda bı daşı götürüb qırağa qoysa, bajımı ona verəjem. Qızı isdiyən oğlan özüynən bir ling götürübmüş. Lingi salır gümbəzin divarıynan daşın arasına, daşı itəliyib adamkeçər yer açır. Qızı çıxarıb qaçıllar. Gümuluğun yeddi günnüh yuxusuun birinci günüymüş. Yatdığı yerdə qəfil bına agah olur ki, bajısını qaçırıblar. Ayılır, görür gümbəzin qapısı açıxdı, bajısı da yoxdu. Tez çıxıb qarannıxda çayaşağı yüyürür, bıralar hamısı meşəliymiş. Bir yerdə kəsilmiş ağacın qələmi batır Gümuluğun dabanına. Gümulux yolunnan qalmır, qanı axa-axa çayaşağı yüyürür, gəlib Mollunun qabağına çıxır. Ürəyinə damır ki, bajısın bu kəntdən qaçırıblar. Haylıyır, camaat tökülür çayın qırağına.

Gümulux deyir:

– Mən demirəm, məəm bajımı niyə qaçırıblar, ancax mən o adamı görməh isdiyirəm. O adam mənnən gücdu olmalıdır ki, bajımı qaçırda bilsin.

Oğlanı gətirib qanı çox axdığınnan halsızlaşan Gümuluğa göstərillər. Gümulux baxır ki, bapbalaca bir oğlandı.

Deyir:

– Halaldı, sən ki, məəm bajımı bı boy-buxunnan qaçıra bilibsən, demax sən mənnən güjdüsən.

Gümulux bını deyib canın tapşırır. Gümuluğu gətirib həmən gümbəzdə basdırıllar.

## 71. İLANLI DƏRƏ

Muradxanın qırağında bir böyüh qarağaş varımış, ojağıymış. Tamam kişigilin tayfası ojax sayılırmış. Bir gün bı tayfadan bir oğlan uşağı ocağa gələn ilanı öldürür. Atası deyir, bala, Allah saa nəhlət eləsin, sən bı ilanı niyə öldürdün, bı ojağa gəlirdi.

Bir gün bınnar ata-bala gedillər kəvşəndə cüt sürüllər. Cütü saxlıyıllar qarağacın dibində, çörəy yeyillər. Bir də görüllər, bıdı, bir ilan libasında adam gəldi. Ağ ilan geyimindədi. İlan-adam kəsdirir kişiynən uşağın başıın üstünü. Uşağın atası durur ayağa, deyir, Allah saa nəhlət eləməsin, nəyə gəlmisən? Kişi başa düşür ki, ilan intiqama gəlib. Ona görə deyir:

– Bı öküz lazımdısa, apar.

İlan-adam quyruğunu bılıyır, deyir, yox. Kişi deyir, onda mənim özümü apar. İlan genə quyruğunu bılıyır, yəə durmur onnarın heş birinə. İlan-adam qatır oğlanı qabağına, aparır. Kişi dallarınca gedir, deyir, görüm, axırı necə olur. Bir dəriyə çatanda kişi görür, ilan da, uşax da birdən yox oldu, göyə çəkildi. O vaxtdan bı dəriyə "İlannı dərə" deyillər.

## 72-76. HACI QARAMAN

Mənim eşitdiyim budur ki, olar beş nəfər oluflar. Məytəf qutarıflar, atası, babası da böyüy ojaxdı. Övliya oluflar. Orda bir padşah olur, çox zülümkar olur. Xalq gəlir Hajı Qaramanın üstünə ki, bir qarğış elə, padşah bizdən irədd olsun. O da deyir ki, bir şəxsə ya qarğış elə öldür, ya tüfəynən öldür, ya da bıçaqnan öldür – fərqi yoxdu. Mən ona qarğış eliyə bilmərəm, günahkar olaram. Bılar əl çəkmirlər. Əl çəkmiyəndə eşitdiyim budur ki,

Hajı Qaraman bir kəlmə deyif ki, ay camahat, Allah sizi eşitsin. Səhər qalxıllar ki, padşah yoxdu. Bılar gedirlər Hajı Qaramanın üstünə ki, sən gərək bizə padşah olasan. Bu deyif ki, camahat, mən padşah olsam, gərəy zülümkar olam. Padşahın zülmü olmasa, ədaləti bərpa eliyə bilməz. Çox danışıxdan sohra üz tutur Allahtaalıya ki, ya rəsulallah, məni bu camahatın əlindən qutar. Mən padşah olsam, gərəy zülümkar olam. Mənim günah eləməyə təhrim yoxdu. Hax tərəfindən onun əlinə bir çəliy verilir, deyir: "Get, çəliy harda dursa, sənin məkanın oradı".

Düşür yola, neçə ay, neçə gün gəlirsə, gəlir çıxır bizim bı Əhmətdi düzünə. Dərənin birində bulax varmış, orda dəstəmaz alıf namaz qılırmış. Əhmət kişi yolnan gedirmiş, yanında beş-altı adam varmış. Xülas, görür ki, dərədə bir nəfər adam var. Bunu çağırıf, bu cavab vermiyif. Namaz qılırmış. Xülas, deyif ki, siz atdarı sürün, mən görüm kimdi. Bəlkə gəzənti olar, oğru-əyri olar da. Gedir görür ki, bir nürani kişidi, namaz qılır. Bu kişi Əhməd kişinin salamını alır. Deyir, sən nəkarəsən, burda nə gəzirsən? Deyir, mən yol adamıyam. Deyif, yol adamısan, bəs yerin-yurdun varmı? Yoxdursa, gedək bizə. Bunu götürüb gəlir evə. Bu kişinin bircə övladı varmış, qız uşağı imiş: gözü görmürmüş, qolu-qıçı da şikəst imiş. Kəsə, Hajı Qaraman gejə qalır burda. Bu uşax atasın-anasın zara gətiribmiş. Gejə anasını çağırır, deyir, dur gəl bura. Bu da deyir ki, ay bala, qonax da var, bizi az zara gətir. Qoyginən qonax yatsın, bir dincəlsin. Qız deyir, ana, vallah, gözüm görür. Taxtın üstünnən düşmüşəm yerə, ayağım yer tutur. Bılar gəlif görüllər ki, həqiqətən, sağ-salamatdı. Hajı Qaramana deyillər ki, hər nəysə bu iş sənnəndi.

Xülas, bir müddət buna qullux eliyif saxlıyıllar. Sohra Hajı Qaraman deyir ki, bəs mən getməliyəm. Əhməd kişi də deyir ki, getmə, ay oğul. Bu qızı da al, mənim varıma-dövlətimə yiyə dur. Deyir, yox, mənim hax tərəfindən məkanım var, ora getməliyəm. Xülas, gəlir çıxır Hajı Qaraman dərəsi deyillər, ora. O dərə də Füzuli rayonunun Qarakollu kəndininmiş. Bılar yaylaxdan gələndə orda bir-iki ay heyvannarın saxlıyıf gedirlərmiş kəndə.

Dərənin bir tərəfi bir qardaşın, o biri tərəfi o biri qardaşınmış. Yaylaxdan qayıdıf gələndə görüllər ki, burda bir nurani kişi var. Dərənin bir tərəfinin yiyəsi olan qardaş baxır, kişidən xoşu gəlir. Dərəni bağışdıyır ona. O qızın da Yetərmiş adı. Onu da gətirir, orda yaşıyırlar. Ona biz and içəndə "Hajı Qaramanın maral gələn ojağı haqqı" deyif and içərdik. Orda maral gəlif sağılarmış. Maralları da Yetər nənə sağarmış.

**73**

Allahın məsəli əla Məhəmmədin və ali Məhəmməd. Ya Allah, sən hamımızın işin oand*, cəmi şərlərdən uzağ elə, isdiyənnərnən hamılıxca bir yerdə şaddığ elə, mehribançılığ elə. Hajı Qaraman babıya, elə bil ki, o vədə deyiflər ki, harda çəliyin dursa, orda bina salassan, əv tikəssən. Həə... İndi Hajı Qaraman baba da cəleyvatanmış dana. Hajı Əhməd addı bir kişi varmış, varrı kişiymiş, gəlir mının yanına. Kişi görür ki, bı yad adamdı. Deyir:

– Bala, elə bil qərib adamsan, gəl qonağ ol.

Gejə qalır bıllarda. Görür kü, bir qız uşağıdı, elə yerdə yatılıdı. İndi bı qızın anasınnan soruşur ki, ana, o uşax niyə yatılıdı. Deyir ki, bala, xəsdədi qılçalarınnan, yeriyə bilmir. Deyir ki, bir istəkan su gətir, oxuyum, ver ona, işsin.

Həmişə onu gejə anası çıxardırmış çölə. Hə, indi ana gəlir, görür kü, qız özü çöldən gəlir. Deyir ki, bala, sən nətər oldu ki, çıxdın çölə. Deyir ki, o, suyu içənnən sora elə bil ki, şəfa gəldi. Hajı Əhməd deyir ki, gəl bırda ol, bı qız da sənin şifannan yaxşı olub, qızı verəjəm saa. Qızın da adı Yetərmiş. Hə, qızı alır, gedir. Orda indi dam tikdirir özünə. Damı tikdirəndə gəlin görür ki, gündə bı damın bir tərəfinnən nəysə göyərir, bitir. Bı bını daşıyır, tökür çölə. Yoldaşı əvə gələndə deyir ki, axı mən belə bir möcüzə görmüşəm. Bu nədisə bitir, ha tökürəm çölə, genə də bitir. Deyir ki, onu tökmə çölə, qoy görəh nə bitir. Bırda yekə bir ardıc ağacı bitir. İndi bı kişi damı sökür, ayrı yerdən tikir. Sora bı varranır,

---

* oand – avand

özünə pəyə tikir, onnan sora məçid tikir, hər şərayitini düzəldir. Üç oğlu olur; İbrahim Çələbi, Məhəmməd Çələbi, Mustafa Çələbi. Bircə dənə də qızı olur. Mının da adı Mərziyə. Yekəlillər, əmələ gəlillər, əvlənillər. İndi bı arvat deyir ki, a kişi, maa sən mehir verməmisən axı. Deyir ki, gedəh, – elə bil ki, Hajı Qaraman babanın damınnan bir az əynə, – orda saa bir mehir yeri gösdərəjəm. Gedir, balaca bir çala varmış bırda, "bismillahi-rəhmanı-rəhim" eliyir, əlini uzadır ora. Bıra olur dərin bir quyu. Deyir:

– Bax, bı quyunun suyu qiyamatacan sənin mehrindi. Bu quyu qiyamatacan qurumuyajax.

Hə, indi Allahdandı da, mının qisməti olub. Hə, indi, qiyamatacan bu su qurumur, elə həylə balaca quyudu. Onnan sora Allahtala maralları bına urza verir, süd verir. Qızı deyir ki, ata, beyjə gördüm, qərif yerdən – Arazın qırağınnan bizə qonax gəlif. Papurus çəkdilər, iyi burnuma gəldi. Gözdüyüllər, görüllər ki, iki kişidi, bir də bir qadın, bir də bir uşax. Bı xəsdələnif, bını gətiriflər bıra. Deyir, indi bıllara gətirif qatıx qoyullar, üzüm qoyullar, bir də yemiş qoyullar. Deyillər ki, hələ biz belə bir şey görməmişik. İndi kişi ora-bıra baxır – bı qonax gələn, deyir ki, bax bının bırda sağılanı yox, bı südü hardan alır. Kişi gedir görür ki, arvat duruf bir əz məlhəm bişirir qoyur bir şəlpənin* arasına, sərnici də götürür. Vedrə yox idi, qabaxcan sərnic idi. Sərinci də götürür dərə yuxarı, – ora elə bil ki, dağ yeri kimiymiş, meşəliymiş, – gedir. Dərə yuxarı arvat gedir, gedir, of-of eliyir, marallar gəlir tökülür. Bu məlhəmi də maralın birinin buynuzu çıxmışımış, mına qoyur, sarıyır. Onnan sohra durur sərnici doldurur, sağır, balalarını bir tərəfə ötürür, nənələrini də bir tərəfə. Üsdünə də dua oxuyur, qayıdır gəlir. Deyir ki, hə, bu maral südüymüş, qatığıymış, onçun bu həylə ləzzətdidi. Hə, onnan sohra həylə, maralın biri küsür, bu kişinin gözü dəyir dayna, çıxır gedir.

Hə, sora da ona bir kişi şəkk gətirir. Hajı Qaraman babanın böyrünnən keçəndə atdan yıxılır, boynı sınır, elə bırda da ölür. Onu

* şəlpə – əski

Hajı Qaramandan birəz aralıda basdırıllar. Ora ziyarətə gedən hərə ona bir daş atırdı. Bax, elə həmin o daşın tınqıllığı* nə boydaydı, nə fasonda. Atırdı, bına nəhlət oxuyurdı ki, sən şəkk gətirmisən.

İndi Allah, bala, duasınnan ayırmasın. Bala, o həqqidən də, möcüzəliymiş. Hə, indi biz Məhəmməd Çələbinin övlatdarınnanıx, elə bil oğlannarın böyüyü Məhəmməd Çələbiymiş, biz də onun törəməsiyik.

**74**

Maral buynuz tökən ojax deyərdilər ora. Şıx Hacı Qaraman baba dünyasını dəyişənnən sora marallar gedif orda buynuzdarını vuruf bir-birinə, qırıf töküflər şivən kimi, yas saxlıyan kimi.

O sifdə gəlif çıxıf bizim kəndin yaxınına, Sirih kəndinə. Sirihnən Tatarın arasında bir yerə düşüf. Onun möcüz çəliyi varmış. Orda Yetər nənə oluf. Onun gözdəri tutuluf. Anası-atası gedif kök alağı eliyirmiş, onu da evdə qoymurmuşdar da, qız uşağı imiş. Onu da aparırmışdar özdəriynən. Qurban olduğum gedif çıxıf ora. Deyif:

– Niyə o uşağa da demirsiniz kömək eliyə?

Deyif:

– Gözdəri görmür.

Deyif:

– Olar bir gejə mən sizdə qalım?

Deyillər:

– Niyə olmur?

Möcüz çəliyi varmış, verif qıza, gedif bularnan söhbət eliyif. Tezdən də duruf. Buna sütdü aş bişiriflər. Hajı Qaraman çəliyi alanda belə çəkif gözdərinə. Qız ayana, bu yana baxır. İsdiyir anasına deyə, qonaxdan utanır. Bunnan irəli də qızdar ayrı olurdu da. Deyə bilmiyif ki, mənim səsim çıxa yad qonağın yanında. Gedir çalğını** götürüf başdıyır qapını süpürməyə. Onnan da həyat yoldaşı olur. İndi Yetər nənəynən onun məzarı birdi.

---

* tınqıl – topa, yığın

** çalğı – həyət-bacanı süpürmək üçün istifadə olunan süpürgə

**75**

Şıxlar kəndində Ağdonnu şıx var. Bir vəşi maralı tutur, əlinə də ilanı alır şallax yerinə. Deyir: "Hajı Qaraman qoy məhətdəl qalsın, mən elə kəramətin yiyəsiyən ki, vəşi maral minif gedirəm".

Bunun da (Hacı Qaramanın – top.) yarımçıx hörgüsü var imiş. Hörgünü minif, gəlif onun qabağına. Deyif:

– Xoş gəlmisən.

Ağdonnu şıx deyif ki, hə, sən mənnən böyüh ojaxmısan. Maral vəşi də olsa yeriyəndi, amma hörgünün yeriməyi möcüzədi.

Ağdonnu şıx gedif ona təzim eliyir ki, sən bütün ojaxlara padşah göndərilmisən Diyarbəkirdən.

**76**

Bir dəfə Hajı Qaramanın özünə İran zonasınnan qırx atdı gəlir. Hajı Qaraman hayat yoldaşına deyif ki, – çul, örkən olurdu da qabax, siz yağın ki görməmisiz, – ata çul, örkən gətir. Gətirif bir çul-örkən. Deyif:

– Başına dönüm, axı bu qırx atdı, bir at dəyil a?

Deyif:

– Sənin işin yoxdu, sən göt çulla.

Köhnə dağarcığın divinnən də bir tas arpa gətirif. Deyif:

– Axı bu bir atın normasıdı?

Deyif:

– Sənin işin yoxdu.

Götürdühcə gəlif yerinə, götürdühcə gəlif yerinə. Qırx atın qırxına həmin çul-örkən, həmin arpa bəs edif. Belə-belə onun möcüzələri oluf.

## 77-81. HACI QASIM ÇƏLƏBİ

Çaytumas kəndi var, orda Abdırazaxlar deyilən nəsil var. Abdırazağın oğlu İbad adında bir kişi olufdu, qoçax adam olufdu. Müəyyən adamlar Hajı Qasım Çələbini isdiyiflər öldürsünnər. O

---

* çalğı – həyət-bacanı süpürmək üçün istifadə olunan süpürgə

kişi çəkif yanına, onun qorxusundan heş kəs ona yaxın gedə bilmiyifdi. Sovet hökuməti təzə gələndə müəyyən adamlar deyiflər ki, bir hökumət gəlir, hamını bir qazana möhtaj eliyəjək, müəyyən əxlaqsız işlər olajax. Hajı Qasım Çələbinin yanına gediflər ki, siz ojaxsız, sizi Allah eşidir. Dua elə, bu hökumət yaranmasın. O da gedif bir xəlvət yerdə oturuf, Allaha üz tutuf. Bına məlum olufdu ki, sovet hökumətin bayrağın Xıdır Eylaz götürüfdü. Gəlif deyifdi ki, Xıdır Eylaz mənnən qüvvətdidi, mən onun qabağına keçif Allaha dua eliyə bilmərəm ki, gəlməsin. Sovet hökuməti gələjəh, zülmü çox olajax, ancax xeyirri işdəri də olajaxdı: yol çəkəjəh, yetimləri saxlıyajax. Sovet hökumətinin üstünə bir neçə yerdən hücuma keçən olajax, heş birinin güjü çatmıyajaxdı, hamısını məğlub eliyəjehdi. Altmışıncı illərdən sohra bir müddət əmin-amannıx olajax, onnan sohra özü öz içinnən yıxılajaxdı.

**78**

Bizim ən inandığımız ojax Hajı Qaraman ojağıdı. Onun da törəməsinnən, nəslinnən ən böyüyü, inandığımız Şıx Çələbidi. Onun başına dönüm. Ölüm ayağında olanda deyiflər ki, bizə axırıncı sözü denən, bizə yol göstər, sənin göstərdiyin yolnan gedək. Deyif, sizə üç sözüm var. Hər günahdan Allah keçər, ancax iki şeyin günahından Allah keçmiyəjeh. Deyiflər, hansılardı? Deyif, onun biri sünnüdədi, biri şiədədi. Sünnülərinki odur ki, Maviyaya, Yezidə lənət oxumurlar. Şiələrin günahı odur ki, səddi-əsabədilər. Namaz, ibadət Allah üçündü, onun günahından keçsə də, Allah özü bilər, keçməsə də. Ancax səddi-əsabə olduxlarına görə, Allah oların taxsırlarından keçmiyəjəh. Əbu Bəkrə, Ömərə, Osmana lənət oxuyanın təksirinnən Allah keçmiyəndi.

Bir də, hər yetənnən aşığ* olmaz. Deməyin ki, mən filankəsin qızına aşığ olmuşam. Heş kəs aşıxlığı saxlıya bilməz. Əsas aşıxlar Füzulidi, Kərəmdi, Həkərili Aşıxdı – Sarı Aşıx, bir də Şıx Mir Həmzədi. Sizə axırıncı sözüm budu, tay mənim vaxtım tamama yetdi.

* aşığ – aşiq

## 79

Üş nəfər atdı gəlif Çələbini sınamaxdan ötrü. Hajı Qaramannan yuxarı dam varıdı, o damda oturuflar. Bir xəsdə gəlif, Arazboyunnan idi, səyf eləmirəmsə, Alıkeyhalıdan. Hajı Qasım Çələbi görür ki, samanı basıf bardonlara, farmaş fason yühlüyüf ata, bir xəsdəni də yıxıflar üsdünə. Gətirif deyif ki, bəs ay Çələbi, başına dönüm, bu mənim həyat yoldaşımdı, üzr isdiyirəm, yeddi uşağım var. Bu xəsdələnif. Mən ölüm, bu arvad ölməsin. Mən yetim saxlıyan dəyiləm. Deyif ki, gəl bəri, heş nə sən öl, nə arvad ölsün. Heş biriniz ölməyin. Kömək eliyif düşürüflər yerə. O Çələbiyə xidmət eliyən adamlar oluf. Nə bilim, onun odununu yaran, atını bağlıyan, tavlasını kürüyən, öz qohumlarınnan ey. Kömək eliyənnər düşürüf xəsdəni. Çələbi babam öz yoldaşı Gülpəri nənəyə deyif ki, nimçəyə un qoy, gətir. Bir az un qoyuf gətirif. O unu barmağıynan qarışdırıf belə, deyif:

– Apar bu unu xəmir elə, çörəh çapartma fason yay, bu arvadın ağrıyan üzünü o xəmirin üsdünə yıx, uzat, qoy yatsın.

Kişini də keçirif dama. Orda arvada pilov bişirdif. Yeyiflər, söhbət eliyiflər. Girif çıxdıxca həyat yoldaşınnan soruşurmuş ki, xəsda nağarır. Deyir ki, Çələbi, xəsdə yatıf çox möhkəm. Duruf özü gəlif. Görüf ki, xəsdənin yarası deşilif. Çələbi gedif kişiyə deyif ki, arın-arxayın çörəyini ye, xəsdənin canı qutardı. Xəsdə içəridən yamannamışdı*. O deşilif, arvadın da canı qutarıf, sənin də.

Həmin mamentdə üç atdı gəlir oraya. Deyir:

– Çələbi, bizə gərəh maral südü verəsən.

Deyif ki, oturun, oturun, düzələr. Günorta vaxdı görür ki, marallar töküldü gəldi. Quzular bu tərəfdən töküldü, anaları bu tərəfdən töküldü. Yığılır oraya. Orda gedif onu sağıllar, eliyillər, sora balaları gedir onu əmir. Özdəri ayrılır; anaları belə, balaları belə. Maralın orda qəhəl yeri vardı.

---

* yamannamışdı – xərçəng xəstəliyi kimi bir xəstəlik, qara yara

## 80

Üş nəfər gəlif İran taydan. Gediflər Hajı Qaramanın evladı Alı Çələbini imtahan eləməhdən ötəri. Olar deyif ki, səhər-səhər o bizə gərəh maral südüynən şirin çay verə, sora bizə yemiş verə, qarpız verə, bizə bir möcüzə gösdərə. Olar gəlif – Hajı Qaramanın damı vardı, xəsdələnənnər orda gedif qalırdı, şəfa tapırdılar, – orda onu imtahan eliyən vaxtı biri deyif ki, bizə möcüzə gösdər. O deyif ki, durun gedəh aşağıda mən sizə möcüzə gösdərim. Gəlifər Hajı Qaraman qavırstannığına. Qar imiş, qış imiş. Deyif:

– Qışda mana yemiş tağı görsət, üsdündə yemiş olsun.

Bu da deyif ki, qavırstannıxnan ağzı oyana gedin. Gedəndə görüf ki... Qabaxlar belə şey yox idi da, qavrın üsdünü götürməh, daş qoymax. Üsdünü torpaxlıyırdılar, gedirdi. Görüf kü, qarın içinnən yemişin tağı çıxıfdı ağzı belə, üsdündə də çiçək, burnu belə yemiş, keçib o biri qavırın üsdünə. Onu gözüynən görənnən sora gəlif deyif:

– Mən uje sənə inanıram. Sən yaxşı övliyasan, sənin möcuzatını gördüm mən.

## 81

Hajı Qasım Çələbinin 40-100 müridi olub. Onun bir müridi oluf Siriyli Mürşid adında. Deyiflər ki, indi sən buna müriddih vermisən, qoy bir nömrə görkəzsin, görəh nətəhərdi. Bı Hajı Qasım Çələbi də Mürşidə deyif ki, orda ət qavrılır, get əlini sal içinə, onu bıla. Qaynayan ətin içinnən əl çıxar?

Mürşid də gedif qavırma qazanına habelə əlin salıf bılıyıf, ət də paqhapax qaynıyır. Deyif: “Tay gördünüz?” Əli də yanmıyıf ha, o qazanda qaynayan əti elə eliyif ki, Mürşidin əlinə buz kimi yapışıf.

## 82-83. OĞLANLICA PİRİ

Nənəm hər il məni dağa aparırdı, yanında buyruxçu kimi – su gətir, heyvanı qaytar. Ona köməhçi gedirdim. Maa dedi ki, dağın başında Oğlannıca piri var, səni aparacam ora ziyarətə. Getha-

get, gethaget, getdih gördüh ki, bax, sırfa salınıp, daşdı, bir göyçəh gəlin xamır yayır, kündələr düzülüb ora, sacın üsdündə də çörəhdi. Hesab elə ki, elə açıx görürsən ha. Ama hamısı daşdı. Deyir ki, uşax əəsin eliyip, gəlin də onun altın təmizdiyip, əlin yumuyup xəmirə vırıp, oturup yaymağa. İlahidən daşa çevrilip. Gəlin də, uşax da, sacın üsdündə çörəh də – hamısı daşdı. Ocax da yanır orda. Gözaa həylə gəlir sacın altında.

## 83

Deyir, əvvəllər səmadan qar yox, un yağarmış. Heş kim əkinçilih, biçinçilih, dəyirmən nə olduğun bilməzmiş. İsdədiyi vaxdı meşoğun açarmış, unun yığıp, xörəyin bişirərmiş. Atalar deyir ki, qadınnar tamahgir olar. Elə bir məqam olup ki, arvat xəmir eliyir. – Pirdə onun izdəri var. Ocax daşdarı var, sac var, oxlov var, süfrə, kündələr. – Ana xörəh bişirir. Onda göy alçağıydı. Birdən uşax özün bılıyır. Arvat əl atır kündəni götürsün, uşağı təmizdəsin. Belə olanda dalbadal göydən yaylıxlar tökülür qabağına – rəhli şamaxı yaylıxlar. Gözü işıxlanır, əhəmiyət vermir, uşağın yanını kündüynən təmizdiyəndə göy gurulduyur, nərildiyir, hər şey gedir qəlbiyə, hər şey daşdaşır. Onnan sora göydən un yerinə qar yağır, arvad da xəmir yaydığı yerdə daşa dönür.

## 84. MAZANNƏNƏ

Mazannənə adlı bir arvad dağda sacı qoyub çörəh salırmış. Nəvəsi də ona köməh eliyirmiş. Bu zaman yer üzünü su almağa başdıyır. Su qalxdıxca uşax dağın başına çıxır. Mazannənə suyun altında qalır. Bu o vaxt imiş ki, Nuh peyğəmbər gəmi ilə gəlirmiş. Diri dağına çatanda uşağı görüb gəmiyə götürür. Uşax diri qaldığına görə dağa Diri dağı deyillər.

## 85-87. TUMAS ATA

Mənim bildiyim Tumas atagil beş qardaşdılar. Böyükləri Dərviş Pirimdi, onnan sohra Tumas atadı, Səfi atadı, Kosa Qənbərdi. Bılar qardaşdılar. Bizim zonada böyüy bir qoz ağacı vardı, yıxıl-

mışdı, dibində bir qəbir vardı. Həmişə gedif bir ojax kimi onu ziyarat eliyirdilər. Guya o da bıların bir qardaşıdı. Adı nəydisə, onu bilmirəm. Bizim ərazi – Dağtumas, Çaytumas bu qardaşdarın oluf. Yağışın ixtiyarı Tumas atadadır. Quraxlıq olanda aparıf orda mal kəsirdilər, onu düzgün bölüşdürüf hamıya paylıyırdılarsa, o dəyqə sözümüz eşidilirdi. Dəfələrnən orda iştirak eləmişəm. Ağsakqallar düşürdü qabağa, gedib yığışırdılar ora. Heyvanı kəsif, soyuf paylıyan ayrı olurdu. Ağsakqallar otururdular üzü qıvlıya, Allaha yalvarırdılar, dua eliyirdilər ki, Allahın bizə rəhmi gəlsin. Onun da bizə yazığı gəlirdi, yağış yağırdı, taxılımız olurdu.

**86**

Hajı Rəhimə* hərrənməsən o Tumas ataya çıxanda ziyaratın qəbul olunmur. Gərəh ora hərrənif çıxardın. Birinin züryəti yoxdu. Deyillər ki, Tumas ataya qurban apar, amma Hajı Rəhimə hərrən apar. Allahtala ona övlad nəsib eliyirdi. Taxıl əkirdilər, yağış yağmırdı. Onda deyirdilər ki, adama bir maatdan yığax, mal qurbanı aparax Tumas atada kəsəh. Tumas ata da elə bil dik divara çıxırdın. Orda aparıf heyvan kəsirdilər, heyvan soyulunca o adamlar evə suyu tökülə-tökülə gəlirdi. Heylə müqəddəs pirlərimiz var.

Olar üş qardaş oluf. Biri Tumas atadı, biri Günəş atadı, biri Çəpiy atadı. Günəş atanın da evladı oluf, Tumas atanın da, amma Çəpiy atanın olmuyuf. Çəpiy ata Qubatdı rayonu tərəfdə olufdu. And içəndə deyirdilər ki, sonsuz Çəpiy ata hakqı. Olar Hajı Qaramanın evlatdarı oluf. Günəş ata da Qubatdı tərəfdə olufdu.

**87**

Kafır qavalıyıf bunu (Tumas atanı – top.), aparıf çıxardıf dağın döşünə. Gedif girif ardış koluna. Kəklih qakqıldıyıf deyif ki, filan yerdədi. Gedif girif ayrı yerə, genə deyif filan yerdədi. Gedif, orda beş dəyqədən sora qayba çəkiləjəymiş. Deyif:

– Ardış, göyün getməsin, kəklih, balan artmasın, qız, cehizin bitməsin.

---

* Hacı Rəhim Tumas atanın babası olub.

İndi qıza dokquz maşın cehiz verəsən, genə nəyisə bitmir. Ardıcın da ömrü boyu göyünün getdiyini görmüsən? Kəkliyin də ki, dünyada balası artmıyıf.

## 88. DƏRVİŞ PİRİM

Dərviş Pirim Tumasdan aşağıda Hajı Qasım Çələbinin evlatdarının evinə gedən yoldadı. O pir idi, yolun qırağında idi. Başına döndüyüm Hajı Qasım Çələbini harasa qonax aparırmışdar. Deyifdi ki, atdarın başını saxla, elə burda dəsdəmaz alıf namaz qılajam. O namaz qılınan yeri müqəddəs pir qayırdılar. Qaratikan koludu, hasara alıflar. Ziyarata gedənnər də hasarın başına hərrənillər.

Dərviş Pirimin hökmünü mən görmüşəm. Yoldaşım şofer idi. Təkər düzəldəndə barmağının burasına çəkiş dəydi, onnan barmağı yaman günə qaldı. Durdux bunu götdük, getdih Xəcər nənənin yanına ki, bəs belə-belə. Getdih bu Dərviş Pirimə hərrənəndə – orda da yasdı daş var, elə bil kirkirə daşıdı, – inanırsan, ilan quyruğu üsdə bax belə dik durdu. İmkan vermədi nə o tərəfə keçəh, nə bu tərəfə keçəh. Nəysə, bir az durdux, durdux. Yoldaşım dedi ki, Süleyman peyğəmbərin duası saa qənim olsun, icaza ver, biz hərrənəh. İlan kirimişcə getdi daşın altına girdi.

Hərrəndik getdik. Elə maşınnan düşüf darvazadan içəri girəndə Xəcər nənə dedi:

– Ay Məhəmməd, adına qurban olum, niyə barmağını tutmadın o ilanın qabağına, tüpüreydi. Həmən ilan o ojağın yiyəsidi. Gərəh qoyeydin barmağına tüpürərdi.

## 89. DÜLDÜL PİRİ*

İmamın ağzını gavır diriyif qayaya, deyif:
– Mana tabe ol, saa su verim.
Elə orda xançalı çəkif qayaya, deyif:
– Mana su azdığı deyil ey, ay kafır.

* Veysəlli ilə Xudaverdi kəndinin arasında yerləşir.

Xançalını vurduğu yerdən su çıxır. Sora orda bir kadınnan bir kişi, üzr isdiyirəm, natəmiz olullar, gedif həmən suda çimillər, su quruyur. Hay gəlir qalxoz sədrinə. Qalxoz sədri deyif:

– Niyə quruyuf?

Bir ağsakqal olur Baxış kişi, deyif:

– Filankəsnən filankəs gedif o suda çimif, ona görə quruyuf.

Deyif:

– Gedin o suya qurban kəsin bilmirəm, Allahın yanına, əstəfrillah, çıxın bilimirəm, ordan su çıxsın.

Olar gedif orda qurban kəsif. Deyif:

– Ya peyğəmbər, qələt eləmişih.

Onnan sora su çıxıf.

## 90. AĞABALIM AĞA

Ağabalım ağa seyitdi, onnarın nəsli Həzrət Əliyə bağlıdı. Onun hakqında eşitmişəm ki, çox qüvvətdi şıx oluf, böyük ojax olufdu. Hacı Bəktaşnan bir əsrdə yaşamışdı. Gəlif ki, Hacı Bəktaşnan görüşsün. Bir əjdahanı tutur, üstündə gəlir Hajı Bəktaşın kəndinə. Hajı Bəktaş görür ki, Şıx Ağabalım bir əjdahanı minifdi, gəlif bunun görüşünə. Bu sıçrayıf oturur divarın üstündə. Divar yeriyir Şıx Ağabalımın qabağına. Yeriyəndə kişi də düşür. Bir-birini ziyarət eliyəndən sohra Şıx Ağabalım deyir ki, sən mənnən qüvvəli ojaxsan. Mənim mindiyim cannıdı, sən cansızı mindin yeridin mənim qabağıma. Buna görə də sən mənnən qüvvəlisən.

## 91-95. MUSTAFA SOFU*

Deyilənə görə, Mustafa sofu ağır seyid oluf. Oların bir qolu Qaraçimən kəndinə gedib çıxır, Seyid Mir Yusif. Mustafa sofu-

---

* Yeməzli kəndindən üç-dörd kilometr aralı yol kənarında Sofular piri yerləşir. Orada bir dam, damın içində bir qəbir var. Söyləyicilərin dediyinə görə, niyyət edib evdə fəsəli, toyuq bişirər, aparıb orada gəlib-gedənə paylayardılar. Ziyarətə gələnlər üç dəfə qəbirin başına fırlanar, nəzirlərini qoyardılar. Bişmiş gətirənlər bişirdiklərini bölüb gəlib-gedənə verərdi. Bəzi adamlar heyvan aparar, orada qurban kəsər, elə orada da bişirib paylayardı. Oradakı qəbir Mustafa sofunun qəbiridir.

nun üç oğlu oluf. Seyid Mustafanın bir xüsusiyyəti varmış; kimənsə danışanda üzünə baxmazmış. Yaylağa hazırlaşırmışdar. Bir gün evin ortasında ocax qalıyıb, böyründə oturuf demi çəkirmiş. Ocaxda da kömbə bişirmiş. Həbibulla da dələduz uşağmış. Uzun ağac düzəldir, çıxıb bacadan kömbəni oğurlamaq istəyir. Mustafanı da görmür. Şişi vurur kömbəyə, yuxarı dartanda kişi diksinir. Başın qaldırır, bacada Həbibullanı görür. Deyir, saa daş dəysin, bala, məni qorxutdun. Söhbətə görə, yaylağa köçəndə qaya uçur, daş dəyir Həbibullaya, orda ölür. Həbibulla da təzə evlənmişmiş, arvadı hamilə imiş. Arvadından bir oğlu olur, babasın adın uşağa qoyullar: Mustafa. Bizə gələn nəsil nəvə Mustafadan törəmədir. Mustafadan Qurban, Mirzə, bir də Sofu olur. Qurbanın oğlu, Abasqulu, Abasqulunun oğlu Allahverdi, Allahverdidən də mən törəmişəm. Birinci Mustafaya Sofu Mustafa deyirmişlər. Deyilənə görə, Mustafanın bir tuğu varmış. Kimin ki onun adına nəzir-niyazı varmışsa, tuğu buraxan kimi uçurmuş həmin şəxsin qapısına, nəzir-niyazın tuğun üstünə qoyarmış.

**92**

Qaynatam danışardı ki, Mustafa kişinin bir qəşəh aftafası vardı. Cavannar çox düşüblər üstünə ki, aftafanı oğurrasınnar. Kişiyə agah olub. Evdəkilərə deyib ki, aftafanı aparın qoyun bacanın qırağına. Oğrular görür, aftafanı kimsə gətirib damın bacasına qoyub, onu oğurramax üçün yaxşı fürsət düşüb. Gecənin bir vaxtı kişi görür qışqırtı var. Başın bircə dəfə qaldırıb deyir:

– Aftafa, Allah olara nəhlət eləsin, burax. Burax getsinnər.

Deməkk, oğrular nətər yapışıflarsa aftafadan, nə əlləri aftafadan qopuf, nə də aftafa yerdən qopuf.

**93**

Rəvayətə görə, sofular ojağında bir seyid yaşıyıb. Bu seyid bir dərzi minərmiş, o biri dərzlər onun dalınca düzülüb gələrmiş xırmana. Bir gün seyidin arvadı deyir ki, kişi, bu qədər möcüzə göstərirsən. Bunlar hamısı sənin hesabadı, yoxsa mənim? Deyir:

– Aaz, sən seyid balası deyilsən, qara insansan. Sən kimsən ki, sənin hesaba olsun?

Deyir:

– Kişi, gəl boyna al ki, mənim hesabımadı.

Deyir:

– Yox.

Arvad qoyun qığın qoyur süd bişirdiyi qazanın altına. Səhər kişi gedir, nəkqədər dərzi minir, dərz tərpənmir. Kişi kor-peşman gəlir. Arvad deyir:

– Noldu?

Deyir ki, belə. Arvad deyir ki, indi razılaşırsanmı mənim hesabımadı? Deyir:

– Axı sən qara adamsan.

Deyir:

– Gəl bura.

Qazanı qaldırır, deyir:

– Bu daha. Mən sənin ocağı belə pak saxlamışam, sən də olmusan seyid. Bax bu qığı qoymuşam bura, ona görə sənin gücün kəsərdən düşüb.

**94**

İranda bir bəy qızılquşu buraxır ov dalınca. Qızılquş gəlir qonur Sofularda dağdağan ağacı vardı, onun başına. Quşu gəzdirən xana deyir ki, hal-qəziyə belə, quş getdi. Deyir, bilmirəm, quşu tapmalısan. Bu gəzir, gəzir, görür ki, quş dağdağan ağacındadı. Nəkqədər bunu çağırır, quş hopbulur qonur bu qənədə, hopbulur qonur o biri qənədə. Tutdulux vermir. Kişi qayıdır geri. Gördüyün xana xəbər verir. Xan deyir:

– Gedirəm, orda görmədiyimi görsəm, dağıtmıyacağam, amma gördüyümü görsəm, oranın altını üstünə çevirəcəm.

Gəlir. Arvad gətirir buna av südünnən çalınmış qatıq qoyur. Deyir ki, bala, ye, yemədiyin yeməkdi. Bəy deyir:

– Mən qatıq yeməmişəm?

Deyir:

– Bala, belə bax.

Baxır götürür bir sürü av – ceyran, cüyür, əlik, dağ keçisinə biz av deyirik, – gəlib, arvatdar orda sağır. Durur əlindən öpür, deyir:

– Bağışla, qanmamışam.

**95**

Başqa rəvayətdə deyillər ki, Mustafa kişi bir nökər saxlıyarmış. Bir gün irannılar gəlir, bu çobanın əlin-ayağın bağlıyıllar, sürünü çəkillər, gətirillər Arazın qırağına. Gün qızır, qoyun başdıyır yeriməməyə. Deyillər:

– Onsuz da məcburux əylənməyə. Bu heyvandan kəsin, yeyək.

Qoyunun birin kəsillər, soyullar, ətdi. Taxıllar şişə, ətdi. Ocaxda bişirillər, götürəndə olur keçə. Biri belə, ikincisi belə, üçüncüsü belə. Axırda içlərindən biri deyir:

– Ə, bir əl saxlıyın. Ə, qanmırsız?

Çoban da kişiyə xəbər aparır ki, ağa, sürünü apardılar. Bu da deyir:

– Bala, narahat olma, gətirəcəklər.

– Ay ağa, apardılar ey.

Deyir:

– Bala, narahat olma, gətirəcəklər.

İrannılar gözdüyüllər, sərin düşənnən soora qoyun ota qalxanda sürünü geri qaytarıllar. Uşaq görür ki, odey, sürü gəldi Hacıyuaxlının başına.

## 96. AŞIQ QƏBRİ

Aşıx qəbri deyirdilər. Deyirdiər, o, Yaxşıynan sevgi imişlər. Bunnar bir-birinə qovuşa bilmiyif. Deyif:

Mən aşıx, sinə oyun
Sindirin, sinə qoyun
Yaxşını qibləsinə
Aşığı tərsinə qoyun.

O, Qubatdı rayonundadı. Onun dörd bir tərəfində daşdan dəvə, at, hər bir şey vardı. Boğazında zobu olan o ojağın üsdünə

gedirdi. Üş çərşənbə günü ora gedif o torpaxdan boğazına çəkəndə zobu gedirdi. Həkəri çayının o tərəfində Aşığın qəbridi, bu tərəfində Yaxşının. Bir dənə kümbəz varıdı Sarı aşığın böyründə. İstədih onu hərrənəh, bir dənə ağsakqal kişi dedi ki, ora hərrənmə, o nəhlətdəmədi. Deyirdih:

– Niyə nəhlətdəmədi?

Deyirdi:

– Yaxşıynan Aşığı o qoymuyuf bir-birinə qovuşa.

Deyirdilər niyyətin qəbul olmaxdan ötrü gedif minərsən dəvəyə, ya minərsən ata. Elə adam olurdu nə qədər cəhd eliyirdi, o daşın belinə qalxa bilmirdi.

## 97. TUP-TUP PİRİ

Deyilənə görə Cənab Əmir Düldülü aparıb bağlıyır ora. Mağara kimin bir yerdi. Üstən damcı damır. O qədər damıb ki, daşın üstündə yer açıb. Orda Düldülün rəddi var. İndi də ora qurban aparıllar.

Çevirtkə gələndə, kim gedib o pirin suyunnan götürüb arxıya baxmadan gəlsə, murad quşu o saat gəlib çevirtkəni qoymur ki, buğdaları yesin. Arxıya döndüsə, su təsirdən düşürdü. Pirdən su gətirən adamın dinməyə haqqı yoxdu. Əyər dinsə, onda da su təsirdən düşür.

Bizim kəntdə qurax olub. Seyid gedib axşamı o pirdən su gətirib, səhəri yağış yağıb.

O pirə getdin, gərəh xoruz aparasan. Ora ayrı heyvan çıxartmağ olmaz. Sıldırım yerdi. Yuxarıdan baxanda, adamın gözü axır. Ora belədi: durursan damcının altında, əyər niyətin hasil olmasa, başaa damcı düşməz. Başa damcı düşməsə, su götürmürsən. Götü- sən də faydası yoxdu.

Fərəş kişi gedib o sudan gətirib. Fikirləşib ki, aparım öz zəmilərimə səpim ki, mənimki yaxşı olsun. Bının yanınca gedən deyir:
– Səhər durdum, tuluğa baxdım, gördüm ki, tuluxda su lap azdı.

Fərəş kişi dedi ki, apardım səpdim öz zəmilərimə. Deyir, həmən ili yaxşı taxıl oldu. Ancax Fərəş kişinin sünbüllərinin içində bir dənə də buğda olmadı.

Xəyanət belədi!

## 98. QATIRIN ZİYARƏTİ

Ziyarət ojağı* uşax paylıyırdı. Bir harsının da uşağı olmurmuş. Gedif mollanın, seyidin yanına. Molla deyif:

– Get ziyarata, uşax qismətin var.

Gəlif qatırı minif, ziyarata qatırnan gedif. Elə ojağı qatırnan da fırranıf. İl tamam olanda, qatır axı qulunnamır, qatır qulunnuyuf, amma arvadın uşağı olmuyuf. Arvad gəlif mollaya deyif ki, sən yalan demisən! Molla da bına deyif ki, sən getdin ziyarata, yoxsa qatır getdi? Qatır getdi, dolandı, ona görə də qatır qulunnadı.

## 99-101. OCAQLARIN YARIŞI VƏ MÖCÜZƏLƏRİ

Atam Dünyamalı maa deyirdi ki, bala, Sobuda seyiddər görmüşəm, iki qardaşıdı. İkisi də bir-biriynən deyişip. Deyillər ki, hansımız gücdüyüh? O deyip, mən gücdüyəm, bı deyip, mən gücdüyəm. Hamının gözünün qabağında deyir, biri suya hayxırıp, su durup, o biri seyid də tifarı minib ilanı qamçı eliyip vurup tifara, tifar yeriyip. Sobuda olup bı seyiddər. Sobudan çıxan su təmiz, pak sudu. Ona görə o seyiddər gedip Sobuda daş bağlıyıp qalıp. O seyiddərin ojaxları o qədər gücdü olup ki, ilan bir ziyannıx eliyəndə, o ilan gəlip o kişinin ojağının qırağında qıvrılıb yatıp. Əlbəhəl kişi deyib ki, bı hardasa bir ziyannıx eliyip ki, bı ilan gəlip bıra kişinin ojağın tutup durup. ilanın tüpürüp üstünə, o ilan ölüpdü. Kişi ajıxlı tüpürüp ki, Allah saa nəhlət eləsin, harda bir ziyannıx elədin gəldin çıxdın bıra. Tüpürüp üstünə öldürüp.

---

* Ziyarət dağında yerləşir

## 100

İranda iki qardaş mübasə eliyillər – onnarın əjdadı gəlib Sobuya, – deyir ki, mən möcüzat göstərərəm, o birisi də deyir ki, mən sənnən də artıx göstərərəm. Deyir, buyur da! Çağırıp, çöldən av gəlip. Av gəlip, çöl avı. Gəlib bılların huzurunda durup. İxtiyar verip ki, Allahın heyvanı, gəldin, xoş gəldin, gedə bilərsən. İndi bı birisi artıx hirsdənib də, bı birisi qardaş. Tifar qurmuşmuşdar, təzə tifar. Çıxıp tifarın üstünə, tifardan bir ilan çəkip, şallax əvəzi vırıp, tifar yeriyip. Yeriyəndə o biri qardaş deyip, ay dad, tərpənmiyin, səninki mənimkinən də artıx oldu.

## 101

İki qardaşdılar – Şıx Əzəddin, Seyid Məzlum ağa. Pirdə onnarın qəbri var. Bı qardaşdar Qazan Zəmi kəndinnən oluplar. Bı ojax çox ağır ojaxdı. Bı ojağa deyilən qurban yerdə qalmaz. Deyir, üş qardaş Şıx Əzəddinə qonax gəlir. Qardaşdar ona inammırmışdar. Şıx Əzəddin arvadına deer ki, aş pişir, vır dəmə. Arvat aş pişirir, vırır dəmə. Aş hazır olanda Şıx Əzəddin bir sənəh suyu götürüp tökür aşın üsdünə. Qonaxlar fikirrəşir ki, bir sənəh suyun qabağında aşda aşdıx qalmaz. Ama arvat aşı qablara çəkip gətirəndə görüllər, su nə gəzir, aş ləzzətdicə aşdı. Gejə olur, qonaxlar yıxılıp yatıllar. Səhər durub görüllər, Şıx Əzəddinin həyəti çölün heyvanıynan doludu, arvat-uşax bı heyvannarı sağır. Qonaxlar deerlər: "Hə, bıra əsl ojaxdı". Sən demə, bı üş qardaşın da İran tərəfdə ojağı varmış. Onnar gəlipmiş Şıx Əzəddinin güjün sınamağa.

## 102-103. VERGİLİ ADAMLAR

Bizim kəntdə bir Süsənbər arvad varıdı, dədəsiin-nənəsiin bircə qızıydı. Bı yaxınnarda öldü. Müharibə vaxtı qəbirstannığın yanında taxıl döyürdü. Biz uşağıydıx, mindirirdilər bizi vəlin üstünə. Bı Süsənbər arvad gedip uzanırdı tayaan dibinə, birdən qışqırıb uzandığı yerdən qalxırdı. Bir cürə arvadıydı. Deyirdim, ay Süsənbər xala, niyə elə eliyirsən? Deyirdi, bala, yuxuya gedən kimi arxamnan qışqırıllar, söyüllər, deyillər niyə yatırsan? Deyir-

dim, ay Süsənbər xala, başqaları yatanda niyə heylə olmur? Deyirdi, ay bala, sən xırda uşaxsan, neyniyirsən soruşup? Bir dəfə ərimə demişəm, bı günə düşmüşəm.

Süsənbər xalanın bir üzü qapqaraydı, həmən tərəfdən gözü də koruydu. Nəqqədər eliyirdim, sirrin demirdi. Bir dəfə gözümə gilas qabığı düşmüşdü, gözümü döyürdü. O qədər döydü, döydü, yapışıb qaldı gözümdə. Bir gün Süsənbər xala soruşdu ku, ay bala, o gözündəki nədi? Dedim. Başımı qoydu dizinin üstünə, iynəni çıxarıb gözümnən qabığı götdü, qoydu ovjuma. Süsənbər xala diliynən də gözdən saman çöpü, qar-qabıx çıxarırdı. Dilin birjə dəfə gözdə hərriyirdi, o sahat təmizdənirdi. Yapışdım yaxasınnan, qopmadım, dedim, danış, sirri maa de. Naəllaş qalıb dedi. Dedi, bala, cavan vaxtı, təzə ərə gedən vaxdı bir ağ atdı gəlib dururdu çardağın yanında, adımnan çağırırdı. Durub düşürdüm çardaxdan. Mən yerə düşməmiş quş kimi alıb məni qoyurdu tərkinə, aparırdı qəbirstannıxları gəzdirirdi, bütün qohum-əqrabanı maa göstərirdi, deyirdi hama bı sirri heş kimə aşma, saa elə bir çörəh verəcəm ki, ölənətən kasıblıx nə olduğun bilmiyəssən. Sora gətirib məni qoyurdu çardağın yanında, yox olurdu. Kamıl da bir-iki dəfə görmüşdü, məni döyürdü, öldürürdü, deyirdi, de görüm, bı gecə vaxtı hardan gəlirsən? Mən də demirdim. Kamıl elə bilirdi pis yola gedirəm. Axırda məjbur qalıb dedim. Dedim, Kamıl, bı sirri saa deyərəm, ancax bınnan da çörəyimiz kəsildi. Danışdım Kamıla, yatdıx. Təzəcə yatmışdım ki, üzümə bir şillə dəydi. Görürsən, yeri qalıf. Gözüm kor oldu, qaldım taygöz. Dedim Kamıla, di get, indi qazan, saxla məni, görüm nejə saxlıyırsan? Onnan sora beləjə kasıflıxdan qurtarammırıx. Onnan sora o ağ atdı ta heş vaxt gəlmədi.

**103**

Bı əhvalat Ördəhli kəndində olup. Qızgil evlərini pirin yanında tihdirmişdilər. İki dənə ilan gəlir. Birinin üstündə qara yaylıx, o birisinkində bilmirəm nədi. Gəlir, deyir vergi verəjiyih. Qız nəysə görürmüş. Qızın dili tutulur. İrəhmətdih Seyid Hüseyn ağagilə gedir. Orda bir üş-dörd gün qalannan sora dili açılır. Seyid

Hüseyn ağaynan söhbət eliyir. Deer ki, belə... Seyid Hüseyn ağa deer ki, bala, götürməsən, səən dilin açılmayajax. Onnan sora götürür. Seyid Hüseyn ağa deyir ki, bizim evdə bir baydaça var, bizə deyərsən, onu da unnan doldurup verəllər saa, kimin ki boğazı ağrıyır, una batırıp əli çəkərsən boğazına, boğazında nə olsa, çıxajax. Həyləliynən ona vergi verilir. O kəlağayı ki var, onu uşağı olmuyan qadınnar belinə bağlıyır, uşağı olur, o ilan verən kəlağayı. Əyər o kəlağayını qız götürməsəydi, dili açılmazdı, lal olardı.

## 104-105. ŞIX MƏHƏMMƏDƏ VERGİ VERİLMƏSİ

Deməli, Şıx Məmməd cavan oğlandı, hələ evlənməmişdi. Qoyun otarırmış. Gecə yatır. Yuxuda görür ki, – bunun sürüsünün içində də göy şişək vardı, – qoyunu otardığı yerdə bu şişək sürüdən ayrıldı, getdi qaramux kolun dibin eşdi, ordan iki mıncıx çıxdı. Şıx Məmməd bunu yuxuda görür.

Səhər gedir, qoyunu vırır örüşə. Yadınnan çıxmışmış hər şey. Bu şişək qoyun ayrılır, gedir qaramux kolun dibin eşir. Yadına düşür ki, mən bunu yuxuda görmüşəm axı. Gedir görür ki, yerdə iki mıncıx var. Mıncığın birin verir çoban yoldaşına, birin də özü götürür. Bunu əllərinə alan kimi başdıyıllar deyişməyə. Gecə yarıyatan deyişillər. Qoyunun da özbaşına kəndə gedəni gedir, itəni itir. Kəndə hay düşür ki, Şıx Məmməd də yoxdu, çoban da yoxdu. Qoyunnar da gəlif aralığa. Gəlillər, səsnən tapıllar ki, bular deyişillər. Deyillər, bular dəli oluf. Şıx Məmmədin yoldaşına sidik içirdillər, o pozulur. Şıx Məmməd anasına deyir ki, ana, mənə heç nə içirtmə. Mənim ağlım başımdadı, dəli deyiləm. Səhər də gedif qoyunu otaracam. Nəysə, buna heş nə eləmillər, səhər də gedir qoyunu otarmağa. O günnən Məmməd olur Şıx Məmməd.

### 105

Şıx Məmmədgil ayilədə çox uşağ oluflar. Böyüyür, yarlıyaraşıxlı bir oğlan olanda Burcalılar kəndinnən adam gəlir, bu oğlanı aparıllar ora çoban. Orda Nəbiyalı bəyin xırda quzusunu, bu-

zovunu otarırdı. Bir gün xəbər gəldi ki, sizin oğluza vergi verilib, onun gələcəyi yaxşı olmuyacax. Yəqin baş götürüb gedəcəh. Gəlin aparın uşağızı. Valideynləri gedillər uşağı gətirillər. Özü nağıl eliyib ki, payızdı, heyvanı yığmışam kahaya, özüm də çuxamı götürüb yatmışam. Bir də yuxuda görürəm ki, qar qarrıyır. Yuxudan ayıldım, baxdım gördüm, doğrudan da, təzəcə başdıyıf, qar qarrıyır. Durdum sürünü aşdım, buraxdım örüşə. İki alabaş saxlıyırdım, sürünü buraxan kimi olar da sürünün qabağınca gedirdilər. – Özü getməzmiş sürünün arxasınca. Qarğudan tütəyi varmış, o tütəynən heyvannarı çağırıb qaytararmış. – Görür sürü örüşdən çıxıb palıd pöhrəliyinə gedir. Tütəyi götürür, başdıyır çalmağa. Nə qədər çalır, sürü qayıdır, bir şişək qayıtmır. Qayıtmıyanda gedir onun arxasıncan. Gedir görür ki, çəhlimliyif, girif pöhrəliyə. Bir az yaxınnaşmışdı, görür bir muncux şişəyin dırnağının arasında parıldıyır. Muncuğu götürən kimi şişək qayıdır geri. Məmməd də başdıyır şeir deməyə. Qayıdır gəlir, görüllər başı havalanıb. Bular qorxublar ki, bunun sevgilisi uzağa düşər. Görüblər yox, sevgilisi Xırda Qışlaq kəndinə düşüb. Amma qızı vermillər buna. Pirveyisli kəndinnən bir nəfərə ərə verillər. Meşənin ortasında dərə var, ordan bulağ çıxır. Üş günnən soora bu qız səhəngi götürür, gəlir bulağa. Yolun altı armud ağacıdı. Səhəngi söyküyür suyun ağzına. Çatını asır, ayağının altına daş qoyur, çıxıf ordan özünü asır, öldürür.

Burda mollalar vardı, həmişə Şıx Məmmədin dediklərini olar yazırdılar. On səkgizinci il gələndə bir axşam xəbər gəldi ki, ermənilər işıxlanmamış kəndi atəşə tutacaxlar, hazırraşın, qaçın. Bu fikirdə hamı yır-yığış eliyir. Mərfəşdəri qovladılar. Bu mollalar da Şıx Məmmədin iki çual əlyazmasın yığıf ağzın bağlıyıflar, qoyuflar ki, bir az uzanax, o başdan durax. Ermənilər heç qoymuyuflar dan yeri sökülə. Sağdan-soldan atəşə tutuflar, başını götürən qaçıf. Orda ev də yandı, eşik də yandı, Şıx Məmmədin iki çual əlyazması da yanmışdı.

## 106. RÜSTƏM ZAL

Peyğəmbər əleyhsalam vəhnən Allahdan xayiş eliyir ki, mən Rüsdəmi Zalı görmək isdiyirəm. Allahtala deyir ki, qarşıya bax. Dağın birin götürür qoyur o biri dağın üsdünə. Deyir, o Rüsdəmi Zaldı. Deyir, yox, özünü görmək isdiyirəm. Gətirir bir dağı da qoyur üsdünə. Peyğəmbər atdan yuxarı baxır. Deyir, yox, mən Rüsdəmi Zalın özün görmək isdiyirəm. Deyir, yaxşı, görmək isdiyirsənsə, gösdərərəm. Rüsdəmi Zalı gösdərir buna. Rüsdəmi Zal görkəminə görə, atına görə çox seçilmiş şəxsiyyətdərdəndir. Deyir ki, ya peyğəmbər, torpax o qədər qocalıb ki, atımın ayağı yerdə durmur. İcazə ver mürəxxəs olum. Bu o deməkdir ki, dünya nə qədər qədimdi.

Babam deyirdi ki, insan fikirrəşmir ki, hər dəfə torpağa ayax basanda ayağı yeddi gözəlin gözünə düşür. Demək, dünya o qədər doluf boşalıf, o qədər yeni nəsillər gəlib gedib ki, indi hər ölünün üstünə yeddi ölü düşür.

Rüsdəmi Zalın bir qızı olub. Bir gün qızına deyir ki, sənin on beş yaşın çatıf, evdə oturmağ olmaz. Sən gərək kimnənsə ayilə qurasan. Deyir, ata, kimnən? Deyir, nə bilim, baxarsan. Bura pəhlivannar gələcək, bəylər gələcək. Baxginən, hansın bəyənsən, səni ona verəcəm. Deyir, yaxşı.

Gətirir bir dənə fərş salır yerə. O vaxdı yerdən oturarmuşdar. Deyir, oturun. Oturullar. Elə ki, hər şey hazır olur, yeyillər, içillər. Qız fərşin bir qulpunnan tutur, belə qaldıranda hamı yıxılır fərşdən, bir dənə atası qalır üsdündə. Deyir, ata, buların hansına gedim? Axı buların heş birisi sənnən müqayisəyə gəlmir.

## 107. HƏZRƏT ƏLİ VƏ YEZİD

Yezidnən imamların davası düşəndə bı imamlarımızın hamısı qətl edilir. Göydən vəhy gəlir Əliyə. Əli Allahın pəhləvanıdı, şiridi. Əli düşür bı Yezidin qoşununu qırmağa. Qıranda Allahtala Cabreyildən vəhy göndərir. Cabreyil buyruxçudu. Göndərir ki,

get, Əliyə denən ki, hamını qırıf qutarmasın, yer üzündə adam qalmaz. Gəlir Cabreyil Allahtalanın sözünü bına çatdırır. Deyir:

– Yox, and içmişəm Əbəlfəzin qələm olan qollarına, atımın üzəngisinə qan çıxıncan bı Yezidin qoşununu qırajam.

Orda Cabreyil genə gedir Allah-talıya deyir ki, bəs Əli belə deyir. Allahtala orda bir al yağış tökür. Yağış başdıyır, sel-su qalxır, qannı su qalxır Əlinin atının üzəngisinəcən. Orda əl saxlıyır. Əl saxlıyannan sora bırda belə qərara gəlillər ki, Yezidnən Əli təhbətəh görüşsün. Bıllar çıxır meydana. Yezid deyir:

– Qavaxjan sən qaldırırsan qılınjı vurmağa, yoxsa mən?

Əli deyir:

– Allah saa nəhlət eləsin, biz fürsəti qavaxça duşmana verrih. Sən qaldır vır.

Qaldırır qılınjı, Əlinin başına vıranda Əli qalxanı qaldırır, qılış sürüşür düşür. Əliyə heş nə olmur, bir ziyanı dəymir. İndi Əli qılınjın qaldırıf vıranda Yezid dimməz duruf. Deyir:

– Nə hiss elədin?

Deyir:

– Bax, barmağımın başı göynədi, bir də dilimin ucu. Qaldır qılıncı vır da bir də.

Deyir:

– Allah saa nəhlət eləsin, atı tərpət.

Tərpədəndə atı, yarı şakka olur: yarı şakkası bir tərəfə düşür, yarı şakkası bir tərəfə. Yezid orda cəhənnəmə vasil olur.

## 108-110. LƏLƏ

Bizim elə öz rayonumuzda oluf, Lələ dağı* deyillər. Deyir həmən o Lələ neçə yüz il yaşıyıfdı, özü də tək yaşıyıf. Bosdan əkifbecərirmiş. Heş kəsə əliynən heş nə vermiyif. Gəlif isdiyənə deyif ki, get, yığ apar, get, yığ apar. Bir dəfə əlində çürük yemiş varmış. İsdiyirmiş özü yesin. Görüb ki, yolnan bir adam gedir. Deyif:

* Lələ dağı – Cocuq Mərcanlı kəndinin yuxarısında yerləşir.

– Ala, bunu verim saa, ye.

Öləndə deyillər ki, bir o yemiş onun cinazəsində görüküb. Becərdiyinin heş birini özü yemiyif ey. Verirmiş millət yesin, amma heş birini əliynən vermiyif. Bircə o çürük yemişi əliynən verif, o da ofsanata keçif.

**109**

Deyir, həmən o Lələyə deyiflər ki, niyə ev tikmirsən özəə?

Deyif:

– Axırı ölüm deyil, öləcəm. İsdəmirəm.

Allahtala onun ömrünü uzadır, altı yüz ilə qədər ona ömür verif. Gənə də ev tikmiyif. Deyif:

– Axırı ölümdü.

**110**

Bir vilayətdən bir aylə uşağı-zadı olmazmış. Elə bil gedəcəhmişdər haca. Gəlif bunnarın (Lələnin – top.) evində qalanda qadın soruşur ki, uşağın-zadın. Deyir ki, uşağım olmur. Bu, ərinnən xəlvət gətirir bunun qucağına balaca daş qoyur. Daşı qoyullar, yürüyüllər. Yürüyüllər, yürüyüllər, səhər duranda görüllər uşağ ağlıyır. Həmən daş uşağ oluf bax, həmən Lələnin evində. Ordan da haca getmillər, ər-arvad uşağı götürüf qayıdır geri.

## 111-112. LOĞMAN

Loğman bir günnəri yolnan gedirmiş. Görür kü, bir dəstə oğlan uşağı çıxıb qoz ağacına. Biz cəviz deyirik, cəviz ağacına. Cəviz təzəcə iç bağlayıb, hələ möhkəmlənmiyif. Bunnan uşaxlar yığıllar, sındırıllar yeyillər. Deyir: "Köpəh uşağı, indi qayıdanda halınıza baxajam". Gedir harasa məclisə. Qayıdanda deyir: "Baxım görüm, o uşaxların halı necə oldu?" Qayıdanda görür ki, uşaxlar indi də çıxıblar zoğal ağacına. Harda yetişmişi, laxlamışı var, əldə durmuyanı var, onu yığıf yeyillər. Deyir: "Köpəh uşağı, dərdini tapbışdıız, dərmanını da yedıız".

## 112

Bir gün bir nəfər yolnan gəlirmiş. Loğmanın qızı su doldururmuş bulaxdan. Bu qız bulağa yenir, bu kişi bunu narahat eliyir. Qız deyir:

– Sən bilirsən, mən loğmanın qızıyam?

Kişi deyir ki, noolsun Loğmanın qızısan? Neyniyəcəh maa? Həftədə bir dəfə, ayda bir dəfə, ildə bir dəfə – dədaa deyərsən belə. Qız gəlir evə. Deyir, bəs belə-belə. Bulax başında bir kişi vardı. Dedim Loğmanın qızıyam. Dedi, noolsun? Həftədə bir dəfə, ayda bir dəfə, ildə bir dəfə. Amma mən onun mənasın başa düşmədim. Loğman deyir:

– O mənim sözümdü kişi sənə deyif. İldə bir dəfə gənəgərcəh yağıdı ki, insan işməlidi bağırsaxları təmizlənsin. O zaman onda xəstəlih olmur. Kişi xeylağı ayda bir dəfə başını qırxdırmalıdı ki, müəyyən azar-bezardan uzax olsun. Həftədə bir dəfə də yuyunmalıdı.

## 113. SƏN ATIN NORMASINI BİLİRSƏN, MƏN BİLMİRƏM?

Bir qoca varmış, bir çətən külfəti varmış. Külfətin çətin dolandırırdı. Cüt əkirdi, kol vururdu, hər bir iş görürdü ki, axşama bir qazancı olsun. Qoca başı aşağı atın dalıncan gəlirdi. Musa deyir ki, ey xudavəndi-aləm, bu qocaya nə qəzəbin tutufsa, genə mənim xətrimə ona rəhm elə. Deyir:

– Musa, indi ki sən xayiş eliyirsən, de ki, getsin Yasamaldan almanı alsın bir manata, Montin bazarında satsın iki manata. Amma bu şərtlə ki, atına beş put əvəzinə on put yühləsin, yüz kilo əvəzinə, iki yüz kilo yühləsin.

Musa peyğəmbər deyir:

– Allahtala, axı bu at on putu götürməz.

Allahtaladan səda gəlir ki, ya Musa, nətəər olur, sən bir atın normasın bilirsən, mən kimə nə lazımdı, onu bilmirəm?

## 114. YETİMƏ CAN-CAN DEYƏN ÇOX OLAR

Bir adam çörək alıb gedir. Bı görür ki, yolun qırağında bir adam acınnan ağlıyır. Bı adam oturur bının yanında. Başdıyır ağlamağa. Üçüncü bir adam bınnara yaxınnaşıb ağlamaxlarının səbəbini soruşur. Bı deyir:

– Bı adam acınnan ağlıyır. Mən də onun dərdinə yanıb ağlayıram.

Bı deyir:

– O çörəhdən kəs ver yesin, nə o ağlasın, nə də sən.

Bı deyir:

– Can dəyil ki, qurban eliyəm. Axı çörəyə pul vermişəm.

O vaxtdan deyillər: Yetimə can-can deyən çox olar, çörəh verən az.

## 115. QƏZƏR XAN

Qəzər xan adlı birisi olub. Qarababalı Yeravan kişi nağıl eliyirdi ki, Qəzər bir gün deyir ki, ay uşaqlar, durun burdan gedək, ayrı yerdə sizə bir söz deyəcəm. Qaldıqları yerin də suyu zəyif imiş. Bir bulaqları vardı, amma kifayət etmirdi. Girvəni aşıllar Seyiddərə sarı. Orda deyir ki, ay uşaqlar, burdan köşməliyik. Köçək burdan. Deyillər:

– Əşi, bir belə yolu bizi niyə gətirdin? Bunu elə orda deyərdin da.

Deyir:

– Ə, yerin də qulağı var ey. Orda demədim ki, yer bizdən inciyər.

## 116. TORPAĞIN TAVAZASI

Bir gün Şah Abbas Vəzir Allahverdi xana deyir ki, vəzir, – o qədər bular mehriban imiş, şirin imiş bir-birinə, – hazırraş, bir səfərə çıxax. Görək bu millətin güzəranı necədir. Bular hazırraşıllar, üç-beş günnük yemək hazırrığı da görüllər. Şah əmr edir, atdanıllar. Gəzib dolanıllar, bir biyabannığa çıxıllar. Şah Abbas deyir:

– Vəzir, bu biyabannıx xoşuma gəlir. Düşək, bu atdarın cilovun çıxart, qoy otdasınnar, biz də burda nahar eliyək, istirahət eliyək.

Deyir:

– Baş üstə.

Düşür. Yeməklərin çıxardıllar, yeyillər. Şah Abbasa dərin yuxu gəlir. Başın qoyur vəzirin dizin üsdə, yatır. Vəzir baxır, deyir:

– Yarəbb, bu biyabannıxda, bu yiyəsizdikdə mənə bu cür xoşbəxtlik qismət eləmisən. Şah oğlu Şah Abbas nə qorxu bilir, nə hürkü bilir. Bu biyabannıxda başın qoyub mənim dizimin üsdə.

Baxır görür ki, arxada iki nəfər dalaşır. O deyir, ə, sən kimsən? Buna şərəfi verən mənəm ey, sən kimsən? Sənin dədən gorazey idi, mərdiməzar idi.

O bunnan, bu onnan. Vəzir Allahverdi xan deyir:

– Saa qurban olum, aralaşın gedin ayna, Allah xatirinə.

Əməl yemədi. Allahverdi xan da qorxur ki, Şah Abbas durajax, narahat olajax. Bu xoşbaxtlıx buna bir dəfə qismət olub. Ehmalca atın cilovun götürür, atır ki, bulardan birinin başına keçsin, çəksin, xəlvət buna desin "saa atam qurban, aralaş, cəhənnəm ol burdan". Cilov gəlib keçir Şah Abbasın başına. Vay aman allah, haq getsin, nahaq gəlsin. Şah Abbas durur, deyir:

– A dələduz kopoğlu, a şərəfsiz oğlu şərəfsiz. Demək, elimdə, obamda məni öldürə bilmədin, bu səhrada, biyabannıxda məni öldürürsən ki, burda qurd-quş məni yesin? Nənəsinin oğlu, atdarı cilovla.

Deyir:

– Şahım, getdi, nəyin deyim?

– Nə? Ə, tez ol, atdarı cilovla.

Deyir:

– Şahım, getdi, nəyin deyim?

Atdarı hazırrıyır, minillər, birbaşa məmləkətə. Şah Abbas çıxır taxta. Car çəkib bütün bəşəri yığıllar Şah Abbasın meydanına. Deyir, camaat, eşidin-bilin... Sizə dediyim kimi danışır. Hamı tərəddüddə, əli qoyunda qalır. Cəllatdara da göstəriş verir ki, dar ağacını hazırlayın. Camaat qımıldanır-eliyir. Deyir, qırxdı, biri

kəm döyül. Cəllad, qoymuyun bunun qanı bu məmləkətə düşə. Məqam gəlir, Vəzir Allahverdi xanı stola götürəndə şah deyir ki, cəllatdar, dayanın. Gəlillər Şah Abbasın yanına.

– Şahım, eşidirik.

Deyir:

– Onu gətirin bura.

Gətirillər bunun yanına. Deyir:

– A nənəsinin oğlu, ağla gətirmə, min nəfər elçi düşə, minnətçi düşə, əməl eliyən dəyil, səni asdırajam. Amma sən orda dedin ki, şahım, getdi, nəyin deyim? İndi burda da deyirsən ki, şahım, gəldi, nəyin deyim? Bunların nə demək olduğunu de görüm, ə.

Deyir:

– Şahım, o torpaq benamus torpaq idi, şərəfsiz torpaq idi, haxdan çıxmış torpaq idi. Orda mən nə qədər and içsəm də, mənim nəslim-köküm dizini qoyub yerə "Qurana" əl bassa da, yenə inanmıyajeydin. Nə desəm deyəjeydin kəs, qurumsaq. Yalan danışırsan, uyudurma danışırsan. Gəldik öz torpağımıza, bu şərəfli torpağa, səni bəsləyən torpağa. Haxdan gəldi, dedim "gəldi, nəyin deyim". Artıq hak-ədalət gəldi sənin başaa, sən ordan məni çağırtdırdın yana.

Dedi:

– Hə.

Onnan soora öpüşüllər, görüşüllər. Millət sevindi, eşqə gəldi.

## 117. EHTİYAC DAYI

Bir kişinin üç oğlu varmış. Bu uşaxları yola gətirə bilmirmiş, bir işə buyura bilmirmiş. Bütün işə özü gedirmiş. Bir gün qayıdır arvada deyir ki, odunnarı gizdət. Peçi söndürür, özü girir yorğan-döşəyin altına. Uşaxları çağırıf deyir ki, peç sönüf, mən də girmişəm yorğan-döşəyə. Odun gətirib qoymaq lazımdı bura. Deyir:

– Axı, biz bacarmırıx.

Deyir:

– Bacararsız.

Deyir:
– Birdən arabamız sındı, necə bağlıyacıyıx?
Deyir:
– Ehtiyac dayızı çağırarsız, o gələr bağlıyar. Narahat olmuyun.
Üçünə də dəhrəni, baltanı verir, arabanı da qoşur, deyir:
– Gedin odun qırmağa.
Gedillər, o ağacı kəsillər, bu ağacı kəsillər. Qarannıx düşürmüş, yühlüyüllər. Elə bir addım atmışmış, arabanın oxu sınır. Oxu bağlıya bilmillər. Başdıyıllar meşəboyu qışqırmağa: "Ehtiyac dayı, Ehtiyac dayı!" Heç yerdən səs gəlmir. Təzədən arabanı boşaldıllar, bir zülümnən düzəldillər, yığıllar, gəlillər. Kişi deyir:
– Niyə bu qədər yubandınız?
Deyir:
– Bəs arabanın oxu qırılmışdı.
Deyir:
– Bəs necə düzəltdiniz?
Deyir:
– Necə düzəldəceyih? Deyirdin, bəs, Ehtiyac dayı gəlif köməh eliyəcəhdi? Ha çağırdıx, gəlmədi axı.
Deyir:
– Kim düzəltdi?
Deyir:
– Elə özümüz.
Deyir:
– O elə ehtiyacdı da, bala. Ehtiyacız oldu, özünüz düzəltdiniz.
Həyatı belə öyrənmək lazımdı. İnsan öz ehtiyacın özü ödəməlidi.

## 118. BAĞ ƏMANƏTİ

Deyir, ağıllı neynir ata malını, ağılsız neynir ata malını. Ağıllıya ata malı lazım dəyil, çünki öz ağlıynan qazanacaq. Ağılsıza da lazım dəyil, onsuz da dağıdacaqdı. Bunun müqabilində biri olur, gedir Hacca. Yaxşı mülkü, bağı-bağatı varmış. Hacca da ge-

dənnər atı qırxa bağlıyırmış*, yoluna yolxərci götürürmüş, altı aya get-gəl eliyirmişdər. Oğluna deyir ki, oğul, can sən, can bu mülk əmanəti, bağ-bağat əmanəti. Deyir:

– Ata, baş üstə.

Yaz gəlir. Camaat barama saxlıyır. Ağaşda yarpaq qutarır. Buların da mülkü qalır, dədə gedib, barama saxlıyan yoxdu. Qonşular əldə pul gəlir ki, a bala, yarpağı ver, qırax, verək baramaya, batmasın. Deyir:

– Yox, dədəm gedəndə tapşırıb ki, mülkə yaxşı bax.

Gələnnən soora dədəsin muştuluxluyur, deyir:

– Dədə, yaman iş oldu ey. Camaat qapını kəsdi yarpağı istədi, vermədim.

Deyir:

– Vay, bala, sən niyə belə elədin? Mənim qızılımı xəzəl eləmisən ki.

Yanı satseydı pul idi, ağac göyərəcəydi, genə olacaydı yaşıl.

---

* Atı qırx gün tövlədə bəsləmək

# II. NAĞILLAR

## 119. ON İKİ QARDAŞ

Biri varıdı, biri yoxudu, bir patşah varıdı. Bu padşahın on iki oğlu varıdı. Bu patşahın on iki oğlunun böyüyü Məlik Məmməd, o biri Məlik Əhməd, Məlik Cümşüd və kiçik oğlunun adı isə Kamalı Sahip idi. Bu patşahın oğlannarının heç biri evlənməmişdi. Günnərin bir günündə Kamalı Sahip dedi:

– Qardaşdar, bu atamız nə fikirləşir? Bizi evləndirmək firkində yoxdurmu?

Dedilər:

– Niyə evləndirmir ki? Atamız bizi nə vaxt evləndirsə, onda da evlənərik.

Kamalı Sahip dedi:

– Xeyir, elə deyil. Hərə öz yaşına görə bir qarpız alıp göndərməlidi.

Kamalı Sahibin dediyi kimi, on iki qardaş hərəsi öz yaşına uyğun bir qarpızı qoydular xonçuya, göndərdilər patşaha. Patşah, vəzir, vəkil oturmuşdu. Gördülər ki, qulluxçular budu, on iki dənə xonça gətdi. Aşdılar, gördülər on iki qarpızdı. Patşah dedi:

– Vəzir, vəkil, indi biz neyniyəcəyik? Bı qarpızın çox olsa birisini, ikisini yeyəsiyik, bəs qalanını neyniyəsiyih?

Vəzir dedi:

– Şah sağ olsun, bınnar sənin oğlannarındı. Oğlannarın evlənmək isdiyir.

– Gətirin qarpızları kəsəh.

Böyük oğlun qarpızını kəsdilər. Gördülər ki, qarpızın yeməlisi qalmayıb, içi hamısı tökülüpdü. Dedi:

– Bı sənin böyük oğlundu, onun evlənmək vaxtı çoxdan keçipdi.

İkinci oğlu belə, üçüncü oğlu belə, bir sözlə on bir qarpızı kəsdilər, gördülər yeməli dəyil, hamısının vaxtı çoxdan keçipdi. Kamalı Sahibin qarpızını kəsəndə gördülər əsl vaxtıdı. Dedi:

– Bax, əsil vaxtıdı, evlənməli vaxtıdı, Kamalı Sahibindi.

Belə olanda patşah böyük oğlunu çağırıp dedi:

– Oğlum, get hazırraş, üç günnən sora vəzirin qızını sənə alacam.

Bəli, böyük qardaş gəldi. Kamalı Sahip xəbər aldı:

– Qardaş, nə oldu?

– Atam mənə dedi get hazırraş, üç günnən sora vəzirin qızını səə alacam.

Kamalı Sahip dedi:

– Yox qardaş, elə şey ola bilməz. Mən gedip atama diyəcəm. Ya biz on iki bacını almalıyıx, ya da heç birimiz evlənmiyəciyih.

Bəli, Kamalı Sahip gəldi atasının yanına. Baş əyib ədəb-ərkanla ona dedi:

– Ey mehriban ata, on iki oğul sənə verən Allah, əlbət ki, bir nəfərə də on iki qız veripdi. Biz on iki qardaş gedip on iki bacını almalıyıq. Belə olduqda biz evlənəsiyih, olmadıxda isə biz daha evlənmiyəciyih. Ömrümüzün axırına qədər subay qalacıyıx.

Patşahın çarəsi qırıldı, dedi:

– Yaxşı, oğul. Onda gedin səfərə hazırraşın, on iki bacını tapın.

Belə olduqda Kamalı Sahip gəlip böyüh qardaşına dedi:

– Qardaş, gedirsən atama deyirsən ki, hər qardaşın adına on iki üzüh düzəltdirsin zərgərə.

Bəli, böyüh qardaş gəlir patşaha deyir ki, ata, bizim hərəmizin adına on iki üzüh düzəltdirginən. Şah da qaldı məətdəl ki, axı bir üzüh lazımdı, on ikisini neyniyirsən?

Dedi:

– Bilmirəm, Kamalı Sahibin əmri belədi.

Patşah Kamalı Sahibin xətrini çox isdiyirdi. Ona görə də hər qardaşın adına on iki üzüh düzəltdirir. Bınnar səfər tədarükü görüp yola düşüllər. Bir müddət gələnnən sora Kamalı Sahip dedi:

– Qardaşdar, indi üzühləri gətirin bura.

Dedilər:

– Qardaş, biz bir nəfərih, bı on iki üzüh nəyə lazımdı?

Dedi:

– Yox, elə dəyil. İndi mən hər qardaşa bir üzüyü paylıyacam. Siz də hərəniz bir üzüh mənə verərsiz. Ola bilər ki, biz gedərih on

iki bacını taparıx, birimiz gedər tapar. Onda hər kəs öz yaşına görə, yəni böyüh qardaş böyüh bacını, onnan kiçiyi onu, ən axırda xırda qız da mənim, Kamalı Sahibin olması şərtilə nişannanarıx.

Bəli, qardaşdar üzühləri bölüşdülər. Hər qardaşın hər qardaşda üzüyü oldu. Beləlihnən, yola düşdülər. Yola düşəndə Kamalı Sahip dedi:

– Qardaşdar, biz gedirih, indi bı gecə harda düşərgə salsax, yatsax, böyüh qardaş orda qaravul çəkəcək.

Razılaşdılar. Getdilər, birinci böyüh qardaş qaroul çəkdi. Beləlihnən on bir gecə yol getdilər, on ikinci gecə Kamalı Sahibə çatdı nööbə. Onu da deyim ki, o vaxtları belə şərt kəsmişdilər ki, kim olursa-olsun, öz yatan qardaşdarını oyatmamalıdı. Özü təkbaşına o işi görməlidi. Nööbə gəlip çatdı Kamalı Sahibə. Kamalı Sahip sübh vaxtı dedi:

– Durum ocax qalıyım, qardaşdarıma yeməh hazırrıyım ki, duranda yesinnər.

Durdu gördü ki, kibriti yoxdu. O biri qardaşdarını oyatmadı. Gördü uzaxdan bir işıx gəlir. Atı minip getdi ora. Gedən kimi orda gördü bir qarı var, divin anasıdı. Dedi:

– Kamalı Sahip, mən səni çoxdan gözdüyürdüm. Sən yaxşı ki, gəldin.

Dedi:

– Sən məni hardan tanıyırsan?

Dedi:

– Mən səni çoxdan bilirdim. Tilsimlərə baxmışdım ki, Çin patşahının on iki qızı var. Ancax onnarı sən gətirəssən. Mənim yeddi oğlum var. Neçə ildi düşüplər onnarın eşqinə, heş cür gətirə bilmirlər. Gecə-gündüz çöldədilər.

Qarı bınnarı deyəndə bı vaxtı devin uşaxları gəldi. Gələn kimi devlərin anası bı Kamalı Sahibi iynə eliyip taxdı yaxasına. Devlər gəldi. Dedilər:

– Adam-badam iysi gəlir, yağlı badam iysi gəlir.

Dedi:

– Çöllərdə o qədər gəzmisiz ki, adam iysi burnunuzdan çəkilməyip. Olseydi, özüm acınnan ölürəm, yeyərdim.

Dedilər:

– Yox, vallah, ana, bırdan adam iyi gəlir.

Dedi:

– Yaxşı fikirrəşin, adam iysi-zadı yoxdu bırda. Baxın, evdə adam varsa, deyin.

Sora bı oğlannarını başına yığıp başdadı danışmağa. Dedi:

– Oğlum, mən vaxtilə bəni-adama getmişdim. Onnan mənim bir oğlum olmuşdu. İndi o gəlip çıxıb bura. Deyin görüm, ona bir şey eliyərsiz?

And içdilər ki, ana, sənin südün bizə haram olsun ki, biz ona – qardaşımıza heç bir şey eləmərik. Onda qarı durdu Kamalı Sahibi genə Kamalı Sahip elədi. Bınnar başdadı Kamalı Sahibi o qədər öpdülər ki, o qədər sıxdılar ki, axırı devlərin anası dedi:

– Oğul, o, bəni-insandı. O, sizin quvvanıza tab gətirməz.

Dedi:

– Bı gedip o qızdarı alıp gətirəcəh.

Belə olanda dedilər:

– Gedəh.

Dedi:

– Yox, qarı nənə, mənim atımı, on bir qardaşımı, on bir atı, ordakı əşyaların hamısını tilsimə sal, daş elə, sora mən gedim. Mənim qardaşdarım oyanıp məni axtaracaxlar, tapbazdar.

Bəli. Devlərin anası Kamalı Sahibin atını, on bir qardaşı da olduxları yerdə tilsimə saldı. Devlər gedəndə Kamalı Sahip güldü. Dedi:

– Niyə gülürsən?

Dedi:

– Olar devdi, getdilər, mən nə bilim ollar hara getdi.

Belə olduxda devin anası böyük oğlunu çağırdı, Kamalı Sahibi mindirdi onun belinə. Bınnar gəlip Çin patşahının torpağına yetişdilər. Çin patşahının torpağına yetişəndə bir hasara iras gəl-

dilər. Dedilər ki, bəs bı qızdar bı hasarın içindədi. Qızdar hasarın içindədi deyəndə Kamalı Sahip dedi:

– Məni qaldırın, divarın üsdünnən baxım, sora.

Kamalı Sahibi çıxartdılar divarın üsdünə. Divarın üsdündə dayandı. Böyüh qardaşa dedi ki, gəl. Böyüh qardaş gələn kimi qılıncnan başını vurdu, bədəninnən elədi, saldı hasarın o üzünə. Beləlihnən yeddi qardaşın yeddisini də cəhənnəmə vasil elədi. Sora düşüp devlərin burnunu, qulağını kəsib bir dəsmala yığıb bağladı böyrünə. Getdi gəzdi, gördü, doğrudan da, on iki qızdı, on ikisi də yatıpdı. Böyüh qardaşın üzüyünü böyüh bacıya, kiçih qardaşın üzüyünü kiçih bacının barmağına taxdı. Beləlihnən, on bir bacının üzüyünü taxannan sora gəldi ən kiçih qızın yanına. Gördü bı kiçih qız o qədər gözəldi ki, ta mümkün dəyil baxmax bına. Gətdi üzüyü bı qızın da barmağına salannan sora qızın o üz bu üzünnən öpüş alıp, çıxdı gəldi.

Kamalı Sahip gəlməhdə olsun, sizə deyim Çin patşahınnan. Çin patşah durdu gördü ki, bunun düşmənnəri ki, yeddi qardaş devdi, hamısının leşi divarın divində. Car çəkdi ki, kim bı devləri öldürüp, gəlsin, nə isdəsə verəcəm ona. Bı tərəfdə də qızdar səsə oyandı. Qızın biri durup barmağına baxdı. Böyüh bacı dedi ki, bəs nişannanmışam. Mənim nişannımın adı Məlik Cümşütdü. İkinci durdu ki, mənimki Məlik Əhmətdi. Beləlihnən gəldi kiçik qıza. Kiçik qıza gələndə kiçik qız dedi:

– Mənim də nişannımın adı Kamalı Sahipdi.

Belə deyəndə qızdar güldü. Dedi:

– Nəyə gülürsüz?

Dedi:

– Get güzgüdə bax, sora.

Getdi güzgüyə baxanda gördü üzündə ləkə var. Kamalı Sahip qızı öpəndə qızın üzündə ləkə qalıp. Dedi:

– Ey Kamalı Sahip, on iki bacının içində ki məni xar eləmisən, on iki qardaşın içində səni mən xar eliyəcəm.

Hər kəs ki gəldi bını mən eləmişəm, sübut olmadı. Bınnar bırda qalsın, sana deyim Kamalı Sahipdən. Kamalı Sahip Çin

patşahının torpağınnan çıxıp yavaş-yavaş üz qoydu devlərin anasının yanına. O vaxt gəlip yetişdi ki, artıx gecə yarıdan keçmişdi. Kamalı Sahibi görəndə devlərin anası dedi:

– Bəs mənim oğlannarım hanı?

Dedi ki, sənın oğlannarın vəşi kimi bir şeydi, əzab-əziyətnən qızdarı alıp verənnən sora hərəsi birini götürüp bir tərəfə getdi, məni də qoydular orda. Mən də bir müsibətnən gəlip çıxmışam. Tez ol mənim öz atımı, on bir qardaşımı, on bir atı, nə ki tilsimə saldığın vardı onnarın hamısını tilsimnən azad elə. Qarı bınnarın hamısını tilsimnən azad eliyənnən sora dedi:

– İndi öz əlinnən mana od ver, gedim qardaşdarıma yeməh bişirim.

Qarı əyildi ki, ocaxdan od götürsün, qarının başınnan bir qılınc vurdu, qarının başı getdi düşdü ocağın içinə. Qarını da burda cəhənnəmə vasil eliyip üz qoydu qardaşdarının yanına. Gəlip ocax qalıyıp xörəyi bişirdi. Səhər açılanda qardaşdar dedi:

– Qardaş, bura nə yaman otduxdu, ot gəlip alıp hər yeri.

Dedi:

– Qardaş, biz gecə düşənnən elə otduxmuş, görməmişih.

Bəli... Bunnar yeyib-içib sabahısı günü düşdülər yola. Yola düşəndə Kamalı Sahip deyir ki, qardaşdar, gəlin bı tərəfə gedəh.

Az getdilər, çox getdilər, gəlip Çin patşahının torpağına yetişdilər. Bınnar Çin patşahının torpağına çatanda eşidillər ki, Çin patşahının on iki qızı var. Beləlihnən böyük qardaş gedir elçi daşının üsdündə oturur. Elçi daşının üsdündə oturanda patşaha xəbər getdi ki, elçi daşının üsdündə bir nəfər oturub. Patşah oğlanı qəbul elədi. Oğlan dedi:

– Biz on iki qardaşıx. Eşitmişik ki, sənin on iki qızın var. Biz gəlmişik o qızdardan ötrü.

Patşah dedi ki, mənim düşmənnərim vardı. Düşmənnərimi kim öldürüfsə, qızdarın on ikisini də o isdəsə, ona verərəm. Mən düşmənnərimi öldürəni tapmıyınca qızdarımı heç kimə vermiyəcəm. Böyüh qardaş gəldi Kamalı Sahipin yanına. Dedi ki, gəlmişih bıra, bı da deyir ki, mənim düşmənnərimi kim öldürüf qızda-

rımı ona verəcəm. Bəlkə də, başqa yerə getsəydih orda tapardıx. Belə olduxda Kamalı Sahip dedi:

– Mən gedərəm şahın hüzuruna.

Kamalı Sahip gəldi patşahın hüzuruna. Ədəb-ərkanla salam verib dedi:

– Patşah sağ olsun, biz on iki qardaş on iki bacını almax niyətilə filan yerdən gəlmişih bura. Ona görə də gərəh sən bı işə irazılıx verəsən.

Patşah dedi ki, mənim düşmənnərimi öldürən var, öldürənnəri tapmayınca qızdarı heç kəsə verə bilmərəm. Belə deyəndə Kamalı Sahip dedi ki, yeddi divi mən öldürmüşəm.

Dedi:

– Sübut.

Sübut deyəndə Kamalı Sahip dəsmala bağladığı divlərin burun-qulağını töhdü yerə. Patşah o saat şad olup Kamalı Sahibi bağrına basdı. Əmr elədi ki, bu günnən böyüh qızdan ta kiçih qızın toyuna qədər toya başdasınnar.

Böyüh qardaşa böyüh qızı, onnan kiçiyinə kiçih bacını, beləlihnən on gün toy olur. On bacı, on qardaş evləndi. Beləlihnən, nööbə gəlib çatdı kiçih qıza. Kiçih qıza çatanda qara geyinib otdu otaxda. Dedi:

– Mən Kamalı Sahibə getmərəm.

Patşah çox dedi, o az eşitdi. Çox minnətdən sora qız dedi:

– Əgər Kamalı Sahip gedip dərya qıratını gətirsə, onda ona ərə gedərəm.

Patşah da Kamalı Sahibin xətrini çox isdiyirdi. Kamalı Sahip dedi:

– Mən gedirəm.

Gəldi. Gələndə gördü bir ağ quşdu, oturup yolun üsdə. Dedi:

– Ey Kamalı Sahip, bu cür sən dərya qıratını gətirə bilməzsən. Get patşahdan qırx tulux şərap, qırx qəlib keçə al. Filan yerdə bir bulağın qırx gözü var. Həmən qəliblərnən o bulağın gözünü tut, sora da şərabları töh həmin bulağın hovuzuna. Ordan qaç bir quyu qaz, gizdən. Elə yerdə gizdən ki, dərya qıratı səni görmə-

sin. O gəlip suyu içip sərxoş olan kimi hopbulup min atın belinə. Hara qaçsa, buraxma. O vaxta kimi ki, nə vaxt desə ki, anamın südü maa haram olsun sənin sözünnən sıxsam, onnan sora düş, alnının tərini sil.

Kamalı Sahip bu sözdəri eşidənnən sora qayıtdı patşahın hüzuruna. Patşaha dedi:

– Mana qırx tulux şərap, qırx qəlib keçə verərsən.

Bunu patşah o sahatı hazır elədi. Kamalı Sahip keçələri və şərapları götürüp gəldi həmən ağ quş deyən yerdə o bulağı tapdı. Onun gözdərini tutdu. Navçası vardı, nava da gətdi bu şərabı töhdü. Sora da quyu qazıb gizdəndi. Günorta vaxtına qədər gözdədi, gözdədi, gördü dəryadan, doğrudan da, bir at çıxdı, yəhəri-yüyəni hamısı üsdündədi. Gəldi elə su hesab elədi, şərabı içib yuxuluyan kimi Kamalı Sahip fürsəti əldən vermədi. Tez tullanıf mindi atın belinə. At dəryaya girdi, hara qaçdısa Kamalı Sahip atdan bərk-bərk yapışıf buraxmadı. Axırı at yoruluf əldən düşənnən sora dedi:

– Ey Kamalı Sahip, sən minmisən məni, mənim sahibimsən. Anamın südü maa haram olsun, sənin sözünnən sıxsam.

Kamalı Sahip atdan düşdü. Atın alnının tərini dəsmalıynan silənnən sora dedi:

– Ey qırat, sən mənə özünnən başqa iyirmi dörd qırat da gətirməlisən.

Kamalı Sahip bu sözü deyəndə qırat getdi düzənniyə. Bir müddət keçənnən sora gördü özüynən iyirmi dörd dərya qıratı gətirip. Dərya qıratının yəhəri-yüyəni, hamısının hər şeyi öz yerindədi. Kamalı Sahip öz atını mindi. İyirmi üç at da gəldi onun arxasınca saraya. Şaha muştuluxcu getdi ki, şah sağ olsun siz bir qırat demişdiniz, Kamalı Sahip bıdı, iyirmi dörd dəniz qıratı gətirib.

Bu vaxtları patşahın kiçih qızı bəzənip oturdu otaxda, dedi:

– Mən indi Kamalı Sahibə getməyə razıyam. Ata, toyu elə.

Patşah gətdi Kamalı Sahibə qırx gün, qırx gecə toy elədi. Toy eliyənnən sora Kamalı Sahip dedi:

– Patşah sağ olsun, indi mənim atamın gözü yoldadı. Biz gərəh öz yerimizdə də toyumuzu eliyəh.

Patşah irazı oldu. Bınnara yol xərcliyi nə qədər lazımdırsa, verib yola saldı. Bınnar yolnan gələndə iki yolayrıcına çatdılar. Həmən ağ quş çıxdı, dedi:

– Ey Kamalı Sahip, bu yol qorxuludu. Bu yolnan getməyin, bu biri yolnan gedin.

Kamalı Sahip atını irəli sürdü, dedi:

– Qardaş, bu yol qorxuludu, bu biri yolnan gedəh.

– Ə, sənin böyühlüyün qaldı atamın yanında, – böyüh qardaş dedi, – biz hardan isdəsəh, ordan gedəciyih.

Düşdülər o qorxulu yola, getdilər. Qorxulu yolnan gedəndə gəldilər gördülər ki, göy çəməndə yeməhlər bişib, hər şey qaydasında, elə yerdi ki, adam isdəmir bırdan keçə. Böyüh qardaş dedi:

– Bırda düşün, çadırrarımızı qurax.

Kamalı Sahip nəkqədir elədi ki, bura qorxuludu, olmaz. Dedi:

– Yox, bı gecə bırda qalacıyıx.

Əlacı kəsildi, gəldilər çadırrarı qurdular. Yeyib-içənnən sora axşam Kamalı Sahip dedi:

– Qardaş, şərtimizi bilirsən də, bı gecə sənin nööbəndi. Sən nööbə çəkəssən.

Böyüh qardaş irazı oldu. Kamalı Sahip amma yatmırdı, gözdüyürdü. Gördü ki, qardaşı bir az çöldə oturdu, sora getdi girdi çadırına. Bı çadırına girənnən sora Kamalı Sahip qılıncını bağlıyıp durdu qaravulda. Gördü sübh vaxtı bir gurultu, nərilti gəlir ki, nətəri. Dedi:

– Ey, sən, gəlib mənim yeməyimi yeyip özün də mənim yerimdə düşərgə salıpsan. Gör sənin başına nə oyun açacağam.

Başdadı Kamalı Sahipnən güləşməyə. Okqədir güləşdi ki, sübh vaxtı “Allah, Məhəmməd, ya Əli”, – deyip nətər devi qılıncnan vırdısa, devi cəhənnəmə vasil elədi. Götdü devin leşini, sürüyüp saldı bir tərəfə. Əlini-üzünü yudu, gəldi.

Çay-çörəh yeyib-içənnən sora yola düzəldilər. Gəldilər gördülər o siftə gördüyünnən də gözəl bir yer var. Orda da xörəhlər bişib, hazırdı. Genə böyüh qardaş dedi:

– Gəlin bırda dincələh.

Kamalı Sahip nəkqədir elədi, dedi:

– Əşi, sən dünən də deyirdin qorxuludu. Gördün, noldu, heç bişey olmadı. Bırda düşəsiyih.

Bəli, bırda da düşdülər, çadırrarı qurdular. Yeyib-içənnən sora Kamalı Sahip ikinci qardaşına dedi:

– İndi sən nööbədə olmalısan.

İkinci qardaş da böyüh qardaşı kimi bir az durdu, sora getdi girdi çadıra. Genə Kamalı Sahip durdu nööbədə. Bir vaxt gördü gecə yarıdan sora bir gurultu, nərilti gəlir ki, nətəhər. Dedi:

– Ey Kamalı Sahip, sən mənim qardaşımı öldürüf indi də gəlmisən mənim qoruğuma düşmüsən. Gör sənin başaa nə oyun açacam.

Kamalı Sahipnən dev güləşdi. O vaxta kimi ki, süp vaxtında Kamalı Sahip bı devi də cəhənnəmə vasil elədi. Bı devi cəhənnəmə vasil eliyənnən sora getdi əlini-üzünü yudu. Devin leşini də kənara atdı ki, qardaşdarı görməsin. İşıxlandı. Qardaşdar oyandı. Oturup süfrə açıb yemək yeyənnən sora yola düzəldilər. Yola düzəlip gəldilər. Gördülər ki, o göy çəməndə ki düşərgə salmışdılar, bı, onnan da çox gözəldi. Baxırsan deyirsən elə bil cənnətdi. Burda da xörəhlər bişib, hər şey hazırdı. Genə böyüh qardaş dedi:

– Bırda düşəciyih.

Kamalı Sahip nə qədir elədisə, dedi:

– Yox, olmaz, bırda düşəciyih.

Axırı genə burda düşdülər, yeyib-içib yatan vaxtı ücüncü qardaş da o biri qardaşdarı kimi bir az gözdədi, gördü ki, qardaşdarı yatıp, getdi yatdı. Yatanda genə Kamalı Sahip durdu qaravulda. Gördü gecəyarı bir gurultu gəldi. Dedi:

– Ey Kamalı Sahip, mənim iki qardaşımı öldürüb mənim qoruğuma düşmüsən, mənim xörəyimi yemisən, mənə Haş-haş dev deyəllər, mənə ölüm yoxdu. Səni elə eliyəcəm ki, day nətəhər. Nə qədər çalışsan da məni öldürə bilməzsən.

Bunu deyip Haş-haş devlə Kamalı Sahip döyüşə girişdi. Nə qədər başını kəsdi, tulladı, alnının tərini siləndə gördü dev duruf, bıdı, qarşısında. Dedi:

– Ey Kamalı Sahip, mən sənə dedim ki, mənə ölüm yoxdu.

Bu minvalnan o qədər döyüşdülər ki, hava işıxlandı. Qardaşdar durdu gördü ki, Kamalı Sahip devnən əlləşir. Qardaşdar durdu qıraxdan tamaşa etməyə. Axırda Kamalı Sahip bir də bunu iki parça eliyip yerə atdı. Alnının tərini siləndə bu bir də durup, dedi:

– Ey Kamalı Sahip, mən sənə dedim ki, mənə ölüm yoxdu. Məni heç cür sən öldürə bilməzsən. İndi ki, belədi, sana izn verirəm, qardaşdarınnan get. Ancax o yerdə gördün ki, at bir addım irəli atır iki addım geri qayıdır, onda bil ki, mənim torpağımnan çıxırsan. Onda geri qayıt. Geri qayıtmasan öküzün buynuzunda da gedip gizdənsən səni tapıb məhv eliyəcəm.

Kamalı Sahip irazılaşdı. Qardaşdarıynan yola düşdülər. Bir müddət gələnnən sora Kamalı Sahip gördü ki, at bir addım irəli atıf, iki addım geri qayıdır. Onda dedi:

– Qardaşdar, mən geri qayıtmalıyam. Alın mənim də yoldaşımı, aparın.

Kamalı Sahip qardaşdarını yola saldı. Özü isə Haş-haş devin yanına qayıtmalı oldu.

Bu vaxtları Kamalı Sahip devin yanına qayıtmaxda olsun, sizə deyim on bir qardaşdan. On bir qardaş gəldi çıxdı öz şəhərlərinə. Atası pişvazlarına çıxdı. Bunnarı yaxşı qarşıladı. Dedi:

– Bəs Kamalı Sahip hanı?

Dedilər:

– Kamalı Sahipi dev apardı.

Onda atası dedi ki, vaxtda ki, on bir qardaşın içində bir Kamalı Sahibi devə veribsiz, onu müdafiə eləməmisiz, mən sizə oğul demərəm.

Qardaşdarın hamısını – on birini də saldı zindana. Qızdarın isə on ikisini də götdü çıxartdı yüksək bir yerə, orda hərəsinə bir ev verdi. Orda qızdar kefində, qardaşdar zindanda olsun, sizə kimnən deyim, Kamalı Sahipdən. Kamalı Sahip gəldi Haş-haş devin yanına. Dedi:

– Ey Kamalı Sahip, əgər göyün yeddinci qatından Mədinələr Mədinəsinin qızını mənə gətirsən, onnan sora səni azad edəcəm. Yox əgər gətirməsən, harda olsan səni məhv eliyəcəm.

Bəli, Kamalı Sahip üz qoydu yol getməyə. Beləlihnən gəldi gördü ki, bir arx gedir. Qarışqalar gəlir bı arxın üsdünnən keçəndə hamısı tökülür suya. Durdu bir ağaş kəsdi, gətdi körpü qoydu bı arxın üsdünnən. Qarışqalar irahat getdi. Getdi özü bir ağacın divində yatdı. Gördü o qarışqalar gəlip bını incidir. Dedi:

– Ay Allahın heyvanı, qoyun, bir az yatım dincəlim.

Biri dil açıp dedi:

– Ey Kamalı Sahip, səni bizim qarışqalar patşahı çağırır.

Kamalı Sahip durdu getdi qarışqalar patşahının yanına. Dedi:

– Ey Kamalı Sahip, sən mənim millətimi bir belə ki, ölümnən qutarmısan, dünyada mənnən nə isdiyirsən.

Dedi:

– Sənin sağlığını. Sənin heç bir şeyin lazım deyil mənə.

Qarışqalar patşahı qanadının birini qoparıb verdi ona. Dedi:

– İşdi, dara düşsən bı qanadı yandır. Harda olsam gəlip sənin köməyinə çatacam.

Bəli, Kamalı Sahip qarışqalar patşahı ilə xudafizləşip yoluna düzəldi. Gəldi gördü bir dev qurşağa qədər suyun içindədi, deyir “yandım”. Belə deyəndə Kamalı Sahip deyir:

– Onsuz da mən ölümə gedirəm, yazıxdı, susuz qalmasın.

Getdi bir ovuc su verdi. Bir içəndə qurşağa qədəriydi su, dizə qədər sudan qalxdı yuxarı, ikinci ovucda topuğa qədər, üçüncü ovuş sudan sora dev çıxdı qırağa. Dedi:

– Sən ki, mənə belə yaxşılıxlar elədin, de görüm bı yaxşılığın əvəzində mənnən nə isdiyirsən?

Dedi:

– Sənin sağlığın, mənə heş bir yaxşılıx lazım deyil.

Bı vaxları dev öz tükünnən birini verdi, dedi:

– Əgər dara düşsən bı tükü yandırarsan, harda olsam gəlip sənin imdadına çataram.

Kamalı Sahip devdən aralanıb başdadı yol getməyə. Gəldi gördü ki, üş dağdı, gəlip bir-birinə dəyib qayıdır. Bu vaxları Kamalı Sahip gəlib qayaya çatanda gördü bılar üç devdi. Bı üş dev

dava edillər. Gördülər ki, bəni-insan Kamalı Sahip gəlir. Dedilər bizim şərtimizi kəssin, sora da onu yeyərih.

Kamalı Sahip ora yetişəndə devlərdən biri dedi:

– Ey Kamalı Sahip, biz üş dənə əşya tapbışıx. Onun üsdündə dava eliyirix. Bu, Süleyman peyğəmbərin xalçasıdı. Onun üsdündə oturup Süleyman peyğəmbərin eşqinə hara desən, aparar. Bu da Süleyman peyğəmbərin papağıdı. Başına qoysan, səni heç kəs görə bilməz. Bu da Süleyman peyğəmbərin süfrəsidi. Əgər belinnən açıf hansı neməti desən, o süfrədə tapılar, onu yeyərsən.

İndi bının üsdündə biz dava eliyirih. Ona görə də sən bizim şərtimizi kəsməlisən. Belə deyəndə Kamalı Sahip üş dənə ox atır. Deyir ki, bı oxlardan birincini gətirənə süfrəni, ikincini gətirənə papağı, üçüncünü gətirənə isə xalçanı verəcəm.

Beləlihnən, üç ox atır. Atanda devlər onun dalınca gedillər. Oxun dalınca gedənnən sora Kamalı Sahip oturur xalçanın üsdündə, süfrəni bağlıyır belinə, papağı qoyur başına. Deyir:

– Ya Süleyman peyğəmbərin xalçası, məni Süleyman peyğəmbərin eşqinə, apar göyün yeddinci qatında Mədinələr Mədinəsinin qızının bağına.

Bəli, Kamalı Sahip gedir orda düşür. Düşənnən sora papağı qoyur başına, xalçanı vırdı qoltuğuna, süfrəni də bağladı belinə. Getdi Mədinələr Mədinəsinin qızının otağına. Gördü Mədinələr Mədinəsinin qızına yeməh gəlif. Kamalı Sahip də bərk acıdı. Gəldi oturdu qızın yanında, başdadı bı da qıznan barabar yeməyə. Amma papağı başına qoyanda onu heş kəs görmür. Qız baxdı ki, yeməh qutardı, ancax heş doymadı. Bı, qulluxçunu çağırdı, dedi:

– Sən mənə niyə bu gün az yeməh gətirmisən?

Dedi:

– Xanım, gündə gətdiyim qədər yeməh gətirmişəm.

Dedi:

– Mən bu gün doymadım, genə gətir.

Qız genə gətirdi. Kamalı Sahip başdadı genə qıznan barabar yeməyə. Burda yeməh qutarannan sora qız getdi yatmağa. Kamalı Sahip də durup əl-üzünü yudu, ağzını gülabla yaxaladı, get-

di qızın yanına. Gördü qız yatıf. O üz, bu üzünnən bir öpüş alıp genə çıxdı getdi bağda bir yer tapıb orda gecələməyə.

Kamalı Sahip gecələdi, genə hər gün gəldi qız yeməh yeyəndə onnan baravar yedi, gecə də gedip yatanda qızın hər iki üzünnən öpüş alıb getdi yerinə.

Beləlihnən, qız bir gün güzgüyə baxanda gördü üzündə xallar var. Bildi ki, bırda nəysə bir sirr var. Dedi:

– Yaxşı, indi mən səni güdüp tutaram.

Bı dəfə gəldi yeməyi yeyən kimi qulluxçuları azad elədi. Dedi:

– Bu gün yorğunam, tez yatacam.

Getdi özünü yuxuluğa vuranda gördü bir nəfər getdi əl-üzünü yudu, yavaşcadan ağzını gulapnan yaxaladı, gəlip üzünnən öpəndə tutdu biləyinnən.

Dedi:

– Ə, sən kimsən? Neçə gündü yeməyimi yeyirsən, özü də məni öpüb gedirsən.

Kamalı Sahip bütün əhvalatı nağılladı. Dedi:

– Sən sabah ged, otur mənim elçi daşımın üsdündə. Atamın sənə üş dənə sualı olacax. O sualları yerinə yetirsən atam məni sənə verəcəh. Əgər yerinə yetirməsən, heş vaxt mənim üzümü görmüyəcəhsən.

Bəli, səhər açıldı, Kamalı Sahip getdi otdu elçi daşının üsdündə. Elçi daşının üsdündə oturannan sora şaha xəbər getdi ki, bəs, bir nəfər gəlip elçi daşının üsdündə oturupdu. Gəlib Kamalı Sahibi apardılar şahın hüzuruna. Şah xəbər aldı:

– Nəyə görə gəlmisən?

Dedi:

– Şah sağ olsun, mən sizin qızınızdan ötrü gəlmişəm.

Şah dedi:

– Mənim üş dənə şərtim var. Əgər o şərtdəri yerinə yetirsən, mən qızımı sənə verəcəm, əgər yerinə yetirməsən, sənin boynunu vurduracam.

Kamalı Sahip irazı oldu. Beləlihnən, dedi:

– Birinci şərtim budu: yeddi şakqa əti, yeddi qazan da düyünün aşını bax, bı gecə yeyəssən.

Yeddi şakqa əti, yeddi qazan da düyünü bişirib qoydular ortaya, qapını bagladılar. Kamalı Sahip bir tikə, iki tikə yedi, baxdı gördü ki, heç iyirmi adam da ola, bunu yeyip qutara bilməz. Ona görə qaldı məhətdəl. Birdən dev yadına düşdü. Dedi:

– Bu dev mənə demişdi.

Devin tükünü yandıranda gördü dev gəldi durdu qapıda:

– Mənə görə nə qulluğ?

Dedi:

– Bıdı ha, bı yeməhləri yeməh.

Dedi:

– Yaxşı, bınnan narahat olma.

Dev bir tilsim oxuyup qapının deşiyinnən girdi içəri. Dedi:

– Bıdı?

Dedi:

– Hə.

Dedi:

– Onnan hasat iş yoxdu. Sən get yat.

Gəldi bı yeddi şakqa əti, yeddi qazan da düyünü yeyib kutarannan sora dedi:

– Day nə qulluğ?

Dedi:

– Qazanı bir balaca əy, qoy qapının ağzına.

Bı qazanı bir balaca əydi, qoydu qapının dalına. Özü də çıxdı getdi.

Səhər açıldı. İndi ha gözdədilər, gördülər Kamalı Sahip gəlmədi. Getdilər qapını aşdılar, gördülər açılmır. Birtəhər qapını aşdılar, gördülər Kamalı Sahip şirin yuxudadı.

Nə ət var, nə düyü. Hamısı yeyilib, qazanın da birini əyip qoyup qapının dalına. Hə, Kamalı Sahipi apardılar şahın hüzuruna. Dedi:

– Sən birinci şərti yerinə yetirdin. İndi ikinci şərtimiz odur ki, yeddi put darını, yeddi put buğdanı bir-birinə qarışdıracıyıx.

Bir gecədə gərəh o buğdaynan darını elə ayırasan ki, birinin içində bir dənəsi qalmasın.

Kamalı Sahip genə də irazılaşdı. Gətdilər yeddi put darıynan, yeddi put buğdanı bir-birinə qarışdırdılar. Orda saldılar Kamalı Sahipi bir otağa, ağzını bağladılar, qaldı orda. Kamalı Sahip nə qədər elədi, gördü heç bir kilo buğda seçə bilmiyəcəh. Çox fikirrəşdi, elədi. Birdən qarışqalar patşahının qanadı yadına düşdü. Qarışqalar patşahının qanadını yandıranda qarışqalar patşahı gəldi.

– Nə qulluğ?

Dedi:

– Belə-belə.

Dedi:

– Sən orda yıxıl yat, işin yoxdu, mən düzəldərəm.

O vaxtlar pud on altı kiloqram sayılırdı. Bir pud on altı kiloqram idi. Hə, qarışqalar gəldi bir qruppası darını seşdi, yığdı evin bir güncünə, bir qruppası da buğdanı seşdi, yığdı evin bir güncünə. Kamalı Sahip də yatdı.

Səhər gəldi. Qapını aşdılar, baxdılar gördülər darı bir yerdədi, buğda da bir yerdə. Patşaha xəbər getdi ki, bəs nə buğdanın içində bir darı var, nə də darının içində bir buğda var. Hamısı seçilib yığılıbdı.

Bəli, Kamalı Sahipə gətdilər yaxşı yemək, işmək verdilər. Dedilər:

– Ye, iç, üç günnən sora sən üçüncü şərtimizi yerinə yetirməlisən.

Gəldi, Kamalı Sahip qızın yanına. Dedi:

– Noldu?

Dedi:

– İki şərti yerinə yetirdim, amma üçüncü şərtdən qorxuram.

Dedi:

– Atam sənə bir qab su verəcəh. O suyu hündür ağacın başına elə çıxardıb, elə yendirməlisən ki, o sudan bir damcı yerə düşməsin. Əgər o şərti yerinə yetirsən, üçüncü şərti də yerinə ye-

tirmiş olursan. Sora mən sənin qulluğunda hazıram. Amma yetirməsən, atam sənin boynunu vurduracax.

Qız başınnan bir dənə tük verdi, dedi ki, həmən ağacın divinə gələndə o tükü salırsan suyun içinə, su olacax bir şüşə. Elə ki, çıxdın ağacın başına, ağacdan yenəndə gənə tükü götür, olacax su.

Bəli, üş günnən sora şah Kamalı Sahipi çağırdı. Dedi ki, sənnən üçüncü şərtimiz budu, gərəh bı bir qab suyu o ağacın başına elə çıxardıb, elə yendirəsən ki, o sudan bir damcı yerə düşməsin. Kamalı Sahip irazı oldu. Qabı aldı əlinə, gəldi həmin ağacın divində qız verən tükü saldı suyun içinə. Suyun içinə salan kimi su oldu şüşə. Kamalı Sahip camı qoydu qoynuna, çıxdı ağacın başına. Ağac o qədər yüksək imiş ki, o, ordan çıxıb baxanda öz atasının vilayətini görür. Görəndə özünü saxlıya bilmir, ağlıyır. Ağlıyanda bir damcı gözünün yaşı yerə düşür. Deyillər ki, bəli, sudan bir damcı düşüb yerə.

Kamalı Sahipi ağacdan düşür yerə, genə tükü götürür. Həmən su camı gətirir şahın hüzuruna. Bəs xəbər gəlir ki, yox, bir damcı su düşüb yerə. Deyir:

– Yox, su düşmüyüb, mən orda ağlamışam, o mənim göz yaşımdı.

Sora həqiqətən yoxluyub görüllər ki, su duzdudu. Suda duz yoxdu, amma göz yaşında duzlulux var. Bununnan da həqiqətən təsdiq eliyiflər ki, bı göz yaşıdı, su deyil. Onnan sora Mədinələr Mədinəsinin qızını Kamalı Sahipə verir, toyunu eliyillər. Kamalı Sahip Mədinələr Mədinəsinin qızını götürüb oturdu Süleyman peyğəmbərin xalçasının üsdünə. Deyir ki, Süleyman peyğəmbərin xalçası, bizi Haş-haş devin mağarasının ağzında yerə qoy. Bəli, Süleyman peyğəmbərin xalçası Haş-haş devin mağarasının ağzında bulaları qoyanda deyir:

– Mən gətirdim qızı.

Haş-haş dev deyir ki, day sən azadsan, get. Mədinələr Mədinəsinin qızı deyir ki, ey Kamalı Sahip, desəydin ki, sən məni bu devə gətirirsən, səni orda tikə-tikə doğradardım. Deyir ki, ey gö-

zəl, sən qəm yemə, səni ordan bıra gətirən adam, səni bırdan da xilas edəcək. Mən heç yerə gedən deyiləm. Deyir:

– Çıx get.

Kamalı Sahip gedir bir yerdə gizdənir. O vaxta qədər ki, dev gedir səfərə. Gəlir qızın yanına. Qıza deyir ki, dev gələndə bekaf otur. Desə nədi. Denən ki, sən gedirsən, gəlirsən, mən tək-tənha qalmışam. Canıı yerin sən deynən maa, mən heç olmasa sənin canınnan oynuyum. Kamalı Sahip qıznan bir az söhbət eliyən-nən sora görür ki, devin gələn vaxtıdı. Genə gedib öz yerində gizdənir. Dev gələndə görür qız çox bekafdı. Deyir:

– Ay qız, niyə bekafsan?

Deyir ki, bəs sən gedif gəzirsən, gəlirsən, mən tək-tənha burda qalıram. Heç olmasa öz canıı yerin denən, mən də sənin canınnan burda günümü keçirim, əylənim.

Deyir:

– Ay qız, mənim canım o dee, süpürgədədi, – deyib çıxıb gedir. Gedənnən sora Kamalı Sahip gəlir deyir:

– Nə dedi?

Qız deyir ki, dedi mənim canım süpürgədədi. Deyir:

– Yalan deyir. Evdə nə ki zinyət şey var gət, yığ süpürgənin üsdünə. Desə ki, niyə belə eliyirsən? Denən dedim ki, sənin canın süpürgədədi. Sənin canınnan mən yer süpürə bilmərəm. Ona görə qoy ev zibilli qalsın, amma sənin canın irahat olsun, sənin canın inciməsin.

Dev gəldi gördü ki, qız nə evi süpürüp, heş bir şey eləmiyip, elə süpürgəynən oynuyur. Evdə nə ki qiymətdi şeylər var, hamısını yığıb süpürgənin üsdünə. Dedi:

– Ay qız, sən neyniyirsən?

Deyir ki, bəs sən görmürsən sənin canınnan əylənirəm. Sən dedin canım süpürgədədi, mən də o süpürgəynən əylənirəm, onnan günümü keçirirəm.

Deyir:

– Evi niyə süpürmürsən?

Deyir:

– Bəs sənin canınla ev süpürərəm mən? Sənin canın inciyər. Mən o süpürgəynən heş vaxt ev süpürmərəm.

Hə, belə deyəndə dev gülüb dedi:

– Ay qız, mənim canım süpürgədə deyil, mənim canım yanar oddadı, – deyib gedir. Gedənnən sora Kamalı Sahip gəlir, deyir:

– Nə dedi?

Dedi ki, mənim canım o yanar oddadı. Kamalı Sahip dedi ki, genə yalan deyib. Ona görə də sən pal-paltarı yığ, hamısını yandırginən. Odnan oynaginən. Dev gəlib deyəndə ki, sən niyə belə eliyirsən? Denən ki, sən dedin ki, mənim canım o yanar oddadı, isdiyirəm özümü atam o odun içində yanam, sənin canınnan bir yerdə olam. Onda həqiqəti deyəcək o. Kamalı Sahip gördü ki, devin gələn vaxtıdı, genə gedib öz yerində gizdənir. Bı vaxtları div gəlir. Gəlir görür qızın pal-paltarının hamısı yanıb, özü də odnan oynuyur. Dedi:

– Ay qız, sən neyniyirsən?

Deyir:

– Necə yəni neyniyirəm? Sən dedin mənim canım yanar oddadı. Mənim sənnən savayı kimim var ki bırda. Mən sənin canınnan oynuyuram bırda.

Dev güldü, dedi:

– Ay qız, mənim canım nə süpürgədədi, nə də yanar oddadı. Mənim canım Boz dağda boz öküzün qəfəsində bir göyərçindi. Heç mən özüm onun yaxınına gedə bilmirəm, – deyib çıxıb gedir. Gedənnən sora Kamalı Sahip gəlir. Gələndə deyir ki, qız, nə dedi?

Deyir:

– Dedi ki, boz dağda boz öküzün qəfəsində bir göyərçindi mənim canım. Bu öküz mənim heş özümü də yaxına bıraxmır.

Belə deyənnən sora Kamalı Sahip deyir ki, hə, indi düz deyir. Kamalı Sahip çıxdı çölə, süfrəni bağladı belinə, papağı qoydu başına, otdu Süleyman peyğəmbərin xalçasının üsdünə. Dedi:

– Ya Süleyman peyğəmbərin xalçası, məni Boz dağda boz öküzdən iyirmi metr aralı qoy yerə.

Bəli, Kamalı Sahip Boz dağda boz öküzdən iyirmi metr aralı düşəndə baxdı gördü ki, bı elə bir zəhmli öküzdü ki, adam gennən baxanda onnan qorxur. Kamalı Sahip bir ox qoydu kamana, öküzün alnınnan bir ox vırdı, öküz yıxılan kimi xəncərini çıxardıb öküzün qəfəsini yardı. Göyərçin isdədi qaça, tez tutdu. Göyərçini tutanda Haş-haş dev gəldi. Dedi ki, ey Kamalı Sahip, o göyərçini öldürmə, bırax. Dünyada nə deyirsən sənə verirəm.

Dedi:

– Yox, keçəl suya getməz.

Xəncəri çəkib göyərçinin başını üzdü. Göyərçinin başını üzənnən sora Haş-haş dev yıxılıb öldü. Ordan xalçaya minip gəldi qızın yanına. Qıznan görüşüp eliyənnən sora devin nə ki qiymətdi əşyaları varıdı, hamısını yığıp düzəldilər yola. Kamalı Sahip yola düzəlip gəldi. Öz atasının vilayətinə çatanda muştuluxçu getdi ki, bəs şah sag olsun, Kamalı Sahip gəlif. Şah bu xəbəri eşidəndə şəhəri bəzədi, qoşunnan, tanınmış adamlarnan çıxdı Kamalı Sahipin pişvazna. Ordan Kamalı Sahipi götürdülər gəldilər saraya. Saraya gələnnən sora on bir qardaşı da zindandan çıxardılar, gətdilər onnarın hərəsinə bir gün toy eliyir, hər küşdə* öz nişannısını alır. Kamalı Sahipə isə qırx gün qırx gecə toy eliyillər, Mədinələr Mədinəsinin qızı ilə, öz arvadı ilə kəbinini kəsib, yeyib-içib muradına çatır. Siz də öz muradınıza catasınız.

## 120. NARGİLƏ

Biri varıymış, biri yoxuymuş, qədim zamannarda bir kənddə bir kişi və bir qadın varıymış. Bunnarın aman-zaman madar bir qızdarı varmış, adı da Nargilə imiş. Bunu hər cümə axşamı üş dəfə dalbadal qeybdən çağırıllarmış ki, Nargilə, sən yeddi il bir qəbrə qulluxçusan! Arvad ağlıyır, kişi ağlıyır ki, ay Allah, bizim dünyada bi dənə madar qızımız varıydı, bını da hər cümə axşamı gəlib bizdən istiyillər. Bəs biz bu dünyada kimə möhtac olacıyıx? Bılar hər cümə bacadan gələn bı səsi eşidillər. Bunnan son-

* hər küşdə – hər kəs

ra bı kişiynən arvad deyillər ki, durax bı qızı da götürəh, bu dünyadan baş götürüb gedəh. Bizim umudumuz bıdı. Deyir:

– Ay arvad, hara qaçax, Allahın altınnan hayana qaşmax olar?

Arvad deyir:

– Ay Allah, sən bı qızı vermişdin. Bəs bizi kim qoruyacaq, bizi kim saxlıyacaq ki, bı yeddi il qəbrə qulluq eliyəcək.

Səhər açılır, bılar şələ-şülələrin yığıllar, düşüllər yola. Ha gedillər, hu gedillər, gedillər bir meşənin qırağında bir dənə balaca tikiliyə ras gəlillər. Kişi deyir:

– Susunnan dilim-ağzım yanır, gəlin bırda bir az əylənəh, dincimizi alax.

Deyir, bu qapını açax, görəy bırda bi damcı su-zad varmı? Nə qədər kişi güc eliyir, qapı açılmır. Arvad durur güc eliyir, qapının nə qəddər döyəşdiyir, açılmır ki, açılmır. Qız deyir:

– Ata, ana, qoy görüm mən aça bilərəmmi?

Qız elə əlin qapıya vuran kimi o saatca qapı açılır. Bı qapı açılır, qız girir içəri. Qız içəri girən kimi qapı bağlanır. Görür kü, orda bir dənə oğlan yatıb, necə bir qəbir təki. Ata-anası deyir:

– A qızım, gəl gedək.

Qız çıxmax isdiyəndə görür qapı bağlanıb. Neyniyir, aça bilmir. Qız içəridən deyir, ata, ana, məni üç cuma axşamı çağırdıqları yer elə buraymış kı, siz də gətirib öz əliniznən məni buraya verdiz. Gəlin ağlamayın, gözüzü kor eləməyin. Bırda nə su var, nə də bir şey. Bircə qəbirdən suvay heş zad yoxdu. Durun düzəlin yola, day məni bıra çağırmışdar.

Ata-ana ağlıya-ağlıya gəlirlər ki, biz özümüz öz balamızı gətdıx, bura təfil verdıx. – Allahın işdəri yalan dəyil ki, qurban olduğum nə buyurub o da olmalıdı. – Düşüllər yola kişiynən arvad, gəlip çıxıllar kəndə.

Bı yeddi il bir qəbrə qullux eliyir. Allah tərəfinnən bına yeməh-işməh verilir. Qapı açılır taybatay, su gəlir cənnət bağı təki olur. Bu qız gecə-gündüz bunun mirçəyini qoruyur, burda bına qullağ eliyir. Yeddi il tamamına üş gün qalmış görür kü, yeylağa köş gedir. Köçün dalınca bir dənə bir qız gedir. Deyir ki, mən

bını çağırım, qulax yoldaşı olsun də. Bu qədər tək qalmağ olmaz. Bını çağırır. Gətirir oturdur. Bu öz payınnan bına da verir. Başına nə qəzeyi-qədər gəlib hamısının bu qıza nəğilliyir. Bu üş günü bı burda nağıllıyır. Bir gün olur, deyir ki, mən gedim o tərəfdə su var, gətirim çay qoyax içək. Deyip, yaxşı, getginən. Bir dəyqa qalmışımış ki, bu oğlan ayılsın. Nargilə su gətirməyə gedəndə bu oğlan axsırıb ayılır. Görüb başının üstündə bir qızdı, bının mirçəyin qoruyur. Deyir ki, vaxtaş ki, belədi… Deyir:

– A qız, səni bıra kim gətirib, nəçisən? Hali eylə məni.

Nargilə nəğilladığı sözün hamısın bı qız bına danışır. Bı oğlana nəğilliyir ki, bəs yeddi ildi mən sənin mirçəyini qoruyuram, üş cuma axşamı Allahtala məni çağırdı, gəldim. Xulasə, həmən Nargilə danışan sözdəri bı qız oğlana danışır. Deyir:

– Neynax, illap yaxşı, sən belə mənim yeddi il qulluğumda durmusan, day mən də ayılıb durmuşam, mən də sənnən ayilə quraram, yaxşı olar.

Nargilə gələndə görür ki, bı oğlannan səs gəlir. Görür ki, bı qız dediyi sözlərin hamısını ona danışır. Deyir, köçün dalınca da bir qız gedirdi, onu da göndərmişəm suya.

– Deyir, neynəh.

Qız gəlir, bu sözdəri eşidənnən sonra girir içəri. Görür ki, bu oğlan oturub qıznan söybət eliyir. Qız dinib eləmir. Qız deyir, yeddi ildi bir belə əziyyət çəkməyim zay oldu. Bu oğlan deyir ki, gedim bazarrığ eliyim, gətirim. Yeddi ildi siz dünyanın nazı-neymətinə həsrətsiz. Gətirəh, bir istirahət eliyəh.

Nargilə deyir:

– A oğlan, sənə bir sözüm var, gedirsən, sənə bir şey tapşıracam, bunu alarsan.

Oğlan deyir:

– Hər nə desən gözüm üsdə.

Deyir:

– Mənə bir qım pıçağı al, bir səbir daşı.

Deyir:

– Neynirsən?

Deyir:

– Sənə nə qalıbdı? Nə deyirəm, onu al, göt gə.

Bu gedir bı bazarrığı eliyir, bı dediyi qım pıçağın, bir də səbir daşın alıb gətirir.

Oğlan deyir ki, mən bına fikir verim, görüm bı neyniyəcəh. Bı qız dinməzcənə bir xeyli uzaxlaşır, gedir bir kolun dibində oturur. Deyir ki, ey qım pıçağı, səbir daşı, səni and verrəm məni agah eliyib bıralara gətdiyin vaxlara, vədələrə. Sən üş cuma axşamı məni əsir-yesir eliyib gətidin bıralara. Qoymadın mən yatam. Mən ata-anamın bir dənə madar qızıydım, məni aldın gətidin. Bir köçün dalınca gedən qızı sən gətidin, mənim yeddi ilik bu əməyimi zay elədin. Oğlan da bını dal tərəfdən izdiyirmiş, deyir: "Görəsən bı qım pıçağın neyniyir axı, bu axı sehirli şeydi, çətin sözdəri qəbul eliyə". Qız deyir:

– Ey qım pıçağı, səbir daşı, sən mənim şahidimsən, indi mən özümü məhv eliyirəm.

Həylə bı sözü deyib qurtaranda bı qız isdiyir bı pıçağnan ürəyinin başınnan vura, oğlan yetirir tutur. Deyir:

– Vallah, billah, mən bilməmişəm, axsırıb ayılanda gördüm ki, başımın üstündə bir qız oturub mənim mirçəyimi qoruyur. Sənin indi dediklərinin hamısını o qız mənə dedi. Özü də dedi ki, həmin o köçün dalınca gedən qızı da göndərmişəm suya, indi gələndə özün də görərsən. Mən gözümü açıb səni görsəydim, mən bı sözləri eşitməzdim.

Hə, bı belə deyəndə, bı qız deyir ki, o mən idim, yeddi ildi mənim ata-anamın da gözü kor oldu. Məni Allahtala üş cuma axşamı sənə bəxş edib, köçün dalıyca gedən qızı çağırdım gəldi, mənim yeddi illik əməyimi vırdı yerə, əməyimi zay elədi. Deyir:

– Yox, Allah eləməsin, gəl gedəh onu qavax, sənnən ayilə qurum.

Durub gəlillər, bı qızı qovub ayilə qururlar.

Vaxt-dövran keçir, bıların bir oğlu olur. Bının oğlu olanda deyir ki, ay allah, görəsən, mənim atam-anam harda qaldı. Deyir, ay oğlan, gedax görax nə oldu. Oğlan deyir, hə, onda gəlgi-

nən gedəh. Düşüllər yola. Gedəndə görürlər ki, bir sürü qoyundu örüşdə otduyur. Nargilə deyir:

– Ay çoban, sən allah, bı uşax ajdı, bir azca süd verginən bu uşağa verim, yesin.

Çoban deyir:

– Ay bacı, nəyi qoyub, nə axtarırsan. Nargilə adlı bir qız vardı, bizim kəndimizdən gedənnən qoyunnarımız da quruyup, suyumuz da quruyup, yer-yurt da çatdıyıb. Heş zad yoxdu. Yeddi ildi hər şeyə həsrətik.

Deyir:

– A kişi, insaf elə, din elə, get qoyunun əmcəyinə əl at.

Kişi gedir, görür ki, qoyunun əmcəhləri doludur südnən. Deyir:

– Sənə qurban olum, bəlkə elə o Nargilə sənsən?

Deyir:

– Hər nəyəm, südü sağ, göt gə.

Bir patıl süt sağır, gətirir verir bu uşağa, uşaq da yeyir, bunların özdəri də yeyir. İrahat olullar, durullar ayağa, düzəlillər yola. Gəlillər görüllər ki, bir bağman bağ belliyir gileylənə-gileylənə. Deyir:

– A bağman, niyə belə eliyirsən?

Deyir:

– Heç bir şey. Nə qədər qullux eliyirik, bəhrəsi yoxdur.

Deyir:

– Bəs niyə?

Deyir:

– Nargilə bu kətdən gedənnən yeddi ildi hər şeyə həsrətih, hessad yoxdu.

Nargilə deyir:

– A kişi, get buna bir salxım üzüm gətir.

Deyir:

– A bacı, vallah, yoxdur. Get özün də bax.

Nargilə deyir:

– A kişi, sənə deyirəm get bax da.

Bağban görür kü, üzüm doludu salxımlarla. Bir xeylək yığır gətirir, verir bılara. Deyir:

– A sənin qədəmlərinə qurban olum. Bəlkə elə Nargiləsən sən?

Deyir:

– Neyniyək, Nargiləyəm illap yaxşı.

Gəlillər görüllər ki, bir kişi gileylənə-gileylənə oturubdu. Damcı-damcı su gəlir. Deyir:

– A kişi, dur ordan bı uşağa bir patıl su gətir.

Deyir:

– Ay sənə qurban olum, bırda su var ki, sənə verim? Görmürsən damcı-damcı gəlir.

– A kişi, sənə deyirəm dur o tərəfə bax, gör su gəlir, gəlmir.

Kişi durur baxır, görür, ay Allah, elə su gəlir ki, belə heç görünməmiş.

Hə, bırdan da su alıb içillər, gəlillər kəndə. Kəntdə görüllər ki, bir şənnikdi ki, hamı deyir-gülür. Deyillər Nargilə gəlib kəndə. Qurban kəsən kim, müsəlliyə çıxan kim, Allaha üz tutan kim ki, Nargilə adlı qız vardı, gedib yeddi ildi, indi gəlib kəndimizə. Gəlillər atasına, anasına muştuluğa ki, Nargilə qızın gəlib. Deyillər, heç vax inanmarıx, o elə yerə getmiyib ki, qayıdıb gəlsin.

Nargilə deyir:

– Ata, ana, gəlmişəm.

Ata-anası deyir:

– İnanmarıx. Əgər sən Nargiləsənsə, gəl əlini çək gözümüzə, onda biləh ki, Nargiləsən.

Hə, gəlir əlin çəkir onnarın gözünə, gözdəri açılır.

Elə bil bunnara təzədən həyat verdilər. Bular çox şad olullar. Bılar bir-biriynən öpüşüllər, görüşüllər, bılar o qəddər Allahtalanın əziz bəndəsiymişdər ki, bıların bu qədər işdəri xoş sona yetir.

Hə, bılar xoş-firavan ömür sürüllər. Yetişdi yerə geşdi, bırda nağılımız sona yetişdi. Göydən üş alma düşdü. Biri sənin, biri mənim, biri də nağıl söylüyənin.

## 121-122. QILLICA

Biri varıymış, biri yoxuymuş, bir kişi varıymış. Bunun bir arvadı və bir qızı varıymış. Aylar ötür, günnər dolanır, bı arvad irəhmətə gedir. Bının barmağında bir dənə üzüh varıymış. İrəhmətə gedəndə bının vəsiyyəti varımış ki, a kişi, mənim bı üzüyüm kimin barmağına olsa, onu alarsan. Deyir ki, yaxşı.

Arvad ölür, bının qırxı çıxannan sora bı kişi üzüyü götürüb düşür bı kənd mənim, o kənd sənin, axtarır. Ancax üzüy heş kəsin barmağına olmur. Deyir, əşi, elə bı arvad bilirmiş ki, bı üzüy heş kəsin barmağına olmuyacax, ona görə belə deyib. Kişi gətirir bı üzüyü tulluyur istolun üsdünə. İstolun üstünə tulluyanda qızı qapıdan girir, üzüyü götürür taxır barmağına. Deyir:

– Bıy, ata, bı nə üzüydü, oldu mənim barmağıma. Sən almısan?

Deyir:

– Ay bala, neçə aydı, neçə vaxdı bı üzüyü gəzirəm, heş kimin barmağına olmur. İndi ki bı sənin barmağına oldu, onda gərəy mən səni alım. Ananın vəsiyyətidi, gərəy mən səni alam.

Deyir:

– Ay ata, sən niyə həylə deyirsən, bəs belə işmi olar? Bəs bı necə sözdü ki, sən danışırsan? Qızı da ata alarmı?

Deyir:

– Ay bacı, neynim, anoun vəsiyyətidi.

Deyir:

– Nolsun, anam deyib yadı alginən, deyimiyb ki, qızı alginən.

Deyir:

– Qızım, gəl onda bir iş eləyəy.

Kişi gedir qıraxdan-bıcaxdan bir belə şeytan yığır gətirir, düzür sapa, asır boynunnan, gedir bazara. Bazara gedəndə bına o qədər gülüllər ki: “Bı kişiyə bax, boynuna şeytan taxıb gəzir”. Kişi gəlir evə, deyir ki, qızım, üş gün mən bı işi eliyəciyəm. Görüm axıracan güləcəylər, yoxsa necə. Qız deyir:

– Ay ata, Allah sənə nəhlət eləsin, bəs belə işmi olar.

Bı birinci gün gedəndə lap çox gülüllər, ikinci gün gedəndə bir az gülüllər, üçüncü gün gedəndə bına heş gülmüllər. Gəlir deyir ki, qızım, tay səni mən almalıyam. Camahat bir gün gülər, iki gün gülər, sohra heş gülməzdər.

Qız deyir:

– Ay ata, Allah sənə nəhlət eləsin. Belə işmi olar?

Atası deyir:

– Yox e, heş belə olmaz, mən səni almalıyam. Ananın vəsiyyətidi.

Deyir:

– Vaxtaş ki həylədi, qoy əlimə aftafa alım, gəlim. Allah sənə nəhlət eləsin, ata.

Hə… Qız gəlir uzun yaylığı cırır, atır bir dənə kolun başına, bir dənə də qatmanı bağlıyır aftafıya – Kişi bının qıçına axı ip bağlamışdı ki, bı birdən qaçar. – Qatmanı açır, bağlıyır aftafıya, bir qanadın da bağlıyır kola, gedir. Kişi elə bilir ki, bı gəlir. Ha gözdüyür, qız gəlib çıxmır. Gedir görür qız yaylığı örtüb kolun başına, qatmanı da bağlıyıb aftafıya. Elə bilir yaylıx qızdı, aftafa da əlində. Qız da deyir, asda qaçan namərtdi. Ha gedir, hu gedir, gəlir görür örüşdə bir çoban qoyun otarır. Bırda girir bir daşın qoynunda gecəliyir. Bı heş çobanın da gözünə görühmür. Orda qalır, bir azdan sonra görür ki, acıyıb. Nə bilim, əlinə düşənnən, olannan tapıb yeyirmiş, gücünən qidalanırmış. Axırı görür ki, elə bil bının halı pisdi. Gedir çobana deyir ki, çoban, səni and verirəm üsdəki Allaha, mənim yerimi deməginən. Bir sirdi mən sənə açmışam. Başdıyır bı başına gələn haq-hesabı danışmağa. Deyir, gətiginən qoynunun birini öldüginən, dərisin ver mənə, mən geyim, bı dünyadan itim. Heş kəs məni tanımasın.

Çoban deyir:

– Bacı, niyə həylə eliyirsən? Gəl sən bırda qalginən, mən səni saxlıyaram.

Deyir:

– Yox, mən heş kəsə umud eliyib qala bilmərəm. Mən bu dünyadan qaçacam. İnsannara yaxın getmiyəcəm.

Hə… Çoban bına bir dəri verir, ətdən-südən də verir, bı yaxşı yeyib-içənnən sora durub yola düşür. Gedir o daşın qoynunda, bir az bı daşın qoynunda qalır. Vaxt-dövran keçir. Bir gün bir patşah ova çıxıb. Ovda görür ki, bir daşın qoynunda qıllı heyvana oxşar nəyisə var. Patşah deyir:

– Hər nə məxluqsan çıx qırağa, yoxsa səni öldürəcəm. Deyir ki, sən Allah, məni vırmaginən, mən insanam, oqarta çöldə qalmışam ki, tük gətirmişəm. Deyir, çıx bəri görək. Kişi bunu görəndə qorxur…

Patşah vəzirə deyir ki, gəl bunu götürək atın qucağına, anama aparax kömək eləsin.

Vəzir deyir:

– Şah sağ olsun, deyirsən aparax, aparax.

Qıllıca deyir:

– A kişi, mənim qılım-qırpım tökülər ananın sırfasına. Məni anan qəbul eləməz.

Deyir:

– Yox, kül atarsan, zibil yığarsan, ev süpürərsən.

Gəlillər bunnar evə. Qapıda arvad görür ki, oğlu nəysə qıllı bir şey gətirib. Şahın anası deyir:

– Bala, bı nədi gətirmisən?

Şah deyir:

– Ana, sənə qulluxçu, kül atan gətirmişəm.

Anası deyir:

– Ay bala, uana elə, qılı-qırpı üstümüzə tökülər. Bı nədi, nəə gətirmisən bını?

Vaxt-dövran keçir, bı özün elə tanıdır kı, – tay bı qıllı-qıplı adamdı – heş kəs bına səmt gəlmir. Vaxt olur ki, qonşuda toy olur. Toy olanda camaatın hamısı gedir toya. Patşahnan anası da gedir. Bı deyir: “Ay Allah, mən nə təhər eliyim ki, mən gedim bı toyda oynuyum, bir qolum-qıçım açılsın”. Dərini başından çıxarır, qoyur avxırın içinə. Gedir toyda oynuyur, başmağının bir tayı – başmağı da varıymış, – tez bırdan çıxanda qarıxır, düşüb qalır. Barmağında da üzüy varmış, haman anasının üzüyü imiş. Bu

toydan tez çıxır gedir. Ancaq patşahın buna gözü düşür. Deyir, ay Allah, ordan bir qız getdi, gəldi bırda oynadı. Bı kim idi? Qız camahata deyir ki, Çömçəqurutmazdanam.

Qız qapıdan çıxanda başmağının bi tayı düşüb qalır. Qıllıca tez qaçarağa gəlir evə, həmin paltarın geyir başına, oturur həmən yerində. Şahınan anası toydan gəlillər. Və patşah deyir ki, ana, istiyir dünya əfil-təfil ola, mən gedib o qızı tapbalıyam. O de, qızın başmağının da bir tayı düşüb qalıb.

Vəzir, vəkil, çox axtarırlar ki, bu qızı necə tapsınlar. Padşah deyir ki, ana, sən mənə bir aylıq azuqə hazırla, çörək bişirginən, mən vəzirnən gedəm axtaram tapam. Anası deyir, ay bala, sən axı onu hardan tapassan? Nə bilirsən kimdi, nəçidi? Gəldi oynadı, çıxdı getdi. Patşahın anası çörək bişirəndə Qıllıca o tərəfə keçir, bu tərəfə keçir, xəmir sırfasın yanında çox hərrənir. Arvad deyir ki, az, cəhənnəm ol, bu dəyqa qılın-qırpın töküləcəh sırfıya. Qız deyir:

– Yox, qıraxda duracam.

Qıllıca bu xəmirdən bi cıqqılı oğurruyur. Bu barmağındakı üzüyü qoyur xəmirin içinə, balaca bir koka* bişirir. Anası çörəyi xurcuna yığanda Qıllıca da gətirir bu kokanı ehmalcadan qoyur xurcunun gözünə.

Hə... Patşahla vəzir bir aylıq səfərə çıxıllar. Ha gedillər, hu gedillər, bir uzax yol gedillər. Bir yerdə bıların çörəyi qutarır, bir səhrada. Deyillər, bizim çörəyimiz kutardı. Bıra nə kəndə yaxındı, nə də bir yerə. İndi biz neyliyəciyik? Çömçəqurutmazı kənddən də tapa bilmədik. Patşah xurcunu axtaranda görür kü, xurcunun gözündə balaca bir koka var. Götürür bu kokanı sındırır. Baxır görür həmin gördüyü üzüh, bı de, bu kokanın içindədi. Patşah vəzirə deyir ki, tay biz qayıdax, day getməli olmadıx.

Qayıdıllar, gəlillər evə. Patşah fikirrəşir ki, bu Qıllıca elə həmin toyda oynuyan qızdı. Elə bu üzüyü onun əlində görmüşəm. Bu bi tay başmax da elə onunkudu. Qayıdır gəlir, deyir ki, ana, getdıx, tapa bilmədıx.

---

* koka – kökə

Patşah anasına deyir:

– Ana, dur bi aş bişi, ver Qıllıcaya, gətirsin sırfıya.

Deyir:

– Ay bala, qılı-qılpı tökülər yeməyin içinə, məə nolub ki? Mən gətirərəm sənə yeməy.

Patşah deyir:

– Sən mən diyəni elə, ver Qıllıcaya yeməyi, gətirsin.

Deyir:

– Nə deyirəm, yaxşı.

Qıllıca bir-iki gün yeməyi gətirir, ancaq hələ padşah bına bir şey demir. Padşah bını başdan-əyağa süzür, görür elə həmən qızdı ki, toyda gəlib oynamışdı. Görür ki, bının qılı-qıpı qoyun dərisidi. Belə bir gözəl, göyçəh qızdı. Öz-özünə deyir: “Hə… Yaxşı”. Üçüncü günü Qıllıca yeməy gətirəndə patşahın anası deyir, ay oğul, axı əvvəl sənin bı qızdan xoşun gəlmirdi, qoymurdun yeməyə, sırfıya yaxın gəlsin. İndi nolub, niyə belə eliyirsən? Patşah deyir:

– Mənim bir işim var, aydınlaşdıranda sənə də deyərəm. Sənin işin yoxdu, sən yeməyi ver, Qıllıca gətirsin.

Qıllıca üçüncü gün yeməyi gətirəndə patşah tez durur bı qızı tutur, deyir:

– Sənə deyirəm o paltarı soyunginən.

Deyir:

– Ay oğlan, bı mənim dərimdi, nəyi çıxardım əynimdən?

Deyir:

– Yox, bı sənin dərin dəyil. Sənə deyirəm soyunginən.

Padşah o kokanın içindən götdüyü üzüyü də göstərir ki, ala, bı da sənin üzüyündü. Deyir:

– Yox, heç ola bilməz, mənim üzüyüm dəyil.

Başmağı göstərir, deyir ki, bı da sənindi. Deyir:

– Yox, mənim dəyil.

Nəyisə, patşah dartır bı dərini cırır. Baxır görür ki, bı qız dünya gözəlidi. Həmin o toyda oynuyan qız elə bıdı. Hə… Deyir apar bı qab-qaşığı ver anama, gedim anama da deyim, mən səni alasıyam. Deyir:

– Ay oğlan, heç həylə şey ola bilməz.

Hə... Qırx gün, qırx gecə toy eliyillər, şənnənillər, bını alır özünə xanım eliyir. Qıllıca deyir:

– Ay oğlan, mən sənə bir söz diyəcəm. Vaxtaş ki, bı evi, eşiyi tikmisən, bının hər tərəfində bir gözətçi qoy.

Padşah deyir:

– Bı nə deməydi, nolub ki? Mən olan yerdə sən nədən qorxursan ki?

Deyir:

– Hər nədi, gəl sən mən deyəni elə.

Patşah bınnan irazılaşır. Day bınnan bir şey soruşmur. Bılar belə şad-xürrəm ömür sürüllər.

Hə… İndi sizə kimnən deyim, bı Qıllıcanın atasınnan. Bı kişi qız gedənnən dərviş donu geyib düşür çöllərə qızını gəzməyə. Bir gün deyillər ki, filan patşah bir qız alıb ki, dünya gözəli. Bını deyəndə bı duyur ki, elə bı həmin bının qızıdı. Axı onu kəndbəkənd izdiyirdi. Elə bı xəbəri də eşidəndə bilir ki, yəqin elə bının qızıdı. Gəlir dərviş donunda bı patşahgilin həyətində oxuyur. Qıllıca bını görən sahatı tanıyır. Deyir, bı nəyisə mənə bi xata törədəcək.

Bı Qıllıcanın da bir oğlu olur. Bının qarnınnan çox qara qannar axır. Deyir, bı atam mənə nəyisə bir xətər toxunduracax.

Hə... Bı dərviş gəlib qapıda oxuyanda patşah deyir:

– Gedin görün o kimdi, gətirin yanıma.

Bı dərvişi gətirillər patşahın yanına, deyir:

– A kişi, sən kimsən?

Deyir:

– Mən bir Allah bəndəsiyəm, düşmüşəm çöllərə, dərvişdıx eliyirəm.

Hə... Bı dərviş bırda yeyir-içir, axşam da bı evdə qalır. Kişi evə gələnnən qızı tanımışdı. Ona görə də günortan özünə tədbir tökmüşdü. Bı dərviş bir neçə gün qalır bı evdə. Bir gün gecə deyir, mən nə fürsət tapım ki, bı qızı evinnən-eşiyinnən eliyim də. Gecəni yarı bölür. Durur gəlir, görür uşağın anası o qəddər qay-

ğı, fikir çəkib ki, yorulub yatıb. Uşax da beşiydə yatıb. Gəlir bı uşağın başın kəsir, ancax hulqumun vurmur. Kəsir, yarıda qalır. Gətirir bı qannı pıçağı qoyur uşağın anasının yastığının altına.

Səhər gəlin durur görür ki, uşağının başın kəsiblər. Hay-haray salır. Vəzir gəlir, vəkil gəlir, patşah gəlir. Bəs bını kim belə eliyib. Bı dərviş deyir ki, patşah sağ olsun, gəlin hamının yorğan-döşəyinin altın axtarax. Əgər kimin döşəyinin altından qannı pıçax çıxsa, odu bının başın kəsən. Gəlillər hamının döşəyinin altın gəzillər, tapmıllar. Axırda anasının döşəyin altına baxanda görüllər qannı pıçax bırdadı.

Səhər padşah əmr verir ki, bı arvadı gətirin dar ağacınnan asın. Arvad çox yalvarır. Deyir, bını mən eləməmişəm, and bı, Quran bı. Heş kəs inanmır. Bı Qıllıcanın o qədər uzun hörükləri varımış ki, bı uşağı bağlıyıllar bının saçına, aparıb atıllar suya. Deyir, Allahdan ümüd üzülmüyəndə üzülmür də. Bı uşaxdan nəyisə xırıltı gəlir. Axı bının hulqumunu kişi vurmamışdı. Bının anasının saşdarı bının bı boğazının kəsilən yerin tutur, qoymur bı uşax ölməyə. Allah tərəfindən bına köməy gəlir. Allahın bi insaflı bəndəsi gəlir bıları götürür aparır. Bı oğlanı aparır sağaldır, gəlini də alır. Bı kişi bına deyir, gedəy mən səni alım, oğlunu da saxlıyım. Qıllıca deyir, mən heş kəsə getmərəm. Ancax sən mənim bı oğlumu xilas elə, mən heş nə isdəmirəm.

İllər keçir, aylar dolanır, bı oğlan yaxşı olur. Bı oğlanın yaxşı varı-malı olur. Allah tərəfindən bına yaxşı gəlir gəlirmiş. Bı oğlan yaxşı at çapır, yekəlir bir iyid olur.

Bir gün anası deyir:

– Oğul, sənə mən bir ərz eliyəcəm.

Deyir:

– Nə ərz eliyəssən, ana?

Deyir ki, gəlginən bırda şahın adına bir dənə saray tikək.

– Ana, mən nəynən saray tikim?

Anası deyir:

– Bala, qorxma, Allah kömək eliyəcək.

Bu oğlan bir dənə böyük saray tikir. At çapmağnan, at ötməyinən bu oğlana yaxşı gəlir gəlir. Bu saraya iki qapı qoyur. Bir gün patşaha deyillər ki, orda bir oğlan var, elə at gəzdirir ki, heç onun atını keçən yoxdu. Şah deyir, əşi, o kimdi ey mənim atımı ötə.

Onunan at yarışına hazırraşır. Anası oğlana demir ki, bu sənin atandır. Evdə anası oğluna deyir ki, oğul, at çapanda sən elə elə ki, o sənnən qabax gəlsin. Sən ona uduz ki, qonaxlığı sən ona verəsən.

Anası evdə yeyib-işməh hazırrıyır. Yarışda oğlan məğlub olur. Deyir, patşah sağ olsun, mən səni adamlarınan birlikdə qonax çağırıram. Patşah bunu qəbul edir, öz adamların başına yığıp gəlir bu oğlangilə. Qız da başına bir çadıra salıb, dünyanın bütün naz-nemətini yığır istolun üstünə. Nə patşah, nə də qızın atası bunu tanımır.

Qız tapşırır ki, qapılar bağlansın. Dərviş məsələni başa düşür, istiyir aradan çıxa, qoymurlar. Qız başından çadıranı götürür, deyir:

– Oğlum, gəl dur yanımda. Deyir, bu dərviş mənim qəddar atamdı. Məni bu günnərə salan o atamdı. Bu oğluu başın kəsən o atamdı. O vaxt dedi ki, kimin döşəyinin altından pıçax çıxsa, qatil odu. Onda mən dinmədim. Mənim atam mənim uşağımın başın kəsdi, sən də məni saçıma sarıyıb atdın sulara. Mən həmən qadınam. Mənə Allah köməh elədi. Gəldi mənim oğlum yekəldi, at çapmağı örgəndi. Eşitdik ki, patşah at çapbağı xoşduyur. Mən onun üçün sənə bu yarışı təklif elədim. İndi bil ki, bütün bu işdərin bayiskarı mənim bu qəddar atamdı. İndi xayış eliyirəm, mənim sözümə yaxşı qulax asın. Buna bir əlac eliyin. Mən sənin arvadınam. Həmənki aldığın o gəlinəm, bu da sənin oğlundu. O da mənim atamdı. Mənim gözümün qabağında o ki mənə bir belə zulum veripdi, indi bu zulumu o atama verməlisiz. Çünki adam öz övladının başına pıçax çəhməz. Ancax Allahın köməhliyiynən bütün işdər gəldi yerinə düşdü, hər şey agah oldu. İndi bu atamı neyniyirsiz eliyin.

Burda kişini dar ağacından asıllar. Patşahla oğul barışır, genə yığışıb gəlillər həmin saraya, şad-xürrəm ömür sürüllər. Onun üçün deyillər ki, Allahın səbiri çoxdu, gec eliyər, ancax güc eliyər.

Yedi-işdi, yerə keşdi. Göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri də burda olmuyannarın.

**122**

Biri varıdı, biri yoxudu, bir çoban varıdı. Bu çobanın bir arvadı varıdı, bir qızı varıdı.

Bir gün olur çobanın arvadı xəstələnir. Xəstələnəndə arvat çağırır kişiyə məsləhət eliyir. Deyir ki, a kişi, mənim ayakqabım kimin ayağına olsa, onu alarsan, onnan evlənərsən.

Bir gün olur arvat ölür, aparır arvadı dəfn eliyillər. Dəfn eliyənnən sora, kişi bir müddətdən sora ayakqabını götürür şəhərin hər yerin gəzir ki, kimin əyağına olsa, onu alacam – arvadın vəsiyətidi. Bu hər yerir gəzir, heş kəsin ayağına olmur. Heş kəsin ayağına olmuyannan sora bının qızı bu ayakqabını geyir, həyəti süpürür. Həyəti süpürəndə atası gəlir. Qızına deyir ki, qızım, bura gə. Aparır evə. Deyir ki, qızım, mən səni alacam.

Qız deyir:

– Ay ata, ayıpdı. Mən sənin qızınam, sən mənim atamsan. Belə şey ola bilməz.

Deir:

– Day yox e! Hər yeri gəzmişəm, heş kimin əyağına olmuyup. Mənim elə bıdı fikirim, alacam, alacam.

Qızı deyir ki, onda gə belə eliyəh. Deyir:

– Nətəər?

Deyir ki, gedirsən dərzinin yanına, mənə iynəbatmazdan, qəyçi kəsməzdən bir dəs paltar tihdirip gətirirsən, onnan sora mən saa razılıx verrəm.

Kişi deyir:

– Yaxşı.

Kişi gedir dərzinin yanına, bına iynəbatmazdan, qəyçikəsməzdən bir dəs paltar tikillər. O da qızıldı dəə. Gətirir. Gətirənnən sora qız gözdüyür, atası naxıra gedənnən sora – çobandı axı – naxıra gedənnən sora qız həmən paltarı geyinir, çıxır aradan.

Az gedir, çox gedir, dərə-təpə düz gedir. Gedir çıxır bir dənə çobana ürcah – qoyun sürüsü otarana. Bına deyir ki, sənə bı qədər qızıl verəcəm, bir qoyunun başın kəs, dərisin diri soy, ver mənə.

Çoban razılaşır.

Ancax deyir:

– Böyüh qoyun olsun, ətin də istəmirəm, ancax dərisin.

Çoban bınnan razılaşır. Bını kəsir, dərisini soyur, verir qıza. Qız qəşəh bu dərini geyinir o paltarın üsdünnən, baş alır gedir.

Gedir, gedir, dərə gedir, təpə gedir, düz gedir, gedir çıxır bir patşahın diyarına. Patşahın elə bil ki, həyətinə girən yerdə daş qoyulup, guya elçi daşıdı. O daşın üsdündə oturur. Oturannan sora patşah adam göndərir ki, gedin görün o nə isdiyir, verin, getsin. Kim gəlir, baxır, qorxur qaçır. Sora patşah vəzirə deyir:

– Bı nədi, bı nə deməhdi?

Deyir ki, nə insandı, nə heyvandı, belə qıllıca şeydi. Deyir ki, özün get.

Gəlir. Gennən deyir ki, ay insansan, heyvansan, nəsən, nə isdiyirsən? O da deyir ki, heş nə isdəmirəm. Mən isdiyirəm bir gecə qoyun, qalım burda. Bıllar bını qoyur, qalır. Qalanda qız bıllara deyir ki, məni saxlıyın burda, tövlə süpürüm, həyət süpürüm. Bir qarın yeməyə həyət süpürüm, at suarım, nə bilim belə-belə deyir. Bınnan razılaşıllar. Razılaşıllar, qız burda qalır, ancax qıllı paltarda.

Vax-vədə keçir, bir gün bu kişi – qızın dədəsi dərviş paltarında düşür çöllərə. Deməh gəlir, gəlir, o da çıxır patşahın sarayının qabağına.

Gedillər bına nə verillər, bı götürmür. Deyir ki, mənə bircə gecə qalmağa icazə verin.

Deyir:

– Olmaz.

Qız tanıyır, özün öldürür kü, yox, qalmasın.

Bıllar deyillər ki, yox olmaz. Bı deyir:

– Yox, e, qalacam.

Yalvarıp yapışır, qalır.

Qalır, qızın bütün hak-hesapın öyrənir ki, bı bının təmiz qızıdı. Qız atasın tanıyır. Bu kişi də tanıyannan sora çıxır gedir.

Bir gün olur, patşahın oğluna toy vırdırıllar. Bı qıllıcanı qoyup evdə, gedillər toya. Hamı çəkilif gedənnən sora Qıllıca qəşəh o qılı soyunup qoyur evdə, həmən paltarda gedir toya.

Ay bir hava çaldırın, yol adamıyam, bir dəfə öynüyüm gedim. Ay hava çaldırın, bir dəfə öynüyüm gedim. Havanı çaldırır, düşür öynüyür. Patşahın oğlu bir könüldən min könülə vırılır bu qıza. Vırılır, qız elə aradan çıxır qaçır. Patşahın oğlu əmr eliyir ki, şəhəri alın mühasirəyə. Alın mühasirəyə, görəh bı hara getdi dəə. Kimdi, necoldu?

Alıllar mühasirəyə, nə qədər eliyillər heş kəs tapılmır. Qıllıca da qəşəh gəlir, qılın geyir genə, oturur. Gəlillər, tez gəlillər. Qıllıca deyir:

– Niyə belə tez gəldız?

Deyillər ki, toy pozuldu. Bir nəfər qız belə yolçu gəldi öynədi, patşahın oğlu vırıldı ona. İndi onu axdarır.

Hə, bu qız bilir işin. İndi bir günnəri oğlan – patşahın oğlu, anasına zakaz eliyir ki, mənə yol çörəyi düzəlt, yola azuqa düzəlt, mən o qızı tapbalıyam.

Bıllar başdıyır – fətir deyillər, – fətir salır təndirə. Fətir salanda o qıllıca gedir bir bellə kündəni (əli ilə göstərir – top.) götürəndə arvat deyir ki, qırağa çəkil, qılın düşər, oğlum diksinər. Qız kündənin birin aradan çıxardır. O kündənin içinə bir dənə qızıl üzüh qoyur, bişirir. Oğlanın sunkasın yığanda ötürür sunkanın içinə. Oğlanın sələsin tutullar, düşür yola. Gedir, gedir, dərətəpə düz gedir. Gedir çıxır bir düzənniyə. Atın buraxır bılağın başında kı, dincəlsin. Atı da su işsin, özü də çörəh yesin. Bı elə çörəyi qabağına açanda bu kökə çıxır bının ürcahına. Çıxanda belə tulluyur bulağa, deyir ki, bu o Qıllıcanın əməlidi. Tulluyur

kökəni bulağa. Yeyir-içir, duranda atı gətirir ki, bulaxdan su iç-sin. At hayxırır, çəkilir qırağa. Nə qədər eliyir, at su işmir. Sora baxır ki, çöpün başında qızıl üzüh var – suyun içində. Elə xəmir əriyip, üzüh qalıp çöldə, çöpün başında. Üzüyü götürür, deyir bu ancax Qıllıcanın işidi. Üzüyü götürür, sora qəşəh atın suvarır, düz qayıdır evlərinə. Gəlir anasına deyir:

– Maa yeməh-işməh elə. Özü də Qıllıca gətisin.

Deyir:

– Ay bala, tükü düşər ora-bıra.

Deyir ki, yox e, məə yeməy elə, o gətsin. Deməh, bu yeməyi eliyillər. Qıllıcaya deyillər, apar.

Deyir:

– Yo, yo, yo. Mən apara bilmərəm, tüküm düşər, qavarsız, eliyərsız, nətəər.

Deyir:

– Aparmalısan.

Aparır. Oğlan kəsir Qıllıcanın üsdün. Deyir:

– Soyun!

Deyir:

– Mənim ətim də bıdı, dərim də bıdı, paltarım da. Nəyi soyunum?

Deyir:

– Yox e, soyun saa deyirəm!

Qız soyunur. Qız soyunanda oğlanın ürəyi gedir. Ha gözdüyüllər, nə Qıllıca dala qayıtmır, nə də bırdan səs çıxmır. Bir zaman gəlip görüllər ki, oğlanın ürəyi gedip, Qıllıcanın da şəfəqi düşüp evin hər yerinə. Onnan sora oğlan ayılır. Oğlan ayılannan sora deyir:

– Hə, indi mənim toyum olsun Qıllıcaynan.

Bıllar qırx gün, qırx gecə toy vırdırıllar, evlənillər. Bılların gəlir bir dənə oğlu olur. Onnan sora bu dərviş – qızın dədəsi bir də hərrənir gəlir. Gəlir, kişi görür uje qızının bir oğlu var. Kişi deyir ki, bu gecə uşağı öldürməliyəm, başın kəsməliyəm.

Bını gəlin də başa düşür. Gəlin barmağın kəsir, duz basır. Bir zaman nə təər olursa, bı yayınır, uşağın başın kəsir. Səhər

durullar ha gözdüyüllər, uşax oyanmır. Uşax oyanmıyanda gedip baxıp görüllər ki, uşağın başı kəsihdi beşihdə. Pıçağı da qoyur anasının cibinə. Ora-bura öldürəni gəzillər. Birdən dərviş ordan deyir ki, anası olanda nolar, anasının da civinə baxın.

Anasının cibinə baxanda görüllər ki, qannı pıçax anasının cibindədi. Gətirillər, əmr verillər anasının gözün çıxartdırıllar, bu uşağı da başı kəsih verillər qucağına, aparıllar meşənin ən qalın yerində bılları qoyullar. O evin iti bıllarnan gedir. Bıllar orda zarıyıllar ağacın dibində. Gəlir ağaca bir dənə quş qonur. Quş qonannan sora elə bil dil açıp deyir ki, – göyərçin daa, – mən uçacam, leləh düşəcək. O leləhdən götürərsən, əvvəl öz gözaa çəkərsən. Bı deyəndə ki, gözüm yoxdu, it gözün ağzınnan salır yerə. Deməh atıplar itə, it dilinin altında saxlıyıp. İt gözdəri qoyur əlinə arvadın.

Deyir:

– Leləyi çəkərsən, gözuu qoyarsan.

Leləyi çəkir, gözün qoyur, göz olur həmin göz.

Onnan sora da deyir ki, leləyin birin də çəkərsən uşağın boynuna, kəsilən yerinə. Uşağın başın qoyarsan yerinə, olacax üşəx həmən üşəx. Bı gətirir belə də eliyir. Uşax da ayılır, ananın da gözü olur. Bıllar olur it, üşəx, ana.

Bıllar gəzillər oranı-bıranı, görüllər ki, bir dənə çobandı, sürü gətirir – qoyun sürüsü. Çoban qoyun sürüsün gətirir, bir dənə ocax qayılır, oturur qırağında. Deyir:

Qıllıca nədən yesin,
Aldan yesin, baldan yesin.
Əşi, neynir e,
Küllü horradan işsin, yatsın.

Qıllıca bir gün bını busur, ikinci gün busur. Çoban da yatanda bilirsən nədə yatır? Palan deyillər e, onda. Bı (Qıllıca – top.) qırı gətirir əridir, yayır palanın içinə. Çoban gənə gəlir.

Qıllıca nədən yesin?
Aldan yesin, baldan yesin.
Ə, neynir e,
Kül horrası işsin, yatsın.

Bu qəşəh içir, yatır. Ocağın istisi vırır, qır əriyir. Qır bını diri tutur. Çobalıyır əynə-bəynə, düşür ocağa, yanır. – Bala, bı çoban qıllıcasıydı da. – Bı yanannan sora qəşəh gəlillər, bının külün də yığıllar oğluynan – oğlu yekəlip, – basırıllar. Basırannan sora qəşəh oğlu sürünü aparır hər gün otarır, gətirir. Arvat də əvdə ətdən, zaddan biş-düş eliyir, yeyillər.

Bir gün bu patşahın oğlu çıxır ava, həmən bıllara bı zülümü eliyən vəzirinən. Gəlir bı oğlana ürcah. Oğlana baxır, baxır, baxır, oğlana o qədər baxır kı, vəzirə deyir:

– Bu nə aləmdi? Bu uşax maa nə qədir yaxın gəlir.

Deyir ki, gəlginən uşağa deyək ki, bizi qonax dəvət eləsin. Soruşullar:

– Kimin var?

Deyir:

– Anam var.

Deyir:

– Bizi qonaq qəbul eliyərsiz?

Deyir:

– Anamnan icazə alım, saa deyərəm.

Səhər olur, bu gedir anasına deyir. Anası bilir ki, öz yoldaşıdı. Deyir:

– Bala, dəvət eliyərsən gələr. Yaxşı yeməh eliyəcəm, çəkəcəm xörəyi, qoyacam qabağuza. Sən çonbağu da qoyarsan yanaa. Ollar saa deyəcək ki, aş ye. Sən də denən ki, çombağım, aş ye. O deyəcək ki, çombax da aş yeyərmi? Sən onda deyinən ki, ana da balanın başın kəsərmi?

Bı belə də olur. Bıllar sabah gəlillər, guya qonax gəlillər da. Bıllar guya quş vırıplar, aparıllar bının anası qızartsın. Bala, gərəh bırasın əvvəl deyeydim. Bullar quşu özdəri qızardıllar, ama yandırıllar. Bu arvad o qədir baxır-baxır. Axır ki, yananda arvat deyir:

– Ağası gülüm, quş yandı, ağası gülüm, quş yandı – deyəndə bı deyir ki, hə bırda sirr var – bu şah e.

Deyir:

– Sabah onsuz da qonaxlıxda bilinəcəh.

Sabah qonaxlara arvat aş bişirir, aşı çəkir, hərəsinə ayrı-ayrı qoyullar, qonaxlar yeyillər. Qonax oğlana deyir:

– Bala, ye daa.

Deyir:

– Çombağım, aş ye.

Deyir:

– Bala, çombax da aş yeyərmi?

Deyr ki, ana da balanın başın kəsərmi? – deyənnən sora məsələ aydınnaşır.

Bıllar bırda görüşüllər, eliyillər. Patşahın oğlu yığır bu ayiləni, aparır evə. Gənə heylə bir təmtəraxda yaşıyıllır. Yaşıyanda bir gün olur dərviş genə gəlir. Kişi gələndə qız gənə özün öldürür ki, bını qoymuyun bırda qala. Deyir ki, yox e, qalacam.

Bı da barmağın iki yerdən kəsir ki, qoy yatmıyım, bını gözdüyüm daa. Bir zaman görür kü, xeyir, şər keçənnən sora, bıdı, pıçax əlində genə gəlir. Gələndə arvat qışqırır, hay salır ki, bəs durun əyağa. Durullar, görüllər ki, kişi əlində pıçax gənə gedir uşağın başın kəsməyə. Bını tulullar, bağlıyıllar atın quyruğuna. Sürü ki, sürüyəsən.

Yedi-işdi yerə geşdi. Göydən üç alma düşdü, biri sənin, biri mənim, biri də kişimin.

## 123. GÜLÜQAHQAH

Keçmişdə iki qardaş olur. Biri vəzirimiş, biri də şah. Bu şahın qızı varmış, vəzirinin də oğlu. Vəzir qardaşına elçi gedir, qızı vermir. Bu qıznan da oğlan çox sevişmişmiş, çox. Bınnar ayrılmax isdəmirmiş. Bir gün qız deyir:

– Əmi oğlu, məni saa atam vermiyəcək. Gə mən iki at gətirim, qızıldan-zaddan götürəh şəhərdən gedəh. Başqa yerdə əvlənəh, dolanax.

Deyir:

– Yaxşı.

Deyir:

– Sahat ikidə – gecə gələrsən bıra, mən atı gətirərəm, bırda minip gedərih.

Demə bırda bir çovan uzanmışımış ağacın divində. Bının dediyin eşidir. Çoban qızın qahımınnan əvvəl gəlir, durur qızın dediyi yerdə. Qız gətirip bına iki at verir. Qız qabaxda, oğlan da dalda, az gedillər, üz gedillər. İşıxlananda baxır kı, ə, öz nişannısı dəyil, bir motal papax çovandı.

Dedi:

– Adın nədi?

Gədə dedi:

– Baxdıyar.

Dedi:

– Baxdıyar, baxdıma yar gəlmisən, gəl.

Az gedillər, çox gedillər, çay qabaxlarına çıxır. Çaydan keçəndə Baxdıyar görür kü, – axı o çobandı da, – çaxmax daşı var. Atdan düşür çaxmax daşını götürür. Qız baxır görür kü, Baxdıyar qalıf dalda.

Dedi:

– Baxdıyar, o nədi?

Deyir ki, xanım, mən çobanam. Bu çaxmax daşıdı. Vurarsan, ocax çıxar. Ojağımız olmasa, ojax qalıyarıx. Qız baxır kı, bu lal-cavahır daşıdı, bunun qıymatı yoxdu. Deyir:

– Baxdıyar, bu qiymətdi daşdı, bunun qiyməti yoxdu patşahın xazınasında.

Gedillər başqa patşahlığa, ev alıllar, qalıllar orda. Bir gün qız deyir:

– Get bını patşahın xəzinəsində xırdalat, gəti.

Patşah görür kü, xəzinəsində o daşın qıymatı yoxdu. Deyir:

– Baxdıyar, xazınamda bu qədər pıl yoxdu. Olannarı apar, qalanını da sora apararsan.

Baxdıyar aldı, gəldi.

Baxdıyar bir gün arvadıynan gəzirdi. Patşah bını gördü, ölü öküzün gözü kimi bu qıza vırıldı. Belə olanda dedi:

– Vəzir, nə tədbir?

Dedi:
– Nə tədbir olacax? Denən maa o daşnan bir imaarat yap.
Daşdan ee. Həmin dıkqılı daşın qıymatı yoxdu. Patşah Baxdıyarı çağırıp bını beləcə deyir. Bu vaxt Baxdıyar deyir:
– Patşah sağ olsun, bu qədir xazınanda o daşın qıymatı yoxdu. Mən bını nə təər eliyim?
Dedi:
– Mən bilmirəm. Ya tikginən, ya da sənin boynuu vuracam.
Baxdıyar gəldi qızın yanına, dedi:
– Hal-qazıya belədi.
Qız dedi:
– Baxdıyar, kefi pozma. Get qırx gün möhlət al.
Getdi qırx gün patşahdan möhlət aldı. Qız dedi:
– Baxdiyar, gedərsən o daşı tapdığın çayı taparsan. Çay yuxarı gedərsən. Orda bir yer var, dev gətirip qızı saçınnan asıp. Qız ona təslim olmur. Saçınnan asır, gedir gəzir, gəlir. Bir söz desən, o qız ağlasa, göz yaşı düşsə o çayın içinə, olcax ləl-cavahır daşı. Mən adam topluyacam, onu kəsip, çıxardıp, bir günə divarı qoyup, tikip təfil verəciyih. Çay yuxarı gedəndə bir tikili görəssən, o, devin evidi. Qızı telinnən asıp, gedip gəzməyə. Qızı aç qoy yerə. Örgən gör onun canı hardadı. Canın yerin bil. Cana bircə dəfə vurarsan. Bir dəfə vurdun bəsdi, o öləcəh.
Bu gəldi, devin tikilisin tapdı. Gördü gözəl qızdı, dev saçınnan asıp göyə. Qız dedi:
– Nə gəlmisən oğlan, dev səni öldürəcəh.
Dedi:
– Qorxma.
Qızı aşdı qoydu yerə. Dedi:
– Qorxma, səni azat eliyəcəm. Canın yerin maa de, onu öldürüm, səni də götürüm gedim.
Baxdıyar girdi gizdəndi. Dev gəldi.
– Burda adam insi gəlir, saxlı badam insi gəlir.
Qız dedi:

– Əvin yıxılsın, bura kim gələr? Məni telimnən asmısan bura. Heş kim gəlmiyip.

Qız ağladı. Dev dedi:

– Niyə ağlıyırsan?

Qız dedi:

– Sən gedip gəzirsən, mən də saçımnan asılı. Heç olmasa canı yerin de, baxım qoxmuyum.

Bına vırdı, ağladı. Ağlıyanda da ürəyi durmadı, dedi:

– Məən canım, o hovuzun içində bir qızıl balıx var. Onun qarnında şüşə var. Ordadı.

Bunu deyənnən sora dev getdi. Dedi:

Nə yeyim? Plov yeyim.
Nə yeyim? Çilov yeyim.
Yo ee, durum gətirim,
Arpa çörəyiynən turş ayran yeyim.

Onun yeməyi oyudu. Yeyərdi, yatardı. Yedi yatdı. Tezdən gənə turş ayrannan arpa çörəyi yeyip çıxdı getdi.

Baxdıyar gənə qızı aşdı yerə qoydu. Gördüyün, eşitdiyin hamısın qız dedi.

Hovuzun üstündə yekə bir dəyirman daşı var. Əlləşdi, əlləşdi, güjü çatmadı, axırda dedi:

– Ya Allah, sən özün maa köməh ver.

Allahdan quvat gəldi, daşı aşırdı. Gördü bir balıx hovuzda əənə qaçır, bənə qaçır. Qızıl balıxdı. Tez qızıl balığı tutdu, yardı. İçinnən şüşəni çıxartdı, vurdu yerə. Bu vaxt dev gəlirdi. Qışqırdı:

– Bir də vur. Baxdıyar, bir də vur.

Dedi:

– Yoox, kişi işi bir dəfə eliyər.

Dev gəldi orda qapının ağzında öldü. Saldılar orda quyuya. Qızı da götdü, xəzinədən də bir əz götdü, yerdə qalanını da ordakı nökərrərə Verdi, gəldi. Suyun qırağınnan keçəndə oğlan nə dedisə, qızın gözünnən bir damla yaş çaya düşdü. Çay döndü oldu ləlcəvahır daşı. Adam topladılar, almazı doğradılar, imarəti yapdılar. Patşah baxdı gördü nəə, imarət düzəlip. Dedi: "Ə, belə oğlu öldür-

məh olmaz. Məndə bınnan yoxdu. Bu hardan tihdi?" Patşah gördü, əə, indiyətən biridi, indi ikidi. O birisi bınnan da başdı. Dedi:

– Vəzir, vəkil, nə tədbir? Bağrım çatdıyır.

Dedi:

– Nə tədbir olacax? Əvin yıxılsın, denən Gülüqahqahın gülün gətisin.

Bını patşah deyəndə oğlan pis oldu. Gəldi qıza dedi əhvalatı. Qız dedi:

– Qorxma. Gedərsən, qabağına iki yolayrıcı çıxacax: biri sağa gedəcəh, biri sola. Sağ yolnan gedərsən, qabağa bir ağaş çıxacax. Bırda bir qoca oturup. Qoca sakqalın yolup pencəyin tikir, – sakqal tühdü daa, – qırılıp tökülür yerə. Sap apar, onu tik qəşəh. O saa yol göstərəcək. Onnan sora Gülüqahqahı gətirərsən.

Bırdan getdi gördü kü, qoca sakqalın yolur, pencəyin tikir. Sakqal tühdü daa. Belə eliyir, tökülür yerə. Aldı əlinə, qəşəh tihdi, elə bil qasdumdu. Geydi əyninə, silkələndi əynə, silkələndi bəynə, heş-zad olmadı. Salam verdi. Dedi:

– Maa sözün?

Dedi:

– Patşah maa belə əmr eliyip, gərək Gülüqahqahın gülün gətirəm.

Deyir:

– Baxdıyar, meşəni görüsən? Koldu – qaratikan kolu. Deyərsən nə yaxşı gəzməli bağdı, o kol saa yol verəcəh. Gedərsən, qabağaa bir çay çıxacax. İrin çayıdı. Adam baxır, irgənir da. Pis çaydı. Deynən nə qəşəh sudu, yaxşı içəsən. Götü bir quruşqa da iç, qorxmaynan. Gedəssən, görəssən bir qapı var, açıq qapıdı, biri də örtülü. Açık qapını örtərsən, örtülü qapını açarsan. O da saa yol verəcəh. Gedərsən dənizin qırağında sərv ağacı var. Sərv ağacının böyründə qaratikan kolu var. Girərsən tikanın içində gizdənərsən. Görəssən ki, üç dənə göyərçin gəldi ağacın başına. Ollar paltarın soyunacax. Öyrən gör hansıdı Gülüqahqah. Onun paltarını oğurra, özü dalınca gələcək. Ant versə də, buraxma. Denən "nənəmin südü maa haram olsun, gəlməsəm" desin. Onda quş paltarın yox, əyin paltarın verərsən.

Baxdıyar getdi qaratikana dedi, nə qəşəh bağdı? Gəzəsən, seyr eliyəsən. Qaratikan yol verdi. Getdi gördü su var. – “Bınnan da qəşəh su olar? Yaxşı yeyip-içəsən”. Bunnan da bir quruşqa işdi. Getdi gördü bir otax var, qapısının biri açıxdı. Açıq qapını örtdü, örtülü qapını aşdı. Qapılar yol verdi. Getdi gördü dənizin qırağında bir sərv ağacı var, ağacın qırağında kol var. Girdi gizdəndi. Gördü üş dənə göyərçin gəldi. Bılların ikisi soyundu girdi dənizə, ama biri gəlmədi.

Dedilər:

– Bacı Gülüqahqah, nolup saa? Niyə çimmirsən?

Dedi:

– Bajı, ürəyimə damıf, böyün maa nəysə olajax.

Allahdan bına agahdı. Dedilər:

– Sən həmişə belə deyirsən. Bura kim gələjeh? Tez ol gəl çiməh, çıxax gedəh.

Bu soyunup gölə girəndə bu paltarı oğlan oğurradı. Qız gördü paltarın bir oğlan götürüp qaçır. Dedi:

– Ay oğlan, amanın bir günüdü paltarımı ver.

Dedi:

– Yox, verməərəm.

Oğlan dedi:

– Denən anamın südü maa haram olsun, paltarı maa versən sənnən gələjəm.

Qız dedi:

– Anamın südü maa haram olsun, paltarımı ver, sənnən gəlim.

Oğlan quş paltarın yox, adam paltarın verdi. Qız Baxdıyarın dalınca gəldi.

Baxdıyar mazalı* söz deyəndə bunun ağzınnan hopu-hopu gül töküldü. Bir məjmeyi düzəldip aparıp verdilər patşaha. Patşahın babası, dədəsi qələt eliyərdi, heş belə şey görməmişdilər. Şah dedi:

– Gör Baxdıyar necə igid oğlandı e!

Vəzir dedi:

---

* mazalı – məzəli

– Şah sağ olsun, düz buyurursan, belə oğlanı öldürməh olmaz.

Bir müddət keçənnən sora bu yenə fikrin dəyişdi. Baxdiyarın gətdiyi qızdarı görəndə dəli oldu. Dedi:

– Neyliyim, nətər eliyim?

Vəzir dedi:

– Göndər Hindistanda qırx başdı dev var, onun bağında qızıl alma var, getsin o almadan gətirsin. Ora gedən gəlməz.

Ora gedənin qayıtmadığını patşah bilirdi. Çünkü orda elə devlər varıdı kı, min ordu belə onun qabağına çıxa bilməzdi.

Patşah munu Baxdiyara deyənnən sorasına qırx gün möhlət verdi. Baxdiyar bekaf gəldi evə. İndi ona o biri qız yox Gülüqahqah yol gösdərirdi.

Gülüqahqah dedi:

– Gedərsən, sağ qolu üsdə dərə var, dəriyə girərsən, orda tövlə var. Girərsən, tövlənin içində üç at bağlanıp. Deyərsən məni Hindistandakı qırxbaşdı devin sarayına aparıp gətirərsiz? Onda o atdardan biri səni aparmağı boynuna götürəcəh.

Baxdıyar Gülüqahqahın dediyi kimi gəldi tövlüyə. Dedi:

– Məni Hindistandakı qırxbaşdı devin bağına aparıp gətirərsiniz?

Bırdakı qırmızı at dedi:

– Mənim ürəyim gəlmir.

Sarı at da dedi:

– Mən apara bilmərəm.

Qara at dedi:

– Mən aparıp gətirərəm.

Çünkü bu yel atıydı. Uzun sözün qısası, bu mindi ata, getdi Hindistandakı qırxbaşdı devin bağınnan bir xurcun qızıl alma yığıp, mindi ata. Bu vaxt dev onu arxadan çağırdı. Qara at dedi:

– Onun çığırmağına fikir verip dala baxma, yıxılarsan.

At getdi, dev də dalınca, amma yetirə bilmədi. Baxdıyar gəldi qızdarın yanına. Özdəri də yedilər, bir mejmeyi də apardılar patşaha. Patşah qələt eliyərdi, belə şey görməmişdi, yeməmişdi. Patşah bunun gətdiyi qızdarı almax üçün Baxdiyarı öldürməh isdiyirdi. Odu ku dedi:

– Maa gərək günçıxannan günbatan arasında qızıl körpü salasan.

Baxdiyar (söyləyici bu yerdə çaşaraq surətin adını səhvən Məhəmməd deyir – top.) kor-peşman geri qayıtdı. Çünkü günçıxannan günbatan arasında körpü salmax olmaz kı, özü də qızıldan.

Bunu bilən Gülüqahqah dedi:

– Baxdiyar, kefi pozma. Gedərsən Hindistana, gətdiyin o qara yel atı minərsən. O səni aparacax günçıxana, həm də günbatana. Saat yarıma şərqə, bir saat da qərbə gedəcəh. Qızılın birin günçıxana atarsan, birin də günbatana. Qızıl körpü düşəcəh.

Baxdiyar heylə də elədi, qızıl körpü salındı. Patşah bir də gözün aşdı kı, qızıl körpü salınıp, hamı üsdünnən keçir. Mat qaldı.

Dedi:

– Neyliyim vəzir? Tədbir, öldüm, çatdadım.

Vəzir dedi:

– Şah sağ olsun, bircə dənə yolu qalıp. Denən ki, get o dünyadan dədəmnən xəbər gəti. Bunun dədəsi qırx il bunnan qabax ölmüşdü.

Şah vəzirin dediyi kimi də Baxdıyara dedi:

– Baxdıyar, bax saa axırıncı tapşırığımdı, bunu da elə, kutarax.

Baxdıyar bekaf qayıtdı gəldi evə. Gülüqahqah bunun bekaflığının səbəbin soruşanda Baxdıyar patşahın dedihlərin Gülüqahqaha danışdı.

Gülüqahqah dedi:

– Baxdıyar, bu çox asand işdi. Get patşaha de ki, böyüh bir odun topası versin, qırx ton da nefit töhsün odunun üsdünə. Odunun baş tərəfində çardax qursun. Mən çardaxda oturum yanım, gedim o dünyadan dədənnən xəbər gətirim.

Gedip patşaha belə deyən kimi patşah qırx kub odun yığdı, qırx ton nefit töhdü odunun üsdünə, çardax düzəltdi, Baxdıyarı çardağa çıxardıp oduna od vurdular. Baxdıyar da ordaydı, odun içində. Bu vaxt Gülüqahqah quş paltarın geyip uşdu Baxdıyarı götüdü, apardı qoydu əvə. Qırx gün yedilər, işdilər, kef elədilər. Odun sönənnən sora Gülüqahqah quş paltarın geyinip Baxdıyarı apardı qoydu külün içinə. Qırxıncı gün patşah adamları külü eşdilər, gördülər Baxdıyar yeşihdə sağ-salamatdı.

– Baxdıyar, nə təər getdin, nə təər gəldin?

Baxdıyarda da patşahın dədəsinin möhürüynən-zadıynan kağız varıydı. Bunu Gülüqahqah yazmışıdı e yalannan. Kağızda yazılmışdı: "Üzün qara olsun, oğul. Mən səni yekəltdim patşah elədim, amma sən gəlip məni yoxlamırsan. Gəl məni yoxla daa".

Şah bu sözdərdən pis oldu, dedi:

– Baxdıyar, bə mən nə təər gedim?

Dedi:

– Mən nə təər, həylə.

Patşah dedi:

– Məni isdiyən gəlsin.

Gənə də odun yığdılar, odunun üsdünə nefit töhdülər, yuxarıda da bir yer düzəltdilər. Patşahın özü, vəkil, vəzir, oğlu-uşağı, hamısı yığıldılar odunun başındakı çardağa. Oduna od vurdular. Bulların hamısı yandı, öldülər. Baxdıyar oldu patşah. O üş dənə qızı alıp, dünyanın kefin çəhdi. O yedi, yerə keşdi, siz də yeyin dölə keçin. Göydən üç alma düşdü. Biri Cəmilin, biri nağıl eliyənin, biri də mənim.

## 124. BALIĞI AT DƏRYAYA, BALIQ BİLMƏSƏ DƏ, XALIQ BİLƏR

Bir patcahın gözü tutulur. Patcah əmr eliyir ki, kim mənim gözümün dərmanını tapsa, onu dünya malınnan biqayid* eliyəjəm. Axırı biliciləri, münəccimləri, baxıcıları yığır, deyir:

– Mənim gözümün dərmanını deyin.

Bir nəfər deyir ki, sənin gözuun dərmanı şəhərimizin kənarında axan çaydadı. Bir balıxdadı, çox gözəl balıxdı. Patcah bunu eşidən kimi əmr eliyir ki, bütün adamlar getsin balıx tutmağa. Kim həmən balığı tutdu, tutdu. Kim tutmadısa, hər ora gedənə axşam bir qızıl verəjəm. Belə-belə hamı gedir balıx tutmağa.

Patcahın bir oğlu varmış. Baxır görür xəzinədə pul qalmadı, amma hələ də balıx tutulmuyup. Durur atını minir, gəlir ki, bax-

* biqayid eləmək – qane etmək, təmin etmək

sın görsün camaat balıx tuturmu, neyniyir? Gedir çıxır çayın qırağına, görür hamı balıx tutur. Ancağ aralıda bir adam var. Bu oğlan gedir onun yanına.

Bu kişi bir qoja kişiydi, patcahın oğlu ora çatanda qırmax tərpənir. Baxıllar görüllər ki, həmin balıxdı. Qoja sevinir ki, həmən balıxdı, dünya malınnan biqayid olajam. Bu vaxdı patcahın oğlu görür gözəl balıxdı. Deyir:

– Ver maa görüm.

Baxır görür o qədir gözəl balıxdı? Heyfi gəlir balığı öldürməyə, onu buraxır çaya. Bu heyində qoca başına, dizinə vıra-vıra gəlir şahın divanına. Deyir:

– Şah sağ olsun, mən həmin balığı tutmuşdum, oğlun aldı buraxdı suya.

Şah əmr eliyir ki, oğlumu dar ağacınnan asın. Vəzir, vəkil yığışıp deyillər ki, a kişi, bir oğlun var, öldürmə, sürgün elə, getsin. Buna pul-zad vermədən sürgün eliyir, çıxır gedir. Bu yolnan başqa məmləkətə gedir. Bir yolayrıcına çatanda görür kü, arxadan, uzaxdan bir qaraltı gəlir. Bu qaraltı o qədir uzaxdadı ki, heş görünmür. Güjnən qaraltısı gəlir. Elə başını aşağı əyən kimi görür həmin adam yel kimi gəldi keşdi bunnan qabağa. Arxadan çağırıp deyir ki, ə qardaş, dayan görüm sən kimsən? O da buna deyir:

– Sən kimsən?

Deyir:

– Məni atam sürgün eliyip başqa məmləkətə – deyəndə bu da deyir:

– Məni də atam sürgün eliyip.

Deyillər:

– Ə, bura gəl, yoldaş olax.

Deyir:

– Ə, hara gedəh, neyniyəh?

Heş birisi bilmillər hara gedələr. Deyir:

– Onda gəl qardaş olax, gedəh qərip şəhərrərdə dolanax da.

Bu təzə gələn oğlan deyir ki, sənnən o şərtnən qardaş ola billərəm ki, mənim şərtdərim var, onu qəbul eliyəsən.

Deyir:
– Nə şərtdi?
Deyir:
– Biz gedirih gəzməyə. Əlimizə nə keşsə, qismət olsa, bu yerdə hamısını yarı böləjih.
Oğlan deyir:
– Mən buna tam razıyam, gedəh.
Beləlihnən, bular şəhərbəşəhər gəzir, bir şəhərdə dayanıllar. Deyillər: “Bura qəşəh şəhərdi”. Bir arvat tapıllar, deyillər:
– Qarı nənə, biz yad adamlarıx bu şəhərdə. Biz qazanax, gətirəh, sən də bizim çayımızı, çörəyimizi qayır.
Qarı deyir:
– Mənim gözüm üsdə.
Belə danışannan sora patcahın oğlu gedir şəhərin bir tərəfinə, o biri oğlan da gedir bir tərəfinə. Həmişə də qarının əvinə gələndə bir-birrərinnən soruşullar, nə gördün, nə götdün şəhərdə.
Bir gün patcahın oğlu deyir:
– Qardaş, mən bir şey gördüm.
Deyir:
– Nə gördün?
– Bir qız şəkliydi, altından yazılıp: “Qız danışmır, amma lal deyil. Bu qız patcah qızıdı, kim bunu üş dəfə dindirsə, qızı ona verəjəhlər. Kim də dindirə bilməsə boynu vurulajax”.
Bu təzə gələn oğlan deyir:
– Mən səni örgədərəm, gedip qızı alarsan.
Deyir:
– Örgət.
Deyir:
– Get. Saa bir rəvayət örgədəjəm. Patcahın adamlarının qabağına bir əşya qoyup əşyaynan söhbət eliyərsən.
Deyir:
– Yaxşı.
Bu oğlan durup gedir patcahın yanına. Deyir:

– Patcah sağ olsun, mən sənin qızıı danışdıraram, amma gəl müqavilə bağlıyax.

Şah deyir:

– Baş üsdə.

Bunnar müqavilə bağlıyannan sora deyir:

– Patcah, arvadıı, oğluu, qızıı, vəzirii, vəkilii – hamısını yığıp gətirirsən bura. Sora mən deyəjəm.

Hamısı burda oturannan sora oğlan gətirir qabağa bir məcməyi qoyur. Tay heş kimə bir söz demir, ancax məcməyiynən danışır. Deyir:

– Ey məcməyi! Dünyada çox adamlar görmüsən, çox adamların qabağına yeməh aparmısan. Mənim başıma belə bir iş gəlip. Bəlkə, onu saa nağıl eləsəm, sən bir əlac taparsan.

Məcməyi onsuz da dinmiyəjəh. Bu camaatı nəzərdə tutur. Deyir:

– Ey məcməyi! Bir günnərisi bir dülgər, bir dərzi, bir də bir molla yol gedirmişdər. Gedillər bir qarannıx yerdə – meşədə bunnar gecələməli oldular. Bunnar belə qərara gəlillər ki, ikisi yatsın, biri qaroul çəksin.

Birinci qaroul çəkməh dülgərə düşür. Dülgər fikirrəşir ki, darıxajax. Gedir meşədən bir ağac tapır gətirir. Bir qadın heykəli yonur, düzəldir. Bu, fiqur düzəldənnən sora yoldaşdarını oyadır, deyir:

– Durun əyağa, indi mən yatım.

Dərzinin nööbəsiydi. Dərzi durur, görür bir adam dik durup burda. Gedir əlini vurur, görür bu taxdadandı. Bilir ki, bu, dülgərin işidi. Bu da fikirrəşir ki, bəs mən niyə durmuşam? Tez bir paltar tikir geyindirir bu qadın fiquruna. Bu olur əməlli-başdı qadın.

Sora bu yatır, mollanı ayıldır. Məcməyi, bu molla ayılır, görür burda bir qadın durup. “Pismillah, pismillah” eliyir, görür bu qadın cannı döyül. Deyir:

– Hə, bu dülgərnən dərzinin işidi. Day mən niyə durmuşam.

Molla üzünü tutur Allahtala tərəfə. Üç rükət namaz qılır, üzünü çevirir Allahtala tərəfə, deyir:

– Ay Allah, buna can ver.

Bu cana gəlir, olur qadın. İndi, a məcməyi, sən maa de görüm, bu qız kimə, bunnarın hansına çatır? Bunnar bunun üsdündə dalaşıllar.

Vəzir deyir:

– Dülgərə çatır. Çünki bünövrəsini o qoyup.

Oğlan deyir:

– Niyə?

Vəzir suala cavap vermir. Vəkil deyir:

– Dərziyə çatır.

Deyir:

– Niyə?

Vəkil cavab verə bilmir. Axırda qız dillənir. Qız deyir:

– Bağışdıyın, mollaya düşür.

Gənə oğlan deyir:

– Niyə?

Qız deyir:

– Molla deyər, dülgər, ağaş yonmusan. Bu sənin ağacıı pulu. Di get. Dərzi, bu sənin parçan, bu da əlhakqın. Sən də get. Əgər yox, isdiyirsizsə, mən geri çəkilim, mənim canımı verin. Canı da kı qaytarmax olmaz.

Qız belə deyəndə qapı vurulur. Deməh, molluya düşür. Beləlihnən, oğlan qızı bir dəfə danışdırır. Bu oğlan axşam gəlir evə. Evdəki dosdu soruşur, danışdırdınmı? Deyir:

– Dindirdim, çox sağ ol, dindirdim. Amma hələ iki dəfə də dindirməliyəm.

Deyir:

– Qorxma, sabah da ikisini örgədəjəm. Onu gedip danışdırarsan.

Sora ona bir dənə də hekayə danışıp yola salır. Amma tapşırır kı, bu səfər də bir lampıya söhbət eliyərsən.

Genə də ikinci gün patcahın vəziri, vəkili, qızı, arvadı, sarayın qojası, cavanı yığışır. Bu vaxt ortuya bir lampa gətirillər. Oğlan başdıyır.

– Lampa, mənim başıma bir hadisə gəlip. Bunu çox yerdə demişəm. Amma fikirrəşirəm ki, ancax sən buna cavap verə bilərsən. Çünki sən bütün bilihli adamların üzünə işıx salmısan.

Deyir, günnərin bir günü bir qızı üş dənə oğlan isdiyirmiş. Qızın oğlannarın üçünə də bərabər surətdə qonulu varıymış*. Qız fikirrəşir ki, oğlannarın hansısa birinə söz versəm, o biri oğlannar onu öldürəjəh. Mən neyniyim ki, bunnar bir-birrərini öldürməsin? Qız belə fikirə gəlir ki, lampa, kim bahalı şey gətirsə, qız ona getsin. Oğlannarın üçünü də qız çağırır. Deyir:

– Gedin, hansınız bahalı hədiyə alsaz, ona gedəjəm.

Oğlannar gedillər, bir yol ayrıcında dönüllər bir şəhərə. Özü də getməmişdən əvvəl belə bir şərt qoyullar ki, birinci qızın yanına getdi yoxdu. Kim nə tapsa, gəlip bu yolayrıcında o biriləri gözdüyəjəh. Üçümüz də bir yerdə gedəjiyih qızın yanına. Bunnan da razılaşıllar. Oğlannarın hərəsi bir şəhərə gedir.

Birinci oğlan gedir bir şəhərə, görür burda çoxlu xəli satıllar – yekə keçə. Amma bir xəlidi, çox balacadı. O yekə-yekə gəvələri verillər üş minə, bunu verillər irmi min tümənə. Oğlan deyir:

– Bu xəlini niyə belə baha verirsən?

Deyir:

– Bu xəli elə bir xəlidi ki, onun üsdünə minip desən, ey Süleyman peyğəmbərin xəlisi, məni filan yerə apar, o səni əlbəəl o yerə aparajax. Ona görə də bu xəli bahalıdı.

Deyir:

– Çox yaxşı.

Xəlinin pulunu verip alır.

İkinci oğlan gedir, görür kü, yekə-yekə aynalardı, güzgülərdi. Birini on manıta verillər, birini beş manıta verillər. Balaca bir güzgünü verillər yüz manıta. Deyir:

– A qardaş, bu balaca güzgünü sən niyə belə baha verirsən?

Deyir:

– Bu güzgü elə bir güzgüdü, kimi ürəyaa gətirsən, güzgü də o saadı onu görkəzəcəh.

Oğlan deyir:

– Onda bu güzgünü də mən alım.

---

* qonulu varıymış – könülü varmış

Güzgünü də bu alır.

Üçüncü oğlan gedir, görür kü, şəhərdə almanı vedraynan satıllar. Vedrasını bir tümənə, iki tümənə. Bir yerdə bir adam bircəcə almanı qoyup qabağına yüz tümən deyir. Oğlan deyir:

– Qardaş, almanın vedrası beş tümən, üş tüməndi. Sən bunu niyə belə baha verirsən?

Kişi deyir:

– Yox, bu saa gösdərilən almadan döyül. Bu alma o almadı kı, ölüm halında olan adam yisə, əvvəl dirilər.

Bu oğlan da bu almanı alır. Üçü də qayıdır həmən yolayrıcına. Bunnar burda fikirrəşillər ki, uzun müddətdi evdən çıxmışıx, yol da uzundu. Nejə eliyəh, qızın vəziyətini örgənəh. Güzgü yiyəsi deyir:

– Bu saat deyim qız nətəhərdi.

Güzgünü çıxardır, baxır ki, budee, qız yataxda ölüm halındadı. Bunnar: "Bir onu görə bilseydih" – deyəndə xalça yiyəsi deyir:

– Bu saat sizi aparıf ora çatdırım.

Oturullar, qız ölməmiş çatıllar onun yanına. Bunnar ona dərman axdaran vaxt alma yiyəsi deyir:

– Onun dərmanı məndə.

Almanı kəsir verir qıza, qız yeyən kimi sağalır.

– İndi, a lampa, de görüm qız güzgü yiyəsinə düşür, alma yiyəsinə düşür, yoxsa gəvə yiyəsinə düşür.

Gənə də yerdən biri deyir güzgü yiyəsinə düşür, biri deyir gəvə yiyəsinə düşür. Hərə bir söz deyir. Oğlan deyir:

– Niyə?

Bunnar cavap verə bilmillər. Qız deyir:

– Bu qız alma yiyəsinə çatır.

Oğlan deyir:

– Niyə?

Qız deyir:

– Alma yiyəsi deyər: "Al bu sənin güzgün, bu da onun xidmətinin pulu". Xəli yiyəsinə də deyər: "Bala, elə bil məni filan yerdən bura gətirip çıxarmısan, eləmisən. Bu sənin xəlin, bu da hakqı. Rədd olun mənim başımnan. Əgər isdiyirsızsa, mən ge-

dim, onda mənim diricə almamı verin, gedim". Almanı qız yeyip. Qaytara bilmiyəjəhlər. Deməh, qız alma yiyəsinə düşür.

Hamı çapı vurur. Beləlihnən, oğlan ikinci dəfə də qızı dindirir. Oğlan gəlir evə axşam. Axşam qardaşı soruşur:

– Qardaş, dindidin qızı?

Deyir:

– Hə. İkinci dəfə də qızı dindidim.

Oğlan deyir:

– Bir dənə də hekayə örgədəjəm. Get genə qızı dindi.

Hekayəni örgədir və deyir:

– Bu dəfə gedərsən, bunu qabağa sərilən surfıya danışarsan.

Üçüncü gün genə oğlan gedir, camahatı çağırdı, yığdı meydana. Genə də şah, vəzir, vəkil, arvadı, oğlu, bir də qızı gəldi. Oğlan surfa gətirtdirip sərdi ortalığa. Deyir:

– Surfa, mən bir sualnan qarşılaşmışam, heş kim ona cavap vermiyip. Buna ancax sən cavap verərsən. Sən cavanın da, qocanın da, varrının da, kasıbın da, yaxşının da, pisin də qabağına getmisən, bütün üzdəri görmüsən. Surfa, bir günnəri bir gəlin əriynən, qardaşıynan yol gedirmiş. Bunnar gedir, bir meşədə quldurrar düşür bunnarın üsdünə, bunun ərini də öldürür, qardaşını da. Nələri var, alıp aparıllar. Arvad olduğuna görə gəlinə dəymillər. Gəlin oturur iki başı kəsili meyidin ortasında, "ərim vay, qardaşım vay" deyip qalır buların arasında. Bir müddət keçənnən sora arvat gördü kü, bir siçoul o tərəfdən çıxdı, bir siçoul bu tərəfdən çıxdı. Gəldilər siçoullar güləşdi. Biri o birinin boğazını qırdı, tulladı. Bu gəlin də baxırdı. Gördü bu diri siçoul getdi o yannan bir ot gətdi, bu ölü siçoulun boğazına vurdu, başını da qoydu üsdünə. O saatı siçoul dirildi getdi. Belə olanda arvat dedi: "Ay dadi-bidad, bu otdan vursam mənim qardaşım, ərim dirilər". Bu gedir həmin otdan gətirir sevinə-sevinə, qardaşının da, ərinin də başına, boğazına vurur. Amma sevindiyinnən başdarı tərs qoyur. Ərinin başını qardaşının başının yerinə, qardaşının başını ərinin başının yerinə qoyur. İndi, ay surfa, bunun başı əridi, bədəni qardaşıdı, onun da bədəni əridi, başı qardaşıdı. Sən maa de görüm, qadın kimə düşür.

Yerdən biri deyir başı əri olana, biri deyir bədəni əri olana çatır. Bu vaxt qız ordan deyir:

– Dayanın! Yadınızda qalsın, insan həmişə üznən tanınar, başnan fikirrəşər. Ərinin başı hansı meyitdəysə, qız ona düşər.

Hamı çapı vırır. Oğlan deyir:

– Patcah, qızıı üş dəfə dindidim?

Patcah dedi:

– Hə.

– Müqaviləmiz var?

– Hə.

– Onda lap yaxşı. Qızı ver, aparım.

Patcah deyir:

– Get, sabah gələrsən, qızı apararsan.

Oğlan evə gəlir. Qardaşı soruşur:

– Qardaş, dindidinmi?

Deyir:

– Hə, çox sağ ol.

Sabah oğlan gedir saraya. Patcah yeddi gün, yeddi gecə toy eliyip qızı verir bu oğlana. Bir müddət burada qalıllar. Bir müddət qalannan sora bunnar gəlillər patcahın yanına, deyillər:

– Patcah!

Deyir:

– Hə.

Deyillər:

– Bizim atamız var, anamız var. Bəlkə də onnar ölmüyüplər, durullar. İcazə ver, biz gəlnimizi də götürəh gedəh.

Amma onu da deyim ki, qız üş dəfə danışannan sora gənə danışmırdı. Nəysə, patcah gətirir üç at. Birini gəlinnən əri, birini də onun dosdu minir. Bir də bir xurcun qızıl verir. Deyir:

– Sizə yaxşı yol, gedin.

Bu yolnan gedillər. Gedillər o yerə çatıllar kı, burda şərtnən qardaş olmuşdular. Demişdilər ki, nə tapsax yarı böləjiyih. Bu söz patcahın oğlunun yadınnan çıxmışdı. Amma onun dosdu deyir:

– Qardaş, dayan burda. Yadındadımı biz şərt kəsmişdih ki, nə tapsax, burda yarı bölǝjiyih.

Deyir:

– Hə, düzdü.

Deyir:

– Onda atdan düş.

Bu soradan gələn oğlan xurcunu ortadan kəsir. Deyir:

– Qardaş, bu göz sənin, bu göz mənim. Bu at sənin, bu at mənim, düzdü?

Deyir:

– Hə.

– Qaldı ortada biri. Onu da ortadan böləh.

Deyir:

– O atın pulunu birimiz verəh o birimizə, kutarsın getsin.

Deyir:

– Yox, heylə şərtdəşməmişih. Ortadan bölməliyih.

Qılıncı çəkir qorxuzmax üçün atı ortadan bölür. Deyir:

– Bu pay mənim, o pay sənin. Qaldı qız. Onu da bölǝjiyih. Parası sənin olajax, parası mənim.

Bu qılıncı götürüp qızın üsdünə cumur ku, kəssin. Qız qışqırır ki, mən neynəmişəm, nağarmışam, deyəndə ağzınnan qurt düşür. Qız başdıyır tir-tir əsməyə. Sora oğlan deyir:

– Qardaş, onsuz da mən qızı öldürmüyəjeydim. Bu qızıllar da sənin, atdar da sənin olsun. Bu barmağımnan da bir az qan götü, apar sürt dədaa gözünə, sağalsın. Əgər bilməh isdəsən mən kiməm, bil və agah ol. Mən o balıxçının əlinnən alıp suya atdığın balığam. Get dünyada hamıya denən ki, balığı at dəryaya, balıx bilməsə də, xalıx biləjəh.

## 125. BALIQÇI OĞLU

Bir balıxçı varıdı. Bı balıxçının bir oğlu varıdı. Bı balıxçının peşəsi gündə gedip dənizə tor atırdı, hər gün bir balıx tuturdu.

Aparıp satıp balığın puluynan da çörəh pulu qazanıp, uşaxların dolandırırdı. Bir gün balıxçı dedi:

– Oğlum, mən neçə ildi balıx tuturdum, amma balığ ətinin nə olduğunu biz bilmirih. Gə bı dəfə mənimnən gedəh. Bəlkə sənin də baxda bir balıx düşdü, gətirip özümüz yiərih.

Bəli. Balıxçı oğlunu götürüp gəldi dənizin qırağına. Elə birinci toru atanda toruna bir gözəl balıx düşdü. Gətdi verdi oğluna. Dedi, oğul, görürsən nə gözəl balıxdı?

Özü başdadı tor atmağa. Balıxçının oğlu bu balığı əlində belə oynadanda gördü kü, balığın gözdərinnən yaş gəlir. Bu balığı götürüp atdı dəryıya. Dəryıya atannan sonra atası gəldi, dedi:

– Oğul, tay bizim qismətimiz elə bir balıxdı, ikincisi düşmür kü, düşmür. O balığı da götü gedəh.

Dedi ki, ata, bəs balığı əlimdə oynadırdım, düşdü dənizə. Atasının acığı tutdu, döydü. Dedi:

– Mənim evimə gəlmə, hara gedirsən getginən.

Bəli, oğlan baş aldı getməyə. O qədir yol getdi ki, gəldi iki yol ayrıcına. Gördü bir cavan oğlan gəlir. Gəldi bı yol ayrıcında yoldaş oldular. Cavan oğlan dedi, qardaş olax, amma bir şərtim var sənnən. Gedip nə qazansax bu yol ayrıcında bölməliyih; yarısı sənin olmalıdı, yarısı mənim. Balıxçı oğlu irazılaşdı. Bunnar yola düşüp getdilər. Bir müddətdən sonra bir şəhərə çatdılar. Şəhərə çatannan sonra balıxçı oğluynan həmən oğlan gəldilər bir qarının evinə qonax düşdülər. Qarıdan xəbər aldılar şəhərdə nə var, nə yox. Qarı dedi ki, bəs şəhərdə patşahın qızı lal olup dillənmir. Neçə həkim gedip, sağalda bilmiyip, patşah da onnarın hamısının boynunu vurup.

Belə deyəndə o balıxçı oğluynan yoldaş olan oğlan gətdi bir ovuc pul verdi qarıya, dedi ki, qarı nənə, get bizə iki dəst həkim paltarı al gətir. Qarı getdi bazara iki dəst həkim paltarı alıp gətdi. Balıxçı oğluynan bu oğlan bı həkim paltarını geyip getdilər otdular elçi daşının üsdündə.

Patşaha dedilər ki, bəs iki dənə həkim gəlip, elçi daşının üstündə oturuplar. Gəldilər bunnarı apardılar patşahın hüzuruna. Şah

dedi, siz mənim şərtimi bilirsinizmi? Əgər qızı dindirsəz, qızı verərəm sizə. Əgər dindirməsaz, ikizın da boynuzu vurduracam.

Oğlan dedi:

– Baş üsdə şah, irazıyıx.

Bəli, bu oğlanı apardılar qızın yanına. Qız da belə bu formu baxır, heş nə dillənmir, nə bi şey eləmir. Orda bi də bir bülbül qəfəsi var, bülbül də qəfəsdədi. Oğlan başdadı ki, ey bülbül, mən sizə bir əhfalat danışmax isdiyirəm. Bir gün üş yoldaş yolnan gedir. Üş yoldaş gedəndə bunnar meşədə gejələməli olullar. Meşədə qalıllar. Meşədə qalanda birinci yoldaş deyir: Yoldaşdar, birimiz qarovul çəhsin, ikimiz yatsın. Bir sahat sora o birisi dursun, o yatsın, beləlihnən üçümüz də qarovul çəkəh.

İrazılazılaşıllar. Birinci ikisi yatır, biri isə qarovul çəkir. Görür yuxusu gəlir. Bu dülgərmiş. Durur meşədən bir ağaş kəsir, yaxşı bir qız heykəli düzəldir. Qız heykəli düzəldənnən sora o biri yoldaşın oyadır. O biri yoldaşı durur ayağa, bı yatır. Bı baxır görür kü, ağaşdan düzəltmə bir qız heykəli var. Deyir, hə, mənim birinci yoldaşım dülgərdi, mən isə dərziyəm. Mən də gətirim bı qıza bir dəs paltar tikim. Bı da bir dəs paltar tikir, geydirir qızın əyninə. Qızın əyninə geydirənnən sora başdıyır o biri yoldaşın oyatmağa. O biri yoldaşı durur, bı yatır. Yatanda bı görür kü, bir qız heykəli var bırda. Baxır, görür altı taxdadı, üsdünə isə paltar tikilip. Deyir, hə, mənim birinci yoldaşım dülgərdi, ikincisi isə dərzidi. O dülgər bı qızın heykəlin düzəldip, dərzi isə paltarın tikip. Mən isə molluyam. Allah tərəfinə üz tutup süph vaxdı dua eliyir, qıza nəfəs gəlir.

– Ey bulbul, indi bı üç nəfər qızın üsdə dava eliyir. De görüm qız kimə çatacax?

Belə deyəndə qız dillənir:

– Dülgərdi, dülgər pulun ala bilər. Dərzidi, dərzi də pulun ala bilər, amma nəfəs pulun almax mümkün dəyil. Qız molluya çatacax.

Bəli, şaha getdi xəbər ki, bəs qız dilləndi. Belə deyəndə müəyyən adamlar deyir, yox, qız dillənmədi, biz eşitmədih. Şah de-

yir, siz yalan deyirsiniz, qız dillənmiyifdi. Deyir, nolar ki, şah sağ olsun, özuuz da gəlin qızın yanına, qız dillənəndə şahid olarsınız.

Bəli, bınnar gəlillər bir də qızın yanına. Qızın yanına gələndə deyir, ey bülbül, elə oldu ki, biz bir də sizin yanınıza qayıtmalı oldux. Bir gün üş yoldaş gedirdi. Üş yoldaş gedəndə birinci yoldaşın güzgüsü varıdı, güzgüsünə baxdı dedi ki, filan şəhərdə bir dənə patşahın qızı var. Bir alma var. Əgər o alma bir sahata, iki sahata çatmasa, o qız öləcəh. İkincisi dedi ki, o alma məndə. Üçüncüsü dedi ki, siz bir sahata deyirsıız, mən yarım sahata sizi çatdıraram ora.

Bəli, olar gəldi həmən şəhərə çatdılar. Çatan kimi apardılar almanı verdilər. Qız yedi, sağaldı. İndi qız sağalannan sora bınnarın üçü də qızın üsdündə dava eliyir.

– İndi, ey bülbül, de görəh qız kimə çatacax?

Yenə qız dilləndi:

– O hər nəynən gətiripsə, pulun ala bilər, o güzgüyə baxan da pulun ala bilər, amma arada alma gedip, qız alma sahibinə çatmalıdı. Alma yoxdu, alma yeyilipdi.

Belə deyənnən sora şah, doğurdan da, eşidir ki, qızı danışdı. Bırda gətirir qızı yaxşı qəflə-qatırnan, neçə dəvə yükü qızılnan yola salıllar. İyirmi dəvə yükü qızıl verir qızına.

Hərəsi də bir at minip üç atnan düşdülər yola. Gəlip çıxıllar həmən yolayrıcına. Həmən yolayrıcına gələnnən sora oğlan deyir, qardaş, şərtimiz yadınnan çıxmıyıp ki? İndi gətdiyimizi bırda bölməliyih.

Bəli, bınnar dəvələri bölüllər, yühlərin də yarısın bı tərəfə, yarısın bı tərəfə. Üç atdı. Atın birin bı tərəfə, birin o tərəfə bölənnən sora, arada bir at qalır. Oğlan qılıncı çəkir. Bı birisi qardaş deyir, qardaş, bı atı sənə halal eliyirəm, götü. At yazıxdı, niyə öldürürsən? Deyir, qardaş, şərti pozma. Bizim şərtimiz var ki, nə gətirsəh, bırda bölməliyih.

Axırı oğlan naləş qalır. Oğlan qılıncı çəkir atı iki parça eliyir. Bir parçasın verir oğlana, bir parçasın özü götürür. İndi de-

yir, qız qaldı. Deyir ki, yox, qardaş, qızı verirəm saa. Qızı verirəm saa, halal xoşun olsun, maa heş nə lazım dəyil.

Deyir, yox, qardaş, şərti pozma. Biz demişih nə gətirsəh, bırda yarı böləciyih. Qızın yarısı sənindi, yarısı mənim. Oğlan qılıncı götürür cumur qıza ki, vursun, qız bərhdən qışqırır, ağzınnan bir ilan çıxır. Düşən kimi oğlan ilanı öldürür. Deyir, qardaş, bınnarın hamısı sənindi. Mənə dünya malı lazım dəyil. Sən məni həyata qaytardın, mən də səni həyata qaytarıram. Həmən ki, balıx varıdı, ağlıyıp göz yaşı tökürdü, həmən balıx mənəm. Sən məni həyata qaytardın, amma atan səni döyüp evinnən qovdu. İndi bı var-dövlət, qız sənindi. Götür get atanın yanına. Sən də öz həyataa, mən də öz həyatıma. İndi get yaşa.

Beləlihnən, oğlan qıza nə qədir cehiz vermişdilər, onu da götürüp gəldi atasının yanına. Atası gördü oğlu nə qədir cah-calalnan gəlir, yanında da bir dənə gözəl qız. Beləlihnən də, kişi çox şad oldu. Başdadı oğluna toy eliyip öz mətləf-muratdarına çatdılar. Siz də öz muradınıza çatasınız.

## 126. QARAÇUXASINI AXTARAN KİŞİ

Bir kişi varmış. Çox həylə də yaşdı dəyilmiş. Çox kasıp tüşür. Kim bını görür, deyir:

– Əə, bədbaxtın Qaraçuxası yatıp.

Bir gün gedir ağsakqalın yanına, deyir:

– Əə, mən neyniyim?

– Get peyğəmbərdən xəbər al.

Deyir:

– Saa fəda olum, ya peyğəmbər, məxlux maa deyir ki, Qaraçuxan yatıp. Mən neyniyim? Qaraçuxamı hardan tapım mən?

Peyğəmbər buyurur ki, Qaraçuxan filan yerdədi, məsələn, Süsən dağının təpəsindədi, get, axtar, tap.

Deyir:

– Mən gedip Qaraçuxamı tapacam.

Kişi bir-iki cad götürür, düşür yola. Xeyli gedənnən soyra bir kor şirə irast gəlir. Şir bına tərəf cumanda deyir:

– Ay Allahın heyvanı, niyə cumursan məni yeməyə?

Deyir:

– Mən müstəhəqəm. Gözüm olsa, səni görsəm, ya irəhm elərəm, ya da məslahat elərəm, heş yemərəm. Ama koram, heş bir şeyim yoxdu, səni bıra göndərən yəqin maa urzu göndəripmiş.

Dedi:

– A Allahın heyvanı, mən bəni-insanam. Mən də bədbaxtam. Ona görə ki, çox kasıp tüşmüşəm, deyillər, Qaraçuxan yatıp. Mən Qaraçuxamı axtarmağa gedirəm. Maa dəymə, bəlkə orda saa da bir şafa yolu taparam. Gedim, ordan xəbər gətiməsəm, gənə yolum bırdandı, genə yeyərsən də.

Dedi:

– Yaxşı, indi ki, həylədi, mənim gözümə şəfa gətisən, nəinki səni yeyərəm, illah saa ənam verərəm.

Razılaşdılar. Şir buna dəymədi. Getdi boyul. Bir müddət gedənnən sora bir vilayətdə görür ki, ağaş var, kölgədi, bir-iki cütcü oturup çörəh yeyir, öküzdəri də ötürüplər otdamağa, dincəlmağa.

Deyillər:

– Yolnan gedən şəxs, kimsən? Gəl çörəh yeyəh.

Kişi gəlir:

– Salaməleyküm.

– Əleyküməsalam.

Oturur, cütcülərnən çörəh yeyir. Cütcülər soruşullar ki, qardaş, kimsən, hardan gəlip hara gedirsən?

Deyir ki, qardaş, vallah, nə deyim. Allahdan gizdin deyil, bəndədən nə gizlədim, çox kasıbam, hər kim elə məni gördü, dedi, Qaraçuxan yatıp, get peyğəmbərdən səval elə. Gedip peyğəmbərdən soruşdum, dedi Qaraçuxan odu, Süsən dağının təpəsində, get axtar, tap, oyat daa. Düşdüm yola, indi gəlmişəm bıra çıxmışam.

Cütcülər dedi:

– Əə, qardaş, indi ki, gedirsən, bizim də elə Qaraçuxamız yatmış kimidi, bu zəminin neçə ildi toxumun səpirih, ancax ya toxumun götürürüh, ya götürmürüh, bı torpax bizə ürüsxət vermir. Qaraçuxaya bizim də dərdimizi de.

Dedi:

– Yaxşı.

Kişi düşdü yola. Getdi gördü ki, bir quru vilayət var, ora arx çəkillər, millət qarışqa kimi işdiyir. Zənənnən tutmuş ağsakqala, qarasakqala kimi hamı işdiyir.

– Salaməleyküm.

– Əleyküməsalam.

Dedilər:

– Qardaş, bırdan su çəkirih. Bir çaydan arx götürürüh. Arxı çəkirih, gətiririh bı düzə, gecə yatırıx, səhər gedirih ki, düppələndüzdü, arx-zad yoxdu.

Dedi:

– Vallah, mən bir bəni-insanam. Mən gedirəm Qaraçuxamı axtarmağa, deyillər Qaraçuxam yatıp. Qaraçuxamı tapıp sizin də vəziyətinizi dəərəm. Bəlkə sizə bir yol oldu.

Arxı çəhdirən patşah dedi:

– Kişi, indi ki gedirsən, əgər bı sudan bir sorax gətisən, bizim bı arx başa çatsa, səni dünya malınan qəni elərəm. Səni göz bəbəyim kimi saxlıyaram.

Dedi:

– Baş üsdə.

Getdi, elə bil Süsən dağının təpəsinə çatmışdı, gördü ki, bir sürü qoyun var, çoban yatıb, üzdən irax, elə itdər də yatıp yanında, canavar gəlir qoyuna təpilməğa. Bir adam qoymur, canavarrar qoyuna təpilə. Kişi də getdi ora yaxın. Dedi:

– Ə qardaş, kimsən ki, qoyunun sahibi yatıp, itdər yatıp, sən bı sürünü qoruyursan?

Dedi:

– Vallah, mən bı çobanın Qaraçuxasıyam. O yatıp, ama mən oyağam da, onun malın qoruyuram.

Dedi:

– Əə, saa qurban olum. Mən də bu dərdin sahibiyəm. Mən də Qaraçuxamı axtarıram.

Dedi:

– Odu ha, Qaraçuxalar ordadı. Sən də Qaraçuxanı çağır, gələcəh.

Getdi, bir az gedənnən sora dedi:

– Ey mənim Qaraçuxam, hardasan, gəl, niyə yatmısan?

Dedi ki, bilirsən nə var?

Dedi:

– Nədi?

Dedi:

– Gedərsən bırdan, bir saxsı cürdəyi doldurarsan suynan, bir nazih qatmaynan asarsan bir qəlbi yerdən. Nə vədə ip qırılıp saxsı düşərsə yerə, sınsa, bil ki, mən oyanmışam, sınmasa, mən də yatmışam.

Kişi dedi:

– Ha belə başıma bir iş gəldi. Bir kor şirə ürcah oldum.

Dedi:

– O şirə de ki, bir axmax adam yesin, gözü açılacax.

Dedi:

– Ha belə gəlirdim, iki qardaş cüt əkirdi.

Dedi:

– Onnara da denən ki, o ağacın dibində bir küp qızıl var, nə qədər ki, o qızılı götürmüyüplər, o torpax bar verməz. Bir torpax iki bar verməz. Bir torpax bir bar verər.

Dedi:

– Ha belə bir patşah da var.

Dedi:

– Get o patşaha denən ki, o qızdı, nə qədər ki, başbir olmuyup, ərə getmiyip, onun mətləbi hasil olmuyacax.

Kişi qayıtdı, düşdü yola. Gəldi sifdə patşaha ürcah çıxdı. Xoş beş, on beş, dedi ki, qibleyi-aləm, vəziyyət belədi.

Patşah dedi:

– Bıra gə, bıra gə. Bı sirri bir sən bilirsən, bir mən. Elə gə sən məni al, sən ol patşah, mən də olum sənin xanımın. Ta bını başqa adam bilməsin.

Dedi:

– Yox, mən bı işə yaxın durammaram. Mənim Qaraçuxam deyip gərəh ipdən cürdəh asasan.

Nəkqədir dedi, dedi vır, öldür, qəbul eləmərəm.

Gəldi iki qardaşdarın yanına. Dedi ki, ha belədi. Qardaşdar getdilər, qızılı eşdilər, çıxartdılar. Dedilər:

– Qardaş, elə torpax ki, bizə urzu verip, qızılın hamısı sənin.
Dedi:

– Əə, yox, maa lazım dəyil.

Dedilər:

– Onda üş bölax daa. İki biz, bir də sən, üş böləh.

Dedi:

– Yox, maa lazım dəyil.

Dedilər:

– Niyə?

Dedi:

– Mənim Qaraçuxam deyip, cürdəyi ipdən asarsan, gözdərsən.

Kişi qızılı götümədi. Gəldi gördü, bıdı, şir nərildəyir. Hənirti eşitdi, cumdu bının üsdünə. Dedi:

– Cumma, cumma, şad xəbər gətimişəm. Haman adamam ki, Qaraçuxamı axtarmağa gedirdim.

Dedi:

– Həə, de görüm, nə dedi Qaraçuxan?

Dedi ki, ha belə bir axmax adam beyni yesin, onun gözdəri açılar.

Dedi:

– Yaxına gəl eey, axı eşitmirəm sən dediyin sözdəri.

Belə yaxına gələndə bırdan – xirtdəyinnən belə tutdu, dedi:

– Əə, patşahlığı bıraxmısan, qızılı bıraxmısan, gəlmisən ki, mən gedəcəm saxsı asacam. Elə sənnən axmağın tapmıyacam.

Kişini xirtdəyinnən qopartdı, yedi.

## 127. TÜLKÜYLƏ DƏYİRMANÇI

Biri vardı, biri yoxdu, bir dəyirmançı vardı. Bı dəyirmançının bir dəyirmanı varıdı, bir kürkü varıdı, bir də bir çanağı varıdı. O çanaxda şahadı alırdı, fətir eliyirdi, yeyirdi. Amma dəyirmanın qapısında bir yaxşı armıd ağajı vardı. Dəyirmançı baxdı gördü ki, bı armıd günü-günnən azalır. Fikirrəşdi ki, kim gələ, kim neyliyə ki, bı armud belə azala? Dedi:

– Pusacem.

Pusdu, baxdı gördü kü, bir dənə tülküdü.

– Ə, köpoolun tülküsü, səni öldürəcem. Düş aşağı.

Dedi:

– Dəyirmançı qardaş, məni öldürmə, səni evləndirəcem.

Deyir:

– Ə, bədbaxt oğlu bədbaxt, mənim nəyim var? Maa arvat nəyə lazımdı?

Deyir:

– Yox, səni evləndirəcem.

Dəyirmançıynan tülkü bırda qardaş olsun, sizə xəbər verim bir padşahdan.

Bir padşah varıdı, bı padşahın bir qızı varıdı. Bı qıza çox yerdən müştəri gedirdi, heş kəsə vermirdilər. Tülkü bir gün getdi otdu elçi daşının üstündə. Padşahın vəzirrəri varıdı, baxdılar, gördülər elçi daşının üsdündə bir şey oturup, gəldilər:

– Kimsən?

Dedi ki, mən tülküyəm, gəlmişəm padşahın qızına elçiliyə. Ağama alacem.

– Ağan kimdi? Adı nədir?

Dedi:

– Ağam Armıd bəydi.

Dedi ki, bir belə dövləti, bir belə malı, bir belə pulu, bir belə sanı, bir belə cah-cəlalı, qoşunu.

Patşah razı oldu. Belə maslahat elədilər ki, Armıdı bəy gəl-sin, patşahnan görüşsünnər.

Tülkü gəldi, dəyirmançıya dedi ki, dur, gedəceyih qızı görməyə. Dedi:

– Ə, tülkü, əvin yıxılsın sənin, mənim nəyim var, paltarım var, palazım var? Mən bir dəyirmançı adamam, paltarımda bir put unun tozu var.

Dedi:

– İşin yoxdu.

Gəldilər, bizim çay kimi qabaxlarınnan bir çay axırdı. Tülkü dedi:

– Dəyirmançı qardaş.

Dedi:

– Həə.

Dedi:

– Dəyirmançı qardaş, sən soyun paltarlarıı, ver maa. Əyağın-zadın ilişər, yıxılarsan, paltarı axıdarsan.

Çayın ortasına gəldilər, qəşəh tülkü bı paltarı axıtdı çaya. Dəyirmançının paltarı axdı, lüt anagündə qaldı. Dəyirmançı çıxdı çayın qırağına. Tülkü yüyürdü patşaha:

– Patşah, əvin yıxılsın sənin, bəs yeznən gəlirdi qızı görməyə, çayda paltarı, libası, atı, tüfəngi, tapancası – hamısı axdı.

Patşah car çəhdi, qoşun gəldi. Yığışdılar bına yaxşı at, şapqa, paltar... Getdilər dəyirmançını geyindirdilər, düşdülər yola. Yola düşəndə bı tülkü dəyirmançıya yaxınnaşdı, dedi:

– Nəbada, nəbada üstünə baxasan, paltarına baxma!

Dəyirmançı görməmiş adamdı dana, yoxu idi, bir şalvara baxdı, bir pencəyə baxdı, bir yol belə, iki yol belə, tülkü bının yanın basdı, dedi:

– Ə, əvin yıxılsın sənin, saa nə dedim?

Bı padşah baxırdı, görür ki, yeznəsi paltara baxır. Dedi:

– Ə, tülkü, bı axı paltara çox baxır?

Dedi:

– Patşahi-aləm sağ olsun, deyir bı nə paltardı ki, mən geyinmişəm?

Deyir:

– Həə.

Yedilər, işdilər, bir neçə gün bırda qaldılar. Tülkü dedi ki, patşahi-aləm sağ olsun, mən məslahat eliyirəm ki, mənim ağamı əvələndirəsiz, toyunu eliyax, aparax.

Dedi:

– Yaxşı.

Qırx gün, qırx gejə patşah toy vırdırdı. Dəyirmançı tülkünü çəhdi qırağa, dedi:

– Əvin yıxılsın, bəs mən gəlini hara aparacem?

Dedi:

– Dinmə.

Dəyirmançı bırda qalmaxda olsun, tülkü – yeddi qardaş bir dev vardı, bı devlərin də yaxşı imaratı, dövləti, fılan-bəşməkanı vardı, – gəldi bı devlərə dedi:

– Salamməleyküm.

– Əleykümsalam, tülkü, xeyirdimi?

Dedi:

– Əviiz yıxılsın sizin, patşah cahi-calal çəkir, gəlir sizi qırmağa, durun!

– Bəs nətəər yanı? Biz indi neyliyax?

Dedi:

– Durun, başıızı götürün, hərəəz bir yana qaçın.

Bının içində bir ağ dev vardı, bı birəz mənim kimi yolu yeriyə bilmirdi.

Dedi:

– Mən hara girim?

Dedi:

– Gir ot təyəsinə.

Əvin böyründə ot təyəsi varıdı, girdi ot təyəsinə. Tülkü ibişqanı çaldı, devi oddadı. Qayıtdı getdi patşahın yanına. Patşahın adamları dəyirmançını cah-calannan patşahın öz sərhədinə kimi gətdilər. Tülkü dedi ki, bağışdayın, sizə bir söz deyəjem. Ağamın nənəsi ölüp, heç özü eşitməsin, tör-töküntüdü, gəlin siz bırdan qayıdın geri.

Bulları qaytardılar geri. Dəyirmançı gəldi devlərin imaratına, gördü ki, vallah, bir dəm, bir dəsgah, filan-beşmakan var ki, gəl görəsən. Başdadılar bırda yeməh-işməh. Day bı dəyirmançı dedi ki, tülkü, varım da sənsən, yoxum da sənsən.

Bı patşahın qızı tülkünü çox istiyirdi, olduxca çox istiyirdi. Tülkü bir gün özünü vırdı ölümcüllüyə, dedi ki, görüm bı kişi, bı mənim qardaşım maa baxır, baxmır?

Bı gəlin gəldi durdu tülkünün başının üstündə:

– Can tülkü, – dedi, tülküyə dil-ağız elədi.

Dəyirmançı gəldi, gördü ki, arvad tülkünün başı üstə özün didip tökür:

– Ə, köpəh qızı, – dedi, – ölür, cəhənnəmə ölsün, quyruğunnan at, getsin əyənə.

Tülkü yerinnən qalxdı, dedi:

– Həə, dəyirmançı qardaş, mən səni tacir, patşah elədim, indi sən mənim başıma bı oyunu gətdin.

Tülkü getdi, gördü ki, devlər qəyənin dibindədi. Ajınnan hamısının boğazı üzülür. Dedi ki, bilirsiiz nə var?

Dedilər:

– Nə var?

Dedi:

– Durun gedəh, sizin əvinizdə bir gəlin var, bir də bir kişi. O kişiin öldürax, gəlin qalsın sizə.

Dedilər:

– Yaxşı.

Gətirdilər bir burğu qayirdilər. Bı burğunun bir ücün saldılar tülkünün başına, bir ücün də saldılar öz başdarına. Di yavaş-yavaş gəldilər, gördülər ki, dəyirmançı əvin balkonunda oturup. Dəyirmançı baxdı, gördü ki, tülkü üş devnən gəlir. Çağırdı:

– Ə, köpəhoğluun tülküsü, səən dədan maa yeddi dev boşduydu, üçün gətirirsən, bə bının dördü hanı?

Devlər bını eşidən kimi tülkünü çırpdılar daşa, tülkü vakqıdı:

– Yalandı!

O yana çırpdılar, vakqıdı:

– Yalandı!
Bu yana çırpdılar, vakqıdı:
– Yalandı!
Tülkünü cəhənnəmə vasil elədilər.

## 128. QIZIL AXTARAN MƏHƏMMƏD

Bir gün bir malını yeməz kişi varmış. Saa deyim ki, pul xaşdıyan döyülmüş. Nəysə, qızılı, qəpiyi bir-birinin üsdünə topluyup aparır bağda basdırır. Heş kəsə də yerini demir. Nəysə, ölür gedir. Ölənnən sora camahat bunun oğluna deyir ki, bəs sənin ataan var-dööləti varıdı. Bu da gəlir anasına deyir:

– Ana, nətər ola, mənim atamın varı ola, mənim onnan xəbərim olmuya.

Anası and-aman eliyir ki, bilmirəm. Deyir:

– Ana, mən neyliyim onu tapım?

Deyir:

– Burda heş kəs onun yerini bilmir. Get kəs Musa peyğəmbərin yolunu. O gedəjəh Allahnan kəlmələşməyə. Örgənsin yerini, gəlsin saa desin.

Deyir:

– Yaxşı.

Gedir kəsir Musa peyğəmbərin yolunu. Görür Musa gəlir. Deyir:

– Ya Musa, saa fəda olum, mənim atam varrı olup, amma varının yerini nə anam bilir, nə də mən. Allahnan kəlmələşəndə örgən o qızılın yerini, gəl bizə de. Acınnan batıp qırılırıx.

Musa deyir:

– Yaxşı.

Nəysə, gedir, danışır, qutarannan sora deyir:

– Ya Xalik, saa agahdı da, mən nə deyəjəm. Bunun sirrini de, mən də ona deyim.

Deyir:

– Get ona de ki, mən onu ancax o dünyaya göndərə bilərəm, dədəsi deyə bilər onun yerini. Mən deyə bilmərəm onun yerini.

Gəlir, Musa da belə olduğu kimi deyir. Bu da deyir:

– Yaxşı, gedirəm.

Deyir:

– Onda get altı qavır say, yeddinciyə gir.

Nəysə, bu gedir. Məhəmməd imiş gədənin adı. Altı qavır sayır, yeddinciyə düşür. Görür, ə, bura bir böyüh şəhərdi, filan. Cənnətdi, nə bilim cəhənnəmdi. Geciyə düşür burda bunun qavağı. Birinci qapını döyür. Deyir:

– A qardaş, Allah qonağı qəbul eliyərsənmi?

Deyir:

– Ə, Allaha da qurban olum, qonağına da. Əyin var, yatmağa mitil yoxdu.

İkinci qapıya gedir, deyir:

– Allah qonağı, a qardaş.

Deyir:

– Ə, Allaha da qurban olum, qonağına da. Mitilim var, əyin yoxdu.

Üçüncü qapıya gedir. Qapını döyüp deyir:

– Qonax, Allah qonağı.

Deyir:

– Ə, Allaha da qurban olum, qonağına da. Gəl.

Gedir girir içəri, görür əv yiyəsi bircə adamdı. Deyir:

– Qardaş, adın nədi?

Deyir:

– Məhəmmətdi.

Bının da adı Məhəmmətdi. Deyir ki, sən hardan gəlirsən? Deyir:

– Mən gəlmişəm dədəmdən qızılın yerini örgənəm.

Bu əv yiyəsi gülür, deyir:

– İndi dədaa gösdərəjəm, dayan.

Sora çörəh-zad gətirir, ancax nə qədir eliyirsə, qonax bı ev yiyəsinin gətdiyi yeməyə əlini vurmur. Məhəmmət deyir ki, ə, əv yiyəsi sənsən, sən çörəh kəs, mən də kəsim dana.

Deyir:

– Yox e, mən kəsmirəm.

Deyir:

– Sən kəsmirsənsə, onda mən də kəsmirəm.

Nəysə, bu əv yiyəsi Məhəmmət bir loxma kəsip ağzına qoymax isdiyəndə göydən bir ilan gəlir bunun dilinin ucunnan vurur, bu olur torpax, tökülür yerə. Soradan yavaş-yavaş qabarır yenidən olur adam.

Bu qonax Məhəmmət deyir ki, qardaş, sənin çörəyii yeməRəm. Deynən görüm, bu nə hadisədi sənin başaa gəlip? Bu nədi ki, sən ağzaa çörəh qoyanda o tərəfdən ilan gəlir dilii ucunnan vurur?

Deyir:

– Soruşmasan yaxşıdı.

Deyir:

– Yox, canın üçün, deməsən çörəyı kəsmiyəjəm. De görüm, bu nə hadisədi başaa gəlip?

Deyir:

– Qardaş, dilimin bəlasına düşmüşəm.

Deyir:

– Nədi?

Deyir:

– O biri dünyada Fatma adında mənim bir əmim qızım varıdı. Mən onu sevirdim. Niyəsə o maa gəlmək isdəmədi. Mən ona şər atdım. İndi o, o dünyada qalıp, həştat yaşı var. Ona gora da indi onu heş kəs almıyıp. Hər gejə odu ku, gəlir mənim dilimin ucunnan ilan vurur, oluram torpax, yenidən adam oluram. Mənim başıma gələn budu.

Deyir:

– Qardaş, gedəjəm, nətər olur-olsun səni kutaram gərək. Sənin bu hak-hesabaa dözmək mümkün dəyil.

Deyir:

– Nə bilim day, əlaş qalıp saa.

Deyir:

– Yaxşı, gedəh dədəmin yerini gösdər maa.

Deyir:

– Yaxşı.

Aparır gösdərir. Görür dədəsi sarı qıllı itdi, bağlanıp ora. Bu it az qalır oğlunu burda parçalıya. Deyir:

– Dədə, səni onnan da betər olasan, heş sənnən də o qızılı isdəmirəm.

Qayıdır, çıxır gəlir. Gedir Musanın yanına çatan kimi, deyir:

– Ya Musa, saa fəda olum, mənim sənnən birinci xayışım budu ku, Məhəmmədin günahınnan keç.

Deyir ki, bala, mən onu eliyə bilmərəm. Qoy Allahnan kəlmələşim sora. Allah da buna səda göndərir ki, özün həll elə. Musa da bu Məhəmmədə deyir ki, onun günahınnan ancax Fatma keçə bilər. Fatma keşməsə, mən keçə bilmərəm.

Deyir:

– O Fatma hardadı?

Deyir:

– Filan şəhərdə olur, özü də onun həştat yaşı var, beli bükülü.

Məhəmmət öz dərdini qoyur burda, aj qarına başdıyır Fatma gəzməyə. Bura Fatma, ora Fatma, axırı tapır, deyir:

– Fatma.

Deyir:

– Ha.

Deyir:

– Mən saa qonax gəlmişəm, sənnən bir xayışım var.

Deyir:

– Nədi?

Deyir:

– Fatma, sənnən xayış eliyirəm ki, əmin oğlu Məhəmmədin günahınnan keç. Onun vəziyəti belədi.

Deyir ki, bala, sən gəlmisən bura, amma mən onun günahınnan keşmərəm. Ona görə ki, mən həştad yaşımda heş bir şey, barsız ağaş kimi yaşamışam. Mən hələ isdiyirəm onnan da betər olsun. Deyir:

– Fatma, onda səni buraxan deyiləm. Səni götürüp aparajam Musa peyğəmbərin hüzuruna. Orda danışax, görəh vəziyət nətər olur.

Bunu ordan qolunnan tutur, düz gətirir Musanın hüzuruna. Musa deyir:

– Fatma, sən əmin oğlu Məhəmmədin günahınnan keç. Sən onun günahınnan keşsən, yenidən on beş yaşında qız olarsan.

Deyir:

– Yaxşı.

Sora deyir:

– Ey yerin, göyün xaliqi, mən onun günahınnan keçirəm, sən də keç.

Bunu deyənnən sora Allahtala onu on beş yaşında qız eliyir. Eliyənnən sora Musa peyğəmbər deyir:

– Fatma, indi kimi sevirsən, sənin kəbını ona kəsim?

Deyir:

– Ya peyğəmbər, saa agahdı ki, mən bir belə ki, həştad il yaşamışam, mənim üsdümnən bir erkək milçək addamıyıp. Hamba bu oğlanın əli mənim qoluma dəyip. Çünkü mənim qolumnan tutup, sənin hüzuraa gətirip. Mənim kəbinimi buna kəs.

Bunun kəbinini kəsillər Məhəmmədə – qızıl axtaran Məhəmmədə. Kəbini kəsənnən sora Allahtalıya xoş gedir. Allahtala deyir ki, ya Musa, o getsin bağa, qiblə tərəfdən altı ağaş var, saysın, yeddincinin divini qazsın. Qızıllar ordadı.

Ordan gəlir altı ağac sayır, yeddincinin divini qazır. Qızılı tapır. Onnan sora onnar şad-şalayın dolanıllar.

## 129. PEYĞƏMBƏRLƏ ÜÇ YOLÇU

Peyqumbər əleyhsalam həmməşə Allaha duva eliyirdi ki, ya ilahi, sən insanlara irəhm elə. Bir gün Cənabı Cəbrayıl gəldi, Allahdan xəbər gətirdi ki, ya peyqumbər, sən elə həmməşə adamlara irəhm diliyirsən. Gəlsənə, adamları bir yoxluyasan, sınaxdan keçirəsən.

Dedi:

– Nə deyirəm? Yoxluyax.

Peyqumbər əleyhsalam düşdü bir qoja sifətinə, otuz iki dişdən bir dənə nişanə qalmadı. Bir cırıx-cındır paltar geyindi ki, baxasan, dəərsən heş bu bəni yaranmış dəyil. Çiyninə bir cırıx xurjun götürdü, içinə də bir arpa cadı qoydu, düşdü yola. Yolda bir yolçu gördü ki, arxadan bir qoja gəlir. Oturdu ağaş kölgəsində bunu gözlədi.

– Salam.

– Əleykəsalam.

Dedi:

– Hara gedirsən, qoja?

Dedi:

– Dolanışığım pisdi, dolanışıx dalınca gedirəm.

Dedi:

– Qoja, mən də o niyyətdəyəm, mən də dolanışıx axtarıram. Əyalım çoxdu, dolandıra bilmirəm. İzin ver, yoldaş olax, gedəh. Allah nə ürsxət yetirər, yetirər.

Razılaşdılar, getdilər. Yolnan bir yolçu gedirdi. Gördü ki, iki adam gəlir. Oturdu həmən o iki adamı gözdədi. Gəldilər çatdılar:

– Salam.

– Əleykəsalam.

Yolçu üzünü tutdu peyqumbərə:

– Qoja, hara gedirsən?

Dedi:

– Dolanışığım pisdi, dolanışıx dalınca gedirəm. Yolda bu adam da qoşulup maa, gedirih.

Dedi:

– Elə mən də dolanışıxdan əziyyət çəkirəm. İzin verin, mən də qoşulum sizə.

Razılaşdılar. Bir xeyli getdilər. Yolda bir cavan oğlana irast gəldilər. Cavan soruşdu:

– Qoja, hardan gəlip, hara gedirsən belə?

Dedi ki, oğul, vilayətdə ajdıxdı, yol adamıyıx, belə gedirih. Cavan oğlan dedi:

– Mən dolanajax axtarmıram.

Dedi:

– Bəs nə axtarırsan?

Dedi:

– Mən insan axtarıram. Əgər xudavənd-aləm mənə bir halal süd əmmiş kismət eləsə ailə qurmax üçün, taa maa heş nə lazım dəyil.

Dedi:

– Nə deyirəm.

Razılaşdılar. Bir xeyli yol gəldilər. Bir kolluğa çatdılar. Peyqumbər lap birinci rast gəldiyi adama dedi:

– Ora bax, gör nə görürsən?

Baxdı, gördü, cənnət misal bir bağdı. Peyqumbər dedi:

– Get, o bağ sənindi.

Bir xeyli getdilər. Bir dağın qırağınnan gedəndə bir çanqulluxdan keçdilər. İkinci rast gəldiyi yolçuya üzünü tutdu, dedi:

– Nə görürsən?

– Çanqulluxdu.

Dedi:

– Yaxşı bax.

Yolçu bir də baxanda gördü beş sürü qoyun.

Dedi:

– Get, o beş sürü qoyun sənindi.

Getdilər, bir kəndin qırağınnan gedəndə gördülər, bir toy səsi gəlir. Dedi:

– Oğul, gedəh o toya, toydu da, təam da yeyəh, toya da baxax. Dedi:

– Nə deyirəm, qoja? Məsləhət sənindi.

Getdilər toya:

– Salam.

– Əleyküməsalam.

Oturdular. Yeməh-zad gəldi. Yedilər-elədilər. İndi gəlin gələn vaxdı çıxartdılar, atın yüyənini tutdular ki, gəlini mindirsinnər. Gəlinin gözü o oğlana sataşdı.

Dedi:

– Mən getmirəm.
– Ay dad, ay fəryad, sənə nooldu?
Gəlin dedi:
– Mən o qojanın yanındakı o oğlannan gedəjəm.
Cumdular bu oğlanın üstünə ki, onu döysünnər. Peyqumbər yeridi qabağa ki, ay camahat, bunu niyə döyürsüz? Bəlkə Allah bunu buna qismət eliyip? Gəlin siznən şərt kəsax.
Dedilər:
– Yaxşı.
Dedi:
– Toy dayansın. Bir yaxşı köhlən atı verəh qızın nişanlısına, aparsın bu atı üş gün yedirtsin, içirtsin, otdan-samannan versin, amma su verməsin. Üçüncü günü sizin oğlanı qoyax suyun qırağına, bizim oğlanı aparax qoyax o güneydəki quru yerə. Gəlinin qolların arxadan bağlıyax, mindirəh ata ki, atın yolunu nizamlaya bilməsin. Əgər susuz at suya getdi, onda sizin oğlan nişannısını da götürsün getsin. Yox, əgər quru güneyə, bizim oğlanın yanına getdi, onda Allahın kismətidi, verin ona çıxsın getsin.
Hamı razılaşdı. Elə də elədilər. Atı buraxdılar. At düz getdi güneyə – oğlanın yanına, suya getmədi. Gəldilər, gəlini bu oğlana verdilər.
Oğlan evləndi, bir cüt oğlu oldu.
Bir gün ilahi buyurdu ki, peyqumbər, bir buyur get, yaxşılıx elədiyin bəni-adamları sına da. Peyqumbər birinci getdi bağbanın yanına. Bağın qırağıynan gedəndə gördü bir nəfər bel əlində işdiyir. Salam verdi, əleyk aldı.
Dedi:
– Oğul, bir cadım var, quruyup, bu qara üzüm salxımınnan bir salxım ver, çörəyimi isdadım yeyim.
Dedi:
– Ey qoja, bu bağın sahibi elə bir kopooludu ki, bilə saa bir salxım üzüm vermişəm, dünyanı dağıdar. Gedim ona deyim, o desə bir salxım, mən iki salxım verim.
Dedi:

– Yaxşı sözdü, izin verməsə, mən də yemənəm.

Getdi dedi.

Dedi:

– Ged əə, yolun qırağı doludu qoraynan. Qoradan-zaddan ver yesin. Hər yetənə bir salxım üzüm versəm, bağda bağlıx qalmaz ki.

Qulluxcu gəldi, yolun qırağındakı qoradan yığanda peyqumbər dedi:

– Ay oğul, o qoradan istəsəm, özüm də yığardım. Yolun qırağı doludu.

– Ay qoca, neyniyim, görmürsən, orda oturup vermir?

Dedi:

– Onda get ona denən, gəlsin bəri.

Getdi çağırdı, gəldi.

Dedi:

– Əə, oğul, qoja kişiyəm, ağzımda otuz iki dişdən bir nişana yoxdu. Bir salxım üzüm versənə, yeyim?

Dedi:

– Vermirəm.

Dedi:

– Bax gör, bağda nə qədər üzüm var?

Bağ sahibi baxdı, gördü, bağ yoxdu, qaratikan kolluğudu. Peyqumbər getdi sürü sahibinin yanına. Gördü sürü günorta sağınına gəlip. Çobanın birinə yaxınnaşdı:

– Bərəkətdi olsun, çoban.

Dedi:

– Xoş gəldin.

Dedi:

– Oğul, uzax yol gedəjəm, bir cadım var. Bir qara qoyun südü sağ ver, bu cadı isdadım yeyim.

Dedi:

– Ay qoja, nə yaman işə saldın məni. Bu qoyunnarın sahibi elə zalım adamdı, bilsə ki, mən qoyunnan süd sağmışam, dərimə saman təpər. Özü burda olmasaydı, hə, qoyunnan çıtma-çıtma süd sağıp verərdim, bilməzdi. Amma indi özü burdadı. Qoy gedim genə özünnən icazə isdiyim, bəlkə Allah insafa gətirdi, icazə verdi.

Dedi:

– Nə deyirəm ki, get.

Getdi, icazə isdədi.

Dedi:

– Əə, yeri bir keçidən-zaddan sağ ver. Hər yoldan ötənə qara qoyun südü verəjəm?

Çoban gəldi keçini sağmağa. Qoja dedi:

– Ay oğul, keçi südü verərsən, qarnımı da pozarsan. Qoja kişiyəm. Verirsən, qoyun südü ver.

Dedi:

– Ay qoja, neynim axı? Yəəsi vermir ee.

Dedi:

– Onda get, sürü sahibinə de, gəlsin bıra.

Getdi çağırdı. Sürü sahibi gəldi.

Dedi:

– Ay oğul, qoja kişiyəm, bir qoyun südü nədi, yayın günündə sən maa keçi südü verirsən?

Dedi:

– Hər yetənə bir qoyun sağıp versəm, burda, bı sürüdə süd qalar? Dedi:

– Bax gör nə qədər qoyun var?

Sürü sahibi döndü baxdı, gördü quru çanqulluxdu, sürü-zad yoxdu. Peyqumbər getdi cavan oğlanın yanına. Gördü oğlan cüt sürür. Salam verdi, əleyk aldı.

Oğlan cütü saxladı. Hodaxçıya dedi:

– Əylə, əylə.

Hodaxçı cütü əylədi. Dedi:

– Qoja, gəl, qoja, gəl. Hardan gəlirsən, hara gedirsən?

Qojanı əyləşdirdi. Dedi:

– Qoja!

Dedi:

– Nədi?

Dedi:

– Qoja, bax burda bizim üçün yeməh var, ama sən qojasan, bunnardan azca ye. Mən bu dəqiqə isdi yeməh hazırradım gətirim.

Dedi:

– Oğul, bu maa çoxdu, uzax yol adamıyam, gedəjəm. Bir az dincəlim, gedirəm.

Dedi:

– Ye, işin yoxdu sənin.

Yedi. Dedi:

– Səni and verirəm Allaha, mənə qonaxsan.

Dedi:

– Allaha and verirsən, amma sənə çox əziyyət verəjəm.

Dedi:

– Nə eləsən xoşdu.

Oğlan qojanı götdü, gəldi evə. Arvada su gətirtdirdi, qojanın əyağın-zadın yudurtdu. Arvad döşəyi saldı, qojanı uzandırdılar, irahatdadılar. Oğlan heyvannan-zaddan kəsdi, yumşaxca bişirtdirdi, yedilər. Yatmax vaxtı gəldi. Oğlan yatmadı. Gördü kişi sızıldayır. Getdi dedi:

– Qoja, niyə sızıldayırsan? Yoxsa yerin narahatdı?

Dedi:

– Ay oğul, mən saa demədim məni qonağ eləmə? Mən sizə çox zələlət verəjəm.

Dedi:

– Nədi axı? Noolup?

Dedi:

– Ha belə, mənim bədənim gejə olanda yara tökür. Pal-paltar olur heş nə.

Dedi:

– Ə kişi, nə danışırsan? Bu sahat.

Tez arvadını çağırdı, bir dəst alt paltarı gətirtdi. Qojanın paltarını dəyişdirtdi. Sora qojadan soruşdu.

– Qoja, bu dərdin çarəsi yoxdu?

Dedi:

– Ay oğul, yoxdu.

Dedi:

– Mən yaxşı həkimlər tanıyıram. Gedirəm, bu gejə hansı vilayətdə olur-olsun gətirəjəm, sənin bu dərdaa əlaj eləsin.

Oğlan getdi. Gejə arvat gördü genə qoja sızıldayır.

– Ay qoja, niyə elə sızıldayırsan?

Dedi:

– Ay bala, mən sizə demədim sizə çox zəlalət verəjəm?

Dedi:

– Ay qoja, elə şeyi qəlbaa gətmə.

Tez durdu əyağa, bir dəst paltar gətirdi, qojanın paltarını dəyişdi. Dedi:

– Ay qoja, səni and verirəm Allaha, de görüm, heş bu dərdin çarəsi yoxdu?

Dedi:

– Ay bala, ərin də getdi, bunun heş bir çarəsi yoxdu. Ama Allaha ki, and verirsən, deyim. Hər kəsin ki, ilkinə Allah bir cüt oğlan versə, onnarın başın kəsip qanın sürtsələr, yaram sağalar.

Dedi:

– Bını niyə demirsən, ilkimizə bir cüt oğlumuz var, qurbandı saa. Kəs, qanın götür.

Dedi:

– Yox, elə şey olar?

Arvat getdi, oğlannarını özü tutdu gətdi. Qolların bağladı, yıxdı qojanın qabağına.

Dedi:

– Kəs.

Qoja bıçağı sürtdü, qan çıxdı. Dedi:

– Su töh, qoy pıçağı yuyum.

Arvat əl atdı, gördü sənəhdə su yoxdu. Dedi:

– Qoja, icazə ver, gedim su gətirim

Dedi:

– Get.

Arvat sənəyi götdü, getdi bulağa. Bulağa gedəndə gördü, oğlannarının ikisi də bulaxda əlini yuyur. Arvat gözü oğlanna-

rında əyildi suya, sənəyi götürdü, gəldi evə. Sənəyi əydi ki, pıçağa su töhsün, gördü su yoxdu, su götürmüyüp. Qoja dedi:

– Saa demədim qəlbin darılajax?

Arvat dedi:

– Vallah, qəlbim darılmayıp. Gedim su gətirim.

Bir də sənəyi götürdü, getdi suya. Genə gördü oğlannarı bulaxda əl-üzünü yuyur, ama bu dəfə suyu qəşəh doldurdu, gəldi evə. Gördü qoja yerində yoxdu. Uşaxlar da sappasağ yatıllar.

– Ay aman, ay dad, ərim gəlip məni öldürəjəh, qoja nejoldu?

Bu dəmdə kişi də bir həkimlə gəldi.

– Arvad, qoja nətəərdi?

Dedi:

– A kişi, qoja yoxdu.

Dedi:

– Nejə yoxdu?

Dedi:

– Ha belə.

Dedi:

– Bay sənin əvin yıxılsın. Bu qoja susuz atı quru güneyə gətirənmiş eey, tanımadıx.

## 130. İBADƏT VƏ SƏXAVƏT

Bir gün İmam Həsənnən İmam Hüseyn mübahisə elədilər. İmam Hüseyn dedi ki, ibadət yaxşıdı, İmam Həsən dedi ki, yox, səxavət yaxşıdı. Bılar ikisi aralarında razılaşa bilmədilər. Gəldilər babaları peyqumbər əleyhissalamın yanına, dedilər:

– Baba, ibadət yaxşıdı, yoxsa səxavət?

Peyqumbər əleyhüssalam fikirləşdi ki, desəm ibadət yaxşıdı, Həsən inciyəcəh, desəm səxavət yaxşıdı, onda da Hüseyn inciyəcəh.

Dedi:

– Nəvələrim, gedin, sabah gəlin, sabah deyərəm.

Peyqumbər əleyhissalam düşdü yola, getdi. Gəlib bir kəndə çıxdı. O kənddə bir naxırçı varıdı. Bir arvadıydı, bir oğlu, bir də

özü. Yaşıyırdılar. Kişi kəndin naxırına gedirdi, özünə bir öynə çörəh qazanırdı, yeyib dolanırdılar. Bir inəhləri vardı, bir də onun balası. Peyqumbər əleyhissalam getdi bı naxırçının qapısına. Naxırçının cavan arvadı çıxdı onun qabağına.

– Salam.

– Əleykəssalam.

Dedi:

– Qızım, Allah qonağı isdiyirsən?

Dedi:

– Allaha da qurban olum, qonağına da, buyur, buyur.

Gətdi peyqumbəri içəri. Dedi:

– Evin sahibi naxıra gedib, icazə ver gedim naxırın yanına, evin sahibi gəlsin evə.

Peyqumbər əleyhissalama agahdı onsuz da. Dedi:

– Get, qızım, get.

Getdi ərinin qabağına. Dedi:

– A kişi, bilirsən nə var?

Dedi:

– Nə var?

Dedi:

– Bir qocadı, iki də cavandı – üzdərinnən nur tökülür, heç bəni-insana oxşamır, elə bil məlakədilər. Sənnən icazəsiz onnarı evə çağırdım. Onnarı nəkqədir lazımdı çörəyə qonax elədim. Onnar neçə çörəh yesə, bir o qədir mən çörəh yemərəm əvəzində.

Dedi:

– Ay arvat, həylə demə, ayıp dəyil?

Kişi gəldi. Xoş gəldin, beş gəldin eliyənnən sora kişi dedi:

– Arvat, bu danaynan bizi kim tanıyajax? Gəlsənə bunu kəsəh qonaxlara.

Arvat dedi:

– İllap yaxşı, Allah qonaxlarıdı. Bir daneynən varrı olmuyacıyıx ki, onsuz da kasıpıx daa.

Razılaşdılar, dananı kəsdilər, yedilər. Yatmax vaxdı bınnar özdəri getdi mal-qaranın yanında yatdı, qonaxlara evdə yer sal-

dılar. Gecə səhərə yaxın kişi arvadı durğuzdu ki, çaydan-çörəhdən hazırrasın. Nəqqədir elədi, gördü arvad durmur, arvatda nəfəs yoxdu, arvat dünyasını dəyişip. Uşağı qaldırmax isdədi, gördü, uşax da dünyasın dəyişip. İstədi inəyi aça ötürə naxıra, gördü inəh ölüp. Kişi heş qəlbin sıxmadı. Fikirrəşdi ki, burda bir sirr var. Çıxdı getdi camaata dedi ki, ay camaat, ta mən sizin malınıza gedə bilmiyəcəm. Özü gəldi çaydan-çörəhdən elədi qonaxlara. Dedi:

– Bağışdıyın da, evin xanımı xəsdə kimi olup, durup sizə çay-çörəh hazırrıyammıyıp.

Yedilər, işdilər. Durdular kənddən çıxanda peyqumbər dedi ki, sən qəyit, qəyit.

Dedi:

– Yox, heç olmasa qoy filan yerəcən aparım yola salım.

Həmən yerə çatanda dedi:

– Heç olmasa qoy filan yerəcən aparım.

Belə-belə gəldilər bir dağda bir abid varıdı, ibadət eliyirdi Allahtalaya. İbadətgahında da hər öynə yeməh-işməyini məlakələr gətirirdi. Getdilər həmin abidin yanına çıxdılar.

– Salam.

– Əleykəssalam.

Dedi:

– Abid, bizi qonaq elərsənmi?

Dedi:

– Mən qonaxlıx necə eliyə bilərəm?! Mənim yeməyim Allahdan öynəbəöynə gəlir. Mənim yeməyim yox, işməyim yox. Allahtala nə göndərsə, onu yeyirəm.

Dedi:

– İcazə verərsən bu gecəliyə bu binada qalax, bizə soyux dəyməsin.

Dedi:

– Nə deyirəm, qalın.

Bılar qaldılar. Ərşi-əladan beş isdəkan çay gəldi, beş qab xörəh gəldi, beş dəs yatıb-duracax gəldi. Abid çayın birin işdi,

xörəyin birin yedi, yatıb-duracağın birində yatdı. Dedi ki, yəqin Allahtala yeyib-işməyimin, yatıb-duracağımın beş öynəsini birdən göndərib. Odu ki, qalanını da yığdı bir qırağa.

Bılar da quru yerdə uzanmışdılar, aj-susuz yatmışdılar. Səhər açıldı. Sübh tezdən genə mələkələr ərşi-əladan beş istəkan çay, beş qab xörəh, beş yatıb-duracax gətirdilər. Genə abid fikirrəşdi ki, yəqin genə Allahtalanın başı qarışıx olacaq, ona görə beş öynənin yeməh-işməyini birdən göndərib. Dedi ki, birini yeyərəm, qalanını qoyaram bir qırağa.

Peyqumbər əleyhsalam dedi:

– Abid.

Dedi:

– Bəli.

Dedi:

– Get gör qabdakı yeməh aşıb-daşıb?

Abid getdi, qabı aşdı, gördü qabda dünyanın ən nalayiq şeyləri var. Allahtala abidin ruzusun kəsmişdi.

İmam Həsənnən İmam Hüseyn bütün bunnarı gördü. Gecə yol gəldilər. Bir kolluğa çatanda peyqumbər əleyhsalam naxırçıya dedi:

– Oğul, gəlsənə bırdan qayidəsən.

Dedi:

– Ora nədi?

Dedi:

– Kolluxdu.

Dedi:

– Yaxşı bax.

Bir də baxdı, gördü yaxşı bir bağdı, arvadı çarhovuzun qırağında paltar yuyur, oğlu oynuyur, inəyi otduyur, balası da yanında.

Dedi:

– Get, a bala, yaşa, ağ gün gör.

İmam Həsənnən İmam Hüseyn başa düşdülər ki, ibadətdən səxavət yaxşıdı.

## 131. İNSAFLI OĞRU

Bir ölkə varıydı. Bı ölkədə bir qoca qadın varıydı. Uşaxları çoxuydu, dolandıra bilmirdi, dilənip uşaxlarını dolandırırdı. Peyğəmbərin vaxtındaydı özü də. Orda da bir cahıl oğlan varıydı, on altı-on yeddi yaşında mahir oğruydu. O da oğurruxnan özünü dolandırırdı. Çünki körpəlihdən, bı səkgiz yaşında olanda anası irəhmətə gedir, bı oğlan başdıyır qonşudan yumurta oğurramağa, filan oğurramağa. Axırda olur böyüh bir dəsdəbaşçısı. Özü də insaflı, qanuni oğru olur. Day əlinə keçəni oğurramır. Bı oğlan da oğruydu.

Bı ölküyə bir ajdıx düşmüşdü, heş-zad tapılmırdı. Bir qadın nəkqədən gəzdi, bir manat vermədilər ki, apara uşaxlarını dolandıra. Bı oğlan da çox gəzdi, çox dolandı, bir şey tapa bilmədi ki, oğurrasın. Bir qoca kişi varıydı, onu tanıyırdı. Yüz yaşındaydı qoca kişi. Bı oğruydu. Bir günnərisi axşam çağıydı, bı oğlan gəlip ordan keçirdi. Bı çağırdı:

– A bala, a bala.

Dedi:

– Bəli.

Dedi:

– A bala, əlinə bir şey keşmədi sən belə boş gedirsən?

Dedi:

– Ay bala, vallah, tezdənnən axşama qədər gəzmişəm, heş-zad yoxdur. Çünki ölkə ajdığa düşüp, heş kəsin qapısında bir şey yoxdu ku, oğurruyam. Ya da dükan, maqazinnərdə bir şey yoxdu ki, mən onu oğurruyam.

Dedi:

– İndi ki elədi, gəl sana bir yer deyim, yaxşı yerdi. Gedərsən, orda yaxşı qazanc eliyərsən.

Dedi:

– Hardadı?

Dedi:

– Şəhərin laap ucqarında bir tacir yaşıyır, çox varrı bir tacirdi. Onun bir qızı varıydı, uşağı yoxuydu. Tacir ölüpdü, var-dövlət hamısı qalıp qıza. Ora getsən bir şey taparsan.

Dedi:

– Hardadı?

Dedi:

– Bı yolnan getsən taparsan.

Bı axşamnan düşdü yola, bir az səhərə yaxın idi həmən bağı tapdı ki, o tacirin evidi. Baxdı, doğurdan da, bir bağdı, içində iki-üç mərtəbəli evdi. Bı cahıl oğlanıydı, hasardan aşdı o yana. Baxdı ki, orda bir çərhouz var, cinamaz var, aftafa var. Dedi, həə, yəqin qız namaz da qılır. Bağı nəkqədən gəzdi, axşamıydı, heş nə tapa bilmədi. Axırda gəldi imarətin qabağınnan keçəndə pənəcərədən baxdı ki, bir qız qaravatda yatır, amma yuxarıdan bir kisədi ipnən asılıp, qızın iki döşdərinin arasındadı. Dedi, sən öl, nə varsa, yəqin bı kisənin içindədi.

Qız da həqiqi bilirdi ki, oğrular var, bılar gəlip oğurruyallar. Hər şeyini satıp qızıl eləmişdi və onu doldumuşdu kisiyə. Onu da, kisəni də gecə yatanda döşünün arasında saxlıyır ki, birdən onu əlləşdirəndə onun xəbəri olsun.

Oydu ki, bı oğlan çox mahir oğruydu. Şüşəni nətəhər çıxartdı bilmirəm, qızın döşünün arasınnan kisəni nətəhər götdüyünü bilmirəm, qızın xəbəri olmadan kisəni açdı baxdı, qızıldı. Bı qızıldan on dənəsini götdü və qalanını bağladı yavaşca yerinə qoydu. Çıxdı ki, getməyə, baxdı səhərdi, namaz vaxdıdı. Oğlan da namaz qılardı, ayrı vaxt, düz vaxt. Bı dedi, elə, çərhouz bırda var, cinamaz bırda var, aftafa var bırda, namazımı da qılım, onnan sora çıxım gedim. Bı papağını qoydu kanara, qızılları qoydu papağın içinə, başdadı namaz qılmağa.

Bı namaz qılannar da adətdi, tez-tez namazın vaxtında ayılallar. Qız bir vaxdı ayıldı ki, vay, namazın vaxdıdı, gəlsin namazın qılsın. Gəldi baxdı bının yerində başqa bir adam namaz qılır. Onu mən saa deyim, günahdı namaz üsdündə adamı dindirməh. Gərəh gözdüyəsən, namazı kurtara, sora dindirəsən. Odu ku, bı getdi ay-

rı cinamazı gətdi və başdadı bının böyründə bı da namaz qılmağa. Hər ikisi namazı kurtarannan sora qız bına dedi:

– Sən kimsən, gəlip bı bağa giripsən?

Dedi:

– Mən oğruyam.

Dedi:

– Necə yanı oğruyam?

Dedi:

– Oğruyam da.

Dedi:

– Bə oğrusansa, bırda da heş nə yoxdu, bə bırdan nə oğurruya bilmisən?

Dedi:

– Vallah, hər yeri gəzdim, bir şey tapmadım. Axırda sənin o döşünün üsdündəki kisədən on dənə qızıl götümüşəm.

Dedi:

– Elə şey olmaz.

Dedi:

– Elə şey olmaz, get bax.

Qız getdi, qızıllarını saydı, baxdı, doğurdan da, on dənə qızıl əskikdi.

Dedi:

– Bə qızıllar hanı?

Dedi:

– O de papağının içində.

Dedi:

– Bə papağın içinə niyə qızılı qoyufsan?

Dedi:

– Günahdı, mən namaz qılıram. Onu kanar qoydum ki, namazımı kutarannan sora onu götürəm, günaha batmıyam.

Qız baxdı, doğurdan da, bı götürüpdü.

Qız dedi ki, indi ki belə oldu, qızılın hamısını niyə götürüf getmiyifsən?

Dedi:

– Yox, mən o oğrulardan dəyiləm. Mən insaflı oğruyam. Mənə on dənə lazımıydı, on dənə götümüşəm.

Qız dedi ki, indi ki elədi, mən də Allahdan arzu eliyirdim ki, bir halal südəmmişə ərə gedəm. İndi görürəm ki, halal südəmmişsən, bı qızılların hamısını aparmıyıfsan. Sən qərəz məni alasan, mən saa yoldaş olam.

Dedi:

– Mən də irazıyam.

Getdilər, o zamannar axuntdar varıydı, axundun yanında kəbin kəsdirdilər və bunnar başdadılar yaşamağa. Yoldaşına dedi, dur onda yaxşı bir xörəh pişi və biz o xörəyi yiyəh, onnan sora yatax. Sizdən xoş, bı da durdu bir yaxşı plov pişirdi. Bir dənə də yaxşı xoruz kəsdilər, qızartdılar, qoydular pilovun başına lavaşıynan, ədvasıynan – hər şeyiynən hazır oldu. Qız gətdi süfrə aça, bınnar yiyə, sora yata. Bınnarın qapılarını döydülər. Bı oğlan getdi, görüm kimdi. Getdi aşdı, həmən sizə nağılladığım dilənçi arvatdı. Həmən dilənçi arvat da həmən qoca kişiyə ras gəlipdi. Qoca kişi deyipdi filan yerdə bir cahıl oğlannan bir qız evləniflər, çox varrıdılar. Ora getsən, sana bir pay verəllər.

Oydu ku, dedi:

– Sən kimsən?

Dedi:

– Mən dilənçiyəm.

Dedi:

– Nə isdiyirsən?

Dedi:

– Vallah, uşaxlarım evdə aj-susuzdular, gəlmişəm mənə bir pay verin, aparım uşaxlarım yesinnər.

Bı oğlan qayıtdı. Qız dedi:

– O kimdi?

Dedi:

– Bir dənə dilənçidi, pay isdiyir.

Qız dedi, onda bir qab gəti bı pilovdan bir az qoyax, çörəhdən verəh, götüsün aparsın uşaxlarına, yazıxdı.

Oğlan dedi:

– Yox, indi ki, elədi, elə pişirdiyimiz qazannı-zatdı hamısını bir dəsmala pükəh, verəh bı aparsın getsin, biz özümüzə təzdənnən xörəh pişirəh.

Qız dedi:

– Mən də irazıyam.

Bınnar eləcə pühdülər verdilər qadına, qadın munu götdü getdi. Qadın neynədi?

Oğlannan qız qalsın bırda, qadın getdi evinə. Qapını aşdı, uşaxları çox körpə idi, acıdılar. Məni bağışdıyın, anaları bir şey gətirəndə pişih balaları necə analarına hucum edillər, uşaxlar da analarının üsdünə yüyürdülər. Arvad uşaxlara dedi:

– Dəymiyin. Sizə bir yaxşı şey gətimişəm, ancax belə düzülün, mən nə desəm, onu eliyin, onnan sora bunu açaram, yiyərsiz.

Uşaxlar dedilər:

– Buyur, de görəh, nə deyirsən?

Arvat dedi:

– Allah, mənim ömrümnən kəs, otuz il ver o oğlana.

Allah tərəfinə "amin" elədi uşaxlar, hamısı qabıl olundu. Deyir, üç yaş onnan, beş onnan, on onnan, bir bunnan, otuz il də uşaxlarınnan kəsdi. Allah tərəfinnən altmış il oğlanın ömrü çoxaldı.

Bı qaldı bırada, indi görəh qıznan oğlan neynədilər. Munnar durdular təzdənnən çörəh pişirdələr, gətdilər ortuya qoydular ki, bu xörəyi yesinnər bunnarın qapıların döydülər. İstədi oğlan gedə aça, qız qoymadı getməyə. Dedi:

– Bayax sən açmışdın, indi mən açacam.

Dedi:

– Ged aç.

Qız getdi qapını aşdı. Bəyax sizə dediyim göydəki mələhlərdən biri gəlip qapıda durupdu ağ xələtdə. Qız dedi:

– Nə isdiyirsən?

Dedi:

– Heş zad istəmirəm. Məni Allah tərəfindən yolluyuplar ki, sana bir xəbər verəm.

Dedi:
– Nə xəbər?
Dedi:
– O xəbəri yetirəcəm ki, bı gecə özünü o oğlannan qoru, bir gecədən ötəri badbaxt olma. O oğlan bı gecə öləcəhədi, sən badbaxt olacaxsan. Sən bı gecə özünü onnan qoru.
Qız peşman qayıtdı dala. Oğlan dedi:
– O kimidi?
Dedi:
– Heş-zad. Qonşuydu, gəldi bir şey soruşdu. Dedim, çıxdı getdi.
Demədi ki, belə-belə. Qız dedi ki, vallah, mən görüm bı necə olacaxdı. Bı xörəyi okqədən yubatdı, qabı yudu, dəsmalladı, onu gətdi, çayı qoydu, dəmlədi, belə-elə, oğlan yorulmuşdu, yıxıldı yatdı.
Qız dedi, gərəh mən oyax qalam, görəm hələ bı nətəhər öləcəhdi. Qız okqədən gözdədi ki, qızı da yuxu tutdu, o da yatdı. Səhər durdu ki, ha oğlan diridi, gecə də nə pişiriplər sırfada açıxdı. Dedi ki, ayə, bı nətəhər işdi ki, bı bəs ölməliydi, bə niyə ölmüyüpdü?
Oydu ku, surfanı aşdılar ki, bınnar yeməh yesinnər dübara qapıları döyüldü. Qız çıxdı qapıya baxmağa, gördü axşam gələn mələhdi ki, gəlip bınnara xəbər vermişdi. Qıza dedi ki, de görüm, siz dünən nə iş görüfsünüz, bı oğlan ölmüyüfdü?
Dedi:
– Biz heş bir iş görməmişih.
Dedi:
– Yox. Fikirrəş gör dünən neyniyifsə, bı ölməliydi ölmüyüf.
Dedi:
– Vallah, dünən bir dilənçi arvat bizim qapıya gəlmişdi, pay isdiyirdi. Biz də öz payımızın hamısını verdih, qadın götdü getdi. Bınnan başqa bir iş görməmişih.
Dedi:
– Elə həmin işdi ki, qadın gedip Allahdan arzu eliyipdi, bı oğlanın atmış il ömrü çoxalıpdı. Gedin, yeyin-için, yaşayın.
Siz sağ, mən də salamat.

## 132. YAZILANI POZMAQ OLMAZ

Keçmişdə deyilənə görə insanın qismətinə nə yazılıbsa, onu görəcəkdir. Yazını pozmaq olmaz deyiblər.

Keçmişdə bir şah yaşayırmış. Günlərin birində şah vəzirlə birlikdə səyahətə çıxıb camahatın vəziyyətini öyrənməyə gedir. Onlar çöl ilə gedəndə yağışa düşüllər. Bu zaman qəyənin dibindən işıx gəldiyini görüllər. Onlar o yerə gedib bırda bir adamın yaşadığını görüllər. Əv yəəsinin xahişiylə bırda qalıllar. Bir-iki saat keçdikdən sonra ev yəəsi onnara deyir:

– Arvadım xəsdələnib, xahiş edirəm, bir-iki saat bayıra çıxasız.

Bınnar bayıra çıxıb bayırda çadır qurullar. Şah yatır, vəzir oyax qalır. Görür ki, bir adam içəri girdi. Vəzir bundan çox şüphələnir. Deyir, mən bı kişinin qabağını kəsib soruşacam ki, nə üçün ev yəəsi bizi bayıra çıxartdı, o ancax soruşmadan keşdi içəri. Elə də oldu. O adam bayıra çıxanda vəzir onnan soruşdu:

– Niyə soruşmadan içəri keşdin?

O dedi:

– Mən heş bir evdən icazə almadan içəri girirəm.

Vəzir xəbər aldı:

– Sən kimsən?

O dedi:

– Mən Cənab Cəbrayılam. Gəlmişəm bı kişinin bir oğlu olub, onun adın Məhəmməd qoydum. Həmin şahın qızını da bı oğlana deyihli elədim. Mən bını yazıram, heş kəs pozammaz, – bını deyib həmin adam yox oldu.

Bı vaxt vəzir patşahı oyadıb bı hali-qəzyanı ona nəğil eliyir. Şah deyir:

– Mən hara, bir ovçu oğlu hara? İndi həmin oğlanı alıb qayadan ataram.

Şah ev yəəsini çağırıb deyir:

– Mənim oğlum yoxdur. Nə qədər pul isdiyirsən verim, həmin uşağı mənə ver.

Əv yəsi məcbur olur, kasıblığın ucundan öz uşağını saha satır. Şah həmin uşağı aparıb lap hündür bir qəyənin başınnan atır aşağı. Həmin o Cənabi Cəbrayıl öz qənədini açıb uşağı xilas edir. Uşağı aparıb qoyur meşiyə, ancax uşağın alnında bir çapıx olur. Allah tərəfinnən bir ana ceyran göndərilir. Bı ceyran gəlib gündə üş dəfə bı uşağa süd verir.

Günlər gəlib geçir, deyilənə görə uşağın beş-altı yaşı olur. Bı vaxt bi başqa avçı uşağı görüb deyir:

– Ay bala, sən kimsən?

Uşax deyir:

– Bilmirəm.

Avçı deyir:

– Mənim uşağım yoxdur, gəl səni aparım mənə oğul ol.

Uşax deyir:

– Qoy ceyran gəlsin, ona deyim, sora gedəh.

Hə… Ceyran gəlir. Onnar birriydə avçının əvinə gəlillər.

İllər ötür, aylar keçir. Oğlanın on səkkiz yaşı tamam olur. Günnərin birində avçı şahı öz əvinə vəzirnən qonax çağırır. Vəzir qapıdan girən kimi uşağı görüb tanıyır. Şaha bını xəbər verir. Şah əv yəəsin çağırıb deyir:

– Sənin heş əvladın yoxuydu. Bəs bı uşax kimin uşağıdır?

Avçı deyir:

– Hə, uşax mənimdi, ancax bı əvhalat çox uzundu.

Şah avçıdan xahiş edir ki, onu əvinə göndərsin. Avçı irazı olur. Şah bir nama yazır, ona verir. Namada bu sözdəri yazır: “Mən gələnəcən bı oğlanı təndirə salıb yandır”.

Həmin namanı oğlana verir. Oğlan həmin namanı papağına qoyub, şahın hərəmxanasına gedir. Çox yol gedib yorulur. Bir bağda (şahın bağında – top.) uzanıb yuxuya gedir. Bı vaxt şahın qızı həmin bağda seyrə çıxmışmış. Qız oğlanı görən kimi yaxınlaşıb papağının altındakı namanı alıb oxuyur. Tez cırıp atır. Oğlannan xoşu gəldiyinə görə təzə bir nama yazıb papağının altına qoyur. Qız məytuba belə yazır:

– Mən gələnə kimi bı oğlannan mənim qızımın toyunu edib kəbinini kəsin.

Oğlan bı vaxt durup görür ki, yubanıb. Tez özünü yetirir şahın əvinə. Məytubu qapıçıya verir. Qapıçı məytubu oxuyan təki, oğlanı saraya aparır. Sarayda olan vəzirrərnən birrihdə məsləhətdəşib toyu başlıyıllar. Üş gün, üş gecə toy eliyillər. Qıznan oğlanın beləcə kəbinin kəsillər.

Bir gün şah gəzməhdən qayıdır. Öz qızıynan həmin oğlanı bir yerdə bağda görür. Saraya girir, vəzirrərdən, qulluxçulardan hali-qəzyanı öyrənir. Onnar isə məytubda nə yazıldığını ona söylüyüllər.

Vəzir şaha deyir:

– Şah sağ olsun, nəyə lazımdı narahatdıx. Olacağa çara yoxdu. Yazılan pozulmur. Odur ki, yazılmışdı, sən də poza bilmədin.

## 133. BƏHLUL DANƏNDƏNİN QARDAŞLIĞI

Padşah çıxmışmış dərya kənarında gəzməyə. Görüf Bahlul Danəndə gəlir. Deyir:

– Bahlul Danəndə, burdan gəl.

Gəlir.

– Salam-məlöyküm.

– Əleykim-səlam.

Şah deyir:

– Bahlul Danəndə, de görüm bu dünyada sən yaxşı kef çəkib ömür sürüfsən, ya mən?

Bahlul Danəndə gülür. Padşah deyif:

– Mən sənnən söz soruşuram, niyə gülürsən?

Deyir:

– Padşahi-aləm, sənin sözünün mənası yoxdu, bekara sözdü.

Deyir:

– Nəyə görə?

Deyir:

– Ona görə ki, mən sənnən yaxşı ömür də sürrürəm, kef də çəkirəm.

Deyir:

– Nəyə görə?

Deyir:

– Bax, sən çıxmısan dərya kənarına, bu atı minif gəzirsən. Ya bu at yıxılıf ölür, ya çərriyif ölür. Dübarə civinnən pul çıxardıf verirsən. Mən də bu qarqu atı minirəm, nə arpa isdəmir, nə saman isdəmir. Hara gessəm, kefim hara isdəsə, ora sürürəm. Padşah sağ olsun, sənin varınnan mənim devlətimin arasında on qəpihlih fərq var. Sənin varın-devlətin mənimkinnən on qəpih yuxarıdı.

Padşah qalır məətdəl. Nejə yəni, bütün şəhərin varı-yoxu hamısı mənim, xəzinəm-zadım. Nətər olur ki, bunun varınnan-devlətinnən mənim varım-devlətim on qəpih yuxarı olur? Deyir:

– Bahlul Danəndə, bunu nədən bilirsən?

Deyir:

– Onnan bilirəm ki, sən bir elin padşahısan. Axşam yatanda deyirsən, ay Allah, görəm şəhərdən kənara kim gəldi, kim gəldi girdi? Və yaxud da şəhərdən kim çıxdı getdi? Bının fikrini çəkirsən. Amma mən axşamnan Allah verənnən yeyirəm, kəlləmi atıram yerə, yatıram. Səhər dururam öz işimin dalıncan gedirəm, tay bilmirəm şəhərə kim gəldi, kim getdi, kim nə iş gördü. Sən dünyanı dəyişəndə iyirmi köpühlük humay ağınnan alıf, səni büküf, aparıf dəfn edəjəhlər, amma mən dünyamı dəyişəndə on köpühlük yetim ağınnan alıf, məni büküf, aparıf dəfn edəjəhlər. Ona görə də səən varın-döölətin mənimkinnən on qəpih yuxarıdı.

– Əstafrullah, ayə, bı nə danışır?

Deyir:

– Bahlul Danəndə, mən sənnən qardaş olmax isdiyirəm.

Deyir:

– Padşah sağ olsun, sən bir elin padşahı. Sənnən mənim qardaşdığım tutmaz.

Deyir:

– Yox, qardaş oluram.

Deyir:

– Onda civinnən bir kağız çıxart, daqavor yaz. Daqavor yaz ki, mən filan padşah Bahlul Danəndəynən qardaş oluram. O nə desə onun sözünnən çıxmıyacam. Doqovoru iki surət yaz. Bir surətini sən qoy civa, bir surətini mən. Olum sənnən qardaş.

Padşah heylə də eliyir. Deyir:

– İnnən belə mən saa padşah demiyəjəm, qardaş deyəjəm. İndi, qardaş, dur gedəh sənin evaa.

Durullar gəlillər padşahın imaratına. Qapıda nökər-nayıf var. Birini çaarıf deyir:

– Get, şəhər qazısını çağır, gəlsin bıra.

Padşah dinmir. Gedif qazını çağırıllar, gəlir. Deyir:

– Qazı ağa, xayiş eliyirəm, mənim bı qardaşımın arvadının sığasını geri oxut, arvadı boşatdırıram mən.

Qazı ağa arvadın sığasını geri oxuyur. Padşah dinmir. Bahlul xəzinədarı çağırtdırır, deyir:

– Bu xəzinəni yarı böl.

Yarısını verir arvada, deyir:

– Bajı, anaan südü kimi halalın olsun, apar.

Yarısını da, nə bilim, özü bilən, tanıyan adama paylıyır. Onnan sora padşaha deyir ki, dur, dalımcan gəl. Padşahın da iki oğlu varmış. Deyir ki, oğlannarı da götü, dalımcan gəl. Oğlannarını da götürüf düşüllər yola. Yolun yarısında bir əjdaha çıxır bınnarın qabağına. Oğlunun birini atır bı əjdahanın ağzına. Dinmir. Gedir, bir əjdaha da peydah olur, o biri oğlunu da onun ağzına atır. Gedillər çıxıllar bir quyunun başına. Bahlul Danəndə əyilif quyuya baxır. Deyir ki, qardaş, gəl gör bu quyuda su görükür. Padşahı da itəliyir salır bı quyunun içinə. Bahlul Danəndə bınnan qardaş olanda təxminən qırx beş yaşı vardı. Bu indi donunu dəyişir, olur doxsan yaşında ağsakqal kişi, sakqal bırdan. Bı da yenir quyuya. Cənnətə gedillər ey, qızım. Gedir quyunun divinə. Burda Leninin otağı kimi bir otax varmış, bir-iki qalın kitaf. Bahlul Danəndə gedir oturur orda. Day ağsakqal kişidi. Padşah bir az qalır orda. Huşu başına gələndə görür ki, quyunun di-

vinnən bir cığır gedir. Durur yola düşür, gəlif qapını açır, görür bir nurani ağsakqal kişidi oturub orda.

– Salam-məleykim.

– Əleykim-salam.

Deyir:

– Oğul, kimsən, nəçisən, nəyə görə gəlmisən bura?

Deyir:

– Ağa, mən Bahlul Danəndəyəm.

Özünü Bahlul Danəndə kimi qələmə verir. Axı bilmir ki, bu ağsakqal kişi Bahlul Danəndənin özüdü. Deyir:

– Oğul, xoş gəlmisən, beş gəlmisən. Bıralar saa peşgahdı. O dey, o qapını aş, orda böyüh şəhər var. Get o şəhərdə gəz.

Padşah gedir qapını açır, görür əyə, bura güllü-çiçəhli gözəl şəhərdi. Gözəl-gözəl qızdar, gəlinnər. Bının civində pulu olmur. Deyir:

– Qayıdajam o ağsakqal, nurani kişinin yanına, görüm bırda yeməh-işməh nətərdi?

Gəlir. Ajmışmış. Baxır görür ki, civində bir qəpih pulu yoxdu. Gəlir o nurani kişinin yanına, Bahlul Danəndənin yanına. Deyir:

– Ağa, de görüm, bırda yeməh-işməh nətərdi? Mənim pulum yoxdu, gedim yeyim.

Deyir:

– Oğul, burda yeməh-işməyi pulnan vermillər. Gedif oturursan, aşbaz gəlir, deyir ki, qardaş, saa nə qədər xörəh gətirim. Denən bir salavatın onda bir hissəsini. O da gətirif stolun üstə Allahtala nə nazi-nemət yaradıf düzəjəh ora. Yiyəssən, duruf bir salavat çəkif çıxassan. Sənin pulun o olajax.

Gəlir oturur, ajmışmış. Aşbaz gəlir:

– Qardaş, nə qədərə xörəh gətirim saa?

Dedi:

– Yarım salavatdıx.

– Boy, ə qardaş, ordun var?

– Yox.

– Qoşunun var?

– Yox.

– Bəs yarım salavatdıx xörəyi bizim bu şəhər əhli bir gün yeyir, qurtarmır. Nəyə lazımdı?
Deyir:
– Bəs nə deyim?
Deyir:
– Denən, məsələn, bir salavatın onda bir hissəsini ver.
– Yaxşı, salavatın onda bir hissəsini gətir.
Yeyir-içir, salavat çəkir, çıxır. Bu minvalla beş-on gün belə dolaşır. Görür, gözəl-gözəl cuanazəninnər var. Bu evlənməh eşqinə düşür. Deyir, gedəjəm həmən nurani kişinin yanına, görüm bu evlənməh məsələsi nətərdi? Evlənim.
Gəlir, deyir:
– Ağa, bağışda, sənnən bir söz xəvər alım.
Deyir:
– Buyur, oğul, buyur, Allah bağışdasın.
Deyir:
– Mən isdiyirəm həyat quram, evlənəm. Burda evlənməyin təhrin-tührün bilmirəm dana.
Deyir:
– Burda hamam var, hər cuma günü bütün cuanazəninnər, qadınnar cavanınnan tutmuş qojasına qədər gəlir o hamamda hamamlanır. O hamamın qabağında bir qara daş var, o daşın üsdündə oturarsan, əl dəsmalı çıxarıf belə alarsan əlaa. Gözəl-gözəl qızdar gəlif ordan dəsdə-dəsdə keçəjəhlər hamama. Bax, qızdarın hansını bəyənsən dəsmalı belə elə qolına vır. O qız sıradan çıxıf gələjəh səən yanaa. Deyəjəh mən sənin oldum həyat yoldaşın, gedəh qazıya kəbinimizi kəsdirəh. Gedəssiz qazının yanına, qazı da yarım salavata, yaxud da bir salavata kəbinizi kəsəjəh, olassız ər-arvad.
Helə də eliyir, eliyənnən sora bir gün padşah deyir:
– Ay arvad, üsdən gedir axı, üsdünə gəlmir.
Deyir:
– Nətər yanı, a kişi, üsdən gedir, üsdünə gəlmir?
Deyir:

– Elə bir ujdan tutuf yeyirih, heş qazanıf üsdə qoymurux. Belə getsə qutarannan sora aj qalajağıx.

Deyir:

– Ay kişi, heylə şeyləri sən bırda xəbər alma. Bırda tükənməzdi. Nə ölüm var, nə itim. Dünya durduxca ye, yaşa.

Deyir:

– Yox, mən bir işnən məşğul olmalıyam.

Deyir:

– Nə işnən?

Deyir:

– Nə bilim?

Deyir:

– Əlinnən nə iş gəlir?

Deyir:

– Nə bilim, qəssaflıx gəlir, zad gəlir.

Deyir:

– O deey, o kəndi görürsən? Gedərsən o kəndə, ordan bir mal alıf gətirərsən, kəsərsən, nəfin çıxardarsan. Nəfin yeyərih, mayasın da çıxardarsan.

Sora arvad deyir ki, yox, sən bu yerə nabalədsən, ikimiz də gedəjiyih. Durullar hərəsi bir at minir, gedillər kəndə. Ə, mal alan, mal satan kimdi? Hərrənillər, qayıdanda göy gurulduyur, möhkəm yağış başdıyır. Bu arvada deyir ki, ay arvad, atı tez sür, yağış bizi isdatmasın, özümüzü salax evə də. Arvadın bına qəzəbi tutur. Deyir:

– A kişi, sən bı yerin adamınnan dəyilsən? Sən hardan gəlif çıxmısan bura? O göydən yağan Allahın nurudu, sən onun altınnan niyə qaçırsan? İsdanarıx, gedərih paltarımızı dəyişərih. Allahın nurunun altınnan qaşmax olmaz. Göydən nur tökülür.

Arvad çox hirsdənir. Deyir:

– O deey, o dağı görürsən.

Padşah belə yönünü çəvirib dağa baxanda bını nətər tulluyullarsa, gedir düşür Bahlul Danəndənin onu itəliyif saldığı quyunun başına. Baxır görür, Bahlul Danəndə qarqu at altında gülə-gülə gəlir. Deyir:

– Padşah sağ olsun, mən saa dedimmi ki, sənnən məəm qardaşdığım tutmaz. Mən səni çarıxlı-patavalı apardım saldım cənnətə, sən orda da var-döölət axtardın. İndi dur gə bəri.

Durur gəlir. Oğluun biri çıxır qavağına. Padşaha təər-töhmət eliyir ki, ay ata, səni belə olasan, belə kef çəkif ömür sürürdüh – olar da cənnətə düşmüşümüş. – Gəlir o biri oğlu da çıxır. O da atasına bir az təər-töhmət eliyir. Gəlir çıxır imaratına. Şəhər qazısını çağırtdırır, arvadı çağırtdırır, kəbinini, sığasını geri oxutdurur. Onnan sora xəzinənin yarısını arvad aparmışmış, o gətirir, payladığı xəzinəni-zadı da yığır bir yerə, tofluyur qoyur. Deyir:

– Ə padşah, sən padşahsan, mən Bahlul Danəndə. Dedim ki, əvvəldən sənnən məəm qardaşdığım tutmaz. Bu sənin arvadın, bu sənin xəzinən, bu da sənin balaların. Otu taxtında padşahlığını elə. Sənnən mənim qardaşdığım olmaz. Ona görə ki, genə təkrar edirəm, mən səni aparıf cənnətə saldım, sən orda da var-döölət axtardın.

Bu nağıl da bırda bitir.

## 134. ALLAHDAN İSTƏYƏN QIZ

Bir padşahın üç qızı varmış. Padşah bir gün çıxır gedir. Deyir:

– Bir qoy qızdarımı yoxluyum, görüm halları nejədi.

Qızdarın da hərəsi bir imaratda yaşıyır. Şah qızdarıdı, padşah qızdarıdı. Qavaxja gəlir böyüh qızın yanına. Deyir.

– Qızım, nətərsən, halın-kefin nejədi?

Deyir:

– Atayi-mehriban, niyə, sənin döölətinnən, şükür Allaha, yaxşıyam.

Bının bir iskan çayını içir, gedir ortancıl qızının yanına. Deyir:

– Qızım, sən nətərsən, nejəsən?

Bı da deyir ki, atayi-mehriban, sənin döölətinnən, malınnan yaxşıyam, pis dəyiləm.

Bının da bir iskan çayını içir, çıxır gedir xırda qızın yanına. Xırda qızın yanına gedir, deyir ki, nətərsən, nejəsən? Deyir:

– Niyə atayi-mehriban, Allahın döölətinnən yaxşıyam.

Bına padşahın ajığı tutur:

– Niyə bı iki qızdar mənim döölətimnən desin, bu qız Allahın döölətinnən desin?

Gəlir vəzirə-vəkilə əmr eliyir ki, bı qızı apararsan harda kasıflələviş adam var, ona verərsən ərə. Götürüf qızı gəzillər. Görüllər bir kəndin qırağında bir daxma var. Gəlillər daxmanın qapısına, açıllar, görüllər ki, bir qoja arvatdı cəhrə əyirir, bir də bir oğlandı bərdən-əynə uzanıf yatıf. Qonaxlar içəri girdi, heş bı tərpənmədi də. Deyir:

– Ay ana, bı oğlan sənin nəyindi?

Deyir:

– A başa dönüm, bı mənim oğlumdu. Anadangəlmə tənbəldi. Heş bir işnən məşğul dəəl. Mən qazaş eliyirəm, onu saxlıyıram.

Hə, vəzir-vəkil deyir:

– Yaxşıdı, elə padşahın qızını gətirif verəh bına.

Gətirillər padşahın qızını qapıdan salıllar içəri, deyillər.

– Bax, bu tənbəl sənin ərin, bu da qaynatan.

Qız durur çörəh salır. Qaynanasına deyir:

– Ana, xayiş eliyirəm, mən neynəsəm sən onnan injimə, tənbəl haqqında neynəsəm sən bikef olma.

Çörəyi salır, yüh var, bunnan əvvəl yüh deyərdilər, qoyur onun üsdünə. Tənbəl deyir:

– Ay ajınnan öldüm, patdadım, ay maa çörəh verin, dura bilmirəm, əlajım yoxdu.

Qız deyir:

– Odey, çörəh yükün başında, zəhmət çək dur, get al, ye.

Qız əlləşir ki, tənbəl əyağa dursun. Olmur. Tənbəl iməhliyə-iməhliyə gedir, kilim varmış, onu çəkir, çörəh-təhnə düşür bının üsdünə. Tənbəl əənə-bəənə eşələnir, çörəyi tapır, yeyir, elə orda da yatır. Bir belə, beş belə. Nağıl yüyrəh olar. Bir gün nəsə bı tənbəl durur əyağa. Deyir ki, mən gedəjəm bazara.

Qız deyir:

– Bəs pılın var bazarrığ etməyə?

Deyir:

– Yox.

Çıxardır yüz maat verir qız. Deyir ki, al bı yüz maatı get bazara, ürəyin nə isdərsə alarsan.

Gedir, bazarın girəcəyində görür bir qoja kişidi, üş topa torpağ həbilə topalıyıf satır.

– Ay torpax alan, ay torpax alan.

Təmbəl deyir:

– Ay ata, bu ki adi torpaxdı, bının nəyini satırsan, nəyə lazımdı? Bir ovuş torpaxdı.

Deyir:

– Oğul, bı torpağın hərəsinin bir sözü var, torpağı satmıram, o sözdəri satıram.

Deyir:

– Hə, biri neçəyədi?

Deyir:

– Biri bir maatdı.

Torpağın birini alır. Deyir:

– Bının adı nədi?

Deyir:

– Oğul, dünyada sənnən soruşsalar nə sevgili olar, deynən goul sevən sevgili olar. Bir adamın ki, goulu, gözü bir şeyi tutdu, onnan gözəl şey ola bilməz.

İkinci torpağı alır. Deyir ki, bu nədi? Deyir:

– Oğul, dünyada sənnən soruşsalar nəyin tapbıltısı bərh çıxar. Deynən at irəddinin. At tapbıltısı bərhdi.

Üçüncü torpağı alır. Deyir:

– Oğul, sənnən soruşsalar ki, dünyada nə yüyrəh olar. Deynən ki, xiyaldı. Oturan bırda, xiyalı Füzulini hərrənir gəlir. Xiyaldan yüyrəh heş nə yoxdu.

Bı təmbəlgilin yolu el yolu varmış, onun qırağındaydı. Tənbəl çıxmışmış ora. Bir tacirbaşı görür ki, bı bazdıburutdu oğlandı. Deyir:

– İsdiyirsən, ölüm, səni özümüzə köməhçi götürəh. Bəri başdan da saa iki yüz maat pul verirəm, irazı olarsansa, gedəh. Yük düşüf eliyəndə bizə köməh eliyərsən.

Deyir:

– Anam var, gedim ona deyim, irazı olsa gəlim, gedəh.

Gəlir əvə, anasına deyir:

– Bəs belə-belə. Bu tacirrər gedir başqa şəərə alverə, maa iki yüz maat pul verillər, deyillər gəl səni köməhçi götürəh. Yük düşüf-eliyəndə köməh eliyəm. İrazısan gedim?

Anası da irazı olur, arvadı da irazı olur.

– Nolar, get.

Bı, iki yüz maatı verir anasına. Düzəlillər yola, gedillər. Bir quyu varmış. Bu quyuya girən çıxmırmış. Karvan gəlir, quyunun başında əylənir. Vedrəni belə salıyıllar, adam olmasa vedrə boş çıxır, su dolmur vedriyə. Gərəh adam sallıyalar, vedrəni doldura verə, doldura verə. Hamı su alannan sora, qəflə-qatır sulanannan sora ipi salıllar həmən su verən adamı dartıf çıxarıllar. Bu quyuya da girən çıxmırmış. Tacirlər bələdimiş dayna. Deyillər: "Ə, gəlin bı tənbəli sallıyax quyuya, adı elə tənbəldi, qəflə-qatırı sulasın".

Deyir:

– Oğul, gəl səni sallıyax quyuya, bı sudan ver, sora da səni çıxardax da.

Girir quyuya, başdıyır sudan belə verir. İndi ipi salıyıllar ki, təmbəli çıxardalar, quyunun böyrünnən bir qapı açılır, bir oğlan çıxır. Deyir:

– Təmbəl, getmə, gəl bura, sənnən üş söz soruşajam. Bildin, bildin. Bilmədin, – aparır zirzəmini gösdərir, – başın burda olajax, leşin orda.

Deyir:

– Nə olar.

Görür, bir mejmaha var, qızıl mejmaha, onun da içində su, suda bir qurbağa var, bir də bir gözəl-göyçəh cüvənazənindi, qadındı da. Qız qurbağaya baxır, oğlana baxır, oğlan da qurbağaynan o mejmahıya baxır. Bir-birinə baxmıllar. Oğlan deyir:

– Adın nədi?

Deyir:

– Təmbəl.

Deyir:

– Təmbəl, maa de görüm, dünyada nə sevgili olar?

Deyir:

– Goul sevən sevgili olar.

Deyir:

– Ay sağ ol. Qaldı ikisi. Deyir, dünyada nəyin tapbıltısı bərh çıxar?

– Atın tapbıltısı.

– Ay sağ ol, yaxşı tapdın. Bəs, dünyada nə yüyrəh olar?

Deyir:

– Ağa, dünyada xiyal yüyrəh olar.

Əlini vırır belinə, deyir:

– Üçünü də tapdın, sağ ol.

Gətirir üş nar verir təmbələ. Deyir ki, harda dara düşdün, yandır, yanındayam.

Elə bı dəhqədə tacirbaşı yüklənif yola düşəndə dedi:

– Ə, bı təmbəl Allah adamıdı, əməli-saleh adama oxşuyur. Qayıdıf bir də çağırax. Bəlkə, Allah irazı oldu, işini avand elədi, çıxdı dana.

Qayıdıf çağırıllar:

– Təmbəl, təmbəl.

– İpi sallıyın, burdayam, çıxım.

İpi sallıyır, təmbəl çıxır. Onnarın kəndinə üş nəfər adam gedirmiş. Oğlan təmbələ üş nar vermişmiş. Bı narın üçünü də verir onnara. Deyir ki, bını aparın verin məəm anama.

Bu qəflə-qatır gedir çıxır bir şəərə. Bı padşahın qızı baxır, bı daxma xoşuna gəlmir dana. İsdiyir palçıx qatıf iki yüz maata bir otax düzəltsin. Öz şaanına sıxışdırmır da. Axı, padşah qızıdı. Qız palçığı özü qatır. Qızın usdaya ürəyi yanır, deyir:

– Gedəjəm o təmbəl göndərən narın birini kəsəjəm.

Narın birini kəsir, görür içinnən qızıl "şağğ" elədi töküldü. O birini kəsir, elə. O birini kəsir, belə. Gəlir tez usdalara deyir ki, əl dayandırın, əl dayandırın. Bu şəərdə neçə usda varsa, hamısını çağırın yığın bura. Atasının evinin çertyojunu çəkir, deyir:

– Bax, bu formu maa imarət yapırsız.

Helə də eliyillər. İndi bılar bırda məşğul olsun, saa mən təmbəldən xəbər verim. Görəh təmbəlin işi noldu. Gedillər çıxıllar bir şəərə. Orda bı təmbələ deyillər ki, sən də get, orda bir iş tap işdə, biz də malı-zadı satıf qutarannan sora qayıdarıx əvə. Təmbəl çıxır şəərə. Görür ki, bir kişi deyir ay günü yüz maata nökər. Boy... Təmbəl yaxınnaşır ona. Deyir:

– Ağa, günü yüz maata yox, iyirmi maata da mən saa nökər ollam.

Deyif:

– Yox, oğul, elə yüz maata.

Gəlir yüz maatı verir təmbələ. Gəlillər, yeyillər, içillər. Günortuya yaxınnaşırmış. Deyir:

– Oğul, indi dalımca gəl.

Görür bir böyüh inəhdi. Deyir:

– Oğul, bu inəyin başına bir çatı sal, çatını ver mənim əlimə, sən də dalımca sür gəlsin.

Çatını inəyin başına salır, dalınca sürüf gedir. Gəllər bir sıldırım dağın divinə. O dağ ki, heş yerdən bıra yol yoxdu. O dağın divində ağası təmbələ deyir ki, bı inəyi kəs, çılğır soy.

– Ay Allah, bını çılğır soymax olar? Qoyun dəəl, keçi dəəl.

Qoyunun dərisini bitəv çıxardıllar, qol-qanadı üsdə qalır, ona çılğır deyillər. Arvatdar onnan tuluğ qayırır.

Təmbəl inəyi çılğır kimi soyur. Ağası deyir:

– Təmbəl, sən gəl gir indi bu çılğırın içinə.

Girir içinə. Ağası tez bu çılğırın ağzını bağlıyır, çəkilir qırağa. Bir qara quş gəlir bu çılğırı qaldırır qoyur dağın təpəsinə. Təmbəl baxır görür ki, bırda o qədər insan qırılıf ki… Dağdan yer tapmır düşməyə. Qəlbi dağdı. Qurd-quş, qarğa-quzğun yeyəjəh sümühlərini. Biri də can verir. Deyir:

– Ay zalım oğlu, sən hardan gəlif çıxdın bura. Bı dağdan düşməh mümkün dəəl.

Axırı təmbəl qalır bırda. Birdən yatmışmış, elə bil oyanır. Deyir:

– Axı, o quyudakı oğlan maa çilpəh* vermişdi.

Səhərə yaxın çilpəhi yandırır, tutuşdurur, bir qara quş gəlir təmbəli alır qıynağına, qoyur qayanın divinə.

Genə çıxır bazara, görür həmin kişi qışqırır:

– Ay yüz maata maa nökər.

Özü paltarını dəəşir, nə bilim, köhnə, cır-cındır yığır-yamaşdırır eliyir, yarısı qəliv, yarısı parça, dəri, yarısı şal, paltar düzəldir özünə. Başına da bir cındır papax geydirir. Ağası heş bını day tanımır ha. Bir az da axmaxlığa vırır özünü. Axsıya-axsıya gəlir ora. Görür ağası genə deyir:

– Ay günü yüz maata maa nökər.

Bırda yarımçıx qalır e. Bı qəflə-qatırnan o dağın yanına gedəndə dağın başında o qədər qızıl-gümüş varmış ki. Ağası deyif, o qızıl-gümüşdən süpür tök bəri, sora yolu dəərəm düşərsən. Dağın başı teha ləl, cəvahir, qızıl, gümüş. Ona görə də ağası aparıf orda adamları qırdırırmış, qəflə-qatırı götürüf gedirmiş.

İndi kəsə deyirəm. Aparır genə, inəyi götürüf gedillər. Dağın divində təmbələ – bı oğlana deyir ki, bala, bını çılğır soy. Deyir:

– Ay ağa, məəm qolum tərpənmir, əyridi, sən soy, özün soy.

Ağası inəyi kəsir, çılğır soyannan sora deyir:

– Oğul, gəl gir bı çılğırın içinə.

Deyir:

– Ay ağa, mən ora girə bilmirəm, sən gir, mən örgənim, sora sən çıx, mən girim.

Ağası örgədir, bax belə gir, belə elə, helə elə. Təmbəl tez çılğırın ağzını bağlıyır, çəkilir kənara. Qara quş gəlif bını alır qıynağına, götürür dağın başına. Hə, ağası baxır görür bırda o qədərənə adam ölüf. Hamısını bı öldürdüf e. Özü də dağın başı

---

* çilpəh – lələk

anbardı – qızıl, gümüş, ləl, cəvahir, ta o qədərdi ki. Təmbəl donunu dəyişir, paltarını soyunur. Deyir:

– Ağa, məni tanıyırsan?

Deyir:

– Oğul, tanıyıram, dünənki nökərimə oxşuyursan.

Deyir:

– İndi sən zəhmət çəh, o qızıldan, gümüşdən kürü tök bəri, sora mən düşən yerdən yolu dəərəm, düşərsən.

Qızıldan, gümüşdən kürüyür tökür. Bunun da qəflə-qatırı varmış. Yühlüyür hamısını. Bına da nökər-nayib tutur. Deyir:

– Ağa, orda azına bir yüz nəfər adam ölüf. Allahtala oların ujbatınnan səən günahınnan keşmiyəjəh, amma bir səən ölümünnən məəm günahımnan keçər. İndi sən də öl, qal oların yanında, sağ ol.

Təmbəl bırda qəflə-qatırnan yühlənir, gəlir. Özünə nökər-nayif tutur, bılar yola düşüf gəlir. Qayıdır gəlir vətənə. Bı təmbəl nə qədərnə düz adamdı ki, həmin quyuya çatanda nökərlərdən biri isdiyir girə quyuya. Deyir:

– Siz girmiyin, mən girəjəm.

Nökərrər deyir:

– Ağa, ayıfdı, biz girəh.

Nökərə deyir ki, ipi salla quyuya, mən girəjəm. Girir quyuya, qəflə-qatırı suvarannan sora oğlan çıxır. Deyir:

– Xoş gəlmisən, ay təmbəl.

Deyir:

– Qəflə-qatırı suvarırdım.

Gətirir genə bına iki nar verir. Gəlir quyunun başına. Deyir:

– İpi sallıyın, çıxım.

İpi sallıyıllar, çıxır.

Muştuluxçu gedir. Qız atasının imaratı kimi ev yapmışmış, həddi-hüdudu yox, hasar çəhmişmiş. Xəvər gedir çıxır qıza, anasına ki, bəs təmbəl gəlir qəflə-qatırnan tacir kimi. Qız qəlbidən – üşmərtəbəli otağın başında balkonnan baxır ki, – aydın görükür də,

– tənbəl ata minif qavaxda gəlir. Kəndin qırağında üş nəfər adam danışırmış. Deyir:

– Əyər tənbəl dönüf bu üş nəfər adamnan görüşdü sora gəldi, billəm ki, həqqi halal adamdı, yaxşı adamdı. Yox, elə pryomoy gəldi qapıya, halal dəyil.

Elə bil bı tənbəlin ürəyinə dammışmış. Bu üş nəfər kişiynən görüşənnən sora düşür qəflə-qatırın, nökər-nayibin qabağına gəlir. Darvazanı açıllar. Qız əmr eliyir nökərlərinə ki, gedin köməh eliyin, adamlar gəlsin içəri. Gəlillər girillər içəri, otaxları-zadı gəzillər. Bırda tənbəlin fikri dolanır. Axşam yatanda xançalı var, xançalı sivirib çıxardır, qoyur böyrünə. Deyir:

– Sən mana de görüm, sən bu dəmdəsgahı nəynən düzəltmisən? Deməsən, səni öldürəjəm.

Deyir:

– Neynirsən?

Deyir:

– İmam, pir hakkı, düzünü dedin dedin, demədin səni öldürəjəm.

Axırda deyir ki, tənbəl, o göndərdiyin nardan gətirifsən, varındı? Deyir:

– Hə, ikisini də gətirmişəm.

Deyir:

– İndi o narın birin ver maa.

Narın birini verir. Narı kəsir, qızıl-gümüş "çağğ" eliyir tökülür yerə. Deyir:

– Bax, bı qızılnan atamın evinin çertyojunda özümüzə ev tihmişəm.

Bir gün padşah vəzir-vəkilə deyir ki, mənim hirsim tutdu o qıza, apardıx atdıx tənbəlin üsdə. Bilmədih öldü, qaldı. Gedəh görəh onun vəziyəti nətərdi. Gəlillər, soraxlıyıllar. Padşah görür ki, əyə, bının evi öz evinnən də yaxşıdı. Adam göndərir ki, balam, vəzir-vəkil gəlir, olları qarşılayın. Ərinə deyir, olların peşvazına çıxıllar. Gəzillər, yeyif-içillər. Sora durur qızıl ambarrarını-zadını atasına görkəzir. Deyir, belə oldu, elə oldu. Padşah əlini vurur qızın kürəyinə, deyir:

– Düz deyirsən qızım, məəm saa qəzəbim tutdu. Var-dööləti adama Allahtala verir. Quyuya su töhməhlə quyuda su olmaz. Var-dööləti adama Allahtala baxş eliyir. Sən dedin ki, Allahın devlətidi.

Bırda nağıl başa çatır.

## 135. QİSMƏT ALLAHDANDIR

Bir kasıp kişi olur, adı Paşa olur. Paşa bir gün eşidir ki, Allah hamıya qismət paylıyır. Tez gəlir Allahtalanın yanına, deyir:

– Ey Allahtala, maa da bir qismət ver, gedim uşaxlarımı dolandırım.

Allah deyir:

– Ey mənim bəndəm, bütün qismətdəri paylamışam, elə bir qismət qalmıyıb ki, saa verim.

Bir neçə gün keçənnən sora Allah Paşaan yanına çağırıp deyir:

– Ey mənim bəndəm, mənim bircə qismət payım qalıb, gəl onu saa verim.

Paşa deyir:

– Ey Allahtala, o nədi?

Allah deyir:

– Ey mənim bəndəm, qismət payınnan bircə atıjılıx qalıb. Get bir yay, bir ox al, başda atıjılığa.

Paşa çox fikir eliyir, deyir:

– Ey Allah, maa möhlət ver, gedim məslahat eliyim.

Allah deyir:

– Get məslahat elə.

Yazıx Paşa gəlir kəndə, ağıllı kişilərə məslahat eliyir. Hamı deyir:

– Ay Paşa, Allahdan böyüh bir kəs var? Hamını Allah xəlq eliyip, nə qismət verirsə, ona da yəə dur.

Paşa deyir:

– Ey kəndin ağsakqalları, mənim səkkiz-dokquz uşağım var, mən onnarı atıjılıxnan nətəər dolandırım?

Deyillər, Allahın saa acığı tutub, ona gora saa həylə qismət verip, biz neyniyəh?

Yazıx Paşaan alajı kəsilir, gedip bir yay, bir ox alır, gətirir əvə. Çox fikir eliyir, görür kü, atıjılıxnan bı kəntdə dolana bilməyəcəh. Arvadına məslahat eliyir, deyir:

– Arvad, gəlsənə, biz bırdan köçəh bir ayrı şahın ölkəsinə?

Arvadı bına razı olur. Nəysə, onnar köçüllər Şah Abbas deyilən bir şah varımış, onun ölkəsinə. Bir neçə ay yol gedənnən sora onnar çatıllar Şah Abbas yaşıyan şəhərin kənarına. Yazıx kişi bilmir neynəsin, bir mağara tapır, uşaxlarını içinə yığıp başdıyır ox-yayını düzəltməyə. Ancax yazıx kişini bırda kim tanıyır ki, ona iş də gördürə. Bir neçə ay iş görə bilmir, yalannan oxu atıb-tutarmış, deyərmiş: "Gördüyümü görmüşəm, bildiyimi bilmişəm".

Şah Abbasın bir vəziri varıydı, adı Qara Vəziriydi. Qara Vəzir ölkəni gəzərmiş. Şəhərin qırağınnan keçəndə görür kü, bir səs gəlir. Çox fikir verir, görür səs bir mağaradan gəlir. Atın sürür mağaranın yanına. Görür ki, mağarada bir kişi, bir arvat var, səkkiz-doqquz da uşax var. Kişi elə öz-özünə deyir: "Gördüyümü görmüşəm, bildiyimi bilmişəm". Qara Vəzirə heş fikir vermir. Paşa kişi buna fikir verməditindən Qara Vəzir acıxlanır. Deyir:

– Ay kişi, adamın əvinə qonax gələndə adam qonağa belə hörmət eliyər?

Yazıx Paşa neyləsin? Deyir:

– Ay qonax, Allah maa nə verip ki, saa da verim, qonağ eliyim, deyim düş qonağım ol?

Vəzir Paşaya deyir:

– Ə kişi, hələ sən maa de görüm, sən kimsən, haradan gəlipsən, kimnən icazə alıp bura düşüpsən? Torpax yiyəsiz dəyil, torpağın yəəsi var, gənişməmiş bırda yurd salıpsan.

Paşa çox fikir eliyip deyir:

– Düz deyirsən. Maa düzünü de görüm, sən kimsən, təhər-töhrünnən böyüh adama oxşuyursan?

Qara Vəzir deyir ki, kişi, mən Şah Abbasın vəziriyəm. Paşa deyir:

– Vəzir sağ olsun, mən elə sizi deyip gəlmişəm.

Vəzir deyir:

– Onda gəl belə bir iş eliyəh.

Paşa deyir:

– Nə iş?

Vəzir deyir:

– Gərəh bı işi Şah Abbas bilməsin, nə qazansan, onun yarısı mənim olsun.

Paşaan əlajı kəsilip vəzirə deyir ki, noolar, razıyam.

Vəzir atı sürüp gəlir. Paşa başdıyır yayın-oxun işdətməyə. Nəqədər işdiyirsə, elə hey deyir: "Gördüyümü görmüşəm, bildiyimi bilmişəm".

Bı sözdər dilinnən düşmür. Ama nəkqədər işdəsə də, əlinə heş bir şey keşmir.

Günnərin bir günü Şah Abbas Qara Vəziri çağırıp yanına dedi ki, səhər çıxaceyih vilayatı gəzməyə. Şah Abbas öz vəziri-vəkiliynən çıxır vilayatı gəzməyə. Qara Vəzir elə hey istiyir ki, Şah Abbası Paşaan daxmasınnan yayındırsın, olmur. Şah Abbas hər yerə baş çəhməh istiyir. Paşaan daxmasının yaxınnığınnan keçəndə Şah Abbas səs eşidir. Yaxınnaşır, görür, içəridən səs gəlir, kimsə deyir:

– Gördüyümü görmüşəm, bildiyimi bilmişəm.

Şah soruşur:

– Vəzir, bı nə deməhdi?

Vəzir deyir:

– Şah sağ olsun, elə bir şey dəyil.

Padşah atının boynunnan vırıb gedir Paşaan mağarasına sarı. Şah çağırır, deyir:

– Ay əv yiyəsi, bir çölə çıx.

Paşa görür ki, bı kimdisə vəzifəli şəxsdi. Çölə çıxır, görür ki, doğrudan da, təhər-töhürünnən, nəm-nişanınnan elə padşahın özüdü. Şah Abbas kişidən soruşur ki, ə kişi, sən nə vaxtdan bırda olursan? Qara Vəzir tez Paşıya göz vırır. Paşa deyir:

– Şah sağ olsun, elə iki-üş gündü ayrı vilayatdan gəlip düşmüşəm bıra.

Şah atdan düşdü, girdi mağarıya. Paşa ürəhdən utandı, ama fikirrəşdi ki, elə şah mənim belə dolanmağımı görsə yaxşıdı. Bəlkə maa rəhmi gəldi. Şah Abbas gördü ki, mağarada heş nə yoxdu, uşaxlardı, ər-arvatdı, bir də bir ox-yaydı. Şah soruşdu ku, kişi, bı nədi?

Paşa dedi:

– Şah sağ olsun, bı atıjılıxdı, bınnan dolanıram. Allah bını maa qismat verip. Şah sağ olsun, uşaxları dolandıra bilmirəm, atıjılıxnan çörəh qazanmax olmur.

Şah qayıdıp ata mindi, getdi sarayına. Aş bişirtdirdi, bir mecmahıya qoydurdu, altınnan da qızıl düzdü, nökərə verip Paşaan daxmasına göndərtdirdi. Tapşırdı ki, aşı göndərəən adın deməsin. Bəli, nökər gətirip aşı verdi, çıxıp getdi. Paşa fikirrəşdi ki, elə bı aşı göndərim Qara Vəzirə, bəlkə, maa dəyip dolaşmıya. Qara Vəzir aşı yeyənnən sora görür, aşın altı qızılnan doludu.

Deyir:

– Sən bı kişinin bijdiyinə bax, gör nəkqədər qızılı var ki, maa da bir mecmahı göndərip.

Bir müddət keçir, padşah ata minip gedir Paşanı yoluxmağa. Gedir görür, elə Paşa genə cındırın içindədi. Bir söz demiyip qayıdır. Bazardan bir xeyli balıx aldırır, arvadına tapşırır ki, balıxların qarnın yar, arasına qızıl doldur. Arvad da yekə balıxları yarıb qızılı doldurur, xırda balıxlar qalır. Nökər balıxları gətirib Paşagilə verir. Paşa arvada deyir:

– Arvad, xırda balıxları bişir, yekələrin aparım verim vəzirə.

Elə də eliyillər. Vəzir balıxların qarnınnan qızılları götürür.

Bir-neçə vaxdan sora padşah genə gəlir Paşanın daxmasına. Görür genə bir həsirdi, bir də Məmmədnəsir. Şah Abbas şübhələnir, öz-özünə deyir: "Bırda nəysə var". Genə bir söz demiyip qayıdır. Paşıya bir eşşəh göndərir, palanın da içinə qızıl düzdürür, nökərə tapşırır ki, denən, eşşəynən meşədən odun qırıp gətirip satsın. Ama nəbadə palanı sata, ya da gözdən qoya.

Paşa bir müddət elə də eliyir. Görür bınnan da bir şey çıxmadı, deyir, aparım eşşəyi satım. Bu yanan da Qara Vəzir Paşanı güdür, bic adammış, bilir ki, bə eşşəyin palanında qızıl var. Xülasə, Qara Vəzir bazarda bir adama pul verir, deyir:

– Get o eşşəyi al.

O adam eşşəyi alıp gətirir. Qara Vəzir palanı götürüp eşşəyi verir həmən adama. Bı yannan da Şah Abbasın adamları güdür, palanı alanları izdiyillər, görüllər Qara Vəzirdi. Şah Abbas atını sürür Paşaan daxmasına. Deyir:

– Ə kişi, mən saa aş göndərmişdim, o aşı neynədin? Ama düzünü de.

Paşa baxır ki, gizdətməyin yeri yoxdu, deyir:

– Şah sağ olsun, apardım Qara Vəzirə verdim.

Şah deyir:

– Kişi, bə balıxları neynədin?

Deyir:

– Balıxların da xırdasın pişirip yedih, yekələrini aparıp verdim Qara Vəzirə.

Şah Abbas bı işdən qəzəbləndi. Qara Vəzirin boynun vırdırdı, Paşanı gətirip özünə vəzir qoydu. Ama beş günən sora Paşa öldü. Bına gora deyiplər ki, qismət Allahdandı, adamnan dəyil.

## 136. ÜÇ VƏSİYYƏT

Bir varrı, dövlətdi ata olur, həddən artığ malı, pulu, varı-dövləti olur. Gözünün ağı-qarası bircə oğlu olur. Bunu qənimət bilir, bu uşağı elə böyüdür ki, ancaq ye, iş, de, gül, gəz, oynaginan. Bir gün bu kişi elə bir vəziyyətə düşür ki... Baxır ki, ta köçür. Köşməh məqamı gələndə birdən ağlına gəlir ki, ya rəbbim, ya rəsulallah, bəs mənim bu qədər malım, pulum, varım, dövlətim, qızılım. Gözümün ağı-qarası olan bu oğlumu mən belə örgətmişəm. İndi mən ölənnən soora qoşulajax yoldaşdarına, mal da gedəjəh, pul da gedəjəh, var da, dövlət də. Mənim adımı batırajax, mən neyniyim? Yanında oturannara deyir ki, xayiş eliyirəm çıxın çölə, oğlum gö-

rün ordadımı, çağırın, ona bir söz deyəjəm. Bunlar çıxır çölə, çıxannan soorasına oğlun çağırıllar. Gəlir, deyir:

– Ay ata, nədi? Ay ata, nədi?

Deyir:

– Ay bala, mən ölürəm.

– Ata, nə danışırsan?

Deyir:

– Bunu saxla, sohranın işidi.

Dururlar. Deyir:

– Eliyərsən, eləməzsən öz işindi. Sənə üş dənə vəsiyətim var.

Deyir:

– Nədi?

Deyir:

– Birinci vəsiyətim odur ku, mən ölənnən soorasına, yoldaşdarın töküləşəjəh, qırx gün yeyib-içib soora durajaxlar dana. Qırx çıxannan soorasına görəssən bir günnərisi yoldaşdarın gəldi ki, gedəh çay içəh, çörəh yiyəh. Onda sən onlara etiraz eləmə. Denən, gedin, mən də gələjəm. Oğul, babalım boyuna, babalım boyuna, içmə sən. Amma olara denən gedin sabax saat on ikidə filankəsin evində qonaxlığ düzəldin, mən də gələjəm. Sən onlara on iki de, oğul, genə deyirəm babalım boyuna, babalım boyuna, özün saat ikidə get.

Deyir:

– Yaxşı.

Deyir:

– İkinci vəsiyəm odur ki, babalım boyuna, babalım boyuna, qumar oynama. Oynasan qumarı hər yerinnən qalxannan, bilənnən yox, qumarın ən məşhur ustası kimsə, axtar tap onuynan oyna. Üçüncü vəsiyyətim odur ku, oğul, birdən əlin aşağı düşdü... Məndə də olurdu. Nə qədər varrı-dövlətdi adam olasan, nə qədər gətirdiyin vaxt olsa da, itirdiyin vaxt da olur da. Əlin aşağa düşsə, heş yerə getmə. Gəl evimizə yaxın bir yerdə oturginən, gələn qohumlara, dostlara, tanışdara əl aç, sana kömək eləsin. İşdi onnar da sana kömək eləməsə, oğlum, dördüncünü deyirəm, babalım

boyuna, babalım boyuna, orda bir zəncir asmışam, görürsən? Babalım boyuna gəlib ordan özünü asıb öldürməsən.

Dedi:

– Yaxşı.

Allah cəmi ölənnərə irəhmət eləsin. Bu ata irəhmətə gedir. İrəhmətə gedəndə oğlan görür kü, dostdarı gəldi. Gəlif oturullar, qırx gün bunlar çay içir, çörəh yiyir. Biri qabı qoymağa, biri nə bilim nəyə. Qırxınnan bir dörd-beş gün keçənnən soora... İndi nə qədər ərköyün böyüsə də, ata həsrəti ayrıdı da. Deyir,

Dara düşsək arxamızda
Bir möhtəşəm dağdır ata.
Daim yanan, alovlanan,
Sönməyən ocağdır ata.

İşıq saçar yolumuza,
Qüvvət verər qolumuza,
Yurdumuza, elimizə
Arxadır, dayaqdır ata.

O, layiqdir məhəbbətə,
Bu qüvvətə, əzəmətə.
İnsanlığa, sədaqətə
Əbədi mayaqdır ata.

Mayaq dənizdə gəmiyə yol göstərən işıqdı, həyatda övlada yol göstərən işıq atadır. İndi bı o qədər həvəsdidi, maraxlanır, qalıb belə. Bir də görür kü, atasının qırxınnan beş-altı gün keçir. Axşamçağı görür yoldaşdarı gəlir. Ağlına gəlir ki, atamın qırxı da çıxıf, bunlar nə əcəb gəlif? Gəldilər:

– Salamməleyküm.

– Əleykümətsalam.

– Ə qardaş, nədi?

Dedi:

– Allah ataa irəhmət eləsin, – bı da qırx yeddi gündü oturuf dana, – gedəh eynimizi açax, bir şey eliyəh, – deyəndə, atasının sözü yadına düşdü. Əlin saldı cibinə ki, bınlara pıl verə. Dedilər:

– Ə, ayıbdı, biz sənnən bir şey istiyirik? Sən niyə belə eliyirsən?

Dedi:

– Onda gedin, sabah saat on ikidə qonaxlıx təşkil eliyin Kərimgildə, mən də gələjəm.

Bunlar getdi. Səhər açıldı. Allah hamınızın qarşıdan gələn səhərlərinizi xeyirə aşsın. Bu yatdı, durdu. Getdi malı-heyvanı qaytarıb gətirdi, sahat on ikidə gəldi evə. Allah verən loxmadan-tikmədən yeyənnən soora uzandı yatdı. Yatdı, saat ikidə ayıldı, dedi:

– Hə, atam deyən vaxdı, durub gedim görüm.

Gəldi gördü bunlar gözdüyüflər, görüflər bu gəlmiyif, başdayıflar vırıflar[*]. Baxdı kı, bını tanıyan yoxdu. Biri vırıb birinin çənəsin əzif, birinin gözü tökülüf, birinin qolı sınıb. Belə baxdı, baxdı, dedi:

– Hə, ata, Allah sənə qəni-qəni irəhmət eləsin. Mənə on iki deyil, ikidə get deyib ki, iki saatdan soora içkinin əlamətin görüm. Toba sənə bu günnən içki.

Onnan soorasına gəldi. Aradan bir neçə gün keçənnən soora dedi, gedim bu qumarı örgənim. Gəldi birinə dedi, mən məşhur qumar oynuyanı gəzirəm. O dedi mən döyüləm, bu dedi mən döyüləm. Sizin kimi hörmətdinin biri dedi:

– Ə bala, qumarbaz bulağın üstündə oturubdu. Ora getsən onu taparsan.

Gəldi gördü bir nurani kişidi oturub, amma qapqara qaralıb. Əynində bir dəst paltar var, üstdən bir put darı töhsən altdan çıxmaz. Cırıx-cında, özü də qəm dəryasında. Salam da verdi, bı dinmədi. Bir az qalxannan soora bı kişi belə başın qaldırdı, gördü bir cavan oğlandı. Dedi:

– A bala, nədi, niyə durmusan?

Dedi:

– Heç əmi, oturmuşam dayna, sənin yana gəlirdim.

Dedi:

– Nəyə?

---

[*] vırıflar – içki içiblər

Dedi:

– Gəlmişəm mənə qumar örgədəsən.

Dedi:

– Bala, neçə yaşın var?

Dedi:

– İyirmi yeddi, iyirmi səkkiz.

Dedi:

– Ay bala, saa yaramaz, çıx get.

Nəkqədər elədisə, bı əl çəkmədi. Dedi:

– Bala, evim filan yerdədi. Sabax gələrsən bizə, mən səni örgədərəm.

Səhər açıldı, Allah qarşıdan gələn səhərlərizi xeyrə aşsın. Bu durdu gəldi bura. Gəldi gördü kü, kişi oturufdu, bunu gözdüyür. – Onda həbelə evlər yoxudu, dam evləri vardı ey, doqquz metrə eni, doqquz metrə uzunu, onnan olardı. – Dedi:

– Gəldin?

Dedi:

– Hə.

Qumarı dəyəsən indi kartnan oynuyullar, o vaxtı aşıxnan oynuyurdular. Dedi:

– Bala, qumarı nəynən oynuyullar?

Dedi:

– Nə bilim.

Dedi:

– Neçə aşığnan?

Dedi:

– Bilmirəm.

Dedi:

– Neçə irəngnən?

Dedi:

– A kişi, bilsəydim sənin yana nəyə gəlirdim? Ona görə gəlmişəm ki, məni örgədəsən.

Dedi:

– İndi mən onları əlimdə belə oynadajam. Görürsən aşığların biri ağdı, biri sarı, biri qırmızı, biri göy, biri yaşıl. Burdan atajam damın bajasınnan qırağa. Deyəjəm, ağ aşıx böyrü üstə duruf, qırmızı aşıx yanı üstə, sarı asıx başı üstə duruf. Get, mən dediyim kimi düzülübsə, onda bil ki, mən ustadam, gəl səni örgədim. Düzülmüyüfsə, mənnən ustad olmaz.

Dedi:

– Yaxşı.

Bı dediyi kimi elədi, atdı. Bı damın bajasına çıxdı, getdi gördü ki, – necə ki qabax əmr verəndə saldat düzülmürdü, – bı da dediyi kimi düzülüb. Belə baxdı, baxdı, dedi:

– Qurban olum səni yaradan ustad əllərə, gör nə gözəl sənətdi, gedim örgənim.

Gəldi dedi:

– Əmi, necə demişdin, heylə düzülüb. Xayiş eliyirəm ki, məni örgət.

Dedi:

– Oğul, neçə yaşın var?

Dedi ki, məsələn iyirmi yeddi. Dedi ki, mənim də var əlli yeddi. Əlli yeddi ildi mən bunu oynuyuram, örgənirəm. Amma yadında qalsın ki, qumar oynuyanın axırı çöldə aj qarına uzanandı. Mənnən sənə əmanət.

Dedi:

– Əmi, Allah ömrü uzun eləsin, canı sağ eləsin. Toba saa bu günnən qumar.

Qumara da nifrət elədi. Gəldi bir gün də keçənnən soora dedi: “Gedim bu əl açmağı örgənim”. Gəldi qohum-qardaşın getdiyi yolun üstə durdu. Gördü biri gəlir. Dedi:

– Burda niyə oturmusan?

Dedi:

– Ə, qahım, maa min manat pul ver.

Dedi:

– Ə, pulum vardı, axşam gədə götdü getdi toya.

Gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?
Dedi:
– Ə qahım, maa beş yüz manat pul ver.
Dedi:
– Ə, canın hakqı, qız padruqasıgilə gedirdi, verdim ona.
Aradan bir az keşdi, gördü biri gəlir. Dedi:
– Ə, burda niyə oturmusan?
Dedi:
– Qalx maa bir iyirmi manat pul ver.
Dedi:
– Canın hakqı, pulum yoxdu. Elə iyirmi manatım vardı, onu da verdim anama qonax gedirdi.
Axırda gördü biri gəlir. Dedi:
– Ə, burda niyə oturmusan?
Dedi:
– Maa bircə abbası pul ver.
Dedi:
– A vijdansız, mənim bir abbasım olseydi, gedib verərdim para çörəyə, alardım, gətirif yeyərdim. Sənin kimi oğula verməzdim ki, o cür atanın adın batırasan, nəsli bu kökə salasan.
Dedi:
– Hə, gedim indi özümü asım.
Gəldi evə, atası dediyi zəncirin yanına. Əyağın altda bir dayanacax qoydı, qalxdı bı zənciri keçirdi boğazına. Boğazına keçirənnən soorasına ağlına gəldi, dedi: “Ay canım, mən çimməmişəm ey. Gedim yuyunum, özümü pak eliyim, gəlim”. Düşdü getdi, çimib qutarıb gələnnən soora, dedi: “Ata, Allaha agahdı ki, sənin yana üzü qara gəlmirəm, dedikləri örgənif gəlirəm. Gəlmişəm özümü asam. Əyağının altda bir dayanacaq qoydı, ordan düşüb boğulsun dana. Dayanacağ getməynən bunun tap yerə düşməyi bir oldu. Bir də belə baxdı, başın qaldırdı, gördü bu boyda qızıl, üstündə də bir kağız. Aşdı oxudu, gördü atası yazıf ki, oğul, mən sənə üş nəsihət verdim. Onlardan nəticə çıxartdınsa buna ehtiyacın yoxdu, çıxartmasan babalım boyuna, babalım bo-

yuna, bınnan soora bunu götürüb mənim adımı doğrultmasan. Dedi: “Həə, Allah saa irəhmət eləsin ata. Bunuynan da mən qumara da tööbə eliyirəm, piyanıskalığa da tööbə eliyirəm, başqasına əl aşmağa da”.

Ata malın götürdü getdi. Üş qulplu saxsı küp olurdu, onnardan ikisin aldı gətdi. Birinə atasının pulun yığdı. Birin də aşdı, dedi: “Atamın varı da var, dövləti də. Mən kişi kimi qazanıb buna yığajam”.

Ona görə də, misal gəlir ki, ağıllı adam atasının adın batırmaz, adın uca tutar.

## 137. SƏMƏRQƏND PADŞAHININ QIZI

Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn, ya İmam Hüseyn, özün yet bütün bəndaa dadına, biz də içində. Sən pis xalqı, xain xalqı həmişə pis günə qoy.

Deyir, oğul, günnərin bir günü, biri varıdı, biri yoxudu, Allah varıdı, şəriki yoxudu. Allahın şəriki ola bilməz. Səmərqənd adında bir şəhər, – bı sahatı da durur həmən yer, – orada bir pədişah olur. Bir pədişah olur, bının övladı olmur. Günnərin bir günü baxır ki, qapıya dərviş gəldi. Cənabi-Əmirin qəsidəsin deyir, bının çox xoşu gəldi. Dedi ki xəzinədara, gedin bına bir kəşkül – bıllarda çanax kimi kəşkül varıdı, mən gördüm bı dərvişdərdə, biz çanax diyirih, o kəşkülə çilə deyillər, yanı ki, on girvəngə tutan qab – mənim varımnan doldurun. Dedi:

– Əvin yıxılsın, bir belə?

Dedi:

– Saa dedim apar!

Özü çıxdı küləfirəngidən baxdı, xəzinədar getdi, gətdi bını verəndə bı dərviş dedi:

– Əzizim, mən pay alan dərviş dəyiləm, pay verən dərvişəm. Maa pay lazım dəyil.

Dedi:

– Bəs neyniyim?

Pədişah eşitdi, dedi ki, o dərvişi çıxart bıra. Dərviş gəldi çıxdı, baş əydi, diz çöhdü. Pədişah yeridi bının qabağına, qoymadı. Dedi:

– Qibleyi-aləm, mən pay verməh üçün gəlmişəm, pay alan dəyiləm. Dünya malı mənim gözümün qabağında bir zibildi. Eşitmişəm sən çox gecə-gündüz ax-vaydasan, ayilən, özün, al bı almanı verirəm sənə, yarısın özün ye, yarısın ver aylaa, mən getdim, vaxt olar, gəlip çıxaram, payımı allam.

Aldı bı almanı, kəsdi yarısın verdi ayləsinə, yarısın özü yedi. Doqquz ay, doqquz gün, doqquz saat, gəldi Allah bir uşax verdi bına. Uşax verdi, bını verdilər dayəyə. Getdilər, gəldilər, o yanbı yan, bıın adın nə qoyax, neyləyəh? Dedilər: "Adı Məhəmməd". Ya Məhəmməd peyğəmbər, özün yet dada. Adın qoydular Məhəmməd. Bı bını oqqədər istədi, oqqədər istədi ki, bını bir tikili tihdirdi, ayrıca qoydu bıra, mollanı da qoydu bıra. Dedi:

– Molla, bı uşax elmi qurtarana qədər nə ay görəcəh, nə gün görəcəh, nə ölkə görəcəh, nə insan. Gördü, səni öldüməliyəm.

Dedi:

– Baş üstə. Mənə nə var, səən uşağındı da!

Dedi:

– Nəqqədər haqqı eliyir, verəcəm.

Belə elədi, gətdi bını qoydu, oxutdu, ta o qədər ki, bir gün bıların dərsi gəldi çıxdı coğrafiyadan gün, ay, ildıza. Bı uşağ oxudu, dərrakəli uşağdı, baxdı, dedi:

– Molla, bı gün nədi, ay nədi, ildız nədi? Bax, bırda yazır, sən bını maa demirsən?

Gördü ki, ta bı yekəlip, on səkkiz-yirmi yaşı var bının.

Dedi:

– Sən öl, demədin, səni bı saatı bırda öldürəcəm.

Deyir:

– Yaxşı, mən gedirəm, o pərdəni çəkərsən belə, sən onda hər şeyi görəcəhsən. Ya da götü mürəkkəbqabın vırginən o pərdiyə, səən işin yoxdu.

Pərdəliyidi, heş tərəf görünmürdü. Gətdi bı uşax pərdəni vırdı, bı zaman gördü bir şey düşdü içəri, yüyürdü, bırda "çıp" elədi, orda "çıp" elədi. Bı gündü də, şüası düşüb.

O vədə molla qaşdı, dedi:

– Qibleyi-aləm, oğlun dərsi qurtarıb, özü də vəziyət belə olup, gedəh oğluu təhvil götü.

Gəldilər, gördülər bu uşağ oqqədər süpürləşib bı günnən ki, ta ölür, tər bını basıp. Molla gəldi, dedi:

– Ay oğul, o gündü, sən onu tuta bilməzsən, sən bir çölə bax.

Çölə baxanda baxdı ki, paa, sən ölmüyəsən, avçılar tulalımulalı gəlillər. Dedi:

– Ateyi-mehriban, bı nədi gəlillər dəzgahnan?

Dedi:

– Oğlum, onnar avçılardı, ova gediplər, ceyran ovuna, indi qayıdıp gəlillər.

Dedi:

– Bəh-bəh-bəh! Ay ata, bına mən də gedə bilərəm?

Dedi:

– Niyə getmirsən, oğlum? O da mənimkidi, mən yollamışam. Bə o yediyin ceyran əti həmən ovdu.

Çağırır, çox bı xalqa xidmət, nəzir-niyaz verənnən sora bı uşax tələsir. Deyir:

– Ata, maa qoşun ver, mən gedəcəm ova.

Dedi:

– Oğlum, qarıxma.

Getdi vəziri verdi bına, dedi:

– Vəzir, bu oğlumu təlimnən çıxart, örgət müharibəni, qılış vırmağı.

Onda qılış davasıydı da. Belə sən maa qəfildən vır, ölüm, belə şey yoxudu.

Vəzir bına tam örgətdi. Örgədənnən sora dedi:

– Qibleyi-aləm, hazırdı oğlun.

Deyəndə dedi:

– Gət yanıma.

Gətdi. Dedi:
– Oğlum, üş dənə şey atacam göyə, onu oxun ucuynan tuta bildin, billəm ki, hazırsan, tutmadın, buraxmıyacam.
Bının hamısın uşağ elədi. Dedi:
– Hə, oğul, indi hazırsan, gedə bilərsən.
Ağır qoşun verdi bına. Əhməd adında bir vəziri varıdı, ona dedi:
– Vəzir, məəm bı uşağımı öz qirənissəmnən yüz kilometir bəri apar, öyənə çıxdı olmaz.
Dedi:
– Baş üstə.
Getdilər çıxdılar, hesab elə, Noraşın sərhəddinə. Bir dənə ceyran çıxdı, bı uşax ceyran görmüyüp. Əmr elədi ki, o ceyran kimin tərəfinnən getsə, onun boynun vıracam.
Nə isə, bını arıya aldılar. Bı ceyran elə bir şeydi ki, ya gərəh vırasan, bı yaralana, getmiyə, ya da atdın dəymədi, bı getməlidi.
Dedilər:
– Ay qıbleyi-aləm, qoy vırax yaralıyax.
Dedi:
– Yox! Mən bını diri tutmalıyam.
Dedilər:
– Yaxşı.
Aldılar üzüh qaşı kimi arıya. Bı da Allahın işiydi. Ceyran sıxıldı, yığıldı bı oğlanın böyrünnən getdi. Gedəndə bı çox məyus oldu. Gördü belə ceyran gedir da. Bının da atı karrı at idi, pədişah atın yaxşısın verip. Atı döndərdi bının dalıncan. Ceyran getdihcən bı qavdı, getdihcən bı qavdı. Bı oqqədər qavdı ki, tamam uzaxlaşdı. Nəqqədər atı sürdülər bının dalınca, yetirəmmədilər. Vəzir qaldı naəllaş, dedi ki, onsuz da məni pədişah öldürməlidi. Mən bı qoşunu hara aparım, qırdırım?! Bı getdi öz qirənissəsinnən addadı İrana. Da bı bırdan o yana gedə bilmədi.
Getdi qabağı tüşdü bir cəzirəliyə, ceyrandı, özün verdi cəzirəyə, ondan sonra onu kim tapa bilər? Nəqqədər bı ceyranı hərrədi, üş gün-dörd gün bı meşədə bı yol tapbadı çıxmağa.

Vəzir də qayıtdı. Dedi:

– Qibleyi-aləm, bı başım, bı sənin qılıncın, o da cəllad. Vəziyət belə oldu, bı da xalq, mən yetirə bilmədim. Qirənissəni də keşməyə mənim ixtiyarım yoxdu. Bı bilmirdi ki, qirənissə nədi, bını keşdi bı. Mən ancax keçə bilməzdim.

Dedi:

– Vəzir, düz eləmisən. Allah vermişdi, aldı da. Mən nə dəə bilərəm?

Bı xalq eşitdi, bının bütün xalqlarının hamısı qara geyindi ki, bının qırxı çıxıncan biz qara geyinməliyih.

Üş gün, dörd gün keçənnən sora bı oğlan cəzireynən, meşəynən at sürür. Bı zaman gördü kü, belə bir şey işildiyir. Gördü kü, böyüh bir çay var. Getdi çıxdı bı çayın qırağına. Ac, susuz, pədişah oğlu. Atı çayın qırağıynan sürdüyü yerdə gördü ki, bir dənə bağdı, bının qapısına bir şikil vırıplar, özü də yazıplar ki, kim şikilə baxsa, boynu vırılmalıdı, kim bı bağa girsə, nəsli kəsilməlidi. Dedi: "Ə, mən onsuz da ölürəm, sən öl, bir bı bağa girəciyəm". Gəldi, baxdı, bir qız şiklidi, ilahi-pərvərdigar, bını Allah elə bil ki, özü nurunnan yaradıp. Dedi: "Yaxşı". Gəldi qəşəhcənə bı qapını aşdı, atın da apardı, qolbənd elədi, ötüdü bı bağa. Gördü alma var, ac adam, bı almadan yedi. Bir xurcunu varıdı, bını da bı almadan doldurdu. Birəz gəzdi, gəzdi, getdi gördü kü, bir havuz var, bının üstündə qaravat var, yorğan-döşək var. Dedi: "Yox e, bırdan çıxan dəyiləm, mən onsuz da öləciyəm, bırda yatmalıyam".

Bı söyündü, havızda qəşəh çimdi, özün yıxdı yorğan-döşəyə.

Bı kimin olsun, Səmərqənd pədişahının qızının. Bı yatmaxda olsun, üş gündü yuxusuzdu. Bu zaman qız deyir ki, qızdar!

Deyillər:

– Bəli.

Deyir:

– Gedəcəyih bağa.

Durullar, geyinillər, gecinillər, pədişah qızıdı, beləliynən gəlillər çıxıllar bağa. Güllü bağı varımış, bırda gəzirmiş. Deyir bı qulluxçuya ki, get avtafanı doldur gəti, mən dəstəmaz alacam.

Getdi gördü bir şəkil düşüb suya. Elə bir oğlandı ki... Baxır bı suda nə var ki, mən neyniyim?! O yənə baxır, bı yənə baxır, belə baxanda görür ki, qaravatda bir oğlan yatıp, üzünün bir tərəfi düşüp suya. Elə-belə bir gözü bında bı qarabaş aftafanı vırdı suya, gəldi, xanım əlin tutdu, əydi, su yoxdu.

– Ə, köpəkqızı, məni sarımısan, özüü?! Bı nədi?

Bir də qayıtdı. Qayıtdı, gənə gözü bı oğlanda aftafanı vıranda birəz su doldu. Gətdi bir də tökəndə yarısında qutardı (bilirsiz də dəstəmaz uzun çəkir).

– Ə, köpəkqızı! Tutun bını, asın!

Dedi:

– Xanım, məni asdırma, evin yıxılsın, mən gördüyümü sən görsəydin, bını da gətiməzdin.

Dedi:

– Nədi?

Dedi:

– Bıdı eyy...

Dedi:

– Nə danışırsan, mənim yerimdə insan yassın, bı nə deməhdi, qapıda şikilə baxmıyıp bı? Bı nə cəsarətdi? Bı kimdi, bı özünnən deyən qoçax?

Hədəliyə-hədəliyə gəldi, dedi: “Bını öldürməliyəm, elə yerində öldürəciyəm”. Qulluxçu dedi:

– Xanım, səni and verirəm səni, məni yaradan xəliqə, hirsin tutmasın, qılıncı qoy yerinə, ged o surətə bax, sora onu öldür, sora da məni.

Qılıncı taxdı yerinə, gəldi. Gəldi, baxdı gördü, vallah, bir oğlan yatıp, xudavənd-hədiyyət min bir qələm vırıp bına. Ürəhdən vırıldı bına. Dedi:

– Qızdar!

Dedilər:

– Nədi?

Dedi:

– Qızdar, bı oğlan bir həftədi ajdı, bının gözəlliyinin yarısı gedip, insanlığının yarısı gedip. Gedin düyü gətirin, hələ bı oğlan çox yatacax.

Getdilər düyü gətirdilər, yağ gətirdilər.

O qız dedi, “mən pişirim”, bı qız dedi, “mən pişirim”. Dedi:

– Yox, bını mən özüm pişirməliyəm.

Özü bir yaxşı pilov pişirdi. Yedilər-işdilər. Bir qab çəhdi qoydu bir dənə qızıl mejmeyiyə, üstün çörəyin qoydu, üstünü mələfiynənmi, məhrəbiynanmı örtdü, dedi:

– Çıxın!

Ama iki kəllə belə qənd, bir az da saman bağladı bir güllü dəsmala, qoydu bının xurcununa. Çıxdı getdi.

Oğlan durdu, gördü bir şey var bırda. Qızıl mejmeyi, pilov buğlanır. Dedi, xudaya, bını sən özün gətdin, ya bını eliyən eliyip? Dedi, sən öl, bını yeməliyəm. Yedi, toqqanın altını bərkitdi, durdu tərpəndi. Tərpəndi, çıxdı bağdan, soruşdu: “Ay qardaş, bıra nə ölkəsidi, kimin ölkəsidi?” Dedilər: “Filan pədişahın”. Baxdı gördü yox e, dədəsinin bırda izi-tozu yoxdu, bı gör nə qədər yol gedip. Belə-belə xəbərrəşə-xəbərrəşə, bıra filan yerdi, bırdan gessən filan yerdi, sora sənin ölkəndi. Bı pulu yox, bir şeyi yox, ava getmiş adamdı. Bınnan xayiş elədi, biri bırdan ötürdü, biri ordan, bir ayamı, qırx günəmi gəldi çıxdı öz ölkəsinə.

Pədişah xəbər vermişdi: “Kim mənim oğlumun sağ gəldiyin maa desə, qoyup tərəziyə qızılnan çəkəcəyəm”.

Nə isə, bir cütçü qoca cüt əkirdi. Gördü bir oğlan gəlir. Bı da axı bını görmüyüp. Birinci günü gəlip, ikinci günü də gedip ava.

Dedi:

– Ata, salammeleykim.

Dedi:

– Əleykiməsalam.

Dedi:

– Ata, işin irəli!

Baxdı gördü bu öküzdərin də üstünə qara çəkip, özü də qara geyinip, cütü də qara boyuyup.

Dedi:
– Ay ata, o nədi, öküzün qara, paltarın qara, cütün qara, bı nə deməhdi?
Dedi:
– Oğlum, bilirsən nə var?
Dedi:
– Nədi?
Dedi:
– Dərdimi təzələmə. Bizim bir pədişahımız var. Xudabəndi–hədiyyə sonnan-sona ona bir uşax vermişdi. Bıdı, bir aydı, qırx gündü bı uşax itib ava gedəndə. Hamımız qara geyinmişih. Bir-iki günə qırxı gəlir, paltarımızı onda dəyişəcəyih.
Dedi:
– Gə saa bir söz deyim.
Dedi:
– De.
Dedi:
– Cütü də qoy bırda, mən gözdüyürəm. Qaç pədişaha müjdə apar ki, oğlun gəlir.
Dedi:
– Ə oğul, nə danışırsan, sənsən?
Dedi:
– Hə.
Bı qoca indi qaçır. Qoca qaşdı gəldi, rast çıxdı bir naxırçıya. Naxırçı qışqırdı:
– Ə, qoca, hara?
Dedi ki, neyniyirsən hara gedirəm? Dedi:
– Ə, maa de, bəlkə adam-zad gəlir, nətər, necə, niyə qaçırsan?
Dedi:
– Belə pədişahın oğlu gəlir, gedirəm muştuluğa.
Yavacca gəldi, bını tutdu, – naxırçı adamdı, – qolların bağladı, yıxdı yerə. Özü yüyürdü. Yüyürdü getdi, rast gəldi pədişahın çobanına.
– Ə, naxırçı, hara?

Dedi:

– Heş yerə, elə gedirəm.

Özü eliyip axı. Deyir, etmə, edəllər. Bir az getməmiş qarıxdı, dedi:

– Pədişahın oğlu...

Elə bildi tuta bilmiyəcəh.

Dedi:

– Ə, köpoyoğlu, qırx ildi mən pədişaha qulluğ eliyirəm, indi sən gedəssən?

Yüyürdü bını tutdu, əl-ayağın bağladı, dalına da bir-iki təpih. Özü getdi.

Getdi gördü ki, xalq yığışıp pədişahın başına. Oturuplar, söhbət eliyillər. Elədi, hamı ağlayır, kimisi gülür. Nəysə. Çoban dedi:

– Maa yol verin.

Çobandı da, beyni qandı.

– Ə, maa yol verin, mən pədişahın yanına...

– Ə, a bala, axı nolup? – dedi vəzir-vəkil.

Dedi:

– Ə, onu yoxluyun, dəyənəh çiynindədi. Gələr qəflətən vırar kişini.

Dedi:

– Yox e, maa yol verin!

Kəsdilər qabağını, dedilər:

– Həbelə gedəmməssən, soyunginan.

Dedi:

– Ə, köpoyoğlu, dəyənəynən sizi qırram. Pədişahın oğlu gəlip, mən gedirəm muştuluğa.

Dedi:

– Ə, buraxın, ədə.

Buraxdılar, gəldi. Dedi:

– Oğlum, oğlumu gözünnən gördün?

Dedi:

– Yox.

Dedi:

– Kim dedi?

Dedi:

– Naxırçı.

Dedi:

– Bını tutun bağlayın bıra.

Tutdular bağladılar. Dedi:

– Mənim nə günahım?

Dedi:

– Axı, gözünnən görməmisən, maa yalan satırsan.

Bını bağladılar. Dedi:

– Döymüyün.

Birəz keşdi, kimsə bı naxırçıın əl-ayağıın aşdı, bı da sürünə-sürünə gəldi:

Dedi:

– Nətər?

Dedi, belə-belə...

Dedi:

– Özün gördün?

Dedi:

– Xeyr, özüm görmədim, qoca vardı, o maa dedi.

Dedi:

– Qocaan neylədin?

Dedi:

– Əl-ayağın bağlıyıp qoymuşam, odu eyy, çayda.

Dedi:

– Bını da tutun, bağlıyın.

Bını da tutdular, saldılar ora. Adam yolladı, dedi:

– Gedin o qoca kimdi, hardadı, gətirin bıra.

Gəldilər, gördülər qoca yazıx çalışır elə... Əl-ayağın aşdılar, gətirdilər mindirdilər bir ata, yetirdilər pədişaha.

– Salamməleykim.

Dedi:

– Əleykimsalam.

Dedi:

– Qoca, nə gördün?

Dedi ki, mən pədişahın oğlun görmüşəm. Tanımıram, özü məni müjduya yolluyup, qibleyi-aləm.

Dedi:

– Niyə gəlmədin?

Dedi:

– Naxırçı tutdu məni, bağladı.

Dedi:

– Yaxşı. Atı min, get oğlumu gəti. Mən sənə inanıram. Qoşun yollamıram, yalan çıxar, sora səni asaram.

Mindi atı, getdi oğlanı götüdü, gəldi.

Pədişah qalxdı, dedi:

– Qoçuya üç ağırı qızıl, nə istəyir onu verin. Naxırçıya iki ağırı, çobana bir ağırı. Çoban düz eləmiyip.

Üş qoçuya, iki ona, bir bına tutdular, təmin elədilər. Verdilər, qutardılar. Gəldi, pədişah əvi şennih, vırhavır, tuthatut, yeməh-işməh, yenə xələt-filan.

Gün o gün oldu ku, bu oğlan aşdı xurcunu, almanı tökdü, payladı qızdara, ona-mına, baxdı ki, bir dənə dəsmaldı, içində də bir belə samandı, iki yumuru da qətdi. Fikirrəşdi, dedi: "Bax, bu nə ola bilər, bı samannan qət nə deməhdi?" Bunu çox fikir götdü, bı düşdü xəstəliyə. Bını tapa bilmədi. Xəbər getdi ki, qıbleyi-aləm, oğlun ölür. Nə qədər doxdur gətdi, alim gətdi, loğman gətdi, bilici gətdi... Bircə bilici dedi ki, bı nəysə bında fikir əlamətidi, bında ayrı bir şey görmürəm, bında xəstəlih yoxdu. Axır haqq-hesabda bının anası gəldi. Dedi:

– Ə, saa mən süd vermişəm, səni xaliq göydən verip maa, sən axı de görüm dərdin nədi? Qız istiyirsən, bütün şəhəri yığım, hansı kefindi onu götü. Vəzirin qızı, vəkilin qızı, filanın qızı...

Dedi:

– Yox, ana, mənim fikrim bu xurcunuma qoyulan bı samannan bı qətdi, nəyə göradı, bını mən bilmirəm.

Nağıl elədi, belə-belə... Nə bilsin hara gedip, hara getdiyini bı bilmir.

Pədişah vəziri çağırdı, dedi:

– Vəzir, bı samannan qəndin mənasın tapbasan, atan yeyip atamın çörəyini, özün də öz çörəyimi yeyirsən, səni öldürəcəm.

Dedi:

– Qibleyi-aləm, qırx gün maa vax ver.

Bı vəzirin də evində bir keçəl var, bını elə pis gündə saxlayır ki, bı kopoyoğlu, bı var-dövlətnən, inan, para çörəyin vermir ki, bının qarnı doysun. İcazə verdi, dedi:

– Get gəz.

Otuz doqquz gün bı vəzir at sürdü bütün ölkələrə, bütün yerlərə. Dedi: "Bax, belə bir variyant... Kim nə olduğun bilmir". Heş kim bilmədi. Ta səhər artıx qırxıncı günü, meydan qurulacax, vəzir asılacax. Gəldi axşam çatdı əvə. Dedi:

– Qarı, dur ayağa, maa su qoy çimim, girim hamamlanım, səhər məni pədişah asmalıdı.

Ağlaşma... Bının qəbiləsi töküldü, ağlaşan, gülüşən. Keçəl də bir küşdən oturmuşdu, özüçün qurtdalanır... Neyləsin?! Birdən Keçəl bir qəhqəhə çəkdi, güldü. Dedi:

– Ə, Keçəl, mənim dərdim hara, sənin bu gülməyin hara? Ə, oğrəş, bu gülməh nə gülməhdi?

Dedi:

– Gülmiyəcəm ki, səni asacaxlar? Çərə assınnar, cəhənnəmə assınnnar. Mən neyniyim, assınnar!

– Ə, Keçəl, nə danışırsan, nə deyirsən? Sənin keyfin durup?

Bının qohumları istədi bını... Dedi:

– Ə, öldürmüyün, qoyun görah bı niyə belə eliyir, nəyə gülür.

Bını gətdilər otağa. Dedi:

– De görüm ə, nəyə gülürsən?

Dedi:

– Ə, kopoyoğlu, bir vəzir, bir pədişah, onun alimləri bir samannan ki qəndin mənasın tapbır, tüpürüm o padişaha da, onun vəzirinə də.

Deyəndə dedi:

– Keçəl, başa...

Dedi:

– Yox, dostum, başımın qatmağı yenip əynimdəki şalvara bax, paltara bax. Bilirəm, öləsən, demərəm!

Səhər açıldı. Vəzir getdi tezdənnən. Dedi:

– Vəzir!

Meydan sulanıp, hazır... Dedi:

– Vəzir, tapbısan?

Dedi:

– Qibleyi-aləm, tapbışam da, tapbamışam da.

Dedi:

– Bu nə deməhdi, tapbışam da, tapbamışam da?

Dedi:

– Mənim əvimdə on beş ildi bir keçəl var. Düzdü, ona pisdih eləmişəm. Axşam biz yığılmışdıx, ayiləm ağlaşırdı, kopoyoğlu maa dedi ki, bir samannan qəndin mənasın bilmiyən pədişaha da tüpürüm, onun vəzirinə də, vəkilinə də. İndi yalvarıram ona, deyir: “Öləsən, demərəm!”

Qəsid yolladı, adam yolladı, xayış elədi.

Dedi:

– Yüz pədişah olsun, getmərəm.

Bı bına o qədər zülüm verib ki, bı vəzir, arvadı, ayiləsi də. Bir adam gəldi bını danışdırdı, dedi:

– Niyə getmirsən?

Dedi:

– Gərəh vəzir məni ala dalına, apara o meydana, pədişahın qabağında qoya yerə, sora deyəm.

Gəldilər dedilər. Pədişah dedi ki, gedin mənim adımnan deyin ki, axı, ayıbdı, bı mənim vəzirimdi, düz çıxmaz, bütün ölkə yığışıp bıra, xalq yığışıb.

Dedi:

– Nolsun, o onun maviniydi, mən də vəzirin maviniydim. Yediyi pilavın heç olmasa sür-sümüyünnən maa vereydi. Getmərəm, nolur olsun. Öldürmək istəyir, gətisin öldüsün.

Gəldilər dedilər:

– Belə-belə, qibleyi-aləm.
Dedi:
– Vəzir, özün bilərsən, mən nə deyim?!
Vəzir bütün qəbiləli getdi, dedi:
– Nə istiyirsən verəh, səni yıxağ tərəzinin bir gözünə, qızıl...
Dedi:
– Yox e, alassan məni dala, aparassan pədişahın o məjlisində qoyassan yerə, mən o sözü deyəcəm.
Ölüm elə kopoyoğludu, hamı qorxur, mümkün dəyil! Vəzir dedi:
– Yox, gedəcəm elə-belə, qoy məni öldüsün!
Pədişahın arvadı gəldi Keçəlin hüzuruna. Dedi:
– Oğul, salamməleykim.
Dedi:
– Əleykiməsalam.
Dedi:
– Məni tanıyırsan?
Dedi:
– Xeyir, birinci dəfədi görürəm
Dedi:
– Mən pədişahın böyüh hərəmiyəm, o uşax da mənimdi. Daşı ətəyinnən tök, maa bağışda.
Dedi:
– Niyə mən günnərnən aj qalanda bir adam məni çağırıp demədi ki, gəl sənim qarnını doyurum? Onu deyərdi, indi mən də sənə haqq-hesabı deyərdim. Neyləyəh, hərəmisən, halalı ol.
Dedi:
– Məni ana kimi qabul elə, mənim bir oğlumu ölümə vermə.
Dedi:
– Gessin o vəzir qurban olsun saa, o pədişah dostuna. Dur gedəh, ana!
Gəldilər. Hamı baş əydi, bı keçəl dik getdi.
Dedilər:
– Ə, bı nə qayırır?

Dedilər:

– Ə, kopoyoğlu, pədişahın oğluun ölümü bının əlindədi, bının nəyinə qalıp pədişah, ə.

– Salamməleykim, qibleyi-aləm.

Dedi:

– Əleykiməsalam, oğlum.

Baxdı, bir keçəldi, cırım-cında...

– Ə, keçəli götürün!

– Hara?

– Ə, hamama!

İnan, bəlkə iyirmi dənə üzsürtən verdilər. Bını düzəltdilər, yeniş-yoxuş, o yan-bı yan, kastum, filan-bəşməkan... Geyindi, oldu bir şahzadə. Paltar adamı abıra salar, oğlum.

Dedi:

– Qibleyi-aləm, onda deyəcəm ki, oğluu ölüm-dirim ixtiyarın verəsən məə.

Pədişah yerə baxdı, göyə baxdı, dedi: “Onsuz da əlimnən gedir daa”. Dedi:

– Keçəl, verdim.

Dedi:

– Onda qırx dəvə yükü ləl-cəvahir, parça-qənd, nə lazımdı yük tut, hazır elə.

Dedi:

– Neynirsən?

Dedi:

– Sən tut də. Özü də yazginən ki, o malın mən hamısın xəjdəsəm, rədd eləsəm, sən dinmiyəssən.

Yazdı, hamısın möhürrədi. Dedi:

– İndi gəti hamısın düz ora, görüm.

Gətdi, düzdü, qoydu. Dedi:

– Oğlunu gəti bıra.

Oğlu da gəldi.

Dedi:

– Oğul, sənin ixtiyarın məndədi, öldüsəm, öldürəcəm, qaldısam, qaldıracam. O atan, o da sən. İstiyirsən deyim, istəmirsən demiyim.

Dedi:

– Mən nə deyə bilərəm?!

Dedi ki, ay camaat, indi qulağ asın. Dedi:

– Oğul, indi otu.

Otdu.

Dedi:

– Oğul, bir neçə gün cəzirədə sən gedənnən sora gəzdin yeniş-yuxarı, axır getdin çıxdın bir çayın qırağına. Çıxdın?

Dedi:

– Bəli.

– Özü də ac, yuxusuz, çayın qırağıynan getdin, gördün ki, bir yerdə bir şəkil asılıp, deyillər bına baxan da öləcəh, bı bağa girən də. Axırı dedin: “Ə, ölüm ölümdü, girəcəm”. Getdin girdin o bağa?

Dedi:

– Girdim.

– Almanı yığdın, yedin, doydun. Atı da bıraxdın bağa?

Dedi:

– Bəli, bıraxdım.

– Getdin bir qaravat tapdın. Əl-üzüü yudun, qaravatın üstündə yıxılıp yatdın ajqarına. Gecə pədişahın qızı gəldi. Baxdı, gördü belə... Səhər ayıldın, durdun, gördün ürəyin acınnan gedir, gördün bir qab aş, pilov. Yedin-işdin, yeyib-içənnən sora da, bir dəsmal da qoyuplar xurcuna, onu sən bilmədin, gəldin əvdə aşdın. Ə kopoyoğlu, o öz adresin verdi saa, ay oğlan, bını pişirən mənəm, pədişah qızıyam, mən Səmərqənd pədişahının qızıyam, kefin istiyir, gə məni al. Bını tapmağa nə var ki.

Hamı:

– Afərin, Keçəl, afərin, Keçəl! – deyir.

Deyir:

– Afərin yeri dəyil ki.

Dedi:

– İndi qibleyi-aləm, nökər-nayibi düzəlt, mən getdim.

Bir at Məhəmməd mindi, bir at bı mindi.

Dedi:

– Ancax məni çox gözdə ha, bilmək olmaz işin axırı hara gedəcəh. Mən pədişah alverinə gedirəm, qız alverinə.

Tərpəndi. Böyün bırda tüşdü, səhər orda tüşdü, belə-belə gəldi mənzil başına çatdı. Bir oğlana at verdi, dedi:

– Get bı pədişahın hüzuruna – Səmərqənd pədişahının hüzuruna, denən ki, filan ölkədən – Əhməd pədişahın ölkəsinnən bir dənə tacir gəlip, deyir: "İcazə versə, mən bir-iki aylığa malımı xırıd eliyip sataram".

Bir də xonça bəzətdirdi ki, bəh-bəh... Dədəsinin malı dəyil ki, pədişahın malıdı.

Apardılar xonçanı. Dedilər:

– Bəs belə-belə, bir adam gəlip.

Dedi:

– Buraxın gəlsin.

Xonçanı qoydu, sözün dedi. Xonçanı apardılar əyəndə aşdılar. Gəldilər, dedilər:

– Qibleyi-aləm, sənin xəzinəən yarısı qədər bırda – xonçada var. Bının taciri belədi, gör pədişahı kimdi bının!

İcazə verdi. Gəldi qəfləni töhdü, nökər-naibi vırhavır, tutha-tut... Gördü qonşuda bir qarı var. Dedi:

– O qarını çağırın gəlsin.

Qarı gəldi:

– Eşidirəm, oğul. Qəribsən?

Dedi:

– Hə, qəribəm.

Dedi:

– Nədi?

Dedi:

– Nənə, maa bırdan bir adam tap ki, alım, bırda bir-iki ay qalacam da, dolanım bırda mən, subay oğlanam.

Dedi:

– Qarı nənən saa qurban, onu mən eliyə bilmərəm.

Dedi:

– Ə, onnan bir əz tök onun avcına.

Pədişahın malıdı, özüün dəyil ki, qızırğalana. Bının avcını doldurdular. Dedi:

– Oğul, axşama qədər saa elə bir adam tapacam ki, tarixən sənin olsun.

Gedip bir bağbanın qızın tapdı, yaxşı insannarın birin. Hə, gəldi, qızı da gətirtdi. Keçəli də apardı. "Bir-birinizi bəyənirsiz?" – "Hə". Keçəl kəbin kəsdirdi, Allahın şəriəti-qanunuynan bını aldı. Başdadı kefin sürməyə. Bırda tükanı aşdı, Məhəmmədi qoydu tükana, dedi ki, gəzirsən, gördün ki, bırda muşdux əlli qəpiyədi, sən qırx qəpiyə satarsan. Gördün parçanın metrəsi yirmi qəpihdi, sən on qəpiyə ver. Artığa versən, səni öldürəcəm ha!

Bı minvalnan Məhəmməd baxdı, gəldi dedi: "Papuruz on beş qəpehdi, filan şey filanadı". Belə-belə, hay düşdü bı şəhərə: "Bir tacir gəlib, ə kişi, bizim yerdə on beşə olan papuruzu bı verir on ikiyə". Bınnan kim almaz. Dünya döndü bının üstünə.

Bir gün bı söz yetişdi pədişah qızına. Qızdara dedi:

– Qızdar!

Dedilər:

– Nədi?

Dedi:

– Hazırranın. Deyillər, qəribdən bir tacir gəlip. Onun oğlu mal satır. Gedəh, onnan hərəyə bir xələt alacıyam. Gedəh görəh nətəhirdi?

Keçəl tapşırdı ki, Məhəmməd, gələlər deyələr ki, o topu qoy, onu ver, onu qoy, onu ver, kopoyoğlu, cıqqırın çıxsa, səni öldürəcəm! Dedi:

– Yaxşı.

Bını da bı görmüyüp axı. Bir zaman otumuşdu belə, gördü çöldə hırtdan-hırtdan düşüb, pədişah qızı gəlir, yol verillər bına.

Gördü qırx incə qıznan gəldi, daxil oldu içəri. Baxan sahata oğlanı tanıdı. Dedi:

– Ay oğlan, qızdara xələt alacam, topu yendir.

Yendirdi. Dedi:

– Yox, o pisdi, o birin yendir.

Belə-belə, bı malı tam qatdı-qarışdırdı. Deyib axı, cıqqır çıxartma da. Dedi:

– Yaxşı e, yoruldun. Gəti o maldan üş metir bına, bı maldan üş metir bına...

Bı qızdarın hərəsinə bir xələt aldı, özü də bir yüngülvarı şey aldı. Qayıtdılar getdilər.

Axşam Məhəmməd getdi əvə. Dedi:

– Hə, bala, nətər oldu?

Dedi:

– Ateyi-mehriban, pədişah qızı gəlmişdi.

Dedi:

– Hə, de görüm, noldu?

Dedi:

– Şikildə gördüyüm qızdı. Mən onun surətin görməmişəm, ancax şikildə gördüyüm qız haman qızdı.

Dedi:

– Hə?

Dedi:

– Hə!

Dedi:

– O qız nə dedi?

Dedi:

– Gəldi maa dedi o parçanı, bı parçanı...

Dedi:

– İrədd eləmədin?

Dedi:

– Yox.

Dedi:

– Hə, yaxşı, oğlumsan!

Bı qız da əmisioğluna nişannıdı. Böyünə-səhərə toyu olmalıdı. Bu durdu bir xonça bəzədi pədişahın malıynan. Götdü getdi meydanda otdu. Dedilər:

– Qibleyi-aləm, həmən tacir gəldi bıra.

Dedi:

– Ədə, gedin pişvaz eliyin bı taciri, nəğayrırsız?

Getdilər taciri gətdilər. Otdular, qəşəhcənə söhbət-fılan...

Dedi:

– Qullux?

Dedi:

– Qullux belədi, qibleyi-aləm, hamı tökülər gedər, sənə mənim iki kəlmə sözüm var, deyərəm.

Hamını töhdü çölə, dedi:

– Buyurginan.

Dedi:

– Mən tacir adamam, sənin qızın gedip, dükanda mənim oğlum görüp. Sorağ eləmişəm, deyillər pədişahın qızıdı. Mən istiyirəm ki, sən qızı verəsən mənim oğluma.

Pədişah dedi:

– Tacir, mən səən gəliraa da bələdəm, insannığa da, hər bir şeyi öyrənmişəm, bıdı, iki aydı, üç aydı bırdasan. Əfsus ki, qız qardaşım oğluna nişannıdı. Mən neyniyə bilərəm? Büyünə-səhərə toyudu.

Dedi:

– Yaxşı da. Mən saa nə deyə bilərəm?!

Qayıtdı getdi. Qayıtdı getdi, fikirrəşdi yenişə-yuxarı. Dedi: “Mən nəğayrım, iki aydı xalxın malın dağıdıram, çox da demişəm belə. Səhər öldürəcəh məni. Mən nəğayrım?” Çox fikirrəşənnən sora bir qarı tapdı. Dedi:

– Qarı nənə!

Dedi:

– Bəli.

Dedi:

– Qarı nənə, gedirsən pədişah qızına deyirsən ki, fılan tacirin oğlu səni istiyir. Gör nə deyir?

Dedi:

– Ay bala, ora gedənin dilin kəsillər, əyağın kəsillər, mənim orda nə işim, dəlisən-nəsən?

Şah malı müftə maldı, yığdı qarın ətəyin doldurdu. Qarı dedi:

– Ölsə də, qarı nənən gedəcəh.

Getdi. Qız çağırdı:

– Baa, xoş gəlmisən, ay qarı nənə. Nətər, necə?

Dedi ki, bala, belə, qulağına pıçıldadı.

Dedi:

– Qızdar, bir qom bıra heyva çubuğu gətirin.

Bı qarını o qədər döydürdü ki, şiş-kabab elədi. Qarı götürüldü, gəldi. Dedi:

– Qarı nənə?

Dedi:

– Qarı nənaa öldürüplər. Qarı nənanda iş var ki...

Dedi:

– Əşşi, de görüm, nooldu?

Dedi:

– Bir qom heyva çubuğu kəsdirdi, bala, mənim enimə-uzunuma...

– Qarıya pul verin!

Gətdilər qarıya pul verdilər. Dedi:

– Məhəmməd, qız deyir ki, gəl heyvanın dibinə. Get, amma yatma ha, kopoyoğlu, yatsan, səni öldürəcəm.

Bı pədişah qızıdı, el yata, oba yata, bı çəkəcəh saat birə-ikiyə.

Həə, çox gözdədi, az gözdədi, Məhəmməd getdi otdu heyvanın dibində. Ha gözdə gələcəh... Yorunux adam, axşama qədər işdəmiş pədişah oğlu... Mənim kimi fəhlə dəyil ki, səhərə kimi yatmıya. Bını yuxu tutdu, heyvanın dibində yatdı. Yatdı, qız gəldi, gəzdi dolandı, gəldi gördü yatıp. Bının cibinə bir aşıx saldı. Saldı, qayıtdı getdi.

Səhər Məhəmməd getdi. Dedi:

– Ə, nooldu?
Dedi:
– Əşşi, məni aldadıllar. Qız nədi, gəlməh-zad nədi?
Dedi:
– Ə, cibini görüm, kopoyoğlu.
Cibinə baxdı, gördü bir aşıx. Dedi:
– Ə, kopoyoğlu, axşamnan yatmısan. Deyip: “Hələ uşaxsan, get aşıx-aşıx oyna”. Məhəmməd baxdı, dedi: “Ə, bı nə işdi, bı nə bilir mənim cibimdə aşıx var?”
Dedi:
– Yaxşı.
Səhər genə qarını yolladı. Qarı getdi.
Dedi:
– Ə, nədi qarı nənə?
Dedi:
– Elə dünənki sözə gəlmişəm.
Dedi:
– Ə, fındıx çubuğu gətirin.
Gətdilər, bına ikisin vırıncan qarı aradan çıxdı, götürüldü. Gəldi. Dedi:
– Nətər oldu?
Dedi:
– Qarı nənən saa qurban, bı dəfə yaxşı çıxdım, ikicə çubux yedim.
– Ə, qarıya pul.
Verdilər. Dedi:
– Ə, adam oğlusan, deyir “gə fındığın dibinə, gəlirəm ora”. Get!
Genə bı yazıx getdi. Az otdu, çox otdu, bı gözdədi, bı gəlmədi.
Genə mını yuxu tutdu, fındığın dibində yatdı. Qız gəldi, gəzdi, dolandı, gördü bı genə yatıp. Gətdi bının cibinə bir üzüh saldı. Səhər genə getdi kor-peşman.
Dedi:
– Ə, nədi?
Dedi:

– Əşşi, gəlib-eləmədi, səhərə kimi yatmamışam.
Dedi:
– Yaxşı, cibıı görüm.
Cibinə baxdı, dedi:
– Ə, deyip "uşaxsan, ged üzüh-üzüh oyna". Ə, məəm başıma nə oyun gətirirsən?
Dedi:
– Qarı nənə!
Dedi:
– Yox e.
Dedi:
– Qorxma, ged e.
Bı dəfə gedəndə qızdar dedi:
– Qarını bıraxax?
Dedi:
– Ə, bı mənim süd nənəliyimdi, məni bı saxlıyıp, qarını bıraxın gəlsin, nə danışırsız?!
Qarı getdi otdu qızın yanında.
Dedi:
– Qarı nənə, mənim süd nənəmsən, nədi, nətəvirin?
Dedi:
– Bala, elə dünənkinə gəlmişəm.
– Ə qızdar, alma...
Qarı götürüldü, qapıdan çıxdı, yol verdilər. Keçəl gördü, sən öl, qarı tüğyan gəlir.
– A qarı nənə, nə oldu?
Dedi:
– Bala, "alma" deyən saat qapıdan çıxdım. Özü də bı dəfə məni götdü nənəliya.
Dedi:
– Həə, iş düzəlip.
Dedi:
– Kopoyoğlu, altdan get almaan dibinə, inan, yatsan bı gecə, axırı səni öldürəcəm.

Məhəmmədi yolladı, özü də bəridən sıçradı almada oturdu. Otdu almada, bı Məhəmməd çox gözdədi, yuxu döyəndə almaan birin bırdan “tarapp”... Keçəl ağaşdadı axı.

– Hə, kopoyoğluun almasına bax.

Götdü bını başdadı yeməyə. Yedi, birəz keşdi, genə yuxuluyanda bı almaan birin də “tarapp”... Bı minvalnan gözdədi. Qız artıx qapıdan girdi. Ağaşdan düşdü, dedi:

– Ə, kopoyoğlu, alma deyil e, mənəm. Qız odu haa, axırıncı gecədi bı. Özü də saa bir əməl deyəcəm, gəlib səni tutub-eləsələr, sən mənim qapıma üş dənə daş vırdırırsan, birin başdan, birin ortadan, birin də əyaxdan, mən bilərəm ki, səni tutuplar.

Dedi:

– Baş üstə.

Qız gəldi, görüşdülər. Bəs nətəvir-necə... Söhbət-filan beşmekan... Bınnarın kəbinin Allah kəsmişdi. Bir-birinə deyihli kimiydi da, aşıx-məşuxdular. Deyir, aşıx-məşuxlara heş kəbin də düşmür haqq-hesab eləsən. O adəm ki, ürəkdən sevdi-sevildi, bına kəbin də tüşmür. Bınnar hər ikisi bırda yatmaxda olsunnar, saa deyim mının əmisi oğlunnan.

Əmisi oğlu qumar vırırdı. Gecənin bir vaxdı qumardan ayıldı, durdu. Pul uduzmuşdu, qalxdı, dedi: “Sən öl, qanımın bı qara vaxtı gedəcəm bağa, əmiqızım bağdadı”.

Bı gəldi barını aşdı, gördü, paa, əmisi qızı yatıp bir oğlannan gəl ki, görəsən.

– Ədə, bı nədi?

Bir ip tapdı, bunların hər ikisin cüt bağladı, sarıdı. Aldı çiyninə, nər kimi oğlandı, az getdi, çox getdi, da bını şəhərin əyağındakı qapıya çatanda qoydu, çağırdı dedi:

– Fılankəs, qapıya bir şey söykəmişəm, gözdə, gəlirəm.

Dedi:

– Əşi, mən şey gözdüyənəm?

Əv yiyəsi gəldi, baxdı, gördü Məhəmmətdi, pədişah qızına sarıxlıdı. Dedi:

– Səni dünya malınnan qəni eliyəcəm, get, mənim tacirimi, atamı tanıyırsan da, qapısın başınnan bir daş vır, ortasınnan birini, birini də əyaxdan.

Dedi:

– Baş üstə.

Dedi:

– Səhər nə istəsən tükannan, səni qəni eliyəcəm.

Getdi, bir daş vıranda Keçəl dedi:

– Arvad!

Dedi:

– Nədi?

Dedi:

– Uşaxları tutuplar, qalx.

Ortadan daşı vıranda dedi:

– Ortadan sarıyıplar ikisin də bir yerdə.

Üçüncün vıranda dedi:

– Sən bilərsən, şəhərin əyağında birinci ev kimin evidi, məni düz apar ora!

Gəldilər gördülər ikisi də sarıxlı... Bılların ikisin də aşdı, bıraxdı. Arvadnan girdi bıra.

Dedi:

– Məni sarı.

Bını sarıdılar. Məhəmməd qaşdı öz evinə, qız da qaşdı öz evinə.

Pədişaha getdi xəbər verdi:

– Təxtin tarac olsun, deyirsən belə... Get gör qızın nə əməllərdən çıxır?

Dedi:

– Nə danışırsan gecənin bu vaxtı?

Dedi:

– Gedah gözünnən gör. Fılan qapıya söykəmişəm.

Pədişah qılıncın aldı əlinə, dedi:

– İkisin də bı saatı doğramalıyam!

Gördü pədişah gəlir, sən öl, yannarında qoşun, attı-bəşməkan. Keçəl bınnan qardaşdıx olmuşdu. Bildi ki, bı sahat bı istidi, gələn kimi bını doğruyacax. Elə birəz yaxınnaşmışdı, dedi:

– Ə, sənin pədişahlığın başaa dəysin. Mən böyün ayləmnən getdim sənin bağında kef eliyəm. Bı nə dəm-dəzgahdı, məni bütün el-aləm içində biyabır elədin?

Pədişah gördü, həə, bı bının qardaşdığı tacirdi. Qayıtdı qılıncı qoydu qardaşı oğlunun təpəsinnən. Axı bı başqa ölkədən gəlmişdi, qonağıydı, bınnan da qardaşdıx olmuşdu. Dedi:

– Ay qardaş, məni bağışla.

Dedi:

– Ta bağışdamax yeri yoxdu.

Aşdı bılları bıraxdı.

İndi bının təziyəsin saxlıyır da. İndi lazımdı qırx gün bını gözdəməh.

Dedi:

– Bala, vaxt azalıp, dayan görəh!

Həə, qırx gün oldu, bizim atımız yüyrəhdi, bının qırxı çıxdı. Bir gün bir xonça bəzədi, getdi pədişahın hüzuruna. Xonçanı verdi. Xonçanı verənnən sora dedi ki, qıbleyi-aləm, qabaxda bir söz dedim, dedin belə, mən əl çəhdim. İndi də özün vırdın, öz qardaşın oğlunu öldürdün. Sənnən mən qardaşıx, mən də qardaş, sən də qardaş, gəti qızı mənim oğluma ver. Artıx qırx da çıxıp.

Dedi:

– Mənim gözüm üstə.

Gətdi qızı verdi, toyun elədi. Keçəl qızı verdi Məhəmmədə. Ordan da nə qədər vırhavır... Gəldi çıxdı pədişahın hüzuruna. Pədişah nə qədər Keçələ xələt verənnən sora özünə vəzir götdü ağıllı bir insan kimi. Siz də ağıllı olun, yeyəh-içəh, duşmannar puç olsun, sizin kimi dosdar var olsun. Ömür Allah versin sizə, ömrüüz uzun olsun, sağ olsun.

## 138. MƏHƏMMƏD VƏ PƏRZAD

Rəvayətlərin dediyinə görə, Şah Abbas devrində bir Fatı qarı varıdı. Bunun bir nəvəsi varıdı – oğlan nəvəsi. Onnan savayə heş bir uşağı-zadı yoxudu. Bunun adı da Məhəmməd idi. Məhəmmət çox qəbiliyətli, qanacaxlı, mərfətdi, dünya görüşü çox gözəl uşağıdı. Şah Abbas hər gün dərviş libasında gəzirdi. Bu gəzdi gördü kü, Şah Abbas gəlir, uşax gördü – Məhəmmət.

Dedi:

– Uşaxlar, mən nə təər təzim eləsəm siz də heylə eliyin. Qoy Şah Abbas bizə ənam versin.

Bu Məhəmmət nə təər təzim elədi, uşaxlar da ona baxdı. Şah Abbas gördü kü, bu təlim verən uşaxdı, o uşaxlar da ona baxır. Baxdı gördü bu uşax çox ağıllı, kamallı, mərfətdi, boyda-buxunda, yaraşıxda çox qəbiliyətdi uşaxdı.

Dedi:

– Vəzir!

Dedi:

– Hey.

Dedi:

– Vəzir, bu uşağı götü gə, aparram saraya.

Uşağı apardılar saraya. Uşağa bir yüngül tapşırıx verdilər isdəməyə. Uşağ işdədi. Abbas baxdı gördü uşax çox tərbiyəli uşaxdı, hər nə deyirsən onu yerinə yetirir, hər nə deyirsən onu eliyir. Yavaş-yavaş bunun vəzifəsin artırdı. Vəzifəsin artırdı, bu minvalla yaşadı. Şah Abbas baxdı gördü kü, bu çox qəbiliyətdidi. Axırda qoydu sərkər maavini – ordunun başçısının maavini. Sora bir müddət keçənnən sora sərkər qoydu – başçı qoydu. Tay bunun adı-sanı hər yana yayıldı.

Sora bir gün Şah Abbas dedi ki, filan yerə get.

Getdi. Gördü kü, burda bir zənən var, ya rəbb, elə bil ay parçasıdı. Hə! Buna söz atdı. Söz atanda bu qız qılıncı çəhdi Məhəmmədin başına vırdı. Məhəmmət huşun itirdi. Qız əyildi ki, bına baxsın. Baxdı gördü bir oğlandı.

Dedi:

– Ya rəbb, mənim qolum qırılaydı bına qılış vurduğum yerdə. Bına mən niyə qılış vırdım?

Tay iş işdən keşmişdi. Gətdi Məhəmmədin başını yudu, təmizdədi. Dərmannadı, bir namə də yazdı, qoydu böyrünə. Dedi:

– Mən Hələp şəhərindənəm, xan qızıyam, adım da Pərvinazdı. Oğlan, əgər sən məni sevdinsə, gələrsən, mənə saa ailə olaram.

Qız kağızı qoydu bının başının altına, dərmannarı da yazdı kı, nə təər sürtər. Həə! Haçannan-haçana Məhəmməd oyandı. Oyandı gördü bir namə var. Namədə yazılıp kı, adım Pərzatdı, gələrsən, mən saa gedərəm.

Məhəmmət çox bekaf oldu, çox məlul oldu, gəldi Şah Abbasın yanına. Namanı verdi, Şah Abbas oxudu. Dedi ki, icaza verirəm, get.

Şah Abbas icaza verdi, Məhəmmət düşdü yola. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Getdi qabağına bir dev çıxdı.

Dedi:

– Bura gələn inni-cinni olmaz. Sən kimsən ki, gəlmisən bura?

Dedi:

– Hələp şəhərinə gedəcəm. İndi mən qız dalınca gedirəm.

Dedi:

– Yaxşı, qal burda.

Bu dev də gözəl xanım qız gətimişdi. Qız o devə koul vermirdi. Nə qədir dev əlləşirdi, koul vermirdi. Adı da Gözəl idi. Həə! Divin lööhəsi varıdı, kim nə desə onu yazırdı. İndi sən yazdığın kimi yazırdı. Dev oğlanı apardı kı, indi qıza sataşacax, o da bunu öldürə. Bırda bir at varıdı, at dilə gəldi, dedi:

– Məhəmmət, çoxları gəlip, dev burda öldürüpdü. Sən Gözəl xanıma baxsan huşun başınnan çıxacax. Gözəl xanıma baxmaynan. Gözəl xanım nə eləsə, denən ki, bacımsan, sənə kəm baxmax olmaz. Bu sözdərdən artıx söz danışmaynan. Əgər danışsan, lööhə yazacax, dev də səni öldürəcəh.

Nəysə, dev getdi lööhəni qurdu ku, qız nə desə, onu yazsın, oğlan nə desə, onu yazsın.

Gözəl xanım dedi ki, niyə maa baxmırsan?

Dedi:

– Qıza haram göz baxmaz. Biz insanıx. Əmə haram süd əmən oğlan dəyiləm mən. Mən atanın-ananın halal süd əmmiş halal oğluyam. Mən haram hərəkət eləmərəm. Mən pis oğlan dəyiləm.

Qız nə qədir hərəkət eliyirsə, Məhəmmət baxmır. At demişdi axı. Qız nə deyirdi yazırdı, oğlan nə deyirdi yazırdı lööhə. Uzun sözün gödəyi, dev gəldi gördü qız nə deyip Məhəmməd yox deyip, qız nə deyip Məhəmməd yox deyip.

Dedi:

– Məhəmməd, bura nə qədir adam gəlip, öldümüşəm. Gözəl xanıma tamahı düşüp, mən öldümüşəm. Sən halal oğlansan. Sən harda dara düşsən tüh verrəm, tükü tükə tut yandır, mən orda hazır olajam.

Nəysə, uzun sözün qısası, dev buna iki tük verdi. Dedi, Məhəmməd, bu tükü itirməynən. Harda dara düşsən, tükü-tükə tut, gəlim. Uzun sözün qısası, Məhəmmət yol uzunu az getdi, uz getdi, dərə-təpə düz getdi, gəldi Hələp şəhərinə çatdı. Burda bir dənə naxırçı vardı. Bu kim ola, kim olmuya, Pərvinaz xanımın danasın otaran. Məhəmməd buna yaxınnaşdı – adı da Tafdığıdı. Tafdıx dedi ki, Məhəmmət, sən yaxşı adama ras gəlmisən. Mən işi düzəldəcəm. Hə, gəldi Məhəmmət həmin o qız yazdığı kağızı verdi aparsın versin xanıma – Pərvinaza. Tafdıx aparıp naməni yaxınnaşdı Pərvinaz xanıma. Məhəmmədə yazdığı məhtubu verdi qıza. Qız bildi ki, Məhəmmət gəlip.

Pərvinaz dedi:

– Məhəmmədə deynən ki, mən Gülşən bağında olajam, özü də qız paltarında gəlsin bizə.

Hə, qız paltarı geydi Məhəmmət, qoşuldu qızdara. Pərzad xanım Məhəmmədi tanıdı. Bunu qız paltarında əvinə apardı. O günü hənki gün olsa yaxşıdı? Pərvinaz xanımın toy günüydü. O gün toy eliyirdi. O gün gəlməsəydi, iş işdən geşmişdi. Həə, bu oğlan (qızın əmisi oğlu – top.) qıza yaxınnaşan vaxdı qız Məhəmmət orda oldu. Əmisi oğlu Pərizada yaxınnaşanda dedi:

– Əlu diş tut. Sənə bir dənə vuraram, orda qalarsan.

Məhəmmət çıxdı, o oğlanın qolun-qilçələrin bağladılar uzatdılar ora. Pərzadnan Məhəmməd öpüşdü görüşdü, şaddıx elədilər. Onu orda qoydular. Məhəmmət bir at mindi, qız da bir at. Oğlan orda qilçələri bağlı, qolu bağlı qaldı. Qıznan Məhəmməd yola düşdü. Az getdi, çox getdi. O getməhdə olsun, saa kimnən deyim, Pərzat xanımın nişannısınnan.

Səhər gəldilər ki, orda nolup, gördülər orda sızıldıyır. Bunun qolun-qılçasın aşdılar.

– Nolup?

Dedi:

– Belə.

Düşdülər, xan oğluydu da, qoşun yığıldı dalınca. Məhəmmətnən Pərzad gəlmişdilər, qoşun gəldi yetdi. Tafdıx da bullarnan gedirdi. Məhəmmət bir yannan, Tafdıx bir yannan, qız bir yannan qoşunu qırdılar. Qollarının taqətdəri kəsilmişdi.

Qız dedi:

– Məhəmmət, tay qolumda taqət yoxdu, tədbir elə.

Dedi:

– Tədbir var, qorxma.

Tükü-tükə tutdu, yandırdı, dev hazır oldu. Dev qoşuna girdi. Qoşunu elə qırdı, elə qırdı, qan su yerinə axdı. Həmən qızın nişannısın da öldürdülər. Ta qoşun çəkildi, çıxdı getdi. Məhəmməd, Tafdıx, bir də qız getdi devin evinə. Devin də hər bir şeyi boludu, varıydı. Devin qızılı, gümüşü, varyəti o qədəridi ki, pətşahda o varyət yoxudu. Hə, nə qədir qızıl varıydı, verdi Məhəmmədə.

Dedi:

– Gözəl xanım məni sevmir. Elə onu da verrəm saa.

Dedi:

– Yox. Qoy Gözəl xanım razı olsun Tafdığa ərə getməyə.

Gözəl xanım razı oldu, Gözəl xanımı da Tafdıx aldı. Ordan gəldilər Şah Abbasın imarətinə. Şah Abbas Pərzada baxdı, dodağının altında dedi: “Nə təər ola gərək mən bu qızı Məhəmmədin əlinnən alam, özüm alam”.

Qıza yaxınnaşdı, söz atdı. Qız dedi:

– Mən Məhəmmədə gəlmişəm, saa gəlməmişəm. Ağlıı yığ başa, Şah Abbas.

Şah Abbas gördü kü, həqiqətən, bu qız Məhəmmədi sevir. Gördü kü, başqa əlaş yoxdu. Əgər ki, davıya düşsə, bu Pərzad elə qoşunun hamısın qıracax.

Axırda dedi:

– Mən sənin fiquraa baxdım, bir də sənin ağlaa baxdım, onçun mən bu sözü dedim. Öz uşağımdı Məhəmmət.

Orda qırx gecə-gündüz toy vurdular. Məhəmməd Pərzadnan, Tafdıx da Gözəlnən əvləndilər, gəldilər Şah Abbasın yanına. Onnar yedilər, işdilər, yerə geşdilər, siz də yeyip içip dölə keçin. Sağ olun.

## 139. KASIB OĞLAN

Biri varıydı, biri yoxuydu, bir ana-bala varıydı. Ana-bala kasıblıxla birtəhər başlarını girriyirdilər*. Elə ki, oğlan boy-buxuna dolub həddi-buluğa çatdı, anası ona dedi:

– Oğul, daha əl-ayağın yer tutur, get padşahın qoyun-quzusuna çobannıx elə, bir parça çörəyimiz olsun.

Oğlan anasının dediyi kimi də elədi. Padşahın sürüsünü otarıb əvəzində gündə bir çörəh aldı. İndi eşit padşahın qızınnan. Padşahın qızı çöldə gəzəndə oğlanı görüb onnan xoşu gəlmişdi. Odu ku, xəlvətcə hər gün bir çörəh gətirib çobana verirdi. Ana-bala bu çörəyi yeyib şükrannıx eliyirdilər. Bir gün oğlan ha gözlədisə, qız gəlib çıxmadı. Axşam tək bir çörəhlə evə qayıdıb qızın gəlmədiyini anasına söylədi. Anası əlini dizinə vurub yanıxlı-yanıxlı dedi:

– Eh, ay bala, şahın qızı yoxdu, qəfildən ölüb.

Oğlan hal-vəziyyətdən agah olub gözlədi, gecə yarı olanda xəlvətcə durub getdi qəbirstannığa. Axtarıb qızın qəbrini tapdı, qəbri yarıb, qızın meyidini çıxarıb gətirdi evə. Ana-bala onu ortalığa qoyub ağlamağa başladılar.

---

* girrəyirdilər – dolandırırdılar

İndi xəbər tut ayrı bir xəbərdən. Deyir “yara sağalacax olsa, təbib qənşər gələr”. İndi də eyzən* elə oldu. Qız naxoşlayanda padşah uzax məmləkətdən loğman çağırmışdı, amma loğman gecikib vaxdında özünü yetirə bilməmişdi. Gəldiyi elə indi idi. Loğman şəhərə varid olub yolla gedirdi ki, birdən qulağına bir daxmadan ağlaşma səsi gəldi. Fikirrəşdi ki, bəlkə bir köməyim dəydi, qoy gedim görüm nə müsibətdi belə. Loğman şəhərə varid olub yolla gedirdi. Loğman yaxınnaşıb qapını asdadan tıkqıldatdı. Anaynan oğul gecənin yarısı qapının döyüldüyünnən bərk qorxuya düşdü. Dedilər yəqin padşahın adamlarıdı, işdən duyux düşüblər, indi gəlib ikimizi də öldürəcəhlər. Oğlan cəld qızı kilimə büküb taxtın altına soxdu. Sora ürəyi uçuna-uçuna gedib qapının cəfdəsini qaldırdı. Baxdı ki, qapıda ağ saçlı, ağ sakqallı nurani bir adam durub.

– Oğul, uzax yerdən gəlmiş qərib bir qocayam. Mümkün varsa, məni bu gecəliyə qonax saxla.

Oğlan bir az ürəklənən kimi oldu.

– Yerim var, gəl içəri, kasıb olsax da, ürəyimiz genişdi.

Loğman baxdı ki, bu bir yaxşı oğlandı, ürəyinnən keçirdi ki, müşkülü varsa, gərəh asan eləyim. Bir qurtum çay içib bir tikə çörəh kəsənnən sora loğman üz tutub oğlannan soruşdu:

– Oğul, mən sizin evin yanınnan keçəndə içəridən ağlaşma səsi gəlirdi. De görüm, nə müsibətiniz var. Mənnən çəkinmə. Mən müşkülləri asan eliyən loğmanam, de dərdini.

Oğlan bir az o yana baxdı, bir az bu yana baxdı, baxdı, öz-özünə dedi ki, ölməh ölməhdi, xırıldamax nə deməhdi, gəl aç dərdini de, bəlkə çarə qıldı. Oğlan əlini sinəsinə çarpazlayıb köks ötürdü:

– Ey loğman ata! Mənim başıma bir qəziyə gəlib. Eşit, gör nə müsibətə düşmüşəm.

Beləcə əhvalatı necə mən sizə nəql eləmişdimsə həmən qaydaynan başdan hamısını Loğmana danışdı. Loğman dedi:

– Oğul, tez ol qızın cəsədini gətir ortalığa.

---

* eyzən – tamam, başdan-ayağa

Oğlan durub taxtın altında gizlətdiyi cəsədi gətirdi. Loğman dikqətnən qıza baxıb dedi:

– Padşah da elə məni bu qızdan ötəri çağırtdırıb. Gecikib vaxdında yetişə bilməmişəm. Amma bu qız ölməyib. Sətəlcəmnən quruyub. Ona görə də ölüyə oxşuyur. İndi mən nə buyursam, sən əməl elə, tədbirini qılıb dirildəh. Belə elə, iri bir çən gətir, içini suynan doldur.

Oğlan çəni gətirdi, ana-bala isdi su düzəldib çəni doldurdular. Loğman qızı isdi suyla ovuşdurmağa başladı. Ovuşdurduxca da bildiyi dava-dərmanı yerli-yerində məlhəmə döndərib qızın bədəninə sürtdü. Yarım saatmı deyim, bir saatmı deyim, qərəz nə qədərsə vaxt ötdü, hannan-hana qız asqırıb durdu ayağa. Ana-bala, bir də qız loğmanın bu möcuzatına mat qalıb ona dil-ağız elədilər, əl-ayağınnan öpdülər.

Səhər açıldı, cəmi səhərlər üzünüzə xeyirriyə açılsın. Loğman daha padşahın sarayına getməyib üz qoydu öz məmləkətinə.

İndi eşit şah qızıynan ana-balanın bunnan belə başına gələnnərdən. Bunnar üçlühdə oturub fikirrəşdilər ki, neyləsinnər, neyləməsinnər. Şah qızı dedi:

– Mənim dirilməyimin xəbərini hələ atama yetirməh olmaz. O saat ürəyi partdıyar.

Bəli, bunnar xəbəri bir kimsəyə yaymayıb genə də kasıbçılıxlarında oldular. Bir gün qonşularındakı sövdəgər oğlanı yanına çağırdı:

– Baxıram ki, çox halal adamsan, gəl mənə mal aparıb gətirməhdə köməh elə. Muzdunu da halal isdəsən bir abbası, haram isdəsən bir tümən verərəm.

Oğlan bir abbasıyla razılaşdı. Bunnar yük götürüp başqa bir şəhərə yollandılar. Oğlan mənzil başında muzdunu alıb fikirə getmişdi ki, sövdəgər soruşdu:

– Oğul, nə xəyala getmisən?

Oğlan dedi:

– Fikirrəşirəm ki, bu abbasıyla nə alım ki, Allaha xoş getsin.

Sövdəgər ona bir yol salğadı*:

– Bax, bu yolnan gedərsən. Gedib bir qoca kişiyə rast gələcəhsən. Görəcəhsən ki, qabağına üç nar qoyub satır. Üçünü bir abbasıya verəcəh. Alıb gələrsən.

Oğlan sövdəgər deyən kimi elədi, narlar əlində qayıdıb gəldi. İsdədi narın birini kəssin ki, yeyələr, sövdəgər dedi:

– Saxla, evə qayıdanda kəsib nənənlə yeyərsən.

Qərəz, sövdəgər alış-veriş eləyib oğlanla geri qayıtdı. Oğlan narları da, pulu da gətirib anasının qabağına qoydu. Dedi:

– Ana, bu pulu xərclik eləyib dolanın, narları da kəsib qıznan yeyin.

Belə deyib genə sövdəgərlə səfərə yollandı. Bu getməyində olsun, eşit evdəkilərdən. Elə ki, oğlan anasıyla vidalaşdı getdi, qız narın birini kəsdi, baxıb gördülər, bay-bay, narın içi tamam ləl-cəvahir məkanıdı! Tez ləl-cəvahiri yığıb gizlətdilər ki, neyləsinnər. Axırda bu qərara gəldilər ki, ev tikdirsinnər. Usda çağırıb ev binəsi qoydurdular. Ev də nə ev, yar-yaraşıx, cah-cəlalı şahlara yaraşan ev.

Bunnar burda mülk tikməhdə olsunnar, indi kimdən xəbər verəh, oğlannan. Oğlan bu dəfə də sövdəgərlə oturub fikirrəşməyə başladı ki, bir abbasıya nə alsın, nə almasın? Sövdəgər məsləhət elədi ki:

– Bax, bu yolnan get, üçüncü döngəyə çatanda görəcəhsən ki, bir qoca kişi üç pişih satır. Həmən pişihləri alıb geri qayıt.

Oğlan isdədi deyə ki, a kişi, mən bir parça çörəyə möhtac adamam, pişiyi-zadı neynirəm. Amma bir söz deməyib bu dəfə də sövdəgər deyəni elədi. Alış-verişi qurtarıb təzədən üz qoydular geriyə. Yolda sövdəgər dedi:

– Gəlsənə, bir dayanıb dincimizi alax. Bu yaxınnıxda mənim bir dosdum var, gedəh onun mülkünə.

Yollandılar sövdəgər deyən yerə. Dosdu sövdəgəri xoş-beşlə qarşıladı. Yeyib-işməh məclisi quruldu. Bunnar süfrə başında

---

* salğadı – göstərdi

əyləşəndə baxdılar ki, dörd yanlarında əli ağaclı çoban adamlar düzülüb. Sövdəgər təəccüblə soruşdu:

– Bu nə işdi belə?

Dosdu dedi:

– Əşi, siçannarın əlinnən göz aça bilmirih. İmkan tapsalar süfrədə nə var hamısını talan eliyəllər. Əli ağaclı oğlannar onnarı qovmax üçün düzülüflər.

Sövdəgər güldü:

– Dərd təki siçan dərdi olsun. Ona əncam eləməh mənim əlimdə.

Belə deyib oğlana işarə elədi ki, get zəmbildəki pişihləri gətir. Oğlan gətirib pişihləri buraxdı. Bir göz qırpımında pişihlər siçannarın axırına çatdı. Ev yiyəsi sevincəh dilləndi:

– Bunun müqabilində mən də sizə bir dəvə yükü qızıl peşkəş eliyirəm.

Bəli, gecəni qalıb sübh tezdən oğlannan sövdəgər öz məmləkətlərinə yola düşdülər. Mənzil başında sövdəgər qızıl yüklü dəvəni oğlana bağışdadı. Oğlan gəlib evlərinə çatanda baxdı ki, uçux-sökük daxmaları yoxdu. Onun yerində bir imarət ucaldıblar ki, deyərsən şah sarayıdı. Elə bildi yolu çaşıb, isdədi geri qayıtsın. Anasıynan şah qızı akuşkadan əl eləyib onu çağırdılar. Oğlan gəlib məsələni örgəndi. Bir dəvə yükü qızılı da yerbəyer elədi. Başladılar kef-damax içində yaşamağa. Oğlanın anası molla çağırıp qızla oğlunun kəbinini kəsdirdi. Şad-xürrəm ömür sürüllər.

Beş-altı ildən sora bunnarın bir bölüh çolma-cocuğu oldu. Bir gün qız dedi:

– Gəl atamı qonax çağırax.

Bəli, şah, başında da əyan-əşrəfi oğlangilə qonax gəldi. Uşaxları görən kimi şahın onnara qanı qaynadı. Başdadı onnarı öpüb-oxşamağa. Oğlan açıb əhvalatı şaha danışdı. Şah baxdı ki, qızının evinə qonax gəlib, çox xoşhal oldu. Öz qızını çağırıb bağrına basdı. Şah da qırx gün, qırx gecə toy vurdurdu. Mən də həmin toydaydım. Yedim, işdim, yolla geri qayıdanda bir də

baxdım ki, budu ha, göydən üç alma gəlir. Almanın biri mənim, biri özümün, biri də nağıl danışanın. Siz sağ, mən salamat.

## 140. PADŞAHA LAYİQ ARVAD

Biri var idi, biri yox idi. Bir gün bir padşah vəziri ilə gəzməyə çıxır ki, görsün nə var, nə yox. Gərək onlar kənddə olan əyrini, doğrunu bilsinlər. Vəzir deyir:

– Padşah sağ olsun, bu kəndi mən yaxşı tanıyıram, bunlar əkinçiliklə məşğul olurlar.

Soora gedirlər bir başqa kəndə. Burada da vəzir deyir ki, padşah sağ olsun, bu kəndin adamları alverlə məşğul olurlar. Burda da elə bir şey yoxdur. Keçirlər o biri kəndə, görürlər ki, bu kənddə hamı yatıb, işıq gəlmir. Ancaq kəndin aşağısında bir evdən işıq gəlir. Gedirlər ora. Çatırlar qapıya, görürlər ki, qapı bağlıdır. Qapını döyürlər, qapını açırlar. Görürlər ki, burada iki-üç quldur qumar oynayır. Bunlar deyir ki, bizi də burda qonaq eləyin. Deyirlər ki, biz burda iki-üç saatdır qumar oynayırıq, bir azdan çıxıb gedəcəyik. Padşah deyir ki, biz elə paltarda bir tərəfdə yıxılıb yatacağıq. Quldurlardan biri deyir ki, nolar, qoy bir tərəfdə yatsınlar. Bunlar burda qumar oynamaqda olsun, sizə deyim padşahdan.

Səhər padşah deyir ki, vəzir, gedib onları tutub gətirərsən. Vəzir bir neçə atlı ilə gedib onların üçünü də tutub salır qazamata. Bunlar burda qalmaqda olsun, sizə deyim padşahdan.

Bir gün yuxuda padşaha deyirlər ki, döşəyin altında üç qozun altı ləpəsi var. Gərək sən bu qozları birləşdirəsən. Padşah deyir ki, birləşdirə bilməsəm, necə olsun? Deyirlər ki, sənə qırx gün vaxt veririk. Padşah yuxudan oyanır. Padşah deyir ki, görüm bu düzdü, ya yalan? Qalxır ki, düzdü, döşəyin altında altı qoz ləpəsi var. Nə qədər çalışır ki, qozu yapışdırsın, ancaq birləşdirə bilmir. Vəziri çağırır, deyir ki, gərək bu qozları bitişdirəsən. Bitişdirməsən, səni edam edəcəyəm. Vəzir deyir:

– Padşah, bəs mənə vaxt vermirsən?

Padşah deyir:

– Sənə qırx gün vaxt verirəm.

Vəzir qozu evə apardı, nə qədər çalışdı, qozu bitişdirə bilmədi. Qozu götürüb düşdü kəndlərə. Kimə dedi, əncam eliyən olmadı. Axırıncı gün qayıdıb gəlirdi evə. Gördü, bir bulaq var. Dayanıb bulaqdan su içmək istədi. Gördü ki, bulağın başında bir qız var. Bu qız gördü ki, uzaqdan atlı gəlir, özü də tər. Qız tez gətirib suya da, bardağa da zibil tökdü. Gəlib çatanda qız suyu ona verdi. Vəzir dəsmalı suyun üzünə tutub içdi, at da bir təhər sudan içdi. Vəzir dedi:

– Ay qız, bəs mən səndən su istədim, niyə qoymadın su içim, at da rahat içsin?

Qız dedi:

– Sən başa düşmədin niyə mən o zibili ora tökdüm?

Deyir:

– Yox.

Deyir:

– Sən altı qozu birləşdirə bilmirsən, düşmüsən düzlərə.

Vəzir deyir ki, ay qız, sən hardan bildin? Deyir ki, niyə bilmirəm. Onu padşaha demişdilər. O da bitişdirə bilmədi, sənə tapşırdı. Vəzir deyir ki, sən onu bitişdirə bilərsən? Qız deyir:

– Bilərəm.

Vəzir deyir ki, onda mən sizə minnətdaram. Qız deyir ki, siz o vaxt gətirib üç nəfəri dama saldınız ha, onların günahı nə idi? Bax həmin qozlar onların ürəyidir. Həmin ürəkləri birləşdirmək lazımdır. Siz gedin onları damdan çıxardın, xərclik verib yola salın, onda qozlar özləri birləşəcək.

Vəzir gedib həmin dustaqları boşduyur. Sonra əlini cibinə salır, görür ki, qozlar birləşib olub üç dənə. Vəzir gedir padşahın yanına. Padşah deyir ki:

– Noldu?

Vəzir deyir:

– Birləşdirdim, ancaq mən gedirəm, məndən vəzir olmaz.

Padşah deyir ki, niyə? Vəzir deyir ki, balaca qız bizə o qədər tənə elədi ki. Padşah deyir:

– O qız kimin qızıdı?
Vəzir deyir:
– Həsən xanın qızıdır.
Padşah deyir:
– İndi sən qulaq as, gör mən onun başına nə oyun açıram. Gedərsən bazara, qırx dəli at alarsan, qırx dənə dəli oğlanla onları ora göndərərsən. Onlar ora çatanda atı boşlayıb düşərlər. Atlar bir tərəfdə dolaşarlar, oğlanlar da bir tərəfdə. Onları xar eliyərlər.
Vəzir belə də elədi, gedib qırx dənə at, qırx oğlan götürüb gəldi. Bunlar burada hazırlaşmaqda olsun, qız dedi:
– Ata, padşah bizə qonaq gələcək.
Atası dedi:
– İndi neyniyim?
Qız dedi:
– Qırx nəfərlik stol açmaq lazımdır, qırx torba arpa, qırx dənə də mıx hazırlamaq lazımdır.
Hazırlıq görüldü. Atlılar gəldilər. Gələn kimi onların atını tutub arpanı başlarına keçirdilər, oğlanları da torbaya saldılar. Hərəsi bir tərəfdə oturdu, heç bir-birilə söhbət edə bilmədilər. Vəzir dedi:
– Padşah, mən dedim ki, biz bu qıza heç bir şey eliyə bilmərik.
Padşah deyir:
– Həsən xan, burda bir neçə adam olsun, onlar bizə şahid olsun.
Bir neçə ağsaqqal yığdılar. Padşah dedi:
– Həsən xan, qızı çağır gəlsin bura.
Çox sözdən soora padşah dedi:
– Ay qız, mən səni almağa gəlmişəm. Sözün biri hədi, biri yox.
Qız dedi:
– İstəyənin bir üzü qara, verməyənin iki üzü. Nolar, gedərəm.
Molla çağırdılar. Elə burdaca onların kəbinini kəsdilər. Padşah dedi:
– Ay camaat, bax bunun kəbinini kəsdik, ancaq evə aparmıram. İki ildən soora mənə oxşayan bir oğlan, tulama oxşayan tula, atıma oxşayan at istəyəcəm. Bunları eliyə biləcəksənmi?

Qız dedi:

– Hə.

Padşah deyir ki, bəs necə eliyə biləcəksən? Qız deyir:

– Sənə nə var, dedim eliyəcəm, deməli, eliyəcəm.

Padşah dəstəsi ilə çıxıb getdi, qız da qaldı burda. Bir qədər aradan keçəndən soora qız dedi:

– Ata, padşah bizlə oyun oynamır ha! Gərək biz dediyini eliyək.

Ata dedi:

– Qızım, indi mən neynəyim?

Qız dedi:

– Dədə, qırx alaçıq qur, mən burdan çıxıb gedəcəyəm.

Həmin padşahın bir at qoruğu var idi. Qız həmin qoruğun yaxınlığında bir alaçıqda yaşayırdı. Padşah deyir:

– Gedin, görün orda yaşayan kimdir?

Gəlib dedilər ki, sən kimsən? Bura padşahın at qoruğudur.

Deyir:

– Mən Yelmar bəyəm, gəlmişəm sizin torpağınızda yaşayam.

Padşah deyir ki, nolar, qal. Bir neçə gündən sonra bu qız padşaha məktub yazır ki, padşah, sənin hörmətin bu imiş? Niyə heç demirsən ki, bura adam gəlib, o darıxır, oynamaq istəyir? Niyə məni heç yanına çağırtdırmırsan?

Bu məktubu oxuyandan sonra padşah deyir ki, düzdür. Bir adam göndərir, onu çağırtdırır. Qız əvvəlcə nökərlərə xəbər verir ki, mən padşahın atını, tulasını udacam, göndərəcəm bura. Başladılar qumar oynamağa. Qız padşahın atını, tulasını udur. Deyir, mənim bir dənə nişanlım var, mən də onu mərcə qoyuram. Padşah da onun nişanlısını udur. Qız deyir, bir neçə arvad göndərərsən, qızı onlara qoşaram, apararlar. Qız paltarını geyinib padşahın yanına gəlir. Gəlməzdən əvvəl məktub yazıb nökərinə verir ki, altı aydan sonra padşaha versin. Altı aydan sonra vəzir gəlib deyir ki, bəs Yelmar bəydən məktub gəlib. Yazır ki, padşah, mənim ağlım yox idi sənnən qumar oynadım. Heç səndə insaf yoxdu? Adam adamın varını, dövlətini udar. Mənim bir nişanlım var idi, sən onu

da əlimdən aldın. Padşah çox pis olur. Qızı çağırır ki, gəl, Yelmar bəy səni çağırır, get. Qız deyir ki:

– Yelmar bəy nə bilir ki, mən sənin yanındayam, ya yox. Gərək sən mənə bir kağız verəsən.

Padşah bir kağız verdi. Bir qədərdən soora qızın oğlu olur. Padşah deyir ki, vəzir, vaxt artıq çatıb, biz ora getməliyik. Vəzir deyir ki, padşah, gedək, hər şey hazırdır. Yığışıb gəlirlər. Qız deyir:

– Dediklərin hazırdır.

Tulanı gətirdilər, atı da, uşağı da gətirib padşaha verdilər. Padşah deyir ki, gərək bunları sübut eliyəsən. Qız deyir ki, sübut eləsəm, mənə nə verərsən? Padşah deyir ki, bütün var-dövlətimi. Qız həmin məktubu ona verir. Padşah görür qumarda udduğu qız bu imiş. O qızı da götürüb təzədən toy eləyir.

## 141. HƏR İŞİN BAŞI SƏBRDİR

Biri evlənir – bir oğlan dayna, hayat qurur. Ayləsiynən bir ay yaşıyannan sora deyir:

– Ay arvad!

Deyir:

– Nədi, a kişi?

Deyir:

– Mən gedəjəm alimlih oxumağa, alim olmağa.

Deyir:

– Bəs məni bırda tək-tənha qoyuf hara gedirsən? Neçə il oxuyajaxsan?

Deyir:

– İyirmi beş il oxuyajam, alimlih deplomumu alıf çivimə qoyuf gələjəm.

Görür ki, yox, kişi dediyinnən dönmüyəjəh, irazılıx verir, gedir.

Gedir çıxır Hələf şərinə. Orda alimliyi oxuyur. İyirmi beş il oxuyur, deplom alır. Qayıdır indi vətənə. Yolda bir çovannan rasdaşır. Deyir:

– Atalardan bir məsəldi, yoruldun karvana, ajdın çovanın yanına get. İndi ajdığım var. Nəyin var, maa bir şey ver, yeyim.

Çovan gətirir böyüh qavlamasını, bir-iki qara qoyunun südünü sağır, bir az da quru yuxası varmış, avalıyır tökür südün içinə, qaşıxnan qarışdırır, qoyur bı alimin qavağına. Alim yeyif doyannan sora halallaşıf yola düşəndə çovan bına sual verir:

– A qonağ, axı sən demədin hardan gəlif hara gedirsən?

Deyir:

– Mən aliməm, iyirmi beş il alimlih oxumuşam, indi qayıdıram vətənə, evimə.

Çovan bına sual verir. Deyir:

– Alimsən?

Deyir:

– Bəli, aliməm.

Deyir:

– Onda de görüm, alimliyin baş hərfi nədi?

– Boy, alimliyin nə baş hərfi olar?

Deyir:

– Yox, əgər alimsənsə, de görüm alimliyin baş hərfi nədi? Əgər bilmirsənsə, bir il məəm qoyunumu otar, mən alimliyin baş hərfini saa deyim, get.

Alim deyir ki, a rəhmətdiyin oğlu, iyirmi beş ildi evimnən kənar olmuşam. İndi saa da bir il qoyun otarım bırda? Halallaşıf yola düşəndə bir iyirmi metir gedir, fikir alimi götürür: “Ayə, bı nə sözdü, alimliyin baş hərfi nədi? Eey, qayıdıf çovanın bir il qoyununu otarajam, onu da örgənif gedəjəm”.

Qayıdır geri. Deyir:

– Çovan qardaş, mən sənnən irazılaşıram. Bir il qoyunuu otarajam. Amma elə o günü vaxtım tamam oldu, alimliyin baş hərfini maa de, gedim.

Dedi:

– Hə, ona arxeyin ol.

Nağılda vaxt yüyrəh olar. Vaxt tamam olur. Alim deyir:

– Hə, indi çovan qardaş, maa de görüm, alimliyin baş hərfini.

Deyir:
– Alimliyin baş hərfi səbirdi.
Dedi:
– Nə, səbir?
Durur halallaşır, sağollaşır, qayıdır gəlir. Nə gejə dəyil, nə səər dəyil, qapını döyür. Arvat deyir:
– Kimsən?
– Ay arvad, mən gəlmişəm, dur qapını aç.
Bı gedəndə arvadın bir oğlu olur. Boyluymuş dayna. İndi oğlunun iyirmi iki yaşı var. Qapını açır. Bıy, görür arvadının böyründə iyirmi iki-iyirmi üç yaşında bir cavan oğlan yatıf. Alimi fikir götürür. İsdiyir xançalı çəkə arvadı da vıra, oğlanı da doğruya. Birdən barmağını dişdiyir:
– Ey dili-qafil, axı mən çovana bir il qoyun otarmışam, səbr örgənmişəm. Qoy səbr eliyim, görüm, bı işin axırı nədi.
Arvad əriynən görüşənnən sora qayıdır deyir:
– Dur, oğul, dur. Atan gəldi.
Orda sevinillər. Arvad oğlunu da durğuzur, atasınan görüşüf, öpüşüllər. Bıların bı hekayəsi bırda başa çatır, əziz balam.

## 142. ŞAH ABBASLA PİNƏÇİ ALLAHVERDİ

Şah Abbasın belə bir qanunu vardı: iş vaxtında hər kəs işləməsə, işsiz dolansa, öldürtdürürdü. Əgər iş tapmırsansa, sənə iş verirdi. Hər kəs iş saadından sora işdəsə, onu da cəzalandırırdı. Şah Abbas deyirdi: "Bu iş səni dolandırmır, qalıp işdən sora işdiyirsənsə, onda ayrı iş isdə, ayrı iş verim. Yoxsa iş vaxdınnan sora işdəməh olmaz. Gejə yatmax üçündü, gündüz işdəməh üçündü".
Bozdux hava sərin olur, adamı isdər-isdəməz yuxu tutur. Pinəçi Allahverdi bazarda pinəçilih eliyirdi. Şah Abbas da dərviş libasında şəhəri gəzirdi. Heş kəs onun dəqiqliynən tanıya bilməzdi. Mində bir adam tanıya bilərdi. Bir gün gəlip bazar-tükanı gəzəndə gördü Pinəçi Allahverdi yuxluyup. Dedi:

– Allahverdi! Pinəçi Allahverdi!
Uyanmadı.
Bir də bərhdən dedi:
– Pinəçi Allahverdi!
Pinəçi Allahverdi gözünü aşdı, gördü Şah Abbasdı. Dedi:
– Pinəçi Allahverdi, yatmısan?
Dedi:
– Şah sağ olsun, ədalataa güj eləmə, yatmamışam.
Dedi:
– Nə təhər yatmamısan? Budu, vəzir-vəkil hamı şahitdi. Mən səni iki-üç dəfə çağırmışam, uyanmamısan.
Dedi:
– Qibleyi-aləm, yatmamışam ee, məni sükut aparıp.
– Əə, sükut nədi?
Dedi:
– Şah sağ olsun, Pinəçi Allahverdi pinəçiliynən ailəni-uşağı nejə dolandırır? Hərdən məni sükut aparır, mənim qəlbimə söz gəlir, onu satıb dolanıram. Yoxsa mən beş-üş qəpiynən nə dolanıram?!
Dedi:
– İndi söz gəlip qəlbəə?
Dedi:
– Bəli.
Dedi:
– Onu maa de görüm.
Dedi:
– Müftə dəyil ki? Puluynandı.
Dedi:
– Pulun verirəm daa.
Dedi:
– Əə, vəzir, pulu say ora.
Vəzir pulu sayıp verdi.
Dedi:
– İndi de.

Dedi:

– Hər nə iş tutsan, axırını fikirrəş.

Şah Abbas bir o yana baxdı, bir bu yana baxdı, fikirrəşdi: "Ə, mən Şah Abbas olam, pinəçi məni aldada, mənim pulumu ala, nədihanədi, bir quru söz deyə". Əsəbləşdi. Fikirrəşdi ki, durum buna cəza verim, aləm deyəjəh ki, Şah Abbas elədi ki, sifətində insan sifəti qalmıyıp. Gəldi evə, arvat dedi:

– Şah sağ olsun, noolub saa? Nədi belə?

– Arvat, heş deməli zibil dəyil. Pinəçi Allahverdi məni aldadıp. Arvat bının hövsələsini soyutmax üçün dedi:

– Sözün qiyməti var?! Nə danışırsan sən?!

– Ay arvat, nejə?

Dedi:

– Üzüyü çıxart bura.

Dedi:

– Neynirsən?

Dedi:

– Səbr elə.

Arvat zərgər çağırtdırdı, üzüyü verdi, yazdırdı ki, "hər nə iş tutsan, axırını fikirrəş". Üzüyü taxdı Şah Abbasın barmağına.

İndi sizə kimdən deyim, pinəçi Allahverdidən. Pinəçi Allahverdi durdu ayağa, şələ-şüləsini yığışdırdı, dedi ki, yaxşı elədim pulun aldım, gedim bazarrıx-zad eliyim, çıxım gedim evə. Elə də elədi. Getdi evə, arvat dedi:

– A kişi, bı nədi?

Dedi:

– Belə.

Dedi:

– A kişi, nə danışırsan?

Dedi:

– Bəli, nejə danışıram, elədi.

Dedi:

– Əşi, yalan danışma. Düzünü de görüm, kimin əvini talamısan, kimin əvin oğurramısan?

Dedi:

– Arvat, canın üçün, Şah Abbası aldadıp pulun almışam. Qoy doyunca yeyim, istirahət eliyim, nə vaxt öldürər, öldürər.

Allahverdi hər dəqiqə yol gözdüyür ki, indi pətşah məni öldürtdürəjeh.

Şah Abbasda belə qanun varıdı: əlinin altda nə qədər adam varıdı, hərə bir ac tapıp gətirərdi. Şah onları yedirdip-içirərdi. Vəzir-vəkil Şah Abbasın əlinnən bezmişdi. Belə qərara gəlillər ki, Şah Abbası aradan götürsünnər. Vəzir dedi:

– Gəlin bir iş eliyəh. Şahı görən kimi deyəh ki, bəs şah sağ olsun, rəngin yaman qaçıp, qan artıxlığın var, dəlləyi çağırax, qan alsın. Əvvəldən də dəlləh çağırax, nəştəri zəhərriyip verəh əlinə, pətşahı cəhənnəmə vasil eləsin, canımız kutarsın. Bı nədi əə, abrımız getdi.

Razılaşdılar. Vəzir getdi bir neştər qayırtdırdı, zəhərrətdirdi, gətdi. Səhər tezdənnən baş vəzir getdi Şah Abbasın yanına:

– Salam.

– Əleykəsalam.

– Şah sağ olsun, irəngin niyə elə dəyişip?

Şah Abbas dedi:

– Vəzir sağ olsun, mən özümdə elə bir şey hiss eləmirəm. Dedi:

– Yoox, dəəsəən, qan artıxlığın var sənin.

Dedi:

– Vəzir, nə əlaj eliyəh?

Vəzir dedi:

– Pətşah sağ olsun, bırda çətin bir şey yoxdu ki. Dəlləh çağırax, bir əz qan alsın.

Razılaşdılar. Vəzir dedi:

– Qibleyi-aləm, sabah naharda gəl yeməh yemə, qanın duru vaxdı dəlləh gəlsin, qan alsın.

Sabah oldu. Bir qoja dəlləh çağırdılar. Vəzir yolda güdürdü dəlləyi. Dedi:

– Dəlləh, hara gedirsən?

Dəlləh dedi:
– Gedirəm patşahdan qan alam.
Dedi:
– Görüm hajatıı*. Şah yanına gedirsən, bir abırlı hajat aparırsan, ya yox?
Dəlləh çıxartdı, neşdərini görsətdi.
Vəzir dedi:
– Əə, əvin yıxılsın, bı eşşəh neşdəridi. Bını qoy bir yana, patşah boynuu vırdırar, yazıxsan.
Dedi:
– Neyneyim, olanım bıdı, qoja adamam, ayrı neşdəri indi mən hardan alım?
Dedi:
– Sən dur bırda, mən gedim neşdəri gətirim.
Vəzir getdi, neşdəri verdi dəlləyə. Dəlləh neşdəri bühdü qoydu şeylərin arasına. Getdi girdi pətşahın yanına.
– Salamməleyküm.
– Əleykümməsalam.
Şah buyurdu:
– Qoja, mənnən ötrü nə qullux, nə əcəb?
Dedi:
– Şah sağ olsun, sən çağırtdırmısan məni.
– Nəçisən?
Dedi:
– Dəlləyəm.
Dedi:
– Həə?
Dedi:
– Hə.
– Dəlləh, mənnən qan alsan, bir ziyannıx olmaz ki?
Dedi:

---

* hajat – alət

– Heş nə olmaz, ancax xeyri olar. Qanın dəyişər, cavan qan gələr daa.

Dedi:

– Yaxşı, nə deyirəm.

Dəlləh qolların çirmədi. Birdən pətşahın barmağındakı üzühdən oxudu ki, hər nə iş görsən, axırın fikirrəş. Kişi belə qurudu, dih qalxdı?

Dedi:

– Qoja, niyə durdun?

Dedi:

– Şah sağ ol olsun, sənin barmağındakı üzühdə yazılanı oxudum, ona görə.

Dedi:

– Bəs sən dəlləh dəyilsən, qan almamısan?

Dedi:

– Elə bu yaşıma qədər qan almışam.

Dedi:

– Bə niyə duruxursan?

Dedi:

– Şah sağ olsun, mənim bir neşdərim vardı. Bir nəfər onun əvəzinə maa ayrı bir neşdər verdi. Pis neşdər dəyil. Ama bilmirəm, dərin gedər, dayaz gedər, qan çox gedər, az gedər?

Dedi:

– İndi o adamı tanıyırsan?

Dedi:

– Tanıyıram.

Dedi:

– Vəzir-vəkil, hamınız yığılın bıra.

Hamısın yığdı bıra. Dedi ki, dəlləh, qoluu çirmə, neşdəri əvvəl vır bına, sora maa vırarsan. Vırdı vəzirə, vəzir uzandı, yerdə qaldı. Hər kim ki, pətşaha qarşı iş qurmuşdu, Şah Abbas əmr elədi, dəlləh hamısını neşdərlədi, uzatdı yerə. Şah Abbas qırmızı geyindi, çıxdı taxta. Çıxdı nə çıxdı, buğa kimi höykürdü. Çağırdı qoşunbaşını:

– Dəli Bejan!

Dedi:

– Nədi?

Dedi:

– Get Pinəçi Allahverdini çağır, gəlsin bıra.

Getdi Pinəçi Allahverdinin qapısına. Pinəçi Allahverdi gördü, bıdı, Dəli Bejan gəlip. Ayiləsiynən halal-hümbət eliyip görüşdü. Getdi Şah Abbasın yanına. Gördü, Şah Abbas xoruz kimi qıpqırmızı qızarıp, qəzəplidi.

Dedi:

– Pinəçi Alahverdi, məni aldatdın ha?

Dedi:

– O sözün qiyməti beş yüz tüməndi, mən yüz tümən demişəm. Pulumun qalanın da ver.

Nəkqədir Şah Abbas dedi, bı cavap verdi, Şah Abbas dedi, bı cavap verdi. Şah Abbas dedi:

– Onda bıra gəl.

Getdi, qapını aşdı, vəzir-vəkilin meyitini görsətdi, dedi:

– Vallah, səni bıllardan betər eliyərəm.

Dedi:

– Şah sağ olsun, bıllar zəhərrənip ölüp.

Dedi:

– Nə bilirsən zəhərnən ölüp?

Dedi:

– Görmürsən, gömgöy göyəriplər?

Soyundu, Şah Abbas çıqqanı-zadı töhdü yerə, dedi:

– Bu günnən şah sənsən, götür şahlığımı. Sənin sözün olmasaydı, indi mən yoxdum.

Dedi:

– Şah sağ olsun, ədalətəə güj eləmə, geyin şahlıx paltarını. Gejə sənin ayağın gəzəni günüz mənim başım gəzməz. Mən ölkəni dolandıra bilmərəm.

Dedi:

– Onda vəzir ol mənə.

Dedi:
– Bına irazı olaram.
O vaxtdan Pinəçi Allahverdi oldu Vəzir Allahverdi.

## 143. EKİZ QARDAŞLAR

Bir vilayətin padşahı ölür. Vəzir-vəkil tovuz quşun uçurullar, quş gedip qonur padşahın on dört yaşdı bir oğlu qalıpmış, onun əviin qabağına. Genə uçurullar, genə gedip qonur həmən oğlaan əviin üstünə. Vəzir-vəkil tökülüşür padşah oğluun qapısına, deyillər:

– Neçə dəfə quş uçurtdux, tovuz quşu sənnən əl çəhmədi, gəl padşahlığı qabul elə, vilayatı dolandır.

Padşahın oğlu deyir:

– Əşi, mən nəyəm ki, bı vilayatı dolandıram? Mən özümü hərriyəmmirəm, sizə nə təhər padşahlıx eliyə bilərəm? Yox, yox, mənnən keçin.

Vəzir-vəkil, cahamat deyir ki, yox, elə şey olar? Quş bir şey bilir ki, gəlip bıra qonur, ancax gərəh sən olasan patşah. Padşah oğlu baxır ki, başqa cürə olmuyaceh, deyir:

Onda maa bir il möhlət verin, sora olaram.

Naəlaş qalıp vilayatı bir illiyinə tapşırıllar vəzirə. Nağıl dili yüyrəh olar. Bir il fırranır keçir. Gəlillər padşah oğluun yanına, deyillər:

– Vədə tamamdı, çıx taxda.

Padşah oğlu deyir:

– Əvvəlcə məni atamın torpaxlarında gəzdirin, sərhəddəri gösdərin, sora çıxajem taxda.

Bəli, atdarı yəhərriyillər, çıxıllar səfərə. O kənt sənin, bu kənt mənim, bı vilayətin sərhəddərin dolanıllar. Bir gün gəlip çıxıllar bir kəndin yanına, görüllər çəmənnihdə bir sürü mal otduyur. Bir inəh yatıp yerə. Padşah oğlu deyir ki, kim diyər, bı inəyin qarnındakı balası dişidi, ya erkəhdi?

Heş kim bilmir. Padşah oğlu deyir ki, ama mən bilirəm, bı inəyin qarnındakı balası dişidi, bənöyüş bızavdı, alnında da qaş-

qası var. Padşah oğlu bını deyən kimi kolluxdan bir qah-qaha səsi gəlir. Deməynən, elə padşah oğlu yaşında bir naxırçıdı, padşahın adamlarını görüp gedip kolluxda gizdənipmiş. Padşah oğlu atın sürür kolluğa, deyir:

– Sən kimsən ki, məəm sözümə qah-qah çəhdin?

Bı oğlan, adı da ola Məhəmməd, kolluxdan çıxır, deyir ki, mən bı sürüün naxırçısıyam, adım da Məhəmmətdi. Sən hamısın düz dedin, ama bı buzov qaşqa dəyil, quyruğu qatdanıp gəlip alnına, odu ki, sən elə bildin qaşqadı. Padşah oğlu cibinnən bir kisə qızıl çıxarıp atır Məhəmmədə, deyir:

– Bı inəyin haqqı, kəsin görəh sən deyən düzdü, yoxsa mən deyən?

– İnəyi kəsillər, görüllər ki, Məhəmməd deyən düzdü, bızov qaşqa dəyil. Padşah oğlu ürəyində deyir: "Əyə, bı mənnən ağıllıdı, gərəh bını aparam yanıma".

Deyir:

– Məhəmməd, maa vəzir olarsan?

Məhəmməd deyir ki, yox, məəm yolum başqadı, səninki başqa. Padşah oğlu nəkqədər eliyir, Məhəmməd razı olmur. Axırda padşah oğlu fikirrəşir ki, bı işdə zor fayda verməz. Gedim bir müddətdən sora məslahatnan gətirrəm yanıma.

Padşah oğlu qayıdır sarayına. Bir müddət keçir, adam göndərip Məhəmmədi çağırtdırır yanına. Ora Məhəmməd, bıra Məhəmməd, Məhəmmədi tapammırlar. İndi də saa kimnən deyim, Məhəmmətdən.

Məhəmməd axşam naxırı kəndə gətirir, fikirrəşir ki, bı padşah oğlu mənnən əl çəhmiyəjəh, nətəər eləyim, necə eləyim ki, məni tapamməsin? Məhəmməd götürür paltarın dəyişir, başına da bir qoyun dərisi keçirir, olur bir keçəl qız. Gəlir padşahın sarayına, yalvarır ki, bəs yetim qızam, maa bırda bir iş verin, işdiyim, həm də qalım. Bı keçəl qıza yazıxları gəlir, götürüllər yeməhxanıya, deyillər: "Yazıxdı, bırda qabdan-qajaxdan yuyar, həm də bir qarın çörəh yeyər".

Məhəmməd bırda qalsın, bı yannan da padşahın oğluun halı olur pərişan. Deyir: "Nətəər olsa, gərəh Məhəmmədi tapam". Vəzirnən vəkili çağırır yanına, hərəsinə bir kisə qızıl verir, deyir:

– Düşün vilayatdara, hər yerdə soruşun ku, dünyada ən güjdü şeytan hansıdı?

Patşah oğlu bilir ki, elə-belə axtarmaxnan Məhəmmədi tapmax olmaz, ona görə də bı sözü vəzirnən vəkilə deyip yola salır. Vəzirnən vəkil çox yeri dolanıllar, hər yerdə padşah oğlu tapşırdığı sözü soruşullar, hərə bir şey deyir. Vaxt tamam olur, vəzirnən vəkil yorğun-arğın qayıdıp gəlir. Padşah yeməkxanasının yanından keçəndə Məhəmməd qız paltarında, başında da qoyun dərisi çıxır bınnarın qabağına, deyir:

– Gəlin bir çay için, sora gedərsiz.

Vəzirnən vəkil girillər yeməhxanıya, oturullar, Məhəmməd bınnarın yanına gəlip deyir ki, mən bilirəm, siz nə axtarırsız, çayızı için, mən bir əhvalat danışacem, gedip padşah oğluna deyərsiz. Vəzirnən-vəkil deyillər: "Balam, bı keçəl qız nə bilir, biz nə axtarırıx?" Fikirrəşillər ki, yağın eşidipdi, eşidip bilənnərdən soruşupdu. Məhəmməd başdıyır nağıl eləməyə. Deyir:

– Bir kəntdə bir ailə varmış, çox mehriban dolanırmışdar. Ata-anaymış, iki də qardaşıymış. Bınnarın qonşuluğunda bir qarı da varmış. Bı qarı ha çalışırmış ki, ayilənin mehribançılığını pozsun, bajarəmmirmiş. Vaxt olur ki, bı qardaşdarın ata-anası ölür. Bınnarın da evlənməh vaxtıymış. Yığışıp məslahat eliyillər ki, bəs gərəh bı qardaşdar evlənsinnər. Qardaşdar gedip hərəsi bir qız alır. Qonşu qarı deyir: "Həə, indi mən arzuma çataram, bı ailəyə bir məğlətə* salaram". Bir gün qardaşdardan biri gedir çölə odun qırmağa, arvadı qalır əvdə. Qarı tumanını çırmayıp alır əlinə, gedir çöldəki qardaşın yanına, deyir: "Ay namıssız, sən bırda odun qırırsan, arvadın əvdə qardaşınnan oynuyur, belə də namıssızdıx olar?" Qarı oradan da gəlir bulaxda o biri qardaşın arvadına deyir: "Ay axmax, səən başın qarışıp bırda su götürməyə, ərin orda qayın arva-

* məğlətə – qarışıqlıq, çaxnaşma

dınnan pis əməldən çıxır, özüm görmüşəm". Bəli, çöldəki qardaş dəhrəni, baltanı qapıb cumur əvə, onnan qabax da bulaxdakı arvad özünü yetirir əvə, saşyolmasına çıxır. Bı yannan da qardaşdar bir-birin qanına qəltan eyliyir. İndi bilin ki, dünyada ən gücdü şeytan adam şeytanıdı.

Vəzirnən vəkil çaylarını içip durullar ayağa, gəlillər padşah oğluun yanına. Padşah oğlu deyir ki, gəlib çıxdıız? İndi danışın görüm, nə öyrənipsiz? Bınnar eşitdihlərini danışıllar, padşah oğlu qəzəblənir, deyir:

– Sizə bı qədər qızıl vermişəm, elə öyrəndiyiz bınnardı? Cəllad, tez apar bınnarın başın bədəninnən üz!

Cəllad bınnarı cələhliyip* aparanda vəkil deyir:

– Amandı, öldürməyin, bəs biri qalıp.

Padşah oğlu deyir:

– Danış.

Vəkil Məhəmməddən eşitdiyini nağıl eliyir. Padşah o saat başa düşür ki, bını danışan Məhəmmətdi. Deyir:

– Deyin görüm, bını harda eşidipsiz?

Məhəmməd də bərh-bərh tapşırmışdı ki, bəs deməzsiz kimnən eşidipsiz. Ona gora da vəkil deyir:

– Bəs yadımnan çıxıp, yolda kimsə danışıp.

Padşah oğlu deyir:

– Tez ol yadaa sal, yoxsa ikiziin də boynu vırılaceh.

Qorxudan vəzir-vəkilin canına titrəmə düşür. Deyillər:

– Amandı, öldürtmə, deyəh. Bəs hal-nağıl belə, bını bizə səən yeməhxananda bir keçəl qız var, o danışıp.

Padşah oğlu əmr eliyir, Məhəmmədi gətirillər. Deyir:

– Əyə, sən doğurdanmı qızsan?

Məhəmməd baxır ki, padşah oğlu bının keçəl qız olmadığını əliin içi kimi bilir, deyir:

– Yox, mən elə Məhəmmədəm.

* cələhliyip – bağlayıp

Padşah oğlu əmr eliyir, Məhəmmədi aparıllar hamama, yuyundurup, geyindirip gətirillər genə də padşah oğluun yanına. Padşah oğlu deyir:

– Məhəmməd, sən gəl, mənə vəzir ol.

Məhəmməd deyir:

– Padşah sağ olsun, sən də, mən də bir toxumnan əmələ gəlmişih, ama Allahtala taleh yazanda saa bir ağ qoş göndərip, buynuzdu, kərə, quyruxlu qoşdu. Maa da bir qara qoş göndərip, buynuzsuz, quyruxsuz qoşdu. Ona gora ki, buynuzunnan quyruğunu qatdayıp qoparıp. İndi mən saa vəzir olammərəm, talehimiz ayrı cürə yazılıp.

Padşah oğlu bunun dediyiynən razılaşır. Məhəmməd patşah oğluynan halallaşıb genə qayıdır öz kəntdərinə. Allahın verdiyi ömrü yaşıyır, padşah oğlu da öz ömrünü yaşıyır.

İndi ekiz olanda noolar, hərəən öz ömrü var, onu yaşamalıdı.

## 144. PADŞAHLA DƏMİRÇİ

Deyir, qonaxlıq olur, padşah qonaxlıq eliyir. Camahatın hamısını çağırır yığır ora, yeməh-işməhdə. Yeməh-işməhdən sonra bir-bir durğuzdurur əyağa, deyir, sən nə sənətin yəəsisən, sən nə sənətin yəəsisən? Biri deyir, mən palan tikirəm, biri deyir, mən tifar hörürəm, biri deyir, mən həkiməm. Bir cavan oğlanı da durğuzdurur əyağa, deyir sən nə sənətin sahibisən? Deyir, mən dəmirçiyəm. Deyir, sənin sənətin sənət deyil, dur məclisdən çıx. Bı cavan oğlan durur çıxır küçüyə. Küçəynən üstdən aşağı gedəndə öz-özünə deyir, ə, palan tikənin, nə bilim, tifar qoyanın, kimi-kimi hamısını məclisdə saxladı, maa dedi ki, sənin sənətin sənət dəyil, məni qovdu. Bəs mən neylim, nəynən dolanacam? Mən nə təhər yaşıyacam? Küçəynən üstdən aşağı gələndə görür ki, bir çəhmə qəyiran yer var. Öz-özünə fikirrəşir ki, bı da sənətdi da, dönüm elə bı çəhmə qəyirmağı örgənim. Gəlib görür, bir qoca kişidi, deyir:

– Əmi, sən bırda nə iş görürsən?

Deyir ki, mən çəhmə düzəldirəm.

Deyir:

– Ola bilər ki, məni də götürəsən şəyird? Bir yetim gədəyəm, çəhmə tikmağı örgənim, o da bir sənətdi.

Qoca deyir:

– Bala, nolar, gəl örgən.

Bir beş-on gün işdiyənnən sora qoca görür ki, bı çox fərasətti oğlandı. Nə deyirsən onu götürür, nə deyirsən eliyir, əyaxqabı tikməyi-zadı, hər şeyi bacarır. Təxminən bir ay bırda işdiyənnən sora bir günnəri padşahın qızı qırx qıznan küçeynən gedirmiş hamama. Bu oğlan da bir elan yazıp vırıppış qapıya ki, kimin nə arzusu varsa, bırda qəbul olur. Qapıya yazmalıydı ki, bırda əyaxqabı qəyrılır. Oğlan savaddı oğlanıydı da, qəşəh xətnən yazıp vırır qapıya ki, bırda kimin nə arzusu var, qəbul olunur. Padşahın qızı gəlib keçəndə bı elanı oxuyur, görür çox qəşəh bir xətnən yazılıp, kimdisə savadlı adamdı, amma mənası düz deyil axı. Nətər yanı, kimin nə arzusu var, bırda qəbul olunur? Gəlir ayağın birin qoyur içəri, görür bir cavan oğlandı, bir də bir qoca kişidi. Deyir:

– Bırda nə iş görürsüz?

Deyir:

– Əyaxqabı tikirih.

İndi padşahın qızı ta əyağın birin qoyub da içəri, sözün geri götürməməhdən yana deyir ki, bəs ola bilər ki, maa bir cüt əyaxqabı tikəsiz? Kişi dinməmiş oğlan deyir:

– Olar, bı şərtnən ki, get əlli metir aralıda dur, əyağı çıxart, ölçüsün götürüm.

Qız öz-özünə fikirrəşir ki, bı nətər ustadı ki, əlli metrədən ölçü götürür?

Bı qız gedənnən sora bı oğlan əyaqqabını tikir. Qız səhər tezdənnən gəlir ki, görüm əyaxqabı hazırdımı? Padşahın qızına əyaxqabı əskik deyil ki. Oğlanın əlli metir aralıdan ölçü götürməyi qızı maraxlandırır. Deyir ki, axı, görüm bı əlli metrdən ölçü götürüp nətər əyaxqabı tikir? Oğlan çıxardır əyaxqabını verir. Qız geyir əyağına, görür ki, lap əyağına görədi. Qız çıxır gedir.

Aradan bir neçə gün keçənnən sora oğlan öz-özünə fikirrəşir ki, mən belə sənət yəəsi olam gələm bırda əyaxqabı tikəm, bınnan dolanam – belə olmaz. Madam padşah məni məclisdən qovup, mən hər şeyi bıraxıram, gedip patşahın qızıl xəzinəsini yaracam. Oğlanda hər cürə alət varıdı, dəmirçiydi axı. Dəmiri kəsə bilirdi, doğruya bilirdi. Ona görə də xəzinə yarmax onun əlində hasand idi. Gecəyarı gedir xəzinəni daldan yarır, sandıxları kəsir-doğruyur, qoynun-qoltuğun qızılnan doldurur, çıxır. Sora xəzinəni elə düzəldir, qayırır ki, heş məhlim eləmir ki, bı xəzinə yarılıp. Xəzinənin də qaravılçısı-zadı qabaxdadı da, nə xəbərrəri var? Bı oğlan hər gecə gəlir xəzinəni yarır, qoynun-qoltuğun doldurur çıxır. Oğlan gətirdiyinnən bı ustaya da verirdi. Usta ona yalvarır ki, bala, səni ant verirəm səni yaradan Allaha, məni də apargınən, heç olmasa qoynumu-qoltuğumu doldurum, bir gözüm doysun daa. Oğlan deyir:

– Əşi, neynirsən axı, mən gətirirəm saa da verirəm dana.

Hər bir şeyin hesabı olan kimi, bu xəzinənin də hesab-kitabı vardı. Ayın başında otdular hesabladılar, gördülər ki, xəzinədən filan qədər qızıl yoxdu. Hamı dedi ki, balam, bı qızıla nə gəldi, necoldu, nətəər oldu? Vəzir dedi ki, patşah sağ olsun, bırda surğuş* qırılmıyıp, bir yerdən yarılmıyıp, bıra heş bir bəni-insan gəlmiyip. Yəqin məleykələr Allah-təala tərəfindən çəkir göyə daa. Patşah deyir:

– Əşi, necə yanı, mənim halal malımı maleykələr çəkir nədi?

Qırx gün sizə vaxt verirəm. Tapdız, tapdız, tapbadız oğrunu, başıız fərmandadı.

Vəzirnən vəkil gəlir çox fikirrəşir. Vəzir deyir ki, pətşahi-aləm sağ olsun, mən tədbir fikirrəşmişəm.

Patşah deyir:

– Nədi?

Vəzir deyir ki, gətiginən bir yerdə bir yeməhxana açax, orda olan çəngəl-pıçax nə varsa, hamısı qızıldan olsun. Bir eylan vı-

---

* surğuş – möhür

rax qapıya ki, kim pulsuz yeməh istiyirsə, gəlsin bırda yesin. O kimdisə – o xəzinəni yaran, qızılı tanıyan adamdı daa. O çəngəli-pıçağı elə-belə adi adam bilməz ki qızıldandı. Xəzinəni yaran kimdisə, vərdişkar adamdı. Bir dəfə əyağı düşəcəh bıra. Yeyip-içənnən sora çəngəl-pıçaxdan birin mütlax aparaceh. Qapıda güdühcü qoyax, qapıdan çıxannarın ciblərin axtarsınnar. Kimnən çıxsa, elə xəzinəni aparan da odu.

Bir günnəri bizim bı dəmirçiin də əyağı tüşür həmən küçüyə. Baxıp göör ki, bir eylan vırıplar ki, bəs kim pulsuz yeməh istiyirsə, gəlsin bıra. Bı da keçir içəri. Qəşəh yuyunur, gəlir oturur. Yeməh gəlir bının qabağına. Baxır görür ki, çəngəl-pıçax hamısı qızıldandı. Oğlan deyir:

– Mən nə axmaq adamam. Gecə səhərətən yuxusuz qalıram, gedirəm xəzinəni yarıram. Gündə gəlim elə bırda yeməyimi yeyim, hərdən də bir pıçax-çəngəl götürsəm, bəsimdi.

Bı minvalnan durdu çəngəlin birin götdü, qoydu cibinə. Qapıdan çıxanda gördü ki, qapıda güdühçülər qoyulup, çıxannarın cibin axtarır. Gördü ki, özünnən qabax bir qoca arvat var, şal bağlıyıp ortasına. Tez gətdi çəngəli arxadan saldı arvadın şalına. Arvat da qoca arvatdı da, orasına-bırasına baxdılar, bıraxdılar. Oğlanı da axtardılar, gördülər bir şey yoxdu, buun da bıraxdılar. Oğlan gəldi küçədə arvadın şalınnan çəngəli elə çəkdi ki, heş arvad bilmədi. Çəngəli götdü getdi.

Axşam hesapladılar, gördülər ki, çəngəlin biri yoxdu. Dedilər ki, həə, həmən xəzinəni yaran adamdı, çəngəlin birin aparıp.

Aradan bir neçə gün keçənnən sora bı səfər vəkil dedi ki, patşah-aləm sağ olsun, ayrı bir çarəsi yoxdu, gətiginən bir otax bəziyax, sənin qızın da çox gözəldi, aparax sənin qızını qoyax ora. Orda hər barmağına bir dənə birliyant üzüh taxax. O kimdisə, onun bıra da əyağı düşəcəh. Birliyant qızıldan da qiymətlidi, onun tamahı durmayacax, mütləh qızın barmağınnan birin çəhməlidi. Qıza da möhür hazırlayax verəh, kim üzüyü barmağınnan çəhsə, qızın möhürnən vırsın alnına. Onnan sora hara getsə, hansı vilayətə getsə, möhürnən tapaceyıx onu.

Bı minvalnan otağı hazırradılar. Qızı apardılar qoydular ora, möhürü də verip nə lazımdı tapşırdılar.

Bir günnəri genə bizim bı dəmirçinin əyağı tüşdü bı küçüyə. Gördü ki, bir eylan yazıplar: "Kim pətşahın qızını görməh istiyirsə, filan yerdə ona baxa bilər". Oğlan girdi içəri, gördü ki, qızı oturduplar taxtda, bəzənip-düzənip, ama hər barmağında bir dənə birliyant üzüh var. İçəri də doludu adamnan. Hamı baxır.

Bı da tanıyır qızı – çəhmə tikip axı qıza. Çatdı qızın yanına, çatan kimi əl atdı üzüyün birin çəhdi, üzüyün biri çıxdı. Qız yerdən qalxdı, möhürdən vırdı düz oğlanın alnına. Oğlan tez əl atdı qızın əlinnən möhürü aldı, içəridə nə qədər adam varıdı, hamısını möhürrədi, çıxdı çölə. Töküldülər yenişə-yoxuşa, baxdılar, gördülər bının hamısı möhürrüdü. Nə bilsinnər bının hansıdı xəzinə yaran?! Bı kələh də baş tutmadı.

Oğlan genə başdadı hər gecə xəzinəni yarıp aparmağa. Misir patşahı da bı vilayətin patşahıynan qardaşdığ imiş, möhkəm dostumuş. Bı əhvalatı eşidir, ordan xəbər göndərir ki, sən nə patşahsan ki, sənin xəzinənnən belə qızılı çəkip aparıllar, sən bir oğrunu tapa bilmirsən? Bı dərt də bir yannan patşaha əsər elədi.

Bir günnəri qız gördü ki, atası saralıp-solur. Dedi:

– Ata, sən mana icazə verginən, mən o oğrunu taparam.

Patşah dedi:

– Qızım, səni dünya malına qane edərəm. Məni bı əzapdan kutar.

Qız gəldi, heş kimin xəbəri olmadan xəzinənin dörd bir yanını qazdırdı adam boyda, qırı əritdi töhdürdü ora ki, bura kimdisə, insan gəlir da, onu tutsun. Həsirnən-filannan üstünü ötdürdü ki, bilməsin. Həmən gecə usta oğlannan əl çəhmədi ki, çəhmədi. Dedi:

– Səni ant verirəm səni yaradan Allaha, məən də aparginən.

Oğlan da bilmir axı bırda belə iş olup – tələ quruplar. Olmadı, oğlan ustaan da götdü apardı. Genə kəsdiyini kəsdi, doğradığını doğradı. Oğlan ustaya dedi:

– Usta, keç.

Usta əyağının birin atdı, o birin atanda şarap düşdü quyuya. Oğlan baxdı ki, usta gedir yavaş-yavaş. Usta dedi:

– Ay bala, mən gedirəm.

Oğlan dedi:

– Qorxma, çıxardecem.

Əyağın qoydu kişinin çiyninə, addadı o tərəfdən qoynun-qoltuğun doldurdu qızılnan. Addadı bəri tərəfə, kişinin başın bir az özünə sarı elədi, xəncərnən kişinin başın kəsdi. O qəddərə saxladı ki, qanı-zadı süzüldü. Ordan olan palazdan-zaddan bir şey götürüp kişinin başın pühdü. Kişinin başın götdü. Genə xəzinənin düzəltməlisin düzəltdi, qayırmalısın qayırdı, çıxdı gəldi.

Səhər tezdənnən qız genə adam göndərdi, getsinnər, baxsınnar. Qız səhərətən yatmamışdı ki, oğru gəldisə, təliyə düşməlidi.

Getdilər gördülər bir adam var, düşüb boğazatan batıp qıra, başı yoxdu. İsti su töhdülər, dəm-dəsgəhnan bir təərnən çıxartdılar, yudular-təmizdədilər. Bir də qızılı saydılar. Gördülər genə aparıplar. Qız bildi ki, kimdisə genə apardı. Bı başı kəsilən kimdisə, bədbaxdı, gəlib düşüb elə bıra. Qızılı aparan aparıp. Qız əmir verdi ki, meyidi aparıp bazarın darvazasınnan asın. Kim gəlib bının yanında ağlasa – qohumunnan, arvadınnan-uşağınnan, o adamı gətirin mənim yanıma.

Oğlan səhər tezdən çıxdı bazara. Gördü ki, bazarın darvazasınnan ustanın meyidini asıplar. Oğlan gəldi ustaan arvadının yanına, gətdi qızılı da töhdü onun qabağına. Dedi ki, xala, bilirsən nə var? Arvad dedi:

– Nədi?

Oğlan dedi:

– Sən bilirsən ki, biz həmişə gedirdih oğurruğa, ərinnən qızıl gətirirdih. Bı işdən xəbərin var. Bı gecə də getdih, kişini öldürdülər. Bı qızıl, nə qəddar istiyirsən oğul-boğul xəşdə. Ta ayrı çarəsi yoxdu, ta mən neyniyim?

Arvad başına-gözünə döydü ki, heç olmasa mən ərimin meyidini görüm, onnan sora basdırım. Ta indi işdi olup-olup, oğurruxdu.

Oğlan dedi ki, indi ki, ərıı görmax istiyirsən, nətəər deyirəm, heylə elə. Arvat dedi:

– Nətəər eliyim?

Oğlan dedi:

– Bir cəvəran[*] yumurta götürərsən, gedərsən bazara. Kişinin meyidini bazarda darvazadan asıplar. Elə ki, kişinin meyidinin yanına çatdın, əyağın ilişdirərsən daşa, cəvəran yumurtanı buraxarsan. Yumurtalar tökülüb əzileceh. Başaa-gözaa döyüp o ki lazımdı, orda ağlıyarsan. Elə ki, səni apardılar, soruşdular, bı kişi sənin neyindi? Deyirsən ki, mən dul arvadam. O bazardan bı bazara yumurta yığmışam, gətirəm satam, uşaxlara çörəh alam. Mən yumurtaya ağlıyıram ki, gələn bazaratən mənim uşaxlarım nə yeyəcəh?

Arvat durdu getdi, cəvəranı doldurdu yumurtaynan, apardı bazara. Meyid asılan yerə çatan kimi əyağını ilişdirdi daşa, cəvəranı buraxdı, yumurta dağıldı, sındı. Arvat başına-gözünə nə ki lazımdı, döydü, ağladı. Patşahın adamları bını götüdülər, apardılar qızın yanına. Qız soruşdu:

– Xala, niyə ağlıyırsan, nəyindi o kişi?

Arvat dedi:

– Ay bala, mən bir dul arvadam, o bazardan bı bazara yumurta yığmışdım, satam, uşaxlara çörəh alam. Yıxıldım, yumurta sındı. İndi gələn bazaratan mən uşaxlara nə verəcəm?

Qız tapşırdı xəzinədara, arvada qəpikdən-quruşdan verdilər, dedi:

– Xala, bı pulnan apar gələn bazaratan dolan. Yumurta yığ, gələn bazar genə gətirip satarsan.

Bı minvalnan oğru genə tapılmadı. Artıq qırx gün tamam olmaxdaydı. Bir-iki gün qalmışdı ki, tamam olsun. Vəzirnən-vəkil asılmalıydı. Oğlan tapılmamışdı axı.

Oğlan gördü ki, bı vəzirnən-vəkili nahaxdan öldürəcehlər. Oğlan gəldi elçi daşının üstündə oturdu. Vəzir-vəkil gəldi ki, nə dərdin var? Oğlan dedi:

– Mənim sözüm-söhbətim sizə dəyil. Mənim patşahnan işim var.

---

[*] cəvəran – səbət

Oğlan getdi patşahın yanına. Dedi:

– Patşah-aləm sağ olsun, Allahdan gizdin dəyil, indi bəndədən nə gizdin olar. Sən bilirsən ki, sənin xəzinaa hər gecə yarıp aparıllar. Bını bütün dünya bilir. Maa əsər eliyən səən o qardaşdığındı ki, gündə bir dəfə saa xəbər göndərir ki, sən nə patşahsan bir oğrunu tapa bilmirsən? İndi sən maa icazə ver, mən gedim o patşahın özünü oğurruyum gətirim.

Patşah elə bilir ki, bı dəlidi. Çağırır vəzir-vəkili, deyir:

– Bı nə deyir, nə danışır? Aparın bına puldan-zaddan verin, yazıxdı, çıxıp getsin.

Oğlan deyir:

– Ə kişi, yox ey, mən sənnən söz danışıram. Mən gətiməsəm, boynumu vırdırın.

Patşah dedi:

– Yaxşı, get gəti.

Oğlan deyir:

– Yox, mən belə gedə bilmərəm. Gərəh kağız yazax, sora.

Padşah deyir:

– Ə, ona bir kağız qərəliyin verin.

Oğlana kağız yazıp verirlər. Oğlan əyağın diriyir ki, yox, gərəh möhür də vırasız.

Padşah kağızı möhürrüyür. Oğlan kağızı alır, qoyur qoynuna. Səhər tərpənir, gecə yarı çatır həmən patşahın bağına. Özüynən mışar götürür, çəkiş götürür, yeşih-meşih götürür. Gedir padşahın bağında meyvə ağaşdarı, nə var, hamısın doğruyur tökür yerə. Başdıyır yonmağa, guya taxta düzəldir. Padşah səsə alt paltarında pəncərədən baxır ki, ədə, bir pəzəvəngin biri ilişib bağa, bağı doğruyur, istahatdan salır. Tez elə alt paltarında gəlir bının yanına. Deyir:

– Ay oğul, bını niyə doğruyursan?

Oğlan deyir:

– Patşah-aləm sağ olsun, Allahdan gizdin dəyil, bəndədən nə gizdin olar? Sənin o qardaşdığın, o filan patşah ağzınnan canı çıxanda vəsiyyət elədi ki, mənim tabıtımı mənim qardaşdığımın ba-

ğındakı ağaşdardan düzəldərsən. Orda mən çox yeyib-içmişəm. İndi əl-ayağıma dolaşma, bir az aralı dur, mən işimi görüm.

Patşah başına-gözünə döyür. Sora deyir:

– A bala, bəs ipdən-zaddan gətimisən ölçünü bilməyə?

Oğlan deyir:

– Əşi, ya sən, ya o. İkizin də boyu birdi. Gir bı yeşiyin içinə, görüm nətəridi?

Patşah yeşiyin içinə girən kimi oğlan qapağı üstən basıp mıxlıyır. Kəndiri salır ortasına, atır çiyninə, tərpənir patşahın yanına. Aparır qoyur patşahın qabağına. Patşah deyir:

– Ay oğul, bı nədi?

Oğlan deyir:

– Ə kişi, aş gör nədi?

Ağzını açanda görür içinnən alt paltarda qardaşdığı çıxdı. Qardaşdığı görür bı patşah sağdı, qucaxlaşırlar. Bı patşah özünü sındırmır, deyir ki, görürsən, gündə maa bir xəbər göndərirdin ki, oğrunu tapa bilmirsən. İndi səən özünü oğurratdırıp gətimişəm bura.

Patşah göz basır öz adamlarına ki, bı pəzəvəngi gözdəsinnər, birdən qaçıp gedər, bınnan əməl əskik dəyil.

Bir neçə gün yeyip-içillər. Patşah qardaşdığın yola salannan sora bını çağırır deyir:

– İndi söhbət elə, görüm, bı nə kələkdi?

Oğlan deyir:

– Patşah sağ olsun, mənim dəlil-sübutum var, ayın-oyunum var, icazə ver, gedim gətirim, sora.

Patşah icazə verir. Gedir oğurradığı qızılları, çəngəli, birliyantı gətirir, qoyur patşahın qabağına, deyir:

– Yadındamı, məclisdə adamlardan sənətini soruşurdun. Biri dedi ki, tifar qoyanam, biri dedi palan tikənəm, nə bilim, biri dedi alimən. Mən də dedim dəmirçiyəm. Dedin ki, səən sənətin sənət dəyil, dur çıx məclisdən. Mən də sənətimi dəyişdim, bı sənətin yəəsi oldum. İndi istirsən məni öldür, istiirsən məni saxla.

Patşah deyir:

– Elə axmax adam mənəm, əsil patşah sənsən.

Qızın da verir bına, bını qoyur patşah. Onnan da kutarır çıxır gedir.

## 145. KİMİN YALANI UZUN OLAR?

Bir sarısakqal, göy göz kişi varmış, bı çox nainsafmış. Bunun üç dəyirmanı var. Bir kişinin oğlu dən üyütməyə gedir. Deyir:

– Ay dəyirmançı, ay dəyirmançı.

Sarısaqqal, göy göz kişi çıxır. Deyir:

– Bala, gəl. Bir tay dən var, onu üyüdüf qurtarannan sora sənkini başdıyaram.

Deyir:

– Yox, atam deyif ki, sarısaqqal, göy göz dəərmançı nainsaf olar, onun dəərmanına getmə.

Bu ulağı sürür, ikinci dəərmanın yanına gedəndə genə də görür burda da haman sarısakqal, göy göz kişidi. Deyir:

– Ay dəyirmançı, ay dəyirmançı.

Deyir:

– A bala, gəl, bir yük dən var. O dən üyünüf çıxannan sora sənkini üyüdərəm.

Əstafirillah. Onnan sora gedir üçüncü dəərmana. Bı kişi bir də gedir ora. Deyir:

– Bala, üş tay dən var, o üş tay dəni üyüdənnən sora sənin dəni üyüdərəm, gəl.

Deyir:

– Bının üçü də sarısakqal, göy göz kişidi, elə o savax getdiyim dəyirmana gedim, dəni üyüdüm, çıxıf gedim.

Qayıdar həmən sarısakqal, göy göz kişinin dəyirmanına. Başdıyır dəni üyüdür. Bı dəyirmançı deyir ki, oğul, çıx navın başınnan bir vedrə su gətir, kökə salax – kömbə. Oğlan gedir bir vedrə su gətirir. Bu nainsaf dəərmançı bir vedrə suyu tökür təknəyə. Bir tay unun hamısını xamır eliyir, fətir salır. Deyir ki, oğul, indi hərəmiz bir yalan danışajıyıx. Kimin yalanı uzun oldu, kömbələr də onun olsun. Başdıyır, oğlan deyir:

– Əmi, söz böyüyün olar, qavaxcan sən de.

Deyir, oğul, məəm bir rəhmətdih atam vardı. O dey, o dağı görürsən? O dağı dağıdarmış, yerində bir dəyirman tikərmiş, gələn dənçilərin dənini üyüdərmiş, yola salarmış, səhərə yaxın dağı düzəldərmiş yerinə. Bir də mənim atam dəryanın qırağında bir bostan əkif, bir tağ qarpız qol ata-ata gedif dəryanın ortasında bir qarpız salıf. Mən də qarpızın tağının üsdüynən getdim, qarpızı nişanladım ki, görüm dəyif-dəymiyif. Pıçağım düşdü içinə. – Bunu dəyirmançı deyir. – Deyir, gördüm yolnan bir-iki adam gedir. Dedilər, əşi, orda nə axtarırsan? Dedim, pıçağım düşüf. Deyir, əvi tikilənin oğlu, o qarpızın içində mənim bir qatar dəvəm itif.

Mənim yalanım bıdı, oğul. İndi sən nağıl elə.

Deyir:

– Dəyirmançı qardaş, olar ki, mənim yalanım inşallah ki, səninkinnən uzun olar.

İndi oğlan başdıyır. Deyir:

– Əmi, bizim çoxlu cücələrimiz, toyuxlarımız olardı. Bı toyuxlar kolda-kosda yumurtdarmış, bının yumurtasını bir yerə yığıf qutarammazdıx. İri səbətdər olur, onnarı səbətdərə yığıf töküf xırmana başdadıx üsdünə vəl qoşmağa. Yumurtanı vəlnən döydük, atam bını şanıynan savırdı, xoruzu bir yana çıxdı, cücəsi bir yana. Xoruzu bir yana çıxdı, cücəsi bir yana. Axırda atam bı xoruzun içinnən bir xoruz tutdu, qırxa bağladı*. Bağlıyannan sora, axırda bı xoruza bir yük dən yüklədi, apardı dərmana. Aparıf dəyirmana dənini üyüdüf qayıdannan sora atam dedi:

– Get, xoruzun belinin palanın al gətir.

Gördüm xoruzun belini üş yerdən palan vuruf, alıx verif da, yaralıyıf. Atama dedim. Dedi, get, onnarın hərəsinin yerinə bir çinar yarpağı qoy. Dəərmançı qardaş, mən də gətdim hər yaranın üsdə bir çinar yarpağı qoydum. Səhər durdux gördük xoruzun belinnən üş çinar ağacı çıxıb göyün yeddinci qatına. Dəərmançı qardaş, bı çinarın birinə çıxan bir ildən sora düşərmiş, ikincisinə çıxan iki

---

* qırxa bağladı – bəslədi, saxladı

ildən sora düşərmiş, üçüncüsünə çıxan üç ildən sora düşərmiş. Mənim yalanım bıdı. İndi mənim yalanım uzun oldu, yoxsa sənin?

Deyir:

– Oğul, əlbətdə, sənin yalanın uzun oldu.

İndi bı oğlan kökəni yığır xaşalara, çuallara. Dəərmançı deyir:

– Bala, maa vermirsən?

Deyir:

– Yox, vermiyəcəm.

Deyir:

– Heş olmasa bir bisdih ver də. – Bişdih də yüz qrama deyillər. – Üş günnən sora gələrsən, kökə verərəm.

Oğlan yühlüyür, bına da əl boyda kökə verif gedir. İndi üş günnən sora gəlir dəyirmançıdan kökəsini almağa. Dəyirmançı bilirmiş da vaxtı. Gəlir arvada deyir ki, ay arvad, dur o başdannan hay sal ki, dəyirmançı ölüfdü. Məni gəlif bir cavan oğlan axtarajax, ona deyərsən ki, dəyirmançı baba ölüfdü bir bisti kökədən ötrü. Oğlan üş günnən sora gedir dəyirmançının evinə. Soraxlıyır kəndi ki, dəərmançının evi hardadı? Gəlir dəyirmançının evinin qapısına çıxır. Arvadı çağırıllar ki, bir cavan oğlan gəlif dəyirmançını soruşur. Arvad çıxıf deyir ki, bala, başa dönüm, dəyirmançı ölüfdü.

Deyir:

– Ay ana, Allah ona irəhmət eləsin. Üş gün bunnan qavax dəyirmanına gəlmişdim, maa vəsi elədi ki, mən öləndə sən gərəh məni yuasan. İndi onu mən yuajam.

Deyir:

– Nolar, madam ki, vəsi eliyif, sən yu.

İndi bı dəyirmançını götürüllər yuata. Biri su tökür, oğlan da yuyur. İsdi su tökür, soyux su tökəndə əlində çarıx bizi varmış, soxur kişinin buduna. Kişi gözünü açır. Deyir:

– Bisdimi ver.

Kişi bərh-bərh gözünü yumur. Bir də belə-belə, bını deşih-deşih eliyir. Deyir ki, Allah bu kişiyə irəhmət eləsin, maa bir də vəsi eləmişdi ki, üş gün kümbəzdə mənim qaroulumu sən çəkərsən. İndi bını aparıf qoyullar kümbəzə. Bı da kişini aparıf basdıranda küm-

bəzin bööründə uçux qabır varmış, girir ora. Görüllər ki, gecənin bir aləmində üş-dört nəfər quldur şəhəri, evi yarıf, gətirif bırda bölüllər. Arada bir gorda qalır. Gorda da xançala deyilir. Deyir:

– Kim bu xançalı bir dəfiyə bı meyidin ortasınnan keçirsə, xançal onun olsun.

Biri qolunu çərmiyir, dizini qoyur yerə, xançalı belə qaldırıf yendirim deyəndə kişi qalxır:

– Ölülər gəlin, dirilər qaşdı.

Bı keçəl də qabırdan səs verir ki, əyə, qoyma, gəldim. Bı quldurrar qorxularınnan qaçır. Bir az gedənnən sora deyir:

– Ə, bəlkə bizi qara basırmış, qayıdax gedəh, birimiz baxsın görsün doğrudan belə şeydi?

İndi bı keçəlnən dəyirmançı malı bölür. Böləndə genə bı keçəl deyir:

– Mənim bisdimi ver.

Ayana baxır, bayana baxır, keçəl də elə "bisdimi ver" – deyif durur. Dəərmançı gördü ki, kümbəzin balaca qapısı var. Bir buxara papax kişi gəlif ordan baxır. Bı quldurrarın yoldaşıdı. Bı oğlan "bisdimi ver" – deyəndə dəyirmançı hopbulur onun başındakı papağı alır, vırır bı keçəlin başına, deyir:

– Ala, bı da sən bisdin, sox gözaa.

Quldurbaşı gedir hay salır yoldaşdarına ki, əyə, qaçın canızı qurtarın. Bisdi-bisdi bölmüşdülər, birinə də pay düşməmişdi, mənim papağımı götürdülər.

Hə, bala, nağıl bırda başa çatdı. Olar yesin şişə çatsın, biz də yeyəh-içəh öz muradımıza çatax.

## 146. BİTLƏ BİRƏ

Bir bit olur, adı Təziy olur, birənin adı Narmanazıx. Guya bular ayilədilər də. Bir gün Narmanazıx abedə ocaq qalıyır, bir qab qoyur ki, su qızsın, Təziyin paltarrarın yusun. Küləh əsir, Təziyi götürür atır ocağa. Təziy ölür. Narmanazıx başdıyır başına-götünə döyməyə. Kəntdə traxtor varımış. Traxtor deyir:

– Ey Narmanazıx, saa nə gəlif?

Deyir:

– Təziy ocağa düşüf yanıf.

Traxtor başdıyır:

– Nərr-nərr, hırr-hırr.

Bir qarğa gəlir, qonur traxtorun üstə. Deyir:

– Ey traxtoru-zat, saa nə gəlif belə eliyirsən?

Deyir:

– Narmanazıx deyir ki, Təziy düşüf ocağa, yanıfdı.

Qarğa nətəəri hirsdənirsə, başdıyır: “Qarr, qurr, qarr”. Gəlir qonur bir çinar ağacına. Çinar dilə gəlir, deyir:

– Ey qarğeyi-qurqut, saa nə gəlif?

Deyir:

– Traxtoru-zat deyir ki, Narmanazıx deyir, Təziy düşüf ocağa, ölüf.

Çinar hirsdənir, nətəəri yarpağın silkəliyirsə, yarpaxlar tökülür suya. Dibinnən su axırmış. Su dilə gəlir, deyir:

– Ey çinari-burbut, saa nə gəlif?

Deyir:

– Qarğeyi-qurqut deyir ki, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Su hirsdənir, bulanır, daşıb zəmiyə dolur. Zəmi deyir:

– Ey abiyi-zəmzəm, saa nə gəlif?

Deyir:

– Çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir Təziy düşüf ocağa, yanıf.

Zəmi hirsinnən yatır suya, başını qoyur yerə. Bu heyində zəmi sahibi gəlir, deyir:

– Ey adili-bünövrə, saa nə gəlif?

Deyir:

– Çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir Təziy düşüf ocağa, yanıf.

Zəmi sahibi hirsdənir, beli soxur özünə. Bu heyni zəmi sahibinin oğlu gəlir, deyir:

– Ey ateyi-bel-buxun, saa nə gəlif?

Deyir:

– Abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Oğlan da keçəlimiş. Keçəlini qartdıya-qartdıya, qışqıra-qışqıra anasının üstünə gedir. – Keçələ əl vurdun başınnan qan axmalıdı. – Gedif görür anası təndirə çörək yapır. Anası deyir:

– Keçəli-səri-soxdar, saa nə gəlif?

Deyir:

– Ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir Təziy düşüf ocağa, yanıf.

Arvat hirsdənir, öz süd vəzdərin – bizdə ona əmcəh deyillər, – götürüf yapır təndirə. Niyə? Təziy ölüb. Bu heynidə kəndin axundu gəlir, deyir:

– Ey arvadi-püstə-təndir, saa nə gəlif?

Deyir:

– Keçəli-səri-soxdar deyir, ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir Təziy düşüf ocağa, yanıf.

Axund hirsdənir, başındakı əmmaməni götürüf çırpır yerə ki, Təziy niyə ölüf cavan vaxtında. Bu heyində dəyirmançı gəlir:

– Axundu-hindiqulu, saa nə gəlif?

Deyir:

– Arvadı-püstə-təndir deyir ki, keçəli-səri-soxdar deyir, ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir Təziy düşüf ocağa, yanıf.

Deyir:

– Onnan ötəri ağlıyırsan?

Deyir:

– Bəli, o boyda Təziy ölüf.

Deyir:

– Gedəh mən saa Təziyi də verim, Narmanazığı da. Ta kəndin ağıllısı sənsən, bir dənə bitdən ötəri əmmamanı salmısan yerə. Gedəh, görəh axmağı nə gündədi.

Dəyirmançı axundu gətirir, deyir:

– Sən başı qoy dəyirman daşının üsdünə, mən gedim suyu buraxım, gəlsin. Təziynən Narmanazıx yanmıyıflar, suyun içindədilər, tutarsan. Yaxşı?

Deyir:

– Yaxşı.

Dəyirman işə düşdü, qutardı də. Suyu qoşan kimi dəyirman daşı işə düşür, bunun başın xırt-xəşil eliyir. Deyir: "İndi o sənin Narmanaziyin, o da Təziyin, di tut".

## 147. ŞİRLƏ TÜLKÜ

Bizim yerdə bir Süsən dağı var, bir də bir Əsgülüm dağı var. Süsən dağında bir şir yaşıyırmış. Eşidir ki, Əsgülüm meşəsində yaxşı yem var. Deyir, yaxşı, var, var da, gedim görüm mən də orda yaşıya bilərəmmi? Gedir bir çaydan keçir. Belə Əsgülüm sərhədinə girəndə bir tülkü, balaca bir açıx yer varmış, orda ov eliyirmiş, siçan tuturmuş. Oturub deşiyin ağzında marığa yatıbmış ki, siçan indi çıxar, bir azdan çıxar. O qədər marığa başı qarışır ki, bir də görür, bir şir yaxalıyıp bunu – iki-üç addım qalıp ona çatmağa. Qaçammır daa.

Deyir:

– Əə, şir lələ, xoş gəlmısən, sən hara, buralar hara?

Deyir:

– Əə, tülkü lələ, sən nə bilirsən ki, mən buralı deyiləm, bura gəlməyəm?

Dedi:

– Eee, şir sağ olsun, mən ömrümü bu Əsgülüm dağında yaşamışam. Nə qədir şirrər varsa, bəlkə beş dəfə biriynən, üç dəfə biriynən rasdaşmışam, ama səni indi görürəm.

Dedi:

– Doğru deyirsən, mən Süsən dağınnan gəlmişəm. Deyillər, bu meşə səfalı meşədi, burda yaşamaq yaxşıdı.

Dedi:

– Çox səfalı meşədi.

Dedi:

– Axı mən nabələdəm.

Dedi:

– Gə mənnən qardaş olax, mən görsədim, sən də avla gəti, bir yerdə yəəh daa. Dolanax.

Dedi:

– İllap yaxşı.

Razılaşdılar.

Şir dedi:

– İndi, qardaş, bərk acmışam.

Dedi:

– Bəri gəl.

Tülkü gördü, bir çoban qoyun aparır, bını apardı ora, dedi:

– İndi o qoyun, o da sən.

Şir sıçradı. Çoban gördü şir gəlir, qaşdı. Şir qoyunnardan birin vırdı cənginə, götdü gəldi. Özünü verdi bir qaratikan kolunun dibinə. Allah heç həqqi tanıyanı ac eləməsin. Acıydı, başdadı yeməyə. Tülkü sınıdı durdu bir qıraxda. Şir birdən başın qaldırdı gördü, axı tülkü yemir. Dedi:

– Əə, tülkü qardaş, gəl sən də ye daa.

Dedi ki, axı qorxuram.

Dedi:

– Kimnən, nədən?

Dedi:

– Sənnən.

Dedi:

– Bə mən deyirəm dəə.

Dedi:

– Yox, desən də mümkün yoxdu.

Dedi:

– Neyniyəh?

Dedi:

– İndi ki həylədi, qoyunun boğursağın – acı boğursaq götürüm, onnan sənin qollarını daldan yalannan bağlıyım.

Qoyunun acı boğursağınnan qurudub keşmişdə oxcular kiriş düzəldərdilər, çox möhkəm olardı.

Tülkü dedi:

– Qoy bu boğursağnan qolunu yalannan bağlıyım, guya ki, bağlısan. Mən arxeyin olum, bir tikə yeyim, aj qalmıyım.

Dedi:

– Noolar, qardaş olmuşux, bir dəyqa, iki dəyqa mənim qolum bağlı qalsın. Sən aj qalmıyassan ki?

Tülkü şirin qolunu bağladı. Gözdədi, gördü kü, gün vurdu boğursağı qurutdu, oldu kiriş. Tülkü durdu belə dolaylandı getdi. Şir dedi:

– Tülkü qardaş, hara gedirsən?

Dedi:

– Çıxıram gedəm daa.

Dedi:

– Bə mənim qolum bağlı qaldı.

Dedi:

– Cəhənnəmə bağlı qalsın.

Şir qəzəpləndi, çəhdi kirişi, qolların yarıya qədər kiriş kəsdi. Kirişi şir qıra bilər? Hoppuldu o ənə, hoppuldu bu ənə, özünü verdi qaratikanın kölgəsinə, qaldı burda. Qan bunu aparır, neyləsin, heş bir çarəsi yoxdu. Gördü, bir siçan ordan hoppanır o ənə-bu ənə. Dedi:

– Şir, a Allahın heyvanı, niyə belə qalmısan?

Dedi:

– Ha belə, vəziyyət belə oldu.

Dedi:

– Maa dəymərsən ki, sənin qollarını açam?

Dedi:

– Bir yaranmışı ki, zindannan qurtarasan, ona kim dəyə bilər?!

Siçan gəldi yavaş-yavaş gəmirdi, kirişdəri doğradı töhdü yerə, şiri qurtardı.

Şir Əsgülümnən Süsən dağına qayıtdı. Gedirdi yolda, Oxçu çayında bir şirnən rasdaşdılar. O şir soruşdu:

– Əə, şir qardaş, hardan gəlirsən?

Dedi:

– Əsgülümnən gəlirəm.

Dedi:

– Niyə gəlirsən? Deyillər, ora çox səfalı yerdi.

Dedi:

– Əə, nə səfalı yerdi?! Bir meşənin bağlıyanı tülkü ola, açanı siçan, o meşədə qalmaxdansa, qalmamağım yaxşıdı.

## 148. QƏZA TORU

İlanla qızılquş dost olur. Bir gün ilan qızılquşa deyir:

– Torpaxda sürünməhdən bezmişəm. Məni də özünnən qalxız göyə, baxım görüm dünya necə görsənir.

Qızılquş ilanı qanadına alıb qalxır göyə. Deyir ki, bax gör, nə görürsən? İlan deyir:

– Bütün dünyanı görürəm. Dünya nə gözəlmiş!

Qızılquş bir az da yuxarı qalxır, deyir:

– Bax gör, indi nə görürsən? İlan deyir:

– Hər yanı dumanlı görürəm, heç nə seçə bilmirəm.

Qızılquş bir az da yuxarı qalxır, deyir:

– Hə, ilan qardaş, bax gör, indi nə görürsən? İlan deyir:

– İndi heç nə görə blimirəm.

Qızılquş deyir:

– Mən hər şeyi görürəm. Biz indi bir xırmanın üstüynən uçurux. Xırmanda, samanın içində bir ağsaplı iynə var.

İlan deyir:

– Yerə en. Əyər dediyin düz çıxmasa, səni oradaca çalacam.

Qızılquş yerə enir. Xırmandakı iynəni tapıb ilana göstərir.

İlan deyir:

– Əhsən sənin gözlərinə! Xoşbəxtsən!

İlanla qızılquş bir-birindən ayrılır. Qızılquş göyə qalxır, ilan yenə torpaxda sürünməyə başlıyır.

Bir gün ilan sürünə-sürünə gəlib bir ovçu torunun üstünə çıxır. Görür ki, qızılquş tora düşüb. İlan deyir:

– Qardaş, sənin iti gözlərin varıydı, necə oldu ki, görmədin, gəldin düşdün bu tora?

Qızılquş deyir:

– İlan qardaş, bu tor qəza torudu mən düşmüşəm. Qəzanın beş barmağı var: ikisiylə qulaqları tıxıyır, ikisiylə gözləri örtür, biriylə də dili-ağızı bağlıyır. Qəza torundan qaçmax olmaz.

# III. LƏTİFƏLƏR

## 149. MAT QALMIŞAM

Bir adam olur. Bı hiyləgər adammış. Deyir, gərəh elə bir iş görəm ki, adamın gözü baxa-baxa oğurrux eliyəm.

Yoldaşı deyir:

– Ə kişi, həylə şey olmaz.

Deyir:

– Olmaz? Gedəh mən göstərim.

Gedillər, çıxıllar bir hündür yerə. Görür ki, bir kişi iki öküzü qoşub – ona biyar deyəllər – yer sürür.

Orda qalanda götürür, başdıyır oynamağa:

– Mən bı işə mat qalmışam, mati-məəttəl qalmışam.

Xeyli vaxt bu sözü təkrar eliyir. Cüt sürən kişi dayanıb bir az fikir verir. Görür ə, kişi dağın başında oynuyur, deyir:

– Mən bı işə mat qalmışam, mat-məətəl qalmışam.

Öküzdəri bı dayandırır, gedir o kişinin yanına.

Bı kişi də deyir:

– Sən bırda dur. Mən gəlirəm.

Gəlir, öküzün birin açır, aparır uzaxda bağlıyır. Bir də qayıdır dağın başına. Kişi gəlir çıxır. Deyir:

– A kişi, sən bırda nə qayırırsan axı? Elə deyirsən, mən bı işə mat qalmışam, matı-məəttəl qalmışam.

Bı deyir:

Ona mat qalmışam ki, sən bir öküznən nə təhər yer sürürsən?

Deyir:

– Bir öküz nədi?

Deyir:

– Bir öküzdü da.

Baxdı, gördü ki, bir öküzdü.

Deyir:

– A kişi, axı mən iki öküzü sürürdüm. Elə mən də bı işə mat qalmışam.

## 150. HAMISINI KEÇDİM UŞAQLARINA

Bir kişi olur, mən onu görmüşdüm. Bir vaxt ajdıx olur. Bının bir gəbəsi var idi. Götürür ki, aparsın satsın. Gedir, sata bilmir. Dostu varımış, gedir bı dostunun evinə.

– Salam məleykim.

– Əleykə salam. Xoş gəlmisən.

Oturullar. Azdan-çoxdan yeyib içillər. Deyir:

– A kişi, hardan gəlmisən, hara gedirsən?

Deyir:

– Ehtiyaş vadar eliyip, bir gəbəm var idi, gətirdim onu satmağa. Müştəri olmadı, döndüm gəldim sizə.

Dostu deyir:

– O gəbəni gəti, baxım görüm nətəər şeydi.

Bı açır baxır. Görür ki, pis dəyil, yaxşı gəbədi elə.

Arvad kişiyə deyir:

– A kişi, gəl elə bı gəbəni biz götürəh.

Kişi dostuna deyir:

– Tanımadığım adama verincə elə saa verərəm, dostumsan, neynəh.

Qiymətləşdilər, bını bir qədər düyüyə satdı. Bı dostunun oğlu deyir ki, bının bir beləsin keş maa. O biri uşax deyir, bir beləsin keş maa. Kişi deyir:

– Neynəh, bala, keşdim.

Beləlihlə, qalır, yatıllar. Uşaxlara keşdiyindən bına səhər bir az da yaxşı qulluğ eliyillər. Bı yeyir-içir, durur, gəbəni qatdıyır, atır çiyninə, düşür yola.

Arvat deyir:

– Gəbəni qiymətdəşmişdih. Bə hara aparırsan?

Deyir:

– Qiymətdəşmişdih, vallah, elə hamısın keşdim uşaxlarına, gəbə qaldı maa.

## 151. TƏNBƏKİ SATAN

Yay vaxtı bir tənbəki satan bir evə qonağ olur. Qonağın yerini içəridə salıllar. Gejə tənbəki satan ev sahibinə deyir ki, istidən yata bilmirəm, gəl yerimizi dəyişəh. Onnar yerlərini dəyişillər. Arvadın xəbəri olmur, gəlib tənbəki satanın yanına girir. İşi başa düşüb öz yerinə qayıdır.

Bir az keçir, tənbəki satan ev sahibinə deyir ki, qardaş, bura da soyuxdu, gəl yerimizi dəyişək.

Onnar yerrərini dəyişillər. Arvadın xəbəri olmur, gəlib yenə tənbəki satanın yanına girir. Deyir:

– Sən kimsən?

Deyir:

– Tənbəki satanam.

Deyir:

– Eşiyə çıxıram – tənbəki satan, içəri girirəm – tənbəkisatan. Bəs, bu köpəyoğlu ev sahibi hardadı?

## 152. SƏNİN VURUŞUN KOR VURUŞU DEYİL

Bir nəfər bir koru yoxlamax üçün yaxınnaşıp ona toxunur. Kor deyir:

– Ə, qardaş, bir az aralıdan get də.

Bı adam deyir:

– Mən də koram, al bı beşdiyi xırdala.

Kor beşdiyi alıp qoyur cibinə, aralanır. Gözü sağ olan adam görür ki, bı pulu cibinə qoyub getdi. Bına bir daş atır. Daş korun qıçına dəyir. Bir dənə də daş atır. Bı daş da korun belinə dəyir.

Kor deyir:

– Qardaş, sənin bı vırışın kor vırışı dəyil. Gəl puluu apar.

## 153. QONAQ BİR İL BURDADIR

Bir evə qonax gəlir. Bir gün, iki gün, üç gün... Qonax getməh bilmir. Ev yiyəsi pişiyi alır qucağına, deyir:

Pişiyim, pişiyim evinə,
Siçan tuta, sevinə.
Qonax bu gün burdadı,
Sabah gedər evinə.

Qonax deyir:

Pişiyim, pişiyim, yel əsər,
Çölə çıxma, yel əsər.
Qonax bu il burdadı,
Gələn il də sərasər.

## 154. BƏDRƏNG ADAM

Bir kişi gedir meşiyə odun qırmağa. Meşəbəyi deyir:

– Meşiyə odun qırmağa gələndə özünnən bir şey gətir mana.

Ama kişi heş nə gətirmir. Meşəbəyi deyir:

– A kişi, sana deмədim, mana bir şey gətir. Hamı oduna gələndə mana bir şey gətirir, bəs sən niyə gətirmirsən?

Kişi deyir:

– Mən hamıya oxşamıram. Mən bədrəng adamam.

Meşəbəyi soruşur ki, a kişi, bədrəng adam nədi? Kişi cavab verir ki, yoxdu rəngin ağı, qarası, qırmızısı, yaşılı, sarısı, göyü? Bir də var bədrəng. Bu nə ağdı, nə qaradı, nə qırmızıdı, nə yaşıl, nə sarı, nə göydü. Bu rəng onnarın hərəsindən bir azdı, bədrəngdi. İndi mən onnanam. Odu ki, gözünü yığ, sana heş bir pay gətirmiyəjəm.

## 155. NƏZİRİMİ VER

Bir kişi tezdənnən oduna getməh istiyir. Arvada deyir ki, baltanı qoy ora, tezdən oduna gedəciyəm. Arvad da baltanı qoyur çömçənin yanına.

Kişi də balta əvəzinə çömçə götürür. Gedir, elə oduna vıranda çömçənin başı qırılır, düşür yerə. Axtarır, tapa bilmir.

Allaha bir təhnə buğda nəzir deyir ki, baltası tapılsın. Bir az axtarır, görür ki, əlinə qab gəldi. Baxır görür ki, çömçənin başıdı.

Deyir:

– Mən baltanı tapmamış bu çömçəni göndərib ki, mənim nəzirimi ver.

## 156. GÖZÜMÜ NİYƏ ÇIXARDIRSAN?

Bir gün bir çoban namaz örgənmək istiyir. Bı gəlir deyir ki, namazı necə qılallar? Bına deyillər ki, elə denən, ağ qoyun, qara qoyun, başımı yerə qoyum.

Gəlib bı sözdəri deyib aşağı əyiləndə bının gözünə saman batır. Deyir:

– Kərəməə qurban olum. Qılma deyirsən qılmanam, gözümü niyə çıxardırsan?

## 157. DOQQUZDAN SONRA HARAMDIR

Bir gün molla deyir:

– Ay camaat, içki işməyin, haramdı.

Deyillər:

– Molla, içki içəndə nə olar?

Deyir:

– İçki içəndə adamın başı gicəllənir, ağlı olmur, hər sözü danışır.

Bı lotu-potular deyir, sən ölmüyəsən, bı içəndi ki, belə deyir. Yoxsa nə bilir ki, adamın başı gicəllənir, ağlı olmur.

Gəlillər, güdüllər. Bir gün görüllər ki, ağa çaxır çəlləyini qoydu qabağına, vırır. Sayıllar ki, neçə istakan işdi. Birdən elə girillər içəri ki, hə, molla, sən deyirdin ki, haramdı. Bə niyə içirsən?

Deyir:

– Mən işməmişəm.

Deyillər:

– Ə kişi, necə yanı işməmişəm? Sayırdıx.

Deyir:

– Neçəsini işdim?

Deyillər:

– Doqquzunu.
Deyir:
– Doqquzacan halaldı, doqquzdan sora haramdı.

## 158. ONU SƏN DEYİRSƏN

Bir padşah varımış, bının bir qızılquşu varımış. Padşah bu quşu çox sevirmiş.

Bir gün bütün məxluqa elan eliyir ki, kim bu quşu aparıb saxlasa, mən nə qədər ki yaşıyıram, maa öldü sözünü deməsə, onu dünya malınnan qəni eliyərəm.

Heş kim yaxına getmir. Fikirrəşillər ki, ölsə, mən nə cavab verərəm.

Bir keçəl varmış. Bı keçəl deyir:

– Sən ölmüyəsən, mən bı quşu alacıyam, demir öldü demə, demiyəciyəm.

Bı padşahnan daqavorraşır. Padşah bının haqqın kəsir. Bir gün quş ölür. Durur yavaş-yavaş, başını bılıya-bılıya gəlir padşahın yanına.

Deyir:
– Keçəl, quş necədi?
Deyir:
– Yatıb.
Deyir:
– Ə, necə yanı yatıb?
Deyir:
– Vallah, uzanıb.
Deyir:
– Ə, necə uzanıb?
Deyir:
– Ayaxların da uzadıb.
Deyir:
– Ə, dəlisən? Nəsən? Necə yanı ayaxların da uzadıb?
Deyir:
– Gələndə də elə üzün çevirdim qıblıya.

Deyir:
– Denən ölüb.
Deyir:
– Onu sən deyirsən, mən demədim.

## 159. XAM GÖNDÜRSƏ, HALAL OLU

Deyir, bir gün bir kişi gön oğurruyur. Arvadı bını evə qoymur. Kişi deyir:
– Bə neyniyəh?
Arvad deyir:
– Get qazının yanına, baxdır, gör halaldı, ya yox?
Kişi gedir qazının yanına, deyir:
– Qazı ağa, bilirsən nə var?
Deyir:
– Nədi?
Deyir:
– Ha belə, uşaxlar ayaxyalındı. Getdim bir gön oğurradım. İndi arvad qoymur ki, haramdı.
Qazı deyir:
– Yox, yox, yox, şəriətdə həylə şey yoxdu. Yaxına qoyma.
Deyir:
– A qazı, mən gedib o əziyyəti çəkib oğurramışam. Uşaxlarım ayaxyalındı. İndi mən neyliyim? Sən allah, amandı.
Deyir:
– Yox, yox, yox, tövbə, həylə şey əyyamlarda yoxdu, olmaz, olmaz.
Bı çıxır eşiyə. Fikirrəşir ki, ə, deyim elə bir zolun da verirəm saa. Bir də girir içəri.
Qazı deyir:
– Niyə qayıtdın?
Deyir:
– Qazı, bir zolunu da verirəm saa. O kitabı bir də varakla, bəlkə bir mümkün yeri var.

Belə deyəndə Qazı deyir:
– Nə?
Deyir:
– Bir zol da verərəm saa.
Deyir:
– Dayan. Yadıma düşdü.
Kitabı varaklıyır, deyir:
– Bıdı ey, tapdım.
Deyir:
– Qazı, nə tapdın?
Deyir:
– Yazır bırda, cahu-cəlal olu, xam göndürsə, həlal olu.

## 160. ÖZ ÇIRAĞIMI SÖNDÜRÜB SƏNİN ÇIRAĞINI YANDIRIRAM

Bir kişinin atı götürüm at imiş. Başınnan etməh üçün satmax istiyir. Bazarda bir kişi atı almax istiyir. At sahibi atı tərifləməyə başlıyır. Axırda da deyir:

– Elə bil ki, öz çırağımı söndürüb sənin çırağını yandırıram.

Kişi atın pulunu verib gətirir evə. Axşam ata baş çəkməh niyyəti ilə tövləyə gedir. Görür ki, at uzanıb yerə. Nə qədər edir at durmur. İndi ölər, bir azdan ölər. Kişi çırağı yandırıb oturur atın yanında. Birdən kişinin sözləri yadına düşür. Başa düşür ki, "öz çırağımı söndürüb sənin çırağını yandırıram" nə demək imiş.

## 161. SƏNİN AĞLIN OLSAYDI...

Molla Nəsrəddin bazardan iki qarpız alır. Xurcunun bir gözünə qarpızdarı qoyur, o biri gözünə daş salıb eşşəyin üstünə aşırır. Bir kişi deyir:

– Ay Molla, daşı neynirsən? Xurcunun hər gözünə bir qarpız qoysana.

Söz Mollanın ağlına batır. Daşı götürüb atır yerə, deyir:

– A kişi, sən kimsən?

Kişi deyir:

– Kim olacam? Kasıb bir adam.

Molla Nəsrəddin təzədən daşı götürüb xurcuna qoyur, deyir:

– Sənin ağlın olsaydı, kasıb olmazdın.

## 162. OYNASAN DA, BURCUTMA

Lotular Molla Nəsrəddinin evinə girillər. Mollanın əl-ayağını bağlıyıb, yıxıllar evin bir küncünə. Əl çalıllar, Mollanın arvadına deyillər:

– Oyna!

Mollanın arvadı oynamağa başdıyır. Lotular bir az məzələnib gedirlər.

Sabahısı gün Molla qazının yanına gedir:

– Qazı ağa, arvadı boşuyuram.

– Niyə?

– Lotuların qabağında oynuyub.

Qazı deyir:

– Gərəh gedib arvadını gətirəsən, onun özünnən də soruşam, görəm iş necə olub.

Molla gedib arvadı qazının yanına gətirir. Qazı arvaddan əhvalatı soruşur. Arvad deyir:

– Qazı ağa, mən oynadım ki, lotular ərimi öldürməsin.

Qazı üzünü Molla Nəsrəddinə tutur:

– A kişi, arvadın günahı yoxdu. Yazıx sənin dərdinnən oynuyub.

Molla deyir:

– Qazı ağa, mənim dərdimnən oynuyurdusa, bəs burcutmağı nəydi?

## 163. BİR YANA ÇIXARIQ

Mollanın bir inəyi varmış, çıxardır satmağa. Bı dəllallar yığışır, deyillər:

– Molla əmi, bı keçini neçiyə verirsən?

Deyir:

– Ay oğul, bı keçi dəəl, inəhdi.

O biri dəllal gəlir. Deyir:

– Molla əmi, bı çəpişi neçiyə verirsən?

Deyir:

– A bala, bı çəpiş dəəl e, inəhdi.

Molla gördü ki, müftə yerə inəh əlinnən çıxajax, çəpiş qıymatına inəyi satır. İndi gəlir əvə. O gün də əvinə qaymax satan gəlmişimiş. Arvat qaymax alır, qaymax ağır olmaxdan ötəri, qızıl qol bilərziyi varmış, açır qoyur tərəzinin daş olan gözünə ki, qaymağı ağır çəhsin dayna. O da qaymağ alır. Qaymax satan da tərəzini də, bilərziyi də götürür, qoyur heyvəsinə. İndi molla əvə gəlir. Arvat deyir:

– A kişi, neynədin?

Deyir:

– Ay arvat, neyniyəjəm, inəyi çəpiş qıymatına satdım gəldim.

Deyir:

– Ay kişi, mən də bilərziyimi qoydum qaymax satanın tərəzisinin üsdə. Qaymax satan da bilərziyimi götdü getdi.

Molla deyir:

– Ay arvad, əvdən sən belə qazansan, çöldən də mən, bir yana çıxarıx.

## 164. EŞŞƏK ELƏ SƏNİN EŞŞƏYİNDİR

Molla bir gün gedir dəyirmana, dən üyütməyə dayna. Arvadı da deyir ki, a kişi, huşumnan çıxıf, dəni savırmamışam. Dəyirmançıdan palaz al, dəyirmanın qavağında dəni savır, sora töh təhniyə. Zibilli töhmə da, bir söznən. Deyif ki, yaxşı.

Duruf molla gedir. Bı arvadın dediyi söz huşunnan çıxır. Dəni üyüdür. Bir qara ulağı varmış. Gəlir, bir yelli təpədə arvadın sözü yadına düşür. Deyir:

– Arvad maa demişdi ki, dəni savırıf töhsün.

Bırda açır, unu savırır. Eşşəh də alt tərəfdə durufmuş, eşşəh olur ağappax. Durur əyağa, deyir:

– Ə, bı məəm eşşəyim dəyil. Eşşəh hardan gəldi çıxdı bıraya.

Gəlir deyir:

– Ay arvad, bəs belə.

Deyir:

– Başın batmasın, unu savırmısan, eşşəyi ağartmısan. Eşşəh elə sənin eşşəyindi.

## 165. APAR ULAĞI SUVAR

Molla arvadınnan şərt kəsir: kim qavaxcan dillənsə, ulağı aparıf çayda suarıf gətirəjəh. Arvad qismi bir az dilavar olur dayna. Görür özünü saxlıya bilmir, durur gedir qonşuya. Qonşu gətirir xörəh bişirir. Deyir:

– Bajı, sən Allah, o molla tərs adamdı – ərini deyir e, – ajdı, bir az bı şorbadan verəh o uşağa, aparsın versin ona.

Bı şorbadan yığır. Uşax götürür gəlir. Deyir:

– Molla əmi, saa şorva gətirmişəm, ala ye.

Molla belə başını hərriyir, uşax başa düşmür. Nəysə, bir də hərriyir. Uşax elə başa düşür ki, molla deyir gəti töh başıma. Horranı tökür mollanın başına. Mollanın üz-gözü tamam horra olur. Uşağ gülə-gülə gedir əvə. Arvada xəvər verir ki, bəs apardım şorbanı, molla əmi dedi töh başıma, töhdüm başına, gəldim. Tez arvad durur özünü salır əvə. Deyir:

– A kişi, bı nə hax-hesafdı?

Deyir:

– Hələ apar ulağı suvar, sora gəl nağıl eliyim.

## 166. ÖLÜ HALVA YEYƏR?

Bir gün Molla Nəsrəddin özünü ölülüyə qoyur. Deyir qoy görək, ölmək nətəri olur.

Camaat yığışıb Molla Nəsrəddini aparıllar qəbirsannığa ki, basdırsınnar. Görürlər ki, yox, Molla ölməyib. Yalannan özünü ölülüyə qoyub, eləcə uzanıb. Deyillər ki, bunu burda qoymax olmaz. Mollanı qaytarıb evə gətirillər. Onu yerə uzadıllar. Bu zaman

da Mollanın arvadı qəşəh halva çalmışıymış. Halvanı qoyur Mollanın böyrünə. Molla gözünün ucuynan halvaya baxır. Xəlvətcə əlini uzadıf bir ovuc halva götürüf yeyir. Bunu görən oğlu qışqırır:

– Ana, ana! Atam əlini uzadıb halva götürdü.

Ana oğluna deyir ki, kəs səsini. Atan ayıx oldu halva yemədi, olü halında halva yeyəcək?

## 167. DÜNYA NECƏDİR?

Bir gün Şah Abbas cənnətməkan Vəzir Allahverdi xannan çıxır ölkəni gəzməyə. Bir nəfərə rast gəlillər, soruşullar ki, dünya necədi? O adam cavab verir ki, qurd qoyunnan otduyur.

Vəzir Allahverdi xan deyir:

– Bu sözdəri deyən adam düz adamdı.

Bir başqasınnan soruşullar ki, dünya necədi? Həmin adam cavab verir ki, vırdımşahlıxdı.

Vəzir Allahverdi xan deyir:

– Bu sözdəri deyən oğru adamdı. Doğru elə bilir hamı doğrudu, oğru elə bilir hamı oğrudu.

## 168. AYAĞI SUDADIR

Çəltih elə bir bitkidir ki, kökünnən yox, başınnan içdiyi suyla – yağış suyuyla əmələ gəlir. Bir gün Şah Abbasla Kəlniyyət çəltih zəmisinin qırağınnan gedirmişdər. Kəlniyyət deyir:

– Hayıf bu çəltiyə ki, bunun suyu yoxdu, yağış yağmır.

Şah Abbas deyir:

– Ə, Kəlniyyət, gejəbəgündüz çəltiyin ayağı suyun içindədi, sən də deyirsən ki, yağış yağmır, hayıf bu çəltiyə.

Kəlniyyət dinmir. Gedillər. Çaydan keçəndə Şah Abbas yüyəni buraxır, at çaydan su içir. Amma Kəlniyyət atın yüyənin buraxmır ki, at çaydan su içə bilsin. Şah Abbas bunu görüp deyir:

– Kəlniyyət, yüyəni burax, at su içsin daa.

Kəlniyyət deyir:

– Ayaxları sudadı da.

## 169. ƏN YEMƏLİ ŞEY

Bir gün Şah Abbas Kəlniyyətnən səfərə çıxır. Bir yerdən keçəndə Şah Abbas Kəlniyyətdən soruşur:

– Bu yerdə ən yeməli şey nədi?

Kəlniyyət deyir:

– Yumurta.

Üç il yol gedillər, gəzib-dolanıb səfərdən qayıdıllar. Həmən yerdən keçəndə Şah Abbas soruşur:

– Nəynən?

Kəlniyyət deyir:

– Duznan.

## 170. TÜSTÜYƏ QIZINDIM

Bir gün Şah Abbasın vəziriynən Kəlniyyətin sözü çəp gəlir. Şah Abbasın Kəlniyyətə acığı tutur. Əmr eliyir ki, gejə onu soyunduruf qoysunnar çöldə. Qış vaxtıymış. Kəlniyyət də qollu-biləhli bir sərkərdəymiş. Gejə Kəlniyyəti soyunduruf qoyullar çölün düzündə. Kəlniyyətin soyuxdan az qalır canı çıxsın. Baxır, özgə əlacı yoxdu, başdıyır böyüh bir qəya varmış, onnan hölləşməyə. Səhərətən hölləşir. Səhər gəlif görüllər ki, Kəlniyyət sağ-salamatdı, özü də qan-tərin içindədi. Şah Abbasa xəbər eləyillər. Şah bu işə mat qalır, deyir ki, gətirin yanıma. Şah Abbas Kəlniyyətdən soruşur ki, bə, nətər oldu donmadın?

Deyir:

– Şah Abbas sağ olsun, gəldim çıxdım sizin damın üstünə, bajadan çıxan tüstüynən qızındım, ona görə donmadım, hələ tərrəmişəm də. Yaman isti olur.

Şah Abbas inanmır, yoxlamaxdan ötrü gejə vəziri çıxardır damın üstünə. Səhər baxıf görüllər ki, vəzir donuf.

## 171-172. CAN, YARIMCAN, ZƏHRİMAR

Bir gün Şah Abbas taxta oturufmuş. Kəlniyyət girir içəri. Şah Abbasın yanında başqa ölkədən qonax da varmış. Şah soruşur:

– Kəlim, nəynən?
Kəlniyyət cavab verir ki, şahım, cannan.
– Kəlim, ta nəynən?
– Şahım, yarımcannan, o da duznan.
– Kəlim, ta nəynən?
– Şahım, zəhrimarnan.

Bunu deyib Kəlniyyət çıxır. Qonax bınnan bir şey annamır. Bir azdan süfrə açılır. Qonax özünü saxlıyammır, bayaxkı söhbətin məmmədqulusunu soruşur. Şah gülüb deyir ki, bıdı da, süfrədədi. Can ətdi, yarımcan yumurtadı, zəhrimar da qatıxdı.

**172.**

Şah Abbas bir gün Kəlniyyəti yanına çağırır, deyir:

Get mana can al gəti,
Can olmasa, yarımcan al gəti,
Yarımcan olmasa, zəhrimar al gəti.

Kəlniyyət "baş üstə" deyib çıxır, bir azdan qayıdıf gəlir, deyir ki, şahım, hazırdı.

Qonax da varımış, bı söhbətdən baş aşmır, soruşur ki, bı nə deməhdi? Şah Abbas qonağı aşbazxanıya aparır, aşbazın doğradığı əti, səbətdəki yumurtanı, bir də bir torba süzmə qatığı qonağa göstərir, deyir:

– Mən bınnarı almağı tapşırmışdım.

## 173. QARININ TOYU

Bir qızdırmalı kişi dəvənin üstündə gəlirmiş. Birdən başı gicəllənir, dəvədən yıxılır. Dəvə gəlib bir naxırçıya ürcah olur. Naxırçı dəvəni naxıra qatıb aparır.

Naxırçının iki qardaşı varıymış. Biri əkinçiymiş, biri dəyirmançı. Naxırçı deyir:

– Gəlin, bu dəvəni kəsib yeyək.

Dəyirmançı deyir:

– Dəvəni kəssək, anamız xəbərriyəcək.

Əkinçi deyir:

– Gəlin dəvəni kəsib anamıza toy eliyək, kəbinini də kəsək aftafiya.

Qardaşdar razılaşdılar. Dəvəni kəsib deyillər:

– Ana, sənə toy eliyirik, kəbinini də aftafıya kəsirik.

Üç günnən sora dəvənin yiyəsi özünü yetirir. Qardaşdardan soruşur ki, bu nəm-nişanda dəvə görməmisiz?

Deyillər:

– Yox.

Kişi görür ki, təpənin başında bir qarı oturup. Qarıdan dəvəni soruşur. Qarı deyir:

– Dəvəni kəsib mənə üç gun toy elədilər, kəbinimi də kəsdilər aftafıya.

Kişi deyir:

– Gör nə günə qalmışam ki, qarı da məni doluyur.

## 174. QIZIL ÇƏNGƏL-BIÇAQ ƏHVALATI

Bir patşah vardı, əmr elədi ki, bütün millətlərdən sirr bilən adamlar yığılsın. Yığıldı. Günorta yemək surfası açılanda hər adam qızıldan bir pıçax, bir çəngəl qoydular qablara. Yəhudi göz-gözə verdi, bı pıçağın birin götürdü qoydu cibinə. Erməni baxdı ki, bı yəhudi bıçağı sağ cibinə qoydu. Bir az keçdi, yəhudi çəngəli də götdü qoydu sol cibinə. Erməni də baxır. İndi yeməh gəlir ortuya, yeməh yeyillər. Hərə öz möcüzəsin göstərir. Nööbə erməniyə gələndə dedi ki, mənimki, illap möcüzədi, özü də dərhal göstərirəm. Dedilər:

– Nədi?

Dedi:

– Bax o pıçağın birin gətirin qoyun mənim cibimə, çəngəlin birin də gətirin qoyun o biri cibimə. Mən duva oxuyacam, başqasının cibinnən çıxacax.

Dedilər:

– Yaxşı.

Gətidilər pıçağı, çəngəli qoydular erməninin cibinə. Yalannan dodağının altında pıçı-pıçı elədi.

Dedi:

– Odu eey, qıraxda oturan filan yəhudinin cibindədi.

Getdilər yəhudinin cibinnən pıçağı-çəngəli çıxartdılar. Erməninki qaldı cibində. Yəhudi ta yalannan deyəmməzdi ki, mən qabaxdan götürmüşdüm çəngəl-pıçağı.

## 175. TAYDA DƏRZ VAR DÖYMƏLİ

Bir cavan erməni qızı gəlin gəlmişimiş. Keşiş bına imkan vermirmiş. Elə harda görürmüş, deyirmiş:

– Gəlin, ağa gəlməli?

Bı arvad da bını ərinə deyir. Əri deyir ki, bir də desə, deyərsən gəlsin xırmana, orda mən mərəyin içində gizdənəciyəm.

Keşiş bı arvadı bılağın başında görüb deyir:

– Gəlin, ağa gəlməli?

Gəlin bına göz eyliyir. Keşiş deyir:

– Qurban, de görüm, nə deyirsən?

Arvad deyir:

– Habelə kişi səhər gedəcəh ayrı yerə, mən xırmanda təhcəyəm. Deyərsən ki, mən gedəciyəm gəlinə köməy eləməyə, gələrsən, kefi sazdıyarsan.

Deyir:

– Yaxşı.

Səhər açılır. Kişi qaçır girir mərəyin içinə. Keşiş görür gəlin təkdi. Gedir o yana.

Soruşullar ki, a keşiş ağa, hayana gedirsən?

– Hımm, əyə görmürsüz? Gəlin orda təkdi, gedirəm ona kömək eliyəm.

Deyillər:

– Hə, get.

Günorta yeməyə çıxanda oğlan mərəhdən çıxır, bı keşişi tutur, döyür. Qayıdır öküzdərin birin bıraxır, boyunduruğun birin qoyur keşişin boynuna. Bı valı bütöv döydürür bı keşişə. Bıraxır, bı keşiş gedir evlərinə.

Gəlin təzədən yenə gedir suya. Keşiş də bırdadı axı. Görür keşiş dinmir, ölüb. Deyir:

– Keşiş ağa, gəlməli?

– Hımm, məssəbin belə olsun, tayda dərz var döyməli.

## 176. HƏMİN DOLMASAN

Deyir, bir aj, – Allah haqqı tanıyanı heç ac eləməsin, – gedir bir evə qonax olur. Yarpax balacaymış, dolma pişirirmişdər. Bı ajdı da, tez isti-isti qoyur ağzına, ağzı yanır. Ta birtəhər ötüşür.

Aradan bir xeyli müddət keçir. Vaxt olur ki, yarpax böyüyür. Böyüyəndə yenə dolma bişirillər. Gətirillər qoyullar bı qonağın qabağına ki, ye.

Qonax siftədən mövün* yarpağın silkələyip görür ki, o vaxt bının ağzını yandırannarın hamısı bırdadı. Elə bircə mövün üstən qoyublar.

Deyir:

– Kopoolun dolması, sən haman dolmasan, ağzımı yandırmısan. Üzüü çulluyuplar ki, səni tanımıyım?

## 177. ARVAD, ŞİLƏN DURUDUR

Bir kişi olur. Bı kişi arvadınnan yaman qorxur. Bir gün arvadı bına şilə bişirir. Kişi şiləni yeyir, amma bir söz deməyə qorxur. Çıxır çöldə gizlincə deyir:

– Arvad, şilən durudu, durudan da durudu.

Elə bını deyəndə arvad eşidir. Deyir:

– Get ay köpoğlu, evə gələndə gör sənə neyniyəcəm.

Kişi tez qarıxax durur gedir oduna. Oduna gedəndə evdən tələsiy çıxdığınnan balta əvəzinə çömçə götürür. Yolda gedəndə kişi deyir:

* mövün – tənək yarpağı

– Ya Qara Seyidin cəddi, sənə bir çanax darı nəzir deyirəm. Elə elə ki, mən evə qəyidəndə arvad məni döyməsin.

Kişi gəlir meşəyə, isdiyir baltanı götürsün odun qırsın. Əl atır çömçəni ağaca vıranda çömçənin çanağı sınır düşür yerə. Deyir:

– Ə, vallah, bı seyidə bax ee, heç evə çatmamışam, indidən çömçəsini göndərib.

## 178. BİLİRƏM DEDİYİN NƏ İDİ

Deməli, bir kişinin arvadı var, qızı var. Arvad gedir başqa yerə, evə də qonax gəlməhdə. Kişi isdiyir ki, qonağın qabağına yaxşı çıxsın. Bilir ki, qızı yaxşı yeməh bişirəmməz. Qonşunu çağırır. Deyir:

– Qonşu, sən allah, arvad evdə yoxdu, qonağın qabağına çıxarası yemək hazırramağ lazımdı.

Deyir:

– Noolar.

Deyir:

– Qız da sənəköməh eliyər.

Deyir:

– Yaxşı.

Həyətdə ocax qalıyıf yeməh bişirəcəhlər. Qonşu qadın deyir:

– Qızım, gəl bir ocax qalıyax.

Deyir:

– Bilirəm.

Deyir:

– Bir toyuxdan, xoruzdan tutax kəsəh.

Deyir:

– Bilirəm.

– O düyünü gətir təmizdiyəh.

Deyir:

– Bilirəm.

Deyir:

– Bir az su götürəh, qoyax qaynasın.

Deyir:

– Bilirəm.

Arvadı təngə gətirir bu “bilirəm” sözünnən. Vaxt gəlir, aşı dəmə qoymax lazımdı. Deyir, hər işi gördüh, indi bunun yaxşı dəm alması lazımdı. Bunun üçün də bir iş var. Yəqin onu da bilirsən.

Deyir:

– O nədi?

Deyir:

– Mal təzəyin qoyassan düyüün üstünə, onda o yaxşı dəm alacax.

Qız yüyürə-yüyürə gedir bir mal təzəyi gətirir, qoyur aşın üstünə. Arvad çıxır gedir. Deyir, tay mənim işim qutardı. Təzəh əriyir, qatışır aşa. Tay qonax yiyəsi aş olmur. Kişi qonşunu çağırır, deyir:

– Qonşu, ayıb deyil? Məqsədin vardı ki, məni camaat içində biyabır eliyəsən?

Deyir:

– Mən eləmədim, qızın elədi. Hər nə dedim dedi, nə isdiyirsən mənnən, bilirəm. Bilmədiyi təhcə təzəyidi, onu da qoydu aşın üstə.

## 179. HƏR KƏSİN DƏRDİ ÖZÜNƏ DƏVƏ BOYDADIR

Biri dəvəsin axdarırmış. Kişi qaranəfəs, dili ağzınnan çıxmış gəlif çıxır bir bulağın başına. Görür ki, bir qız uşağı var. Deyif, qoy bir bunnan soruşum.

– Salamməleykim.

– Əleykiməsalam.

– Dəvəm itif, bəlkə görmüsən?

Deyir:

– Niyə yoxdu, əmim oğlu da isdiyir, dayım oğlu da.

Deyir:

– Belə demədim. Deyirəm, dəvəm itif, bəlkə görmüsən?

– Anam deyir dayın oğluna verəcəm, atam deyir əmim oğluna.

Deyir:

– Yox, qızım, sənnən mənim söhbətim tutmaz. Mən “hax” deyirəm, sən “ər”.

## 180. SÜDLÜ AŞ

Deməli, o vaxdı bizdə bazar varıydı. Ora Ordubatdan, Culfadan gələnnər qatırnan gəlir da, gecə qalırmışdar. Bu kəndin də özünəməxsus qonaxları varıdı. Biri gəlir, qaranniğa düşür, qapını döyür kəntdə. Deyillər, buyur də. Kənt buna öyrəşib, qonax olmalıdı. Evin də nəyi varımış? İnəyi sağıb gətirərmişdər, süddü aş bişirif qonağa verərmişdər. Süddü aş belə yeməhdi ki, onu nimçiyə çəkəndə üzünə qaymax gəlir. O qaymaxda da qırışdar əmələ gəlir. Qonax deyir ki, yəqin bu soyuyub ki, üstündə belə qırışdar var. Taxda qaşığı basır, qoyur ağzına. Ağzı bişir, pap, pap eliyir, yeməh yeyə bilmir. Ev yiyəsi deyir:

– Ay qonax, neynirsən?

Deyir:

– Heş, milləri sayıram.

O vaxdı patalox yoxumuş. Daha ac qalır. Səhər durub gedəndə Ağbəndnən Göybəndin arasında öz kəndlisinə rast gəlir. Deyir:

– Çaylıya gedirsən?

Bizim hər tərəfimizdən çaylar axırdı deyə Çaylı deyirdilər. Deyir ki, hə. Deyir:

– Gecə qalassan, bilirəm, mümkün deyil. Mənnən saa əmanət. Birdən saa üzüqırış qoyallar, üzünün qırışına baxıb aldanarsan haa. – Olar süddü aş bilmirdilər. – O üzüqırışın üzünün qırışına baxıb aldanarsan, soora mənim kimi ac qalarsan. Qoy tamam soyusun.

## 181. BU HAVADA HEÇ QAR YAĞAR?

Bir kişinin bir oğlu olur, tənbəl olur. Bular qışa yaxşı ot yığmıyıflar. Bir dənə atdarı varmış, at qış uzunu o qədər ac qalıb ki, bağlandığı mıxın yarısın yeyib. Yaz açılıb. Oğlan deyir:

– Ata, bu mıxı qoyacam yanıma. Yayın isdisində mıxı mənə gösdərərsən, gedib ot yığacam.

Yaz ötür, yay gəlir. Oğlan sərin yer axtarır. Ata deyir ki, bala, axı deyirdin ki, tək danaqırannan yüz bağ bağlıyacam. – Da-

naqıran ot bitkisidir, salxım-salxım bənövşəyi çiçəkləri olur. Yazın axırı bitir, danalar onu yemir. – Bəs heş tərpənmirsən.

Deyir:

– A kişi, bu püfə-püfdə heç qar yağar? Qoy bir az sərinnəsin, gedif biçəcəm.

## 182. BİZ DƏ QİRAƏTLƏ DEDİK

Kəntdə molla olur, mədrəsədə uşaxlara dərs deyir. Molla çox əzazil olur, uşaxların ayağına-zadına vurur. Bir gün uşaxlar deyir ki, biz elə eləməliyik ki, bu molla bir həftə evdən çölə çıxa bilməsin. Heç olmasa, bir həftə canımız dincələr. Döyülməkdən hər yerimiz ağrıyır. Ən yaxşı oxuyan uşaxlardan biri deyir, mən eliyəcəm, amma satmayın məni.

Molla girir dərs deməyə, uşağın biri qalxıb deyir:

– Molla, sənə nolub belə?

Deyir:

– Nolub?

Deyir:

– Rəngin saralıb.

O biri deyir, gözdərin altı qaralıb. Molla dərsi buraxır, gedir evdə bir həftə yatır. Bir həftədən soora deyir ki, ay uşaxlar, siz deməsəydiz, mən elə ordaca ölmüşdüm.

Molla dərsə çıxır. Bir gün deyir ki, siz "Quran"ı qiraətnən oxumalısız, elə-belə oxunmalı şey döyül. Elə hey uşaxların başına-gözünə döyür ki, qiraətnən oxuyun, qiraətnən oxuyun. Tənəffüsdə uşaxlar bayırda ocax qalıyıllar isinməyə. Ocaxdan bir qor sıçrıyır düşür mollanın əmmaməsinə. Əmmamə başdıyır yavaş-yavaş tüsdüləməyə. İndi qorxullar ki, necə desinnər. Uşağın biri deyir ki, moooool-la, biiiir od düş-düüüüüü əm-ma-maaaaa-yə. Molla dik qalxır.

– Ə, nə əmmamə?

Görür ki, əmmamə alovlandı. Deyir:

– Siz səhərdən bunu görürsüz, niyə mənə demirsiz?

Deyir:
– Molla, demədin qiraətnən danışın? Biz də qiraətnən dedik də.

## 183. GÖY GÖZLƏRİM GÖRMƏZ

Təzə gəlinin könlünə döyməc düşür, amma qaynatasınnan çəkinir. Deyir, görəsən göygözdər əməlli-başdı görür? – Qaynatasının gözü göymüş. – Əlini tutur kişinin gözünün qabağına. Kişi özünü görməməzdiyə vurur. Gəlin arxayın olup fətiri götürür, yağı tökür qaba, döyməc eliyir, yeyir. Amma sinirə bilmir. Qaynatası gəlini yüyrüyə qoyup yırğalıyır, deyir:

Göy gözdərim görməz,
Yağnan fətir döyməc,
Gəlin bunu sinirməz.

Kişi yırğalıyıb, yırğalıyıb gəlinini sancıdan qutarır.

Gəlin deyir:

– A qaynata, qoy bir söz də mən deyim.

Qaynanam – qaynar qazan, yandırar-yaxar,
Qaynım – qayın ağacı, qapıda bitər.
Qaynatam – pendir-çörəh, canıma yatar.

## 184. DUZSUZ HALVA

Bir qız təzə gəlin köçübmüş. Bir gün halva bişirməh istiyirmiş. Bilmiyip ki, halvıya duz atallar, ya yox. Bunnarın evlərinin qabağınan köş gedirmiş. Gəlin həyətə çıxır, baxıb görür ki, köçün qabağıynan bir dəvə gedir. Gəlin deyir:

– Qabaxdakı dəvə necə duzsuz halva, duzsuz qəysəvə kimi yeriyir?

Köç adamlarınnan biri hazırcavab imiş. Deyir ki, bala, halvaya da, qəysəviyə də duz atallar, get hansını bişirirsən-bişir, azacıx da duz at.

## 185. PAY YIĞAN DƏRVİŞ

Kəndə iki pay yığan dərviş gəlir. Nərman kişi xəstəymiş, yerdə yatırmış. Evdə də heş kəs yoxuymuş. Dərvişin biri həyətdə durur, biri girir içəri. Çöldəki dərviş oxuyur:

Sapılcanın sapı sınıx,
Sarıyıflar qəyişnən,
Ya Mürtəza!

Nərman kişi elə bilir ki, dərviş qəsidə deyir pay almaxdan ötəri. Ancax içəridəki dərviş oxuyanda duyux düşür. İçəridəki dərviş oxuya-oxuya deyir:

Sapdan çıxart sal torbuya,
Dəyişərih lahışnan,
Ya Mustafa!

Nərman kişi başa düşür kü, çöldəki dərvişin adı Mustafadı, içəridəkinin də adı Mürtəza, nəsə kələhləri var. Tez yataxdan duruf çıxır bayıra, görür ki, sapılca yoxdu. Sapı əlinə alıf düşür dərvişdərin üstünə. Vır kı, vırasan. Dərvişdər bir təhər aradan çıxıllar.

## 186. MÜLKİ BƏYİN QONAQLIĞI

Qafan rayonunda Dağ Gilətağ kəndi var. Orda Aşıx Bəbir olub. Eşitdiyim bıdı ki, bir dəfə ona Naxçıvan tərəfdən bir qonax gəlib. Bı qonağın adı Mülki bəyiymiş. Dəəsən, milliyətcə də erməniymiş. Aşıx Bəbir ona hörmət eliyir. Gedənə yaxın qonax deyir ki, kaş sənin də ayağın düşəydi biz tərəfə, əvəzin çıxaydım. Təsadüf elə gətirir ki, bir neçə ildənmi, aydanmı sora Aşıx Bəbir o tərəflərə gedəsi olur. Soraxlıya-soraxlıya gəlir onun evini tapır. Çağırır:

– Mülkü bəy!

Görür ki, kişi tələsih girdi içəri, arvada dedi ki, denən kişi evdə yoxdu. Gedib başqa yerə.

Aşıx Bəbir bını öz qulaxlarıynan eşidir. Arvad deyir ki, bəs, kişi evdə dəyil, başqa yerə gedib.

Deyir:

– Yaxşı, bacı, onda bir kəlmə söz deyəciyəm, onu ona çatdırarsan.

Bəlkə də çoxdu, ancax mənim yadımda qalan budu. Deyir ki:

Mən aşığam, Mülkü bəy,
Əynində var kürkü bəy.
Bizim evdə aslan olur,
Öz evində tülkü bəy.

## 187. ÇARIQ

Əmirxanda Ocaxverdi varıdı, o gələr Bartaza, Tərsultan adında bir arvada qonax olar. Ayağında pinə çarıx varımış. Deyər:

– Tərsultan?

Deyər:

– Nədi, Ocu?

Adına Ocu deyirdilər. Deyir:

– Məni obaşdan oyat.

Deyər:

– Kopəyoğlu, idarə müdürü dəyilsən, bir şey dəyilsən. Səhər aftafanı qaynədəciyəm, iç, yola düş, genə cəhənnəm ol, çıx get dənə.

Tezdənnən arvad durur ki, Ocaxverdi yoxdu, çarıxlar bıdı bırdadı, köhnə çarıxdı. Çıxır qənşərə, görür Xanazur yoluynan Ocaxqulu gedir. Deyir:

– Ocu, Ocu! Çarıxları bırda qoymusan.

– Deyirəm axı, əyağımı daş əzir?!

Deyir:

– Ə, köpəyoğlu, bəyəm bıra əyaxyalın gəlmişdin?!

Qəyidir, gəlir o pinə çarıxlarını geyir.

## 188. SƏN NƏ VERMİSƏN?

Ocaxverdi evlənər, orda (Bartazda – top.) bir Kərim vardı, onun keşmiş arvadını alar. Kərim bı arvadı çıxardar, bı Ocu alar. Bir gün Ocaxverdi gələr Bartaza, görər altı-yeddi ağsaqqaldı, duruf söhbət eliyillər. Elə Kərim də bılların içindədi. Ocaxverdi

bıları aralayar o yana, bı yana, Kərimnən əl tutuşar. O ağsaqqal, bı ağsaqqal, hərə bir ağaş vırar bına, deyər:

– Kopoyoğlu, Kərim kimdi ki, onnan əl tutuşursan, biznən əvvəl görüşmürsən?

Deyər:

– Ə, kopoyoğlu sənsən, Kərim maa bir arvad veripdi, sən nə veripsən?

## 189. XƏNCƏR ƏHVALATI

Hökumət qadağan eliyir xançal götürməyi. Amma bir kişi varmış, o, xançalsız durammırmış. Xahiş eyliyir ki, heç olmasa, icazə verin, xançalın tiyəsini qırım, eləcə qınını, dəstəyini gəzdirim üstümdə. İcazə verilir. Bir gün o kişinin biriynən yenə sözü düz gəlmir, dalaşıllar. Kişi xançalının dəstəyini çəkif qınınnan çıxarır, diriyir dalaşdığı adamın qarnına.

Deyir:

– Evin yıxılsın, xançalın tiyəsi hanı?

Kişi deyir:

– Nəmənə olajeh, soxmuşam sənin qarnına.

Bını eşidəndə o adamın qorxudan canı çıxır.

## 190. DÖH DEMƏYƏ DƏ HAQQIM YOXDUR?

Bizim kənddə Dadaş addı biri olub, kalxoz qurulanda bu kalxoza qoşulmuyub. İclas gedirmiş. Bu deyib, kalxoz mənnik döyül. Mənim özümün təsərrüfatım var, əkirəm, biçirəm, onnan ayləmi dolandırıram. Kalxoza girmək mənim nəyimə lazım? Deyiflər, onda sənin səsin bağlanacaq. Deyif:

– Nətər yanı səsin bağlanacaq? Döh də deyə bilməyəcəm?

Deyir:

– Əşi, döh da deyəssən, hələ qışqırassan da. Amma səs vermə hüququn olmuyacax.

Deyir:

– Ayə, döh deyə biləcəm, o mənə bəsdi. Yerimi əkib ayləmi dolandıracam.

## 191-193. KALBA SƏMƏD

Bartaz kəndində Kalba Səməd adlı bir kişi yaşayırdı. O İranla ticarət əlaqələri qurubmuş, qaçaqmal alveri ilə məşğul imiş. İran tərəfdən Azərbaycana çay və digər məhsullar gətirərmiş. Araz çayından keçərkən həmişə sərhəddə rus əsgərləri gətirdiyi yükü əlindən alar, özünü buraxarmışlar. Kalba Səməd bir gün Arazdan keçəndə əsgərlərlə rastlaşır. Sərhədçilər ondan yükünün nə olduğunu xəbər alır. Kalba Səməd özünü itirmədən deyir:

– Yüküm çaydı, çaydı.

Sərhədçilər düşünürlər ki, Kalba Səmədin yükü çay olsaydı, belə deməzdi. Onu sərbəst buraxırlar.

### 192

Kalba Səməd kişi gedir Zəngilan kəndinə bazara. Orda həftə-bazar varmış. Satdığın satır, axşam düşür, addıyır Müşülan kəndinə, gecəni orda qalır. Görür ki, ev yiyəsinin toyuq-cücəsi çoxdu, içində xoruzu da var. Tutur xoruzu, qoyur heybəsinə. Dərbənir ki, getsin. Ev yiyəsi deyir ki, ay qonax, getməginən. Qoy xoruz bannasın, soora gedərsən. İndi getsən canavar yeyər. Deyir:

– Xoruzdu dana. Bannar bannar, bannamaz, gedərəm, yolda bannar.

### 193

Kimin nəyi itirsə, Kalba Səməddən şübhələnirmiş. Bu da deyirmiş, kimnən nə itirsə, mənnən görüllər, kimin nəyin axtarıllarsa, mənnən çıxır.

## 194. OCAQQULU

Ocaxqulu məşhur oğruymuş. Oğurladığını gətirərmiş, qurban payı kimi bölərmiş. Bir gün öz kəndlərində imiş. Qış idi, hava soyux olduğundan heyvan bivaxt gəlir. Tez heyvanın birini

itəliyir içəri. Heyvan yiyəsi görür heyvanın biri yoxdu. O yanda da canavar uluyurmuş. Ocaxqulu kişi deyir:

– Ula, başına dönüm, ula. Mən yiyəni də sənə sayıllar.

## 195-196. AŞIQ ORUC

Aşıq Oruc varmış, gedir Ördəkli kəndinə, orda toy çalır. Görür buna qulaq asan yoxdu: yedilər, içdilər, bir-birini qırdılar. Ondan soora bartazlılar bunu aparır, toy çaldırır. Görür bura hara, ora hara. Burda insannar mərifətdi, savatdı. Deyir:

Əziziyəm, ya süzmə,
Ya qatıxdı, ya süzmə.
Bartazdan toy,
Ördəklidən yas üzmə.

## 196

Aşıq Oruc gedir bir məclisdə çalıb oxuyur. Görür ki, buna fikir verən yoxdu. Durur, üzdən iraq, eşşək kimi anqırır. Anqıranda deyirlər:

– Aşıq, bu nədi?

Deyir:

– Görürəm hamının qoduğu yanındadı, mənimki yoxdu.

Onnan soora o kənddə indinin özündə də toya uşaq aparmazdar.

## 197. AŞIN ALTINDAKI CÜCƏ

Bizim kənddə Qəmər adlı bir kadın olub, Xırdaqışlağa ərə gedib. Hacı Abdullanın bacısı qızı olub. Bir gün Qaröyünnən bir molla gəlir, ona Qara molla deyillər. Bu, özünnən dəm vurmaq üçün deyir ki, pay atonan, ağaşdan bir yarpax düşdü, Türkiyədə bir adam öldü. Bular da deyillər:

– A kişi, sən burda yaşıyırsan, ağaşdan bir yarpax düşməknən nə bilirsən Türkiyədə bir adam öldü?

Deyir:

– Yox, mən biliciyəm.

Deyillər:

– Yaxşı.

Plovu bişirillər. Hər kəsin plovunun üstünə bir dənə beçə qoyullar, bunun beçəsini düyünün altına qoyullar ki, görək bunu seçəcək, yoxsa yox. Gətirib qoyullar bunun qabağına. Baxıb görür hamının plovunun üstündə beçə var, bunun plovunun üstündə yoxdu. Boşqabı itəliyir o yana. Hacı Abdulla deyir ki, ay molla, noldu? Niyə yemirsən? Deyir:

– A kişi, mən nə qədər aciz oldum ki, hamızın xörəyinin üstündə beçə var, mənimkində yoxdu.

Qəmər xala deyir ki, bəs nətər düyünün altındakı o yekəlikdə cücəni görmürsən, amma Türkiyədə adamın öldüyünnən xəbər verirsən?

## 198. SƏN ALLAH, BURA HARADIR?

Məhərrəmlih vaxtı Zəngilanda tez-tez şəbeh düzəldərmişdər. Bir gün yenə şəbeh düzəldillər. Bir kişini bir ağacın altında oturdullar ki, gəlip soruşan olsa bura haradı, desin, bura Kərbəladı.

Şəbeh başdanır. Biri gəlir bu kişidən soruşur ki, sən allah, de görüm, bura haradı?

Kişi deyir:

– Əyə, Allaha niyə and verirsən, bura Rzaqulunun armudunun dibidi.

## 199. YEMİŞİN KALI

Məşədi İslam addı bir kişinin atı itir. Atı axtara-axtara gəlip çıxır Həkərinin qırağına. Görür bir qız quzu otarır. Uzaxdakı bir qaraltını qıza göstərir soruşur:

– A qızım, gözüm yaxşı görmür, bax gör o qaraltı atdımı?

Qız deyir:

– Yox, İslam dayı, inəhdi.

Məşədi İslam deyir:
– A qızım, gözüm yaxşı görmür, sən kimin qızısan?
Qız deyir:
– Kəblə Murtuzun.
Məşədi İslam deyir:
– Kəblə Murtuzun iki qızı var, biri yetişib, biri yox. Gözüm yaxşı görmür, sən Kəblə Murtuzun hansı qızısan?
Qız deyir:

Korsansa, kahal axtar,
Dərə, təpə, yal axtar.
Hər yemişin dəymişi,
Bir yemiş var, kal axtar.

Məşədi İslam gülür, deyir:

Qızılgülü dərəllər,
Dərib yerə sərəllər.
Sən dediyin yemişi,
Kor kişiyə verəllər?!

# IV. İNANCLAR*

- Qaraçuxa baxtdı, taledi. Qaraçuxa adamın arxasınca gəzib-dolanır, adama kömək eyləyir. Qaraçuxa adamnan gəzib-dolanmırsa, demək, o adamın baxtı yatıb. Belə olanda deyərlər ki, filankəsin Qaraçuxası yatıb. Yox əyər adamın Qaraçuxası yatmayıbsa, onda, deyərlər, filankəsin Qaraçuxası dik dayanıb.
- Qaraçuxa övliyadı. Qaraçuxa evin astanasında durar, amma gözə görünməz. Evin astanasına çatdın, gərək Qaraçuxaya salam verəsən.
- Şər qarışanda yatmazlar. Şər qarışanda qismət paylanar, deyirlər.
- Təzə ev tikiləndə tikilinin üstünə yumurta qoyarlar ki, bədnəzərdən uzaq olsun.
- Evdə adam olmasa da, içəri girəndə salam verərlər. Deyərlər, evdə kimsənələr var. Onlar evə xeyir-bərəkət gətirirlər, qaranquş-filan donunda adamın yuxusuna girirlər.
- Qaramux, çinar və saqqız ağaclarını kəsmək günahdır. Saqqız ağacı pirdir. Bu ağacın altında başını qoyursan daşın üstünə, yatırsan. Əyər yuxuda bir nurani dərviş, bir əlində ağac, bir əlində də təsbeh gəlib dursa başının üstə, desə ki, filankəs, sənin payını verdim, onda muradına çatacaqsan. Yox əyər dərviş yuxuna girməsə, onda muradın hasil olmayacaq.
- Bir oğlan gedib Buğukər pirinin yanındakı ağacların birini kəsir. Görür ki, ağacın kəsilən yerindən qan damır. Qorxudan oğlanın dili tutulur. Oğlanı aparıb baxıcıya göstərirlər. Baxıcı deyir ki, oğlan günaha batıb, aparın Buğukər pirində qurban kəsin. Buğukər pirində qurban kəsirlər, oğlanın dili açılır.

---

* İlk dəfə "Bu yurd bayquşa qalmaz" (Bakı, Yazıçı, 1995) və "Azərbaycan folkloru antologiyası. XII cild. Zəngəzur folkloru" (Bakı, Səda, 2005) kitablarında nəşr olunan bu inanc nümunələrindən sonralar "Azərbaycan folkloru antologiyası. XIX cild. Zəngəzur folkloru" (Bakı, Nurlan, 2009) və Musa Urud. "Zəngəzur" (Bakı, Nurlan, 2016) kitablarında da istifadə edilib, amma nədənsə nümunələrin götürüldüyü mənbə göstərilməyib.

- Süpürgə üstəə dəyəndə şər-şəbətə olur.
- Süpürgəni yandıranda qar yağar.
- Qara süpürgə boldursa, qış sərt keçəcək.
- Dörd yaşına qədər uşağa mal-heyvan, qoyun-keçi ürəyi yedirtməzlər ki, uşaq qorxaq olmasın.
- Duzla baş darağını qonşuya verməzlər. Versən, evdən başağrısı əskik olmaz.
- Səfər üstdə qabağına it, canavar, tülkü və ilan çıxsa, xeyirliyədir.
- Süd bişirəndə ocaqdan qonşuya köz verməzlər. Əyər versən, onda gərək süd qazanının üstünə kömür, ya da göy ot atasan. Yoxsa mal-heyvan süddən kəsilər.
- Bayquş qapıda xeyirliyə ulamaz. Ona görə, kösöv atıb onu qovarlar. Ya da bayquş qonan ağacın altına duz-çörək qoyub deyərlər: – "Sən bu düz-çörək, çıx get."
- At sahibi şər vaxtı qonşuya tərəzi verməz. Versə də, əvəzində, nəsə bir şey alıb saxlayar. Yoxsa qada-bala gələr.
- Atın üstündə namaz qılmaq olar.
- Təzə Ay çıxanda salavat çevirərlər. Göy guruldayanda salavat çevirərlər.
- Göy guruldamamış çöldən pencər yığıb yemək haramdır.
- Uşağı gecə cəviz ağacının altında yatırtmazlar, uşağa gecə bulaqdan su içirtməzlər.
- Gəlini gətirəndə qırmızı geyindirərdilər, əlinə çıraq verərdilər, üzünə güzgü tutardılar. Qardaşı bir dəsmala çörək qoyub, gəlinin belinə bağlardı ki, çörəkli olsun. Gəlini aparmağa gələnlər deyərdilər:

Verdim bir dana,
Aldım bir sona.
Ay qız anası,
Qal yana-yana.

- Gəlini atdan düşürəndə qaynata gəlinə atdan düşdü (ipək, qoyun) verərdi. Gəlinin ayağının altında qurban kəsərdilər. Gəlin

gələndə ayaqyalın gələrdi. Çünki ayaqqabı darlıqdı; ayaqqabı qız evindən şər gətirir. Əyər gəlin ayaqqabıyla gəlsəydi, qapının ağzında çıxartmalıydı ki, onunla gələn şər evə ayaq açmasın.

• Təzə gəlinin ayağının altında kəsilən qoyunun (ya da qoçun) ətini, illah da başını, ayağını üç gün qonum-qonşuya vermək olmaz. Haman heyvanın əti, ancaq gəlin gələn evdə yeyilər. Pay verilsə, üç gün sonra verilər.

• Təzə gəlin birinci dəfə bulağa gedəndə qızlar bulaq üstdə şirni paylayarlar ki, onun ayağı sayalı-qədəmli olsun.

• Toyda qara qoyun, qara inəh kəsməzdər.

• Yazı düzündə taxıl quraqlıqdan yanırmış. Camaat Allaha üz tutub deyir: – “Ay Allah, yağış yağdır, bulaq üstdə qurban kəsəcəyik!” Yağış yağır, aparıb, Yazı düzünün yuxarı dərəsindəki bulağın üstündə öküz kəsirlər. O vaxtdan bulağın adı qalır Nəzir bulağı.

• Yağış yağmayanda, quraqlıq olanda qurban kəsib deyərlər: – “Ay Allah, biz sənə can borcluyuq, qurban borcluyuq. Sən də bizə çörək borclusan!”

• Yağış yağmayanda bir cöngəni aparıb kövşəndə dolandırarlar. Sonra seyid dua oxuyur, cöngəni kəsirlər, ətini oradaca bişirib yeyirlər. (O əti evə gətirmək olmaz). Bundan sonra yağış yağar.

• İl qurax olsa, su tısbağasını güneydə bağlıyallar, yağış yağar.

• Yağış yağmıyanda bir adam niyyət eliyib gedir günahsız yerə öldürülən bir adamın qəbrinin üstünnən şəhid daşı (torpağı) götürür. Arxıya baxmadan gətirib suya atır. Bunnan da yağış yağır

• Gün çıxmıyanda da gedillər şəhid daşını gətirib atıllar ojağa. Bunnan da gün çıxır.

• Canavar hansı kəndin yanında balalasa, o kəndin mal heyvanına dəyməz.

• Bir adamın gəbəsi-filan itəndə qurd ayağı yandırarlar. Onda, oğrunun əl-ayağı qıc olar.

• Qurdun ayağını harda yandırsan, orda quraqlıq olar. Ona görə də, qurdun ayağını aparıb uzaqda yandırarlar.

- Qurd yağından aylәni dağıtmaq üçün istifadә eliyirdilәr. Qurdun daban yağını qurudub suya qatırlar, paltara vururlar vә ya çörәyә qatıb yedirdirlәr. Əgәr qurdu vuran adam onu haramlayarsa (murdarlayarsa), tәsirdәn düşәr.
- Qurdun ürәyini uşağa yedirirmişlәr ki, qorxmaz olsun.
- Kiçik çillәdәn on gün sonra Xıdır Nәbi bayramı keçirәrlәr. Qavıt çәkәrlәr, xәşil bişirәrlәr. Bir qabı qavıtla doldurub, qoyarlar eşiyә. Üstünә әlәklә sığal çәkәrlәr ki, Xıdır Nәbinin çәliyinin izi düşsün. Xıdır Nәbi çәliyini qavıta bassa, ev-eşiyә bәrәkәt gәlәr. Xıdır Nәbi bayramı günü bir qab qavıtı aparıb, zәmiyә sәpәrlәr ki, taxıl bol olsun.
- Xıdır Nәbi qış yarı olanda keçirilәrdi. Deyirdilәr, canavarların kürsәyә gәlәn vaxtıdır. Hәmin gün nәnәmgil Xıdır kömbәsi bişirәrdi. Fәtir kimi dairәvi bişirilirdi. Əvvәlcә yarmanı sajda qovururdular, qaynadırdılar. Qaynadandan soora bir az yağ vururdular, şәkәr vururdular, içinә qoz-fındıq lәpәsi qarışdırıb yayırdılar. Lәzzәtdi olurdu. Kömbәnin içinә bir dәnә dә düymә qoyurdular. Deyirdilәr ki, kim onu tapsa, Xıdır Nәbi gecә gәlib onun yuxusuna girәcәk, ona hәdiyyә verәcәk. Kömbәni tәndirdә bişirirdilәr. Tәndiri qalıyırdılar, köz düşәndәn soora közü oyurdular, kömbәni külün altına qoyurdular. Üstünә az-maz küldәn sәpirdilәr, onun üstünә dә köz qoyurdular. O formu bişirdi, qıpqırmızı olurdu. Onnan soora gәtirirdilәr, dilimlәrә bölürdülәr. O düymә kimin qismәtinә çıxsa, Xıdır Nәbi onun yuxusuna girib ona hәdiyyә verәrdi. Kömbәdәn, adәtәn, ikisin bişirirdilәr. Birin qonum-qonşuya paylıyırdılar, birin ayilә üzvlәri arasında bölürdülәr.
- Pişiklәr murova gәlәndә ona Xızır günü deyirlәr. Hәmin gün görürdün pişiklәr hay salırlar, miyolduyullar, sәslәri alәmi götürür. Hәmin günü xәşil bişirәrdilәr. Xәşili bizim yerlәrdә düyüdәn dә bişirirdilәr, buğdadan da. Buğdanı dübәkdә döyürdülәr, un eliyib, ondan sonra bişirirdilәr. Xәşilin ortasına imkanı olan bal, olmayan yağ tökürdü. Hәmin xәşildәn uşaqlara da verәrdilәr, çölә pişiklәrә dә pay qoyardılar.

- Xıdır Nəbidə yatmazdar. Bına qədirçıxartma deyillər.
- Xıdır Nəbidə buğda qavırıllar, qovut bişirillər. Qovutdan aparıb zəmiyə səpillər ki, məhsul bol olsun.
- Böyüh çillə 40 gün olur (dekabırın iyirmi ikisinnən fevralın birinə qədər). Kiçik çillə fevralın birindən iyirmisinə kimi olur. Boz ay fevralın iyirmi birinnən martın iyirmi birinə qədərdi. Boz aya alaçalpov da deyillər.
- Deyərlər, köhnə ildən təzə ilə keçəndə su dayanar, at gövşəyər, ağaclar səcdəyə gələr. Söyüd deyər: – Mən də, mən də!.. Bu vaxt kim nə niyyət eləsə, niyyəti hasil olar. Bir arvad bayram gecəsi su gətirməyə gedir. Görür ki, ağaclar səcdəyə gəldi. Niyyət eyləyir ki, əlimdəki səhəng qızıl olsun. Səhəng qızıl olur. Arvad özünü itirir. Güclə deyir ki, boynum sınaydı, bə mən evə susuz necə gedəcəm? Arvadın o saatca boynu sınır.
- Hamı çalışarmış ki, axır çərşənbə gedib hamıdan qabax su gətirsin. Çünkü deyillər ki, suda peyğəmbər nəfəsi var.
- Söyüd ağacı təkcə ilaxırı səjdə qılır. İlaxırı söyüdün, başqa ağaşdarm səjdə qılmağını bir at, bir də it bilir. At kişniyir, ayağını yerə döyür, it də uluyur.
- Axır çərşənbədə bulaxdan daş gətirirdih. Evin hər küncünə birin atırdıx, birin də çuvala. Qojalar deyirdilər ki, bu dövlət, var gətirir. İki-üç günnən sora atırdıx. Çuvaldakı daş da xəmir yoğrulana kimi qalırdı. Səhəngə də daş atırdıx. Su qutarana qədər qalırdı.
- Axır çərşənbənin səhəri o başdan duruf səhəngi götürüp bulağa gedirik. Üç dəfə bulağın üstnən atılırıx. Orda da deyir ki, ağır-uğurruğun bu suda qalsın. Bulaxdan üç daş götürüb səhəngə atırıx. Çöldən, qırılmalı otdardan beşini də atırıx genə səhəngə, özü də kim tez gəlir o bulağa, ora kanfetdən, buğdadan bir şey qoyur ki, bilsin ki, biz sizdən tez gəlmişih. Bala, bu daşı ona görə səhəngin dibinə atırıx ki, ağırrığımız-uğurruğumuz bu daşnan qalsın suyun içində. Ot da ona işarədi ki, evimizə urza-bərəkət gətirsin. Sora səhəngi evə aparırıx, suyun içirik. Səhəngin suyu quta-

rıncan, bala, bir 15 gün içində qalır. Sora daşı evin küncdərinə atırıx. Üzümüzə gələn Novruza qədər qalır, sora yenisin gətiririk. Ot səhəngin içində qalır.

- İlin axır cümə günü yemək bişirib aparalar qəbirstanlığa, qəbrin üstə yeəllər.
- Axır çərşənbədə qızlar yumurtayla cövhəri götürərdilər və aparıb bir çəmənliyə qoyardılar. Əyər o gecəsi çəmənliyə şeh düşsəydi, yumurta cövhərə dəyib, qırmızı boyansaydı, onda, qızların niyyəti hasil olardı.
- Yazın birinci günü yağış yağsa, yaz yağıntılı olacaq. Yazın ikinci günü yağış yağsa, yay, üçüncü günü yağış yağsa, qüz yağıntılı keçəcək.
- Zahı arvadın ayağının altına qayçı, bıçaq, tüfəng qoyarlar, yaxasına iynə-sancaq taxarlar, dörd tərəfinə sicim sərərlər, yastığının altına duz, çörək qoyarlar, suyu xəncərləyərlər ki, hal gəlib onu aparmasın.
- Halın boynundakı muncuğu götürüb evdə saxlasan, hal o evə yaxın düşməz.
- Gecə yuxunu qarışdırıbsansa, səhər durub itə çörək atarsan, toyuğa dən verərsən, sonra gedib yuxunu suya danışarsan, xətər sovuşar.
- Vırğın Allahdan gələn bir baladı, adamı vırır. Su qırağında vırır, yatmış yerdə vırır. Vırğın vıran adam naxoş olur.
- Ocaxda maleykə var. Odu ki, ocağa su tökməzdər.
- Dar vaxtı suyun üstə getməzdər. Suyun içində məlakələr var, adama toxunullar, ağzı əyilir, qolu quruyur. Vırğın vırıf, deyillər, belə adamlara.
- Kaftarkus pişih kimi bir şeydi. Ancax ilih yeyir. Təzə ölüləri qəbirdən çıxardır, iliyini yeyir. Uzanıf açılanda sicim kimi olur, yığılanda bapbalaca olur. Ancax qəbirdə olur. Qəfil atılır atın üstünə, adamın boynunnan yapışır.
- Deyillər, kaftarkus insannan dönmədi. Təzə qəbirrəri söküb meyidi aparır. Gərəh gedib təzə qəbirin üstündə od yandıra-

san. Kaftarkus oddan qorxur.

- Kimin üstündə Kaftarkustu tükü olarsa, o cəsarətdi olur.
- Geymədiyin paltara iynə taxsan, cin yaxın gəlməz.
- İsti suyu yerə atmazdar. Yerdə bizdən çox yaşıyannar var. Onnarı yandırar. Onnar yananda suyu atana əziyət verir. Onnar bismillah deyir, amma rəhmani-rəhimi deyə bilmir.
- Un çuvalının içinə nal qoyallar ki, cin gəlib aparmasın.
- İnsan nəfəsinə, gül iyinə gələn ilannar var, onnarı öldürmək günahdı.
- Kəklihdə Əzrayıl tükü var.
- İlan bir adamı çalanda gərəh tez həmin adamı aparasan ocağa. Əyər tez aparsan, o adam sağalır, ilan özü ölür. İlan adamı çalannan sora özü gedir ocağa. Əyər ilan çaldığı adamnan qavax ocağa getsə, onda o adama əlac olmaz.
- Axşam evi süpürməzdər, evdən zibil atmazdar – evin bərəkəti qaçar.
- Duz günü səfərə çıxmazdar.
- Həftənin cüt günnəri səfərə çıxanın uğuru xeyirli olar.
- Təzə bir heyvan alıb gətirəndə ayağının altına dəmir atıllar ki, dırnağı bərk olsun, xeyirri olsun.
- Bir yerə gedəndə qabağına üç dəfə pis adam çıxsa, əyaxyalın gedə bilərsən. Dördüncü dəfə də pis adam çıxanda getsən günah özündədi.
- Ölgün olana deyillər, qərəmət basıb.
- Yuxuu qarışdıranda itə çörəh, toyuğa bir qab dən atarsan. Sora suya nağıl eləsən, xətər sovuşar.
- Mal gələn vaxtı xoruz bannasa, ziyannıx olar, gərəh o xoruzu kəsəsən.
- Təzə ev tikəndə tikilinin üstünə yol tərəfdən yumurta qoyullar. Çünki yumurta göz qaytarır.
- Təzə evə haram ulağın kəlləsin asallar ki, göz dəyməsin.
- Təzə tikiliyə nal, dağdağan, üzərrik asallar.
- Bostana, ağaca göz dəyməsin deyə at, it kəlləsi, buynuz

vırıllar.

- Ocağa su tökəndə ziyannıx olar, gərəh özü öz həmdinə sönə.
- Balaca uşağın ayağı xarab olanda, yerimiyəndə onun çiləsini töküllər. Uşağı daşın, qayanın deşiyinnən keçirillər. Bunnan sora uşax yeriyir.
- Üç uşağı sünnət eliyəndə birin saxlıyıp sora kəsdirillər. Çünki üç nəsdi, uşağa göz dəyər. Kəsdirilən uşağın yanına yumurta qoyallar ki, göz dəyməsin.
- Ayın qulağı dik olanda, deyəllər, havalar xam olajax. Bulanmış olanda, ala-bula görsənəndə, deyəllər, bu ayın bir çənağası var.
- Dağ-daş ki pirdi, onun yanınnan keçəndə yaşmanmax lazımdı. Başıaşağı getməh lazımdı.
- Xəmiri kündəliyəndə xəmirin qırın-qırtısını qaytarıb təzədən təhniyə atmazdar. Onda hal onu götürür.
- Pıçax stolun üstündə ağzı yuxarı düşsə, demək, qurban tələb eliyir. Qurban kəsmax lazımdı.
- Göy paltarnan qara paltarın düşər-düşməzi olur.
- Qurd saxlıyanda (baramaqurdu) yumurtanı qoyullar təpəkənin ortasına. Sarıçiçəyi də qoyullar qapının başına ki, göz dəyməsin.
- Pişikcaynağı addı bir ot var bizim tərəflərdə. O ot nəzər qaytarır.
- Çəvirtgə taxılı süng eliyir, zəmini virana qoyur, quruca torpax qalır. Belə deyillər ki, əyər çəvirtgə gələndə tez gəlib murad quşunun suyunu gətirə bilsən, onda murad quşu da suyun dalınca gəlejəh. Suyu harda saxlasan, murad quşu da orda dayanajeh, çəvirtgəni başdıyajeh qırmağa.
- Biri istiyir ki, o birinin qızını alsın oğluna. Bu istəyi heç kimə aşmamışdan qavax gedir bir yerə bir daş qoyur. Aradan bir xeyli vaxt keçənnən sora gəlir daşı çevirib baxır. Əyər daşın altında bir cücərti olsa, ot-zad göyərsə, onda gedər öz istəyini qız yiyəsinə bildirər. Çünkü bilər ki, daş altında cücərti əmələ gəldisə, deməh onnarın qohumluğu xeyirli olar.

- Övladı olmayan adam sağlığında ehsan verər.
- Cavan ölənin toy parçasını qəbrinin üstünə tökürlər.
- Ölü ölməmişdən qabaq onun ehsan çörəyini bişirmək olmaz. Çünki Əzrayıl onun başını kəsəndə, qanı yerin yeddi qatına qədər hər şeyi qana bulaşdırır. Çörək də qana bulaşır. Odu ki, onu qabaqcadan bişirmək günahdı.
- Ölünü aparanda cinazəni aparan atın yalmanına nal, sarımsaq, çarıq asardılar ki, yüngüllük olsun, ölüm-itim olmasın.
- Atın üstündə meyit aparanda gərək atın qulağına deyəsən ki, meyit aparırsan. Yoxsa at çatlayar.
- Qurağı, əliyi, göyərçini vurmaq olmaz, deyirlər onlarda peyğəmbər qanı var.
- Qırxlı uşağın üstünə gərək tüfənglə getməyəsən. Getsən, tüfəng qırxa düşər. Ya da qırxlı uşaqla tüfəngin üstünə gəlsən tüfəng qırxa düşər.
- Tülkü ova gedənin qabağına çıxsa, ov xeyirli olar. Ayağı ağır adam ova gedənin qabağına çıxsa, ova getməzlər. Duz günü ova getməzlər.
- Ova gedəndə gərək heç kimə xəbər eləmiyəsən. Ov yoldaşları şərtləşərdilər, filan mətədə görüşüb ova gedərdilər.
- Keşmişdə uşağın boğazı gəlirmiş, hər adamın əli, hər adamın səbəbi düşmür ki, mən boğazını basım, anginası qəyitsin. Ancax belə var ki, ilan ilannan görüşən zaman – bir-birinə ki dolaşır, qarşına çıxanda, istiyir kişi olsun, istiyir qadın qismi olsun, bı onun fərəsətinnən asılıdı, bir daş atar, elə olur ki, ilan bir-birinnən aralaşır. Elə şərt o deyil ki, aralaşa biri o tərəfə, biri bı tərəfə gedə. Elə aralaşan kimi şərt odu ki, arasınnan keçəsən, deyəsən "əlim boğaz dərmanı!" Yainki, deyəsən, əlim sarılıx dərmanı, ya başqa bir yara dərmanı. Ta ayrı şey yox, nəyi deyirsənsə, onu sağalda bilirsən.

# V. BAYATILAR

1. Xoş gördük, dərə, səni,
Xoşnişin dərə səni.
Xoş o kəsdərin halına ki, Zəngilan,
Bir də gələ, görə səni.

2. Ay gedən, səninənəm,
Getmə dur, səninənəm.
Bülbül gülnən oynasa da, Zəngilan,
Mən elə səninənəm.

3. Bu yol Cavada gedir, bala.
Axıb Cavada gedir.
Balası ölən analar,
Gör nə havada gedir.
*Mən görmüşəm, heş kəs görməsin bala dağı.*
= Bu yol Cavada gedər,
Aşar, Cavada gedər.
Uçuf könlümün quşu,
Gör nə havada gedər.

4. Bağda üzüm ağacı, bala*.
Üzüm-gözüm ağacı.
Bağa dəhrəli girib,
Kəsib bizim ağacı.
5. Mən aşıx, bala dağı,
Bürüyüb lala dağı.
Hər yaralar sağalsa,
Sağalmır, vallah, bala dağı.

6. Aşıq haradan gəldi?
Göydən, qaradan gəldi.
Göydə bulud yoxudu, Allah,
Bu sel haradan gəldi?

7. Dağlar başı buz bağlar, bala.
Divləri yarpız bağlar.
Cavan ölənlərimə deginən bəlkə mən öləndə
Cinazamı düz bağlar.

8. Dağları gəzdim, gəldim,
Daşdarın düzdüm, gəldim.
Getdim qəbirstannığa, ölənnəri gördüm,
Əlimi üzdüm, gəldim.

9. Dedi, dağları gəzən mənəm,
Daşdarı düzən mənəm.
Cavan balası ölə
Al geyib bəzənmərəm.

10. Dağlara binə gəlləm,
Gedərəm, genə gəlləm.
Eşitsəm ki, ay bala, sən gəlirsən,
İmana, dinə gəlləm.

11. Qardaşdar, ay qardaşdar.
Yağış kəsər, qar başdar.
Ölsə bajılar ölsün,
Heç ölməsin qardaşdar.

---

* Söyləyici bayatını qaynının ölən oğlanlarına həsr edir.

12. Dağlara dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrimi güneydən qoyun,
Bəlkə anamın yolu düşər.

13. Dağların lalasıynan,
Gülünün lalasıynan.
Burda bir kişi ölüb,
= Burda bir cavan ölüb,
Yanının balasıynan, bala.

14. Aşıx meşəli yerdə,
Gül-bənövşəli yerdə.
Bala, səni vıran elə vırdı,
Qaldın döşəli yerdə.

15. Mən aşıx, neynim saa,
Düşübdü meylim saa, ay bala.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neynim saa.

16. Mən aşıx, mərd əkərəm, bala.
Mərdi yox, namərd əkərəm.
Qoşaram qəm kotanın
Şumlaram, dərd əkərəm, bala.

17. Dağlar marala qaldı,
Endi, marala qaldı.
Zəngilan, sənin yollara baxmaxdan
Vallah, gözümdə sarı qaldı.

18. Mən aşıx, mey dərdi,
Mey dərdi, qora dərdi.
Bu dünyada sağalmaz,
Aparram gora dərdi.
*Heç bir bala dərdi bu dünyada sağalmır, aparırıq özümüznən gora.*

19. Gejələr, hay gejələr
Molla dərsin hejələr.
Mən nənəmsiz dözmərəm,
Anam mənsiz nejələr?
= Mən balamsız dözmərəm
Balam mənsiz nejələr?

20. Gejələr mənsiz keşdi,
Bilmirəm nejə keşdi.
Mənim günüm ax-vaynan, İlham*,
Səninki nejə keşdi?

21. Buxarı qurum olar,
Od yandı, qurum olar.
Qardaş gələn yollara
Bacılar qurban olar.
= Qardaşı ölən bacıya,
Yamanca zülüm olar.

22. Əlin xına tutmasın,
Çevir günə, tutmasın.
Çünki məni tərk etdin getdin, bala,
İşin binə tutmasın.

---

* Söyləyicinin vaxtsız rəhmətə getmiş oğlu

23. Mən aşıx, kimlər ağlar?
Kimim var, kimim ağlar?
Sən öldün, mən ağladım,
Bəs məni kimlər ağlar?

24. Mən aşıx, kimə gedim?
Kimim var, kimə gedim?
Canım bir dərdə düşüb,
Dərmana kimə gedim?

25. Əlimdə var barama,
Həkim, dəymə yarama.
Bajım tutsun lampanı,
Anam baxsın yarama.

26. Gəl maa dəymə, dəymə.
Əl vurma, dəymə, dəymə.
Təbibsən, irəli dur,
Naşısan dəymə, dəymə.

27. Mən aşığam, al mənnən,
Yaşıl mənnən, al mənnən.
Oğul, ya qayıt evə gəl,
Ya bu canı al mənnən.

28. Yeri-yeri, xəstə, yeri,
Xəstəsən, asta yeri.
Xəbər verin ellərə,
Yığılsın xəstə yeri.

29. Yeri-yeri hana yeri,
Qurulub hana yeri.
Neçə xala yığılsa,
Verməz qoca ana yeri.
= Yeri-yeri, xəta, yeri.
Verməsin xəta yeri.
Neçə əmi-dayı yığılsa,
Verməz bir ata yeri.

30. Ayrıldıq yalan-yalan,
Evinə düşdü talan.
Ayrılsın, qavışmasın
Bizi ayrı salan.

31. Bağında gavalı var,
Yeməyə gavalı var.
Buyün çölə çıxma,
Əzrayılın zavalı var.

32. Bağın qır, ganal* eylə.
Vır boynun, ganal eylə.
Çəkdiyin əziyyətdəri
Sən mənə halal eylə.

33. Bağında badam olmaz,
Yeməyə badam olmaz.
Çox da şəkilə yalvarma,
Şəkildən adam olmaz.

34. Ceyranam, çölə gəlləm.
Otdaram, gölə gəlləm.
Əgər imkanım olsa,
Qayıdıf sizə gəlləm.
= Əgər gələsi olsam,
Sizin elə gəlləm.

---

* ganal – tutun şaxı

35. Aşıq, elə gəlmərəm,
Ceyran, çölə gəlmərəm.
Sizin eldə nəyim var?
Sizin elə gəlmərəm.

36. Günün duran vaxtıdı,
Durub duran vaxtıdı.
Əzrayıl ava çıxıb,
Səni vıran vaxtıdı.

37. Yarpaqlar bir-bir düşər,
Atdanar bir-bir düşər.
Sənnən keçirdiyim günnər
Yadıma bir-bir düşər.

38. Bayquş mənəm, bayquş mən,
Hər quşdan say quş mən.
Canıma bir od qoymusan,
Hey ağlaram yay-qış mən.

39. Apar bazara məni,
Saldın azara məni.
Aç belinnən tokqanı,
Salla məzara məni.
= Çək qurşağı belinnən,
Salla məzara məni.

40. Apardı tatar məni,
Qul eylər, satar məni.
Yaxşı qardaşım olsa,
Axtarar, tapar məni.

41. Anam, anam, öz anam!
Qoynu dolu köz anam.
Yad ağlar, yalan ağlar,
Qoy ağlasın öz anam.
= Ana, mən vətənnən getdim,
Gəl bı dərdə döz, anam.

42. Ana, məni az ağla,
Payız ağla, yaz ağla.
Mənnən keçirdiyin günnəri
Bir dəftərə yaz, ağla.

43. Məni vırıb üç ilan,
Yumurtası puç ilan.
Görən varmı mənim kimi
Zəmisi göy biçilən?

44. Məni vırıb talx ilan,
Yumurtası çalx ilan.
Çəkirsən öz dərdi çək,
Nə işin var xalxinən.

45. Arazın altınca gəl,
Altın qoy, üstüncə gəl.
Al yanına balanı,
Onların yanınca gəl.

46. Toy tutun, məzə tutun,
Gülbəndin təzə tutun.
Yandı anamın canı,
Çiy yerin közə tutun.

47. Köynəyin alacadı,
Geymisən, alacadı.

Sən də çox ağlama
Səninki balacadı*.

48. Bu görükən Soltandı,
Soltandı, Savalandı.
Nə dərdimə çara var,
Nə də ki sağalandı.

49. Alçalar çiçəkləndi,
Çiçəyi ləçəkləndi.
Yatmağın yalan oldu,
Ölməyin gerçəkləndi.

50. Göynən uçan quşa bax,
Qanadı sınmışa bax.
Ellərə gələn bahara,
Maa gələn qışa bax.

51. Göynən uçan sonalar,
Bir-birinə yan alar.
Qoy sənə qurban olsun,
Balası ölən analar.

52. Mən öldüm, anam qaldı.
Oduma yanan qaldı.
Nə bu dünyadan kam aldım,
Nə də bir nişanam qaldı*.

53. Ana kişmiş kimidi,
Civlərə düşmüş kimidi.
Anası ölən qızlar
Gözdən düşmüş kimidi.

54. Quşdar hava bağladı,
Uşdu, hava bağladı.
Səninlə uçan quşdar,
Tamam yuva bağladı.

55. Bu yola gedən gəlməz,
Bilmirəm nədən gəlməz.
Qırılar qətərinnən
Çıxar cərgədən, gəlməz.

56. Əzrayıl bostançıdı,
Bağı yox, bostançıdı.
Dəymişi duran yerdə
Kalı kəsən bostançıdı.

57. Mən aşıx, bir az bəri,
Gəncədən bir az bəri.
Könlümün qəmzəsisən,
Dilimin əzbəri.

58. Aşıx dərdə nə bağlar?
Gümüş gərdana bağlar.
Gedək dərtdi yanına,
Görək dərdə nə bağlar?

59. Aşıx sənəm səsinə,
Səs ver sənəm səsinə.

---

* Söyləyicinin dediyinə görə, bu bayatını körpə uşağı ölənə deyirlər.
* Söyləyicinin dediyinə görə, bu bayatını toysuz, nişansız dünyasının dəyişənlərə deyirlər.

Sümüklərim dincəldi,
Öz kimsənəm səsinə.
*Deyilənə görə, ölünün yaxın adamı onun üstündə ağlayanda ölən şəxsin sümükləri dincəlir.*

60. Ellərin elləri var,
Çiynində belləri var.
Xəbər verin ellərə,
Desinnər elləri var.

61. Bağında badamı var,
Yeməyə badamı var.
Qoy gəlsin ellərin,
Desinlər adamı var.

62. Maral, yerin şam olsun.
Otda, yerin şam olsun.
Birin sən de, birin mən,
Gün gəlsin, axşam olsun.
= Maral, yerin xam olsun,
Otda, yerin şam olsun.
Balalarım gəlsin yığılsın başıma,
mən olara söhpət eliyim,
Gün gəlsin, axşam olsun.

63. Sağında mən oloydum,
Solunda mən oloydum.
Balam can verəndə,
Yanında mən oloydum.

64. Mənim dərdim uludu,
Uludan da uludu.
Açım dərdimi deyim,
Dərtdi dərdin unudur.

65. Ürəyimdə dürrü-dürrü yara var,
Üstdə xal var, qara var.
Təbib gəlsə,
Bəyəm ona çara var?

66. O tayda bir ev qaldı,
Tikmədim, bir ev qaldı.
Sən öldün, balan qaldı,
O da maa girov qaldı.

67. Gedən boz atlı, getmə,
Yolun uzaxdı, getmə.
Balaların göz yaşı
Yola duzaxdı, getmə.

68. Anam, otur yanımda,
Bacım, otur yanımda.
Birin sən de, birin mən,
Dərd qalmasın canımda.

69. Naçaram, ay naçaram,
Baş götürüb qaçaram.
Harda bir yaralı görsəm,
Orda dərdimi açaram.

70. Sənə yaralı qurban,
Göylü qaralı qurban.
Sənin təzə yarana,
Köhnə yaralı qurban.

71. Dağlara keçi gəldi,
Keçinin üçü gəldi.
Xəbər verin ellərə,
Toysuzun köçü gəldi.

72. Evləri Qarqamışa
Tikilmiş Qarqamışa.
Yüz min təbib neynəsin,
Bir fələy qarqamışa.

73. Bir ev tikdim dəyirmi,
Çubuxları iyirmi.
Bu evi qoyuf hara gedirsən,
Bu ev sənin deyilmi?

74. Evləri Çaykeçəndə
Tikilib Çaykeçəndə.
Saa bir qarğış elərəm,
Günüm ax-vay keçəndə.

75. Dağ başında ala qar,
Ala çarpaz, ala qar.
Dağlara qar yağmışdı,
Yağmamışdı belə qar.

76. Nərgizdər, ay nərgizdər,
Top-top bitər nərgizdər.
Heyif sənin canınnan,
Torpaq örtər, yer gizdər.
= Qiyamət o gün qopar,
Torpax örtər, yer gizdər.

77. Mən aşığam, dam qaldı,
Damlar yeri nəm qaldı.
Qaşdı elim-obam,
Bir quruca dam qaldı.

78. Gecənin nə qəralı,
Nə səbri, nə qəralı.
Canıma bir od düşüb,
Nə sönür, nə qaralır.

79. Al gəlin, alma gəlin.
Al yerə salma, gəlin.
Dullux bir pulluluxdur,
Boynuna alma, gəlin.

80. Əlində var şirazı,
Yerə qoyma şirazı.
Mən qurban, anan qurban
Görüm olasan razı.

81. Mən aşıx, Qaradağlı
Muğanlı, Qaradağlı.
Balası ölən ananın
Ürəyi qara dağlı.

82. Mən aşığam, vay dərdim
Vay dərmanım, vay dərdim.
Xalx gül əkdi, gül dərdi,
Mənimki də vay dərdi.

83. Kəklik daşda nə gəzər?
Oxur, daşda nə gəzər?
Balası ölən ananın
Ağlı başda nə gəzər?

84. Canım can verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığımda gəlmədin, ay bala.
Barı can verəndə gəl.

85. Bu gəlin saşdı gəlin,
Gədiklər aşdı gəlin.
Bağladığın xonçaları
Özgələri aşdı, gəlin.
= Kilidli sandıx ağzın
Görün kim aşdı, gəlin.

86. Gələn bulağa gəlsin,
Qəynər bulağa gəlsin.
Neçə il xəsdə də olsan,
Səsin qulağa gəlsin.

87. Ay başıma düşüfdü,
Gün başıma düşüfdü.
Balası ölən analar
Daş başına düşüfdü.

88. Dədəmin qızı, bacı,
Yandıdın bizi, bacı.
Yardın ciyərimin arasın
Doldurdun duzu, bacı.

89. Qaşının qarasına,
Gül qoydum arasına.
Mən qurban, anan qurban
Başının yarasına.

90. Alma könlüm, nar könlüm,
Heyva könlüm, bar könlüm.
Götürmüşəm balamın dərdin,
Ağlamağa var könlüm.

91. Yaylığın yeri bəlli,
Yeri yox, gülü bəlli.
Burda bir oğlan ölüb,
Hər yerdə yeri bəlli.

92. Çayında qarmağım var,
Atmağa qarmağım var.
Allah sizə dəyməsin,
Ona yalvarmağım var.

93. Gedərəm gedən olsa,
Yolların örgədən olsa.
Saa çoxlu sözüm var,
Aparıb deyən olsa.

94. Sən gedən bir il oldu,
Verana bağlar soldu.
Deyirdin, qayıdacağam,
Nə yalançı dil oldu.

95. Yük üsdə kilim yandı,
Kilimi zülüm yandı.
Bala-bala deməkdən
Ağzımda dilim yandı.

96. Kəklik yaldadı, yalda.
Oxur, yaldadı, yalda.
Nə qədər dövlətin olsa,
Bir gün yerin burdadı, burda.
*Hamımızın axırı qəbirstanlıqdı.*

97. Mən aşığam, qalasız,
Şəhər olmaz qalasız.
Mən ki gedərgi oldum,
Siz sağlıqnan qalasız.

98. Yetimin yekə dərdi,
Yüklənib lökə dərdi.
Nər gərək, maya gərək,
Yetimin çəkə dərdin.

99. Gün getdi batdı, gəlməz.
Günün yubatdı, gəlməz.
Tərlanım suya endi,
Külək allatdı, gəlməz.

100. Evləri Məşətdədi.
Tikilib, Məşətdədi.
Çox da maa yalvarma
Qollarım daş altdadı.
= Evləri Məşətdədi,
Gedifdi, Məşətdədi.
A balam, istədim duram gələm,
Qollarım daş altdadı.

101. Maralın gözü qanlı,
Gözü yox, dizi qanlı.
Biz bu işi kimnən görək,
Fələyin özü qanlı.

102. Köynəyi ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Bir də əlimə düşsən,
Yeddi il qonax saxlaram.

103. Gəl məni qurdalama,
İri kəs, xırdalama.
Alovum səni qarsar,
Kösəvimi qurdalama.

104. Gəncədən gəl, Gəncədən,
Atın yesin yoncadan.
Səni məndən alanın
Beli qırılsın incədən.

105. Yaylığın çit naxışı,
Çit gülü, çit naxışı.
Gəzəsən Şəki, Şirvan,
Tapmazsan mənnən yaxşı.

106. Tut ağacı dəyiləm,
Hər gələnə əyiləm.
Ay qız, əyil üzündə öpüm,
Mən özgəsi dəyiləm.

107. Qoyunu qoyun gəlsin,
Dərisin soyun gəlsin.
Ay ora yığışan camaat,
Balamı qoyun gəlsin.

108. Bənövşəyəm, tütərəm,
Kol dibində bitərəm.
Gözətdərəm gəlməzsən,
Dizin-dizin gedərəm.
= Eşitsəm elim, yurdum alınıf,
Dizin-dizin gedərəm.

109. Qaladan biri gəlir,
Gözümün nuru gəlir.
Bı arxı kim çəkibdi,
Suyu nə duru gəlir.

110. Cəbrayılın yasdı yolu,
Su gəldi, basdı yolu.
İsdiyirəm duram gələm,
Gavırrar kəsdi yolu.

111. Şıxım mənəm, şıxım mən.
Şıxın koulun yıxım mən.
Girdim dosdun bağına,
Nə dərmişəm, çıxım mən?

112. Arazı keçən də var,
Suyunu içən də var.
Tutmuyun vətən adın,
Ürəyi keçən də var.

113. Qondaran* dihdabandı,
Yerə qoyma, amandı.
Sevəsən, almıyasan,
Görəsən nə yamandı.

114. Göndərmişəm bir kisə,
Qorxuram bağrı bişə.
Sən özün bir iş işdə,
Yar üsdə kölgə düşə.

115. Gülü sanjdım divara,
Bülbül gələr suvara.
Qışımız belə keşdi,
Yazımız gəlir avara.

116. Dəvə, dəvə, ya dəvə.
Karvan keçər, ya dəvə.
İsdərəm duram gedəm,
Evim oxşar yad evə.

117. Keşdi günüm, ağlaram,
Oldu zülüm, ağlaram.
Bir vədəsiz yel əsdi,
Töhdü gülüm, ağlaram.

118. Bağa su düşdü, neynim,
Bağ suyun işdi, neynim.
Qismət, bəxt paylananda
Mənə bu düşdü, neynim.

119. Əzizim, qazan ağlar,
Od vuran qazan ağlar.
Qürbətdikdə ölənin
Qəbrini qazan ağlar.

120. Əzizim, yazı qandır.
Dər çiçək, yazı qandır.
Yarsız qəmli ürəyin
Qışı qan, yazı qandır.

121. Əzizim, yağ gözlər,
Yağ çəkən yağı gözlər.
Vədəsiz aldı canım,
Cəllad tək yağı gözlər.

* qondaran – ayaqqabı

122. Mən aşiq, yara sarı.
Loğmansan, yara sarı.
Qürbətdə xəstə canım
Bir gedə yara sarı.

123. Əzizim, min qan oldu,
Min yaza min qan oldu.
Bilməyən üçün nə var,
Bilənə min qan oldu.

124. Əzizim, gülüm ağlar,
Vətənim, elim ağlar.
Tərk oldu vətəninnən,
Bağsız bülbülüm ağlar.

125. Məytuf vətənə gəldi
Uşdu, vətənə gəldi.
Sənnən intizar köylüm
Dinə, imana gəldi.

126. Mən çağırram ha səni,
Hax saxlasın ha səni.
Xəsdə köyül nar dilər,
Mənim köylüm ha səni.

127. Əzizim, sarı oğul.
Gülüm oysarı oğul.
Al belimnən qurşağı,
Canazam sarı, oğul.

128. Gün getdi, sarı qaldı,
Getdikcən sarı qaldı.
Vətən, sənə baxmaxdan,
Gözümdə sarı qaldı.

129. Dağları gəzdim gəldim,
Daşını düzdüm gəldim.
Yarım bevafa çıxdı,
Əlimi üzdüm gəldim.

130. Dağda duman yeri var
Qaşda kaman yeri var.
Dünyanı gəzdim gəldim
Elim güman yeri var.

131. Bı qaya qəlbi qaya
Gölgəsi düşür çaya.
Zəhmət çəhdim bağ saldım,
Əməyim getdi zaya.

132. Bu yol aşana gedər
Aşıb Kaşana gedər.
Qərib yerdə ölənin
Paltarı nişana gedər.

133. Ay oğlan, boyu bəsdə,
Gəl otu dizim üsdə.
Sən mənnən öpüş isdə
Mən deyim gözüm üsdə.

134. Çıxdım ağacın qurusuna,
Baxdım qızdarın sürüsünə.
Hamıdan qəşəh öz yarım,
Top qara bircəh öz yarım.

135. Dağların qarı mənəm
Gün vırsa ərimərəm.
Qəbrimi yol üsdə qoy
Cavanam, çürümərəm.

136. Dağlar, mənə qar göndər,
Əsirgəmə var göndər.
Ya dərdimi bil göndər,
Ya dərmanın var, göndər.

137. Bı dağda maral azdı,
Ovçu çox, maral azdı.
Ağlaram ahu gözdüm
Ölmərəm, yaram azdı.

138. Bu əsən nə küləydi?
Fələk quran kələydi.
Qalmışam qəm əlində,
Kaş qardaşım gələydi.

139. Sözləri şəkər qardaş,
İşi yox, bekar qardaş.
Ana-bacı yolunda
Hər zulmu çəkər qardaş.

140. Mən aşiq nədən getdi?
Qəmdən, qüssədən getdi.
Bir yaralı quş idi,
Uşdu dəstədən getdi.

141. Bürüyüpdü qar daşı,
Get dağlardan qar daşı.
Bayramın o gün eylər,
Bacı görsə qardaşın.

142. Əzizim üzə ceyran,
Sürmə çək gözə, ceyran.
Yad ovçunu görmüsən?
Gəl çıxma düzə, ceyran.

143. Dağlar çiçək olaydı,
Gülü ləçək olaydı.
Gecə gördüyüm yuxu,
Gündüz gerçək olaydı.

144. Mən aşiqəm, naz eylər,
Baxar mənə, naz eylər.
Bilmirəm dərdi nədi,
Hər vax baxar, naz eylər.

145. Əzizim, alma qara,
Başına salma qara.
Mən getdim yar sevməyə,
Kim saldı qalmaqala.

146. Əzizim, süzə-süzə
Bir gülü üzə-üzə.
Yar mənə qaş-göz eylər,
Tellərin düzə-düzə.

147. Mən aşiq, gəzdim lala.
Heyranam üzdə xala.
Yara qurban kəsərəm,
Bir gecə bizdə qala.

148. Mən aşiq, yara sızlar,
Bəy gülər, yara sızlar.
Yaralının dərdini
Nə bilir yarasızlar.

149. Əziziyəm, naz bilməz,
Sevgi bilməz, naz bilməz.
Sənin maral baxışın,
Söz anlamaz, göz bilməz.

150. Əziziyəm, gözəl qız.
Baxma yana, gözəl qız.
Aman görün nə səsdi,
Gözdən itdi gözəl qız.

151. Əzizim, bu nə səsdi?
Səbr-qərarım kəsdi.
Ceyran baxışdı dilbər
Sanki küləydi, əsdi.

152. Əzizim, yar görməyə,
Ömrünü tar görməyə.
Mən baxçıya gəlməzdim,
Gəldim nubar görməyə.

153. Vətənim yağlıdı,
Sinəm çarpaz dağlıdı.
Nə gələnim var, nə gedənim,
Ürəyim sazaxlıdı.

154. Zəngilannan yel əsdi,
Ürəyim tel-tel əsdi.
Sağ gözüm Vətənə qurban,
Sol gözüm mənə bəsdi.

155. Zəngilanın bucağında,
Od yanmır ocağında.
Baş qoyum daşın üsdə,
Can verim torpağında.

156. Yağış yağar, şırıldar,
Dağ dərələr guruldar.
Zəngilanın qızdarı,
Əl-ayağı parıldar.

157. Boz atım boz boylamasın,
Cəh-cilavın oynamasın.
Gəlirsən axşamnan gəl,
Qoy ürəyim oynamasın.

158. Bı dağ o dağa baxar,
Altınnan bılax axar.
Heyf qaşqın gözdərim,
Bevəfa Vətənə baxar.

159. Ağaşda xəzələ bax,
Dibində gözələ bax.
Əyağı yalın, başı açıx,
Qaşqın olub gəzənə bax.

160. Apardı bı dərt məni,
Doğradı xət-xət məni.
Karrı yəən oleydi,
Gəzdireydi kənt-kənt məni.

161. Mən gedirəm qıraxnan,
Gülü bişdim oraxnan.
Vətənim əldən gedib
Axdarıram soraxnan.

162. Qızılgül həşəm oldu,
Dərmədim, kəfşən oldu.
Vətənnən ayrılannan
Ağlamax peşəm oldu.

163. Çıxaram yola mən,
Baxaram hər yana mən.
Vətənimi görməsəm,
Çəkərəm ah-nala mən.

164. Qızılgülü biçərəm,
Üsdündə and içərəm.
Gözəl ellər içində,
Zəngilanı seçərəm.

165. Boz atım boza-boza,
Boynunda qızıl qoza.
Yavaş sür çər dəymişi,
Yarı bıladı toza.

166. Qızıl üzük firuzə,
Gedin deyin xoruza,
Bu gecə banlamasın
Yar gələcəh məhləmizə.

# MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ

1. **Yerlə göyün yaranması.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
2. **İnsanın yaranması.** Süleymanov Telman Qara oğlu, Cəbrayıl rayonu Karxulu kəndi.
3. **Dünyanın kəsirləri.** Baxşəliyev Bəylər Məhərrəm oğlu, Zəngilan rayonu Sobu kəndi.
4. **Qurd qadın.** Həsənova Hürü Balaca qızı, Zəngilan rayonu Sobu kəndi.
5. Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
6. Baxşəliyeva Şamama Dəmir qızı, Laçın rayonu Qazıdərəsi kəndi.
7. Qasımov İbrahim Məlik oğlu, Laçın rayonu Güləbird kəndi.
8. Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
9. Ağayev Qurban Qasım oğlu, Qubadlı rayonu Qaracallı kəndi.
10. Abdullayev İsmayıl Məmməd oğlu, Qubadlı rayonu Qarağaclı kəndi.
11. İbrahimov Oruc Novruz oğlu, Zəngilan rayonu Bartaz kəndi.
12. **Şeytan.** Süleymanov Telman Qara oğlu, Cəbrayıl rayonu Karxulu kəndi.
13. Həsənova Hürü Balaca qızı, Zəngilan rayonu Sobu kəndi.
14. **Ovçu inancları**. Cümşüdov Cümşüd Salman oğlu, Zəngilan rayonu Sobu kəndi.
15. Bəhramov Fərzalı Ata oğlu, Zəngilan rayonu Sobu kəndi.
16. Həsənova Hürü Balaca qızı, Zəngilan rayonu Sobu kəndi.
17. Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu Həkərli kəndi.
18. Əliyev Mirseyib İslam oğlu, Zəngilan rayonu Baharlı kəndi.
19. **Qaraçuxa.** Ağayeva Dilarə Həmid qızı, Qubadlı rayonu Qaracallı kəndi.
20. Ağayev Qurban Qasım oğlu, Qubadlı rayonu Qaracallı kəndi.
21. Ağayev Qasım Qurban oğlu, Qubadlı rayonu Qaracallı kəndi.

22. Fətiyev Barat Alxan oğlu, Qubadlı rayonu Sarıyataq kəndi.
23. Söyləyicisi məlum deyil.
24. Əhmədov Allahyar Allahverdi oğlu, Laçın rayonu Qazıdərəsi kəndi.
25. Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
26. **Hal anası.** Qasımov Şirin Oruc oğlu, Cəbrayıl rayonu Əmirvarlı kəndi.
27. Qasımov Şirin Oruc oğlu, Cəbrayıl rayonu Əmirvarlı kəndi.
28. Atakişiyeva Səkinə Sabir qızı, Zəngilan rayonu Vəliqulubəyli kəndi.
29. Ağayev Qurban Qasım oğlu, Qubadlı rayonu Qaracallı kəndi.
30. Söyləyicisi məlum deyil.
31. Ağayeva Dilarə Həmid qızı, Qubadlı rayonu Qaracallı kəndi.
32. Abdullayev İsmayıl Məmməd oğlu, Qubadlı rayonu Qarağaclı kəndi.
33. Qubadlı rayonu Qarağaclı kəndi.
34. Almәmmәdov Almәmmәd Xanmәmmәd oğlu, Zәngilan rayonu.
35. Səmədov Mürsəl Əhməd oğlu, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi.
36. **Cin yığnağı.** Həşimov Mir Səlim Mir Ələkbər oğlu, Qubadlı rayonu.
37. Bağdadov Məhəmməd Əbiş oğlu, Qubadlı rayonu Qaracallı kəndi.
38. **Cin dəyişəyi.** Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
39. **Qədim dəfn adəti və ölümün yaranması.** Söyləyicisi məlum deyil.
40. Əliyev Mirseyib İslam oğlu, Zəngilan rayonu Baharlı kəndi.
41. Söyləyicisi məlum deyil.
42. **Ovçu və ilan.** Qasımov İbrahim Məlik oğlu, Laçın rayonu Güləbird kəndi.
43. **İlanların davası.** Söyləyicisi məlum deyil. Zəngilan rayonu Cahangirbəyli kəndi.

44. **Nuhun tufanı.** Hüseynova Zərifə Göyüş qızı, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi.
45. **Göydən gələn qurbanlıq qoç.** Alməmmədov Alməmməd Xanməmməd oğlu, Zəngilan rayonu.
46. **Fatma nənə.** Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
47. **Kəklik.** Ağayeva Dilarə Həmid qızı, Qubadlı rayonu Qaracallı kəndi.
48. **Xanoğlan və Bəsti**. Məhərrəmov Qnyaz Məstalı oğlu, Zəngilan rayonu Ağalı kəndi.
49. **Milçək süfrəyə niyə tez gəlir?** Atakişiyeva Səkinə Sabir qızı, Zəngilan rayonu Vəliqulubəyli kəndi.
50. **Balığın qarnı niyə qaradır?** Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
51. **Qoyunun qarnı niyə doymur?** Qasımov Şirin Oruc oğlu, Cəbrayıl rayonu Əmirvarlı kəndi.
52. **Peyğəmbər və qızı.** Atakişiyeva Səkinə Sabir qızı, Zəngilan rayonu Vəliqulubəyli kəndi.
53. **Bismillahsız açılan süfrə.** Hüseynov Alkərəm Fərrux oğlu, Cəbrayıl rayonu Sirik kəndi.
54. **Qarğış keçələ kar eləməz.** İsmayılov Qüdrət İsmayıl oğlu, Zəngilan rayonu Böyük Gilətağ kəndi.
55. **Gön arxası, yoxsa köşə arxası?** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
56. **Qız qalası.** Fərzalıyeva Şövkət Qulu qızı, Zəngilan rayonu Əmirxanlı kəndi.
57. Fərzalıyev Həsrət Qulu oğlu, Zəngilan rayonu Əmirxanlı kəndi.
58. Şıxəliyev Cəbrayıl Əli oğlu, Zəngilan rayonu Bartaz kəndi.
59. **Əmirvarlı.** Qasımov Şirin Oruc oğlu, Cəbrayıl rayonu Əmirvarlı kəndi.
60. **Oğlan-qız dərəsi.** Baxşəliyeva Gülənbər, Qubadlı rayonu.
61. **Humay qayası.** Bağdadov Məhəmməd Əbiş oğlu, Qubadlı rayonu Qaracallı kəndi.

62. **Daş hərəmi – hərəm daşı.** Hüseynova Şamama Qasım qızı, Qubadlı rayonu Qaracallı kəndi.
63. **Koroğlu arşını.** Hüseynova Şamama Qasım qızı, Qubadlı rayonu Qaracallı kəndi.
64. **Koroğlu daşı.** Sultanov Camal, Zəngilan rayonu.
65. **Sarı təpənin yaranması.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
66. **Qız qəbri.** Aslanov Qaçay Qədim oğlu, Laçın rayonu Güləbird kəndi.
67. **Sınıq körpü.** Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu Həkərli kəndi.
68. Səfərova Balacaxanım Mustafa qızı, Qubadlı rayonu Həkərli kəndi.
69. **Amudux piri.** Abdullayev İsmayıl Məmməd oğlu, Qubadlı rayonu Qarağaclı kəndi.
70. **Gümuluq pəhləvan.** Məmmədov Fəxrəddin Şəmil oğlu, Qubadlı rayonu Qarağaclı kəndi.
71. **İlanlı dərə.** Bağdadov Məhəmməd Əbiş oğlu, Qubadlı rayonu Qaracallı kəndi.
72. **Hacı Qaraman.** Həsən kişi, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
73. Hüseynova Zərifə Göyüş qızı, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi.
74. Allahverdiyeva Zümrüd Nəcəfqulu qızı, Cəbrayıl rayonu Sirik kəndi.
75. Allahverdiyeva Zümrüd Nəcəfqulu qızı, Cəbrayıl rayonu Sirik kəndi.
76. Hüseynov Alkərəm Fərrux oğlu, Cəbrayıl rayonu Sirik kəndi.
77. **Hacı Qasım Çələbi.** Həsən kişi, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
78. Həsən kişi, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
79. Hüseynov Alkərəm Fərrux oğlu, Cəbrayıl rayonu Sirik kəndi.
80. Hüseynov Alkərəm Fərrux oğlu, Cəbrayıl rayonu Sirik kəndi.

81. Təhməzova Gözəl Behbud qızı, Cəbrayıl rayonu Xələfli kəndi
82. **Oğlanlıca piri.** Orucova Gülzar Məhəmmədhəsən qızı, Qafan rayonu Qaradığa kəndi.
83. Abışov Həsən Həşim oğlu, Qafan rayon Dovrus kəndi.
84. **Mazannənə.** Abbasov Tariyel, Cəbrayıl qəsəbəsi.
85. **Tumas ata.** Həsən kişi, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
86. Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
87. Məmmədova Ziba, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
88. **Dərviş Pirim.** Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
89. **Düldül piri.** Hüseynov Alkərəm Fərrux oğlu, Cəbrayıl rayonu Sirik kəndi.
90. **Ağabalım ağa.** Həsən kişi, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
91. **Mustafa sofu.** Qurbanova Laləzar Bağır qızı, Zəngilan rayonu Yuxarı Yeməzli kəndi.
92. Qurbanova Laləzar Bağır qızı, Zəngilan rayonu Yuxarı Yeməzli kəndi.
93. Kalbalıyev Allahverdi Xalıqverdi oğlu, Zəngilan rayonu Saralı Xəştab kəndi.
94. Kalbalıyev Allahverdi Xalıqverdi oğlu, Zəngilan rayonu Saralı Xəştab kəndi.
95. Kalbalıyev Allahverdi Xalıqverdi oğlu, Zəngilan rayonu Saralı Xəştab kəndi.
96. **Aşıq qəbri.** Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi.
97. **Tup-tup piri.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
98. **Qatırın ziyarəti.** Təhməzova Gözəl Behbud qızı, Cəbrayıl rayonu Xələfli kəndi.
99. **Ocaqların yarışı və möcüzələri.** Cəfərquliyev Cəfərqulu Dünyamalı oğlu, Zəngilan rayonu Çöpədərə kəndi.

100. Cəfərquliyev Cəfərqulu Dünyamalı oğlu, Zəngilan rayonu Çöpədərə kəndi.
101. Alməmmədov Almədməd Xanməmməd oğlu, Zəngilan rayonu.
102. **Vergili adamlar.** Ağayeva Dilarə Həmid qızı, Qubadlı rayonu Qaracallı kəndi.
103. Qəribov Tofiq İbrahim oğlu, Zəngilan rayonu Malakeşin kəndi.
104. **Şix Məhəmmədə vergi verilməsi.** Bağırov Qubad Allahqulu oğlu, Zəngilan rayonu Keçikli kəndi.
105. Tağıyev Cəmil Vəli oğlu, Zəngilan rayonu Gəyəli kəndi.
106. **Rüstəm Zal.** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
107. **Həzrət Əli və yezid.** Hümbətov Hümbət Əbdülkərim oğlu, Cəbrayıl rayonu Çərəkən kəndi.
108. **Lələ.** Süleymanov Telman Qara oğlu, Cəbrayıl rayonu Karxulu kəndi.
109. Süleymanov Telman Qara oğlu, Cəbrayıl rayonu Karxulu kəndi.
110. Süleymanov Telman Qara oğlu, Cəbrayıl rayonu Karxulu kəndi.
111. **Loğman.** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
112. Məmmədova Zərnigar, Zəngilan rayonu Zəngilan kəndi.
113. **Sən atın normasını bilirsən, mən bilmirəm?** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
114. **Yetimə can-can deyən çox olar.** İsmayılov Qüdrət İsmayıl oğlu, Zəngilan rayonu Böyük Gilətağ kəndi.
115. **Qəzər xan.** Kalbalıyev Allahverdi Xalıqverdi oğlu, Zəngilan rayonu Saralı Xəştab kəndi.
116. **Torpağın tavazası.** Məhərrəmov Qnyaz Məstalı oğlu, Zəngilan rayonu Ağalı kəndi.
117. **Ehtiyac dayı.** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
118. **Bağ əmanəti.** Əbilov Azad Həsənalı oğlu, Zəngilan rayonu Bartaz kəndi.

## NAĞILLAR

119.**On iki qardaş.** Nağıl Zəngilan rayon Məşədismayıllı kəndi sakini Vəliqulu Əliyevdən yazıya alınıb. Nağıl "On bir qardaş üçün on bir bacı" (TR* 303) + "Xeyirxah heyvanlar" (TR 554) + "Divin canı göyərçindədir" (TR 302) süjetlərindən təşkil olunub.

120.**Nargilə.** "Ölüyə qismət olan qız" (TR 437) süjeti əsasında qurulan bu nağıl Zəngilan rayon Sobu kənd sakini Hürü Balaca qızı Həsənovadan yazıya alınıb.

121.**Qıllıca.** "Ata qızına aşiq olur" (TR 706 C) süjeti əsasında qurulan bu nağıl Zəngilan rayon Sobu kənd sakini Hürü Balaca qızı Həsənovadan yazıya alınıb.

122.**"Qıllıca"** nağılının variantıdır. Bu variant Zəngilan rayon Üdgün kənd sakini Dilayyə Paşa qızı Səfərovadan yazya alınıb.

123.**Gülüqahqah.** Qafan rayon sakini Cəmil kişidən yazıya alınıb. TR 465C (O dünyadan xəbər gətirmək)

124.**Balığı at dəryaya, balıq bilməsə də, xalıq bilər.** Nağıl Cəbrayıl rayon Çapat kənd sakini Oruc Cümşüd oğlu Məmmədovdan yazıya alınıb. Nağıl "Danışmayan qız" (TR 559) + "Xarrat, dərzi və kimyagər" (TR 661*) + "Ən qiymətli hədiyyə" (TR 653A) + "Dəyişik düşmüş baş" (TR 976*A) süjetlərindən təşkil olunub.

125.**Balıqçı oğlu**. Nağıl Zəngilan rayon Məşədismayıllı kənd sakini Vəliqulu Əliyevdən yazıya alınıb. "Balığı at dəryaya" nağılının variantıdır. Bu variant "Danışmayan qız" (TR 559), "Xarrat, dərzi və kimyagər" (TR 661*) və "Ən qiymətli hədiyyə" (TR 653A) süjetlərindən təşkil olunub.

* Nağılların süjet nömrəsi "Azərbaycan nağıllarının süjet göstəricisi" (Bakı, 2013) kitabı əsasında verilmişdir.

126. **Qaraçuxasını axtaran kişi.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 460A (Bəxtin axtarılması)
127. **Tülküylə dəyirmançı.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 545B (Armudan bəy).
128. **Qızıl axtaran Məhəmməd.** Cəbrayıl rayon Çapat kənd sakini Oruc Məmmədovdan yazıya alınıb. TR 807*A (Qəhrəman atasının gizlətdiyi qızılları axtarır)
129. **Peyğəmbərlə üç yolçu.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 750D (Peyğəmbərlə üç yolçu)
130. **İbadət və səxavət.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 750B* (İbadət yaxşıdır, yoxsa səxavət).
131. **İnsaflı oğru.** Cəbrayıl rayon Çapat kənd sakini Oruc Məmmədovdan yazıya alınıb. 912*B (İnsafı əldən qoyma) + 934G* (İlanla gələn əcəl)
132. **Yazılanı pozmaq olmaz.** Zəngilan rayon Sobu kənd sakini Hürü Həsənovadan yazıya alınıb. TR 930 (Yazıya pozu yoxdur)
133. **Bəhlul Danəndənin qardaşlığı.** Cəbrayıl rayon Çərəkən kənd sakini Hümbət Hümbətovdan yazıya alınıb. Nağıl "Çoban özünü padşahdan zəngin sayır" (TR. 922F*) və "Padşah cənnətdə" (TR 800*A) süjetlərindən təşkil olunub.
134. **Allahdan istəyən qız.** "Tənbəl ər" (TR 986) və "Qızıl dağ" (TR 936) süjetlərinin kombinasiyasından qurulan bu nağıl Cəbrayıl rayon Çərəkən kənd sakini Hümbət Hümbətovdan yazıya alınıb.
135. **Qismət Allahdandır.** Qubadlı rayon Sarıyataq kənd sakini Bayram Məhərrəmovdan yazıya alınıb. TR 841 (Dilənçi şahdan istəyir)
136. **Üç vəsiyyət.** Cəbrayıl rayon Soltanlı kənd sakini Abbas Abbasovdan yazıya alınıb. TR 910A* (İçki məclisinə, qumar oynamağa dostlarından sonra get)

137. **Səmərqənd padşahının qızı.** Zəngilan rayon Baharlı kənd sakini Mirseyib Əliyevdən yazıya alınıb. TR 516 (Etibarlı dost)

138. **Məhəmməd və Pərzad.** "Etibarlı dost" (TR 516) süjetinin variantıdır. Qafan rayon sakini Cəmil kişidən yazıya alınıb.

139. **Kasıb oğlan.** Zəngilan rayon Məşədismayıllı kənd sakini Vəliqulu Əliyevdən yazıya alınıb. TR 990 (Sətəlcəm olmuş qız) + "Bahalı pişik" (TR 1651) süjetlərindən qurulub.

140. **Padşaha layiq arvad.** Zəngilan rayon Zəngilan kənd sakini Zərnigar Məmmədovadan yazıya alınıb. 875 (Ağıllı qız) + TR 891 **(**Padşah arvadından ona oxşar uşaq doğmasını tələb edir)

141. **Hər işin başı səbrdir.** Cəbrayıl rayon Çərəkən kənd sakini Hümbət Hümbətovdan yazıya alınıb. TR 910B* (Elmin başı səbrdir)

142. **Şah Abbasla Pinəçi Allahverdi.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 910C (Bir iş görəndə axırını fikirləş)

143. **Ekiz qardaşlar.** Qubadlı rayon Sarıyataq kənd sakini Bayram Məhərrəmovdan yazıya alınıb. "İnəyin qarnındakı buzov" (TR 928*) + "İnsanla şeytan gücünü yoxlayır" (TR 821**) süjetlərindən təşkil olunub.

144. **Padşahla dəmirçi.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 950 (Usta və şəyirdi) + 1525G (Oğru Əzrayıl qılığında)

145. **Kimin yalanı uzun olar?** Cəbrayıl rayon Çərəkən kənd sakini Hümbət Hümbətovdan yazıya alınıb. TR 1920 (Kimin yayalnı uzun olar) + TR 1960D (Nəhəng meyvə) + TR 1829 (Xoruzun belində ağac bitir) + TR 1654 (Keçəllə Kosa qəbiristanlıqda)

146. **Bitlə birə.** Zəngilan rayon Zəngilan kənd sakini Zərnigar Məmmədovadan yazıya alınıb. TR 2022B (Bit və birə)

147. **Şirlə tülkü.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 75 (Şir zəifin ona kömək etməsini özünə sıxışdırmır)

148. **Qəza toru.** Zəngilan rayon Gilətağ kənd sakini Xuduş Cəbrayılovdan yazıya alınıb. TR 238A* (Qızılquş gözləri ilə öyünür).

**LƏTİFƏLƏR**

149. **Mat qalmışam.** İbrahimov Oruc Novruz oğlu, Zəngilan rayonu Bartaz kəndi.

150. **Hamısını keçdim uşaqlarına.** İbrahimov Oruc Novruz oğlu, Zəngilan rayonu Bartaz kəndi.

151. **Tənbəki satan.** Səfərov Qayıb, Laçın rayonu Cicimli kəndi.

152. **Sənin vuruşun kor vuruşu deyil.** İsmayılov Qüdrət İsmayıl oğlu, Zəngilan rayonu Böyük Gilətağ kəndi.

153. **Qonaq bir il burdadır.** İbrahimov Oruc Novruz oğlu, Zəngilan rayonu Bartaz kəndi.

154. **Bədrəng adam.** Qasımov Muxtar Məmmədhüseyn oğlu, Zəngilan rayonu Bartaz kəndi.

155. **Nəzirimi ver.** Qasımov Muxtar Məmmədhüseyn oğlu, Zəngilan rayonu Bartaz kəndi.

156. **Gözümü niyə çıxardırsan?** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.

157. **Doqquzdan sonra haramdır.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.

158. **Onu sən deyirsən.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.

159. **Xam göndürsə, halal olu.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.

160. **Öz çırağımı söndürüb sənin çırağını yandırıram.** Abbasov Tariyel, Cəbrayıl qəsəbəsi.

161. **Sənin ağlın olsaydı...** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
162. **Oynasan da, burcutma.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
163. **Bir yana çıxarıq.** Hümbətov Hümbət Əbdülkərim oğlu, Cəbrayıl rayonu Çərəkən kəndi.
164. **Eşşək elə sənin eşşəyindir**. Hümbətov Hümbət Əbdülkərim oğlu, Cəbrayıl rayonu Çərəkən kəndi.
165. **Apar ulağı suvar.** Hümbətov Hümbət Əbdülkərim oğlu, Cəbrayıl rayonu Çərəkən kəndi.
166. **Ölü halva yeyər?** Hümbətov Hümbət Əbdülkərim oğlu, Cəbrayıl rayonu Çərəkən kəndi.
167. **Dünya necədir?** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
168. **Ayağı sudadır.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
169. **Ən yeməli şey.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
170. **Tüstüyə qızındım.** Abdullayev İsmayıl Məmməd oğlu, Qubadlı rayonu Qarağaclı kəndi.
171. **Can, yarımcan, zəhrimar.** Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu Həkərli kəndi.
172. Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu Həkərli kəndi.
173. **Qarının toyu.** Hacıyev İbrahim Hacı oğlu, Zəngilan rayonu Mincivan qəsəbəsi.
174. **Qızıl çəngəl-bıçaq əhvalatı.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
175. **Tayda dərz var döyməli.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.
176. **Həmin dolmasan.** Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi.

177. **Arvad, şilən durudur.** Həsənova Hürü Balaca qızı, Zəngilan rayonu Sobu kəndi.
178. **Bilirəm dediyin nə idi.** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
179. **Hər kəsin dərdi özünə dəvə boydadır.** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
180. **Südlü aş.** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
181. **Bu havada heç qar yağar?** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
182. **Biz də qiraətlə dedik.** Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi.
183. **Göy gözlərim görməz.** Abdullayeva Qələm Əhməd qızı, Laçın rayon Qazıdərəsi kəndi.
184. **Duzsuz halva.** Abdullayeva Qələm Əhməd qızı, Laçın rayonu Qazıdərəsi kəndi.
185. **Pay yığan dərviş.** Fətiyev Barat Alxan oğlu, Qubadlı rayonu Sarıyataq kəndi.
186. **Mülki bəyin qonaqlığı.** İsmayılov Qüdrət İsmayıl oğlu, Zəngilan rayonu Böyük Girətağ kəndi.
187. **Çarıq.** Baxşəliyev Bəylər Məhərrəm oğlu, Zəngilan rayonu Sobu kəndi.
188. **Sən nə vermisən?** Baxşəliyev Bəylər Məhərrəm oğlu, Zəngilan rayonu Sobu kəndi.
189. **Xəncər əhvalatı.** Hacıyev İbrahim Hacı oğlu, Zəngilan rayonu Mincivan qəsəbəsi.
190. **Döh deməyə də haqqım yoxdur?** Məhiyev Məhi Asim oğlu, Zəngilan rayonu Dağ Gilətağ kəndi.
191. **Kalba Səməd.** Şıxəliyev Həmdulla, Zəngilan rayonu Bartaz kəndi.
192. Əbilov Azad Həsənalı oğlu, Zəngilan rayonu Bartaz kəndi.
193. Cəbrayılov Musa. Zəngilan rayonu Bartaz kəndi.

194.**Ocaqqulu.** Əbilov Azad Həsənalı oğlu, Zəngilan rayonu Bartaz kəndi.
195.**Aşıq Oruc.** Əbilov Azad Həsənalı oğlu, Zəngilan rayonu Bartaz kəndi.
196.Əbilov Azad Həsənalı oğlu, Zəngilan rayonu Bartaz kəndi.
197.**Aşın altındakı cücə**. Məmmədov Süleyman Əsəd oğlu, Zəngilan rayonu Şərikan kəndi
198.**Sən allah, bura haradır?** Qasımov Muxtar Məmmədhüseyn oğlu, Zəngilan rayonu Bartaz kəndi.
199.**Yemişin kalı.** Qasımov Muxtar Məmmədhüseyn oğlu, Zəngilan rayonu Bartaz kəndi

## İNANCLAR

Abdullayev İsmayıl, Abdullayeva Leyla, Abdullayeva Qələm, Bağdadov Qubad, Bağdadov Məhəmməd, Əhmədov Allahyar, Fətiyev Barat, Hacıyeva Telli, Həsənova Mehri, Həsənova Şamama, Kərimova Səltənət, Qasımov Yəhya, Qasımova Gülüş, Quliyev Süleyman, Səfərova Balaxanım, Şahbazova Cahan, Cəfərquliyev Cəfərqulu. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

## BAYATILAR

1-107. Mikayılova Elmira İsmayıl qızı, Zəngilan rayonu Böyük Ağalı kəndi
108-113. Əliyeva Güllər, Cəbrayıl rayonu.
114-119. Əhmədova Müzəyyə, Cəbrayıl rayonu.
120-143. Həsənova Hürü Balaca qızı, Zəngilan rayonu Sobu kəndi
144-166. Həsənova Xasa, Zəngilan rayonu Çöpədərə kəndi.

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Abbasov Abbas Mahmud oğlu, Cəbrayıl rayonu Soltanlı kəndi, təvəllüdü 1938, ali təhsilli, ibtidai sinif müəllimi, molla. *Söylədiyi mətnlər:* 136. *Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə.*

2. Abbasov Tariyel, Cəbrayıl qəsəbəsi, təvəllüdü 1953, ali savadlı. *Söylədiyi mətnlər:* 84, 160. *Toplayan: Əfzələddin Əsgər*

3. Abdullayev İsmayıl Məmməd oğlu, Qubadlı rayonu Qarağaclı kəndi, təvəllüdü 1910, ibtidai təhsilli. *Söylədiyi mətnlər:* 10, 32, 69, 170. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

4. Abdullayeva Qələm Əhməd qızı, Laçın rayonu Qazıdərəsi kəndi, təvəllüdü 1939, orta təhsilli. *Söylədiyi mətnlər:* 183, 184. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

5. Abışov Həsən Həşim oğlu, Qafan rayonu Dovrus kəndi, təvəllüdü 1931, təqaüdçü. *Söylədiyi mətnlər:* 83. *Toplayan: Elnarə Əmirli.*

6. Ağayev Qasım Qurban oğlu, Qubadlı rayonu Qaracallı kəndi. *Söylədiyi mətn:* 21. *Toplayan: V.Nəbioğlu.*

7. Ağayev Qurban Qasım oğlu, Qubadlı rayonu Qaracallı kəndi, təvəllüdü 1928, orta təhsilli. *Söylədiyi mətnlər:* 9, 20, 29. *Toplayan: V.Nəbioğlu*

8. Ağayeva Dilarə Həmid qızı, Qubadlı rayonu Qaracallı kəndi, təvəllüdü 1932, orta təhsilli. *Söylədiyi mətnlər:* 19, 31, 47, 102. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

9. Allahverdiyeva Zümrüd Nəcəfqulu qızı, Cəbrayıl rayonu Sirik kəndi, təvəllüdü 1935, orta təhsilli. Vaxtilə kitabxanaçı işləyib. İmişli rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. *Söylədiyi mətn: 74,* 75. *Toplayanlar: İlkin Rüstəmzadə, Qədim Qubadov.*

10. Alməmmədov Alməmməd Xanməmməd oğlu, Zəngilan rayonu, təvəllüdü 1916, ibtidai təhsilli. *Söylədiyi mətnlər:* 34, 45, 101. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

11. Aslanov Qaçay Qədim oğlu, Laçın rayon Güləbird kəndi, təvəllüdü 1942, orta təhsilli. *Söylədiyi mətn:* 66. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

12. Atakişiyeva Səkinə Sabir qızı, Zəngilan rayonu Vəliqulubəyli kəndi, təvəllüdü 1962, orta təhsilli. Sabirabad rayonundakı qaçqın şəhərciyində məskunlaşıb**.** *Söylədiyi mətnlər:* 28, 49, 52. *Toplayan: Mətanət Abbasova.*

13. Bağdadov Məhəmməd Əbiş oğlu, Qubadlı rayonu Qaracallı kəndi, təvəllüdü 1915, ali təhsilli. *Söylədiyi mətnlər:* 37, 61, 71. *Toplayan: V.Nəbioğlu*

14. Bağırov Qubad Allahqulu oğlu, Zəngilan rayonu Keçikli kəndi, təvəllüdü 1930, ali təhsilli, baytar həkimi. *Söylədiyi mətn: 104. Toplayan: İlkin Rüstəmzadə.*

15. Baxşəliyev Bəylər Məhərrəm oğlu, Zəngilan rayonu Sobu kəndi, təvəllüdü 1913. *Söylədiyi mətnlər:* 3, 187, 188. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

16. Baxşəliyeva Gülənbər, Qubadlı rayonu, təvəllüdü 1948. *Söylədiyi mətn:* 60. *Toplayan: E.Əmirli.*

17. Baxşəliyeva Şamama Dəmir qızı, Laçın rayonu Qazıdərəsi kəndi, təvəllüdü 1928. *Söylədiyi mətn:* 6. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

18. Bəhramov Fərzalı Ata oğlu, Zəngilan rayonu Sobu kəndi, təvəllüdü 1936, orta təhsilli. *Söylədiyi mətn:* 15. *Toplayan: İlkin Rüstəmzadə.*

19. Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonu Gilətağ kəndi, yaşı 89, balabançı. *Söylədiyi mətnlər*: 1, 8, 55, 65, 97, 113, 126, 127, 129, 130, 142, 144, 147, 148, 156, 157, 158, 159, 161, 162, 167, 168, 169, 174, 175, 176. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

20. Cəbrayılov Musa, Zəngilan rayonu Bartaz kəndi, təvəllüdü 1935, ali təhsilli. *Söylədiyi mətn:* 193. *Toplayan: İlkin Rüstəmzadə.*

21. Cəfərquliyev Cəfərqulu Dünyamalı oğlu, Zəngilan rayonu Çöpədərə kəndi, təvəllüdü 1946, orta təhsilli. *Söylədiyi mətnlər:* 99, 100. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

22. Cəmil kişi, Qafan rayonu, təvəllüdü 1936. *Söylədiyi mətnlər:* 123, 138. *Toplayanlar: Səfa Qarayev, Hikmət Quliyev.*

23. Cümşüdov Cümşüd Salman oğlu, Zəngilan rayonu Sobu kəndi, təvəllüdü 1956, orta təhsili. *Söylədiyi mətn:* 14. *Toplayan: İlkin Rüstəmzadə.*

24. Əbilov Azad Həsənalı oğlu, Zəngilan rayonu Bartaz kəndi, təvəllüdü 1938, orta ixtisas təhsilli, energetik. *Söylədiyi mətnlər:* 118, 192, 194, 195, 196. *Toplayan: İlkin Rüstəmzadə.*

25. Əhmədov Allahyar Allahverdi oğlu, Laçın rayonu Qazıdərəsi kəndi, təvəllüdü 1939, orta təhsilli. *Söylədiyi mətn: 24. Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

26. Əhmədova Müzəyyə, Cəbrayıl rayonu. İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində məskunlaşıb. *Söylədiyi bayatılar:* 114-119. *Toplayanlar: Səfa Qarayev, Hikmət Quliyev*

27. Əliyev Mirseyib İslam oğlu, Zəngilan rayonu Baharlı kəndi, təvəllüdü 1916, ibtidai təhsilli. *Söylədiyi mətnlər: 18, 40, 137. Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

28. Əliyev Vəliqulu, Zəngilan rayonu Məşədismayıllı kəndi, təvəllüdü 1936. Bakıxanov qəsəbəsində 4 saylı yataqxanada məskunlaşıb. *Söylədiyi mətnlər:* 119, 125, 139. *Toplayanlar: Səfa Qarayev, Hikmət Quliyev.*

29. Əliyeva Güllər, Cəbrayıl rayonu. İmişli rayonunun Bəhramtəpə qəsəbəsində məskunlaşıb. *Söylədiyi bayatılar:* 108-113. *Toplayanlar: Səfa Qarayev, Hikmət Quliyev.*

30. Fərzalıyev Həsrət Qulu oğlu, Zəngilan rayonu Əmirxanlı kəndi, təvəllüdü 1936, orta təhsilli. Sabirabad rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. *Söylədiyi mətn:* 57. T*oplayan: Mətanət Abbasova*

31. Fərzalıyeva Şövkət Qulu qızı, Zəngilan rayonu Əmirxanlı kəndi, təvəllüdü 1926, orta təhsilli. Vaxtilə fermada sağıcı işləyib. Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanasında məskunlaşıb. *Söylədiyi mətn:* 56. *Toplayan: Mətanət Abbasova*

32. Fətiyev Barat Alxan oğlu, Qubadlı rayonu Sarıyataq kəndi, təvəllüdü 1911, ibtidai təhsilli. *Söylədiyi mətnlər:* 22, 185. *Toplayan: V.Nəbioğlu*

33. Hacıyev İbrahim Hacı oğlu, Zəngilan rayonu Mincivan qəsəbəsi, təvəllüdü 1931, ali təhsilli. *Söylədiyi mətnlər:* 173, 189. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

34. Həsən kişi, Cəbrayıl rayonu Dağ Tumas kəndi, yaşı 70, təhsilsiz. Nəqşibəndi təriqətinin müridi olub. *Söylədiyi mətnlər:* 72, 77, 78, 85, 90. *Toplayan: Əfzələddin Əsgər.*

35. Həsənova Hürü Balaca qızı, Zəngilan rayonu Sobu kəndi, 63 yaşında. Xətayi rayonu Zığ şossesindəki 14 saylı yataqxanada məskunlaşıb. *Söylədiyi mətnlər:* 4, 13, 16, 120, 121, 132, 177. *Bayatılar:* 120-143. *Toplayanlar: Səfa Qarayev, Hikmət Quliyev.*

36. Həsənova Xasa, Zəngilan rayonu Çöpədərə kəndi, təvəllüdü 1932. *Söylədiyi bayatılar:* 144-166. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev.*

37. Həşimov Mir Səlim Mir Ələkbər oğlu, Qubadlı rayonu, təvəllüdü 1935. *Söylədiyi mətn:* 36. *Toplayan: Elnarə Əmirli*

38. Hümbətov Hümbət Əbdülkərim oğlu, Cəbrayıl rayonu Çərəkən kəndi, təvəllüdü 1924. Vaxtilə dəmiryolunda çalışıb. *Söylədiyi mətnlər:* 107, 133, 134, 141, 145, 163, 164, 165, 166. *Toplayan: Mətanət Abbasova.*

39. Hüseynov Alkərəm Fərrux oğlu, Cəbrayıl rayonu Sirik kəndi, təvəllüdü 1940, orta təhsilli, sürücü. İmişli rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. *Söylədiyi mətnlər:* 53, 76, 79, 80, 89. *Toplayanlar: İlkin Rüstəmzadə, Qədim Qubadov.*

40. Hüseynova Şamama Qasım qızı, Qubadlı rayonu Qaracallı kəndi, təvəllüdü 1922, natamam-orta təhsilli. *Söylədiyi mətnlər:* 62, 63. *Toplayan: V.Nəbioğlu.*

41. Hüseynova Zərifə Göyüş qızı, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi, təvəllüdü 1937. Biləsuvar rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. *Söylədiyi mətnlər:* 44, 73. *Toplayan: Bakı Avrasiya Universitetinin tələbəsi E.Nəcəfov.*

42. İbrahimov Oruc Novruz oğlu, Zəngilan rayonu Bartaz kəndi, təvəllüdü 1913. *Söylədiyi mətnlər:* 11, 149, 150, 153. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

43. İsmayılov Qüdrət İsmayıl oğlu, Zəngilan rayonu Böyük Gilətağ kəndi, təvəllüdü 1923, ali təhsilli. *Söylədiyi mətnlər:* 54, 114, 152, 186. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

44. Kalbalıyev Allahverdi Xalıqverdi oğlu, Zəngilan rayonu Saralı Xəştab kəndi, təvəllüdü 1934, orta ixtisas təhsilli, traktorçu. *Söylədiyi mətnlər:* 93, 94, 95, 115. *Toplayan: İlkin Rüstəmzadə.*

45. Qasımov İbrahim Məlik oğlu, Laçın rayonu Güləbird kəndi, təvəllüdü 1931. *Söylədiyi mətnlər:* 7, 42. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

46. Qasımov Muxtar Məmmədhüseyn oğlu, Zəngilan rayonu Bartaz kəndi, təvəllüdü 1938. *Söylədiyi mətnlər:* 154, 155, 198, 199. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

47. Qasımov Şirin Oruc oğlu, Cəbrayıl rayonu Əmirvarlı kəndi, təvəllüdü 1950, orta təhsilli. Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. *Söylədiyi mətnlər:* 26, 27, 51, 59. *Toplayanlar. İlkin Rüstəmzadə, Qədim Qubadov.*

48. Qəribov Tofiq İbrahim oğlu, Zəngilan rayonu Malakeşin kəndi, təvəllüdü 1954, orta təhsilli. *Söylədiyi mətn:* 103. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

49. Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu Həkərli kəndi. *Söylədiyi mətnlər:* 17, 67, 171, 172. *Toplayan: V.Nəbioğlu*

50. Qurbanova Laləzar Bağır qızı, Zəngilan rayonu Yuxarı Yeməzli kəndi, təvəllüdü 1934, təhsilsiz. *Söylədiyi mətnlər:* 91, 92. *Toplayan: İlkin Rüstəmzadə.*

51. Məhərrəmov Bayram İmamqulu oğlu, Qubadlı rayonu Sarıyataq kəndi, təvəllüdü 1935, ibtidai təhsilli. *Söylədiyi mətnlər:* 135, 143. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

52. Məhərrəmov Qnyaz Məstalı oğlu, Zəngilan rayonu Ağalı kəndi, təvəllüdü 1937, orta-ixtisas təhsilli, ticarətçi. *Söylədiyi mətnlər:* 48, 116. *Toplayan: İlkin Rüstəmzadə.*

53. Məhiyev Məhi Asim oğlu, Zəngilan rayonu Dağ Gilətağ kəndi, təvəllüdü 1935, təhsilsiz. *Söylədiyi mətn:* 190. *Toplayan: İlkin Rüstəmzadə.*

54. Məmmədov Fəxrəddin Şəmil oğlu, Qubadlı rayonu Qarağaclı kəndi, təvəllüdü 1954, orta təhsilli. *Söylədiyi mətn:* 70. *Toplayan: V.Nəbioğlu*

55. Məmmədov Oruc Cümşüd oğlu, Cəbrayıl rayonu Çapat kəndi, təvəllüdü 1932. *Söylədiyi mətnlər:* 124, 128, 131. *Toplayanlar: Səfa Qarayev, Hikmət Quliyev.*

56. Məmmədov Süleyman Əsəd oğlu, Zəngilan rayonu Şərikan kəndi, təvəllüdü 1934, ali təhsilli, mühəndis. *Söylədiyi mətn:* 197.*Toplayan: İlkin Rüstəmzadə.*

57. Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu Zəngilan kəndi, təvəllüdü 1949, ali təhsilli, kimya müəllimi. *Söylədiyi mətnlər:* 25, 106, 111, 112, 117, 140, 146, 178, 179, 180, 181, 182. *Toplayan: Mətanət Abbasova.*

58. Məmmədova Ziba Əhməd qızı, Cəbrayıl rayonu Dağ Tumas kəndi, təvəlüldü 1930, yeddi illik təhsil, evdar qadın. İmişli rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. *Söylədiyi mətnlər:* 5, 38, 46, 50, 86, 87, 88, 96. Toplayanlar: *İlkin Rüstəmzadə, Qədim Qubadov.*

59. Mikayılova Elmira İsmayıl qızı, Zəngilan rayonu Böyük Ağalı kəndi, təvəllüdü 1948, natamam orta təhsilli, ağıçı. *Söylədiyi bayatılar:* 1-107. *Toplayan: İlkin Rüstəmzadə* .

60. Orucova Gülzar Məhəmmədhəsən qızı, Qafan rayonu, Qaradığa kəndi, təvəllüdü 1940, təqaüdçü. *Söylədiyi mətn:* 82. *Toplayan: Elnarə Əmirli.*

61. Səfərov Qayıb Məmiş oğlu, Laçın rayonu İkinci Cicimli kəndi, təvəllüdü 1934. *Söylədiyi mətn:* 151. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

62. Səfərova Balacaxanım Mustafa qızı, Qubadlı rayonu Həkərli kəndi, təvəllüdü 1906, savadsız. *Söylədiyi mətn:* 68. *Toplayan: V.Nəbioğlu*

63. Səfərova Dilayyə Paşa qızı, Zəngilan rayonu Üdgün kəndi, təvəllüdü 1939. *Söylədiyi mətn:* 122. *Toplayanlar: Səfa Qarayev, Hikmət Quliyev.*

64. Səmədov Mürsəl Əhməd oğlu, Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi, təvəllüdü 1934. *Söylədiyi mətn:* 35. *Toplayan: E.Nəcəfov.*

65. Sultanov Camal, Zəngilan rayonu. *Söylədiyi mətn:* 64. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

66. Süleymanov Telman Qara oğlu, Cəbrayıl rayonu Karxulu kəndi, təvəllüdü 1939, orta təhsilli. Saatlı rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. *Söylədiyi mətnlər:* 2, 12, 108, 109, 110. *Toplayanlar. İlkin Rüstəmzadə, Qədim Qubadov.*

67. Şıxəliyev Cəbrayıl Əli oğlu, 1961, Zəngilan rayonu Bartaz kəndi, ali təhsilli. *Söylədiyi mətn:* 58. *Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.*

68. Şıxəliyev Həmdulla, Zəngilan rayonu Bartaz kəndi. *Söylədiyi mətn:* 191. *Toplayan: İlkin Rüstəmzadə.*

69. Tağıyev Cəmil Vəli oğlu, Zəngilan rayonu Gəyəli kəndi. Təvəllüdü 1931, ali təhsilli müəllim. *Söylədiyi mətn:* 105. *Toplayan: İlkin Rüstəmzadə.*

70. Təhməzova Gözəl Behbud qızı, Cəbrayıl rayonu Xələfli kəndi, təvəllüdü 1920, ibtidai təhsilli. *Söylədiyi mətnlər:* 81, 98. *Toplayan: Zəfər Fərhadov.*

# KİTABIN İÇİNDƏKİLƏR

**TƏRTİBÇİDƏN ........................................................... 3**

**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**

Yerlə göyün yaranması.................................................. 13
İnsanın yaranması ........................................................ 14
Dünyanın kəsirləri......................................................... 14
Qurd qadın ................................................................... 15
Şeytan ........................................................................... 18
Ovçu inancları.............................................................. 20
Qaraçuxa ...................................................................... 23
Hal anası ....................................................................... 25
Cin yığnağı .................................................................. 31
Cin dəyişəyi ................................................................. 33
Qədim dəfn adəti və ölümün yaranması........................ 34
Ovçu və ilan.................................................................. 35
İlanların davası............................................................. 37
Nuhun tufanı ................................................................ 37
Göydən gələn qurbanlıq qoç......................................... 39
Fatma nənə.................................................................... 40
Kəklik ........................................................................... 41
Xanoğlan və Bəsti ........................................................ 41
Milçək süfrəyə niyə tez gəlir? ...................................... 42
Balığın qarnı niyə qaradır?............................................ 43
Qoyunun qarnı niyə doymur? ....................................... 43
Peyğəmbər və qızı ........................................................ 44
Bismillahsız açılan süfrə .............................................. 45
Qarğış keçələ kar eləməz............................................... 45
Gön arxası, yoxsa köşə arxası? ..................................... 46
Qız qalası ...................................................................... 47
Əmirvarlı ...................................................................... 50

Oğlan-qız dərəsi ........................................................ 50
Humay qayası ............................................................ 50
Daş hərəmi – hərəm daşı ............................................... 51
Koroğlu arşını ........................................................... 51
Koroğlu daşı ............................................................. 51
Sarı təpənin yaranması ................................................. 51
Qız qəbri .................................................................. 52
Sınıq körpü .............................................................. 52
Amudux piri .............................................................. 53
Gümuluq pəhləvan ...................................................... 54
İlanlı dərə ................................................................. 56
Hacı Qaraman ............................................................ 56
Hacı Qasım Çələbi ....................................................... 62
Oğlanlıca piri ............................................................ 64
Mazannənə ................................................................ 65
Tumas ata ................................................................. 65
Dərviş Pirim .............................................................. 67
Düldül piri ................................................................ 67
Ağabalım ağa ............................................................. 68
Mustafa sofu .............................................................. 68
Aşıq qəbri ................................................................. 71
Tup-tup piri ............................................................... 72
Qatırın ziyarəti .......................................................... 73
Ocaqların yarışı və möcüzələri ...................................... 73
Vergili adamlar .......................................................... 74
Şix Məhəmmədə vergi verilməsi ..................................... 76
Rüstəm Zal ................................................................ 78
Həzrət Əli və yezid ..................................................... 78
Lələ ......................................................................... 79
Loğman ..................................................................... 80
Sən atın normasını bilirsən, mən bilmirəm? ...................... 81
Yetimə can-can deyən çox olar ........................................ 82

Qəzər xan ........................................................ 82
Torpağın tavazası ........................................................ 82
Ehtiyac dayı ........................................................ 84
Bağ əmanəti ........................................................ 85

**NAĞILLAR**

On iki qardaş ........................................................ 87
Nargilə ........................................................ 106
Qıllıca ........................................................ 112
Gülüqahqah ........................................................ 126
Balığı at dəryaya, balıq bilməsə də, xalıq bilər ................ 134
Balıqçı oğlu ........................................................ 143
Qaraçuxasını axtaran kişi ........................................................ 147
Tülküylə dəyirmançı ........................................................ 152
Qızıl axtaran Məhəmməd ........................................................ 156
Peyğəmbərlə üç yolçu ........................................................ 160
İbadət və səxavət ........................................................ 168
İnsaflı oğru ........................................................ 172
Yazılanı pozmaq olmaz ........................................................ 178
Bəhlul Danəndənin qardaşlığı ........................................................ 180
Allahdan istəyən qız ........................................................ 186
Qismət Allahdandır ........................................................ 195
Üç vəsiyyət ........................................................ 199
Səmərqənd padşahının qızı ........................................................ 206
Məhəmməd və Pərzad ........................................................ 232
Kasıb oğlan ........................................................ 236
Padşaha layiq arvad ........................................................ 241
Hər işin başı səbrdir ........................................................ 245
Şah Abbasla Pinəçi Allahverdi ........................................................ 247
Ekiz qardaşlar ........................................................ 254
Padşahla dəmirçi ........................................................ 258
Kimin yalanı uzun olar? ........................................................ 267
Bitlə birə ........................................................ 270

Şirlə tülkü ........................................................................ 273
Qəza toru ........................................................................ 276

**LƏTİFƏLƏR**

Mat qalmışam ........................................................................ 278
Hamısını keçdim uşaqlarına ........................................................................ 279
Tənbəki satan ........................................................................ 280
Sənin vuruşun kor vuruşu deyil ........................................................................ 280
Qonaq bir il burdadır ........................................................................ 280
Bədrəng adam ........................................................................ 281
Nəzirimi ver ........................................................................ 281
Gözümü niyə çıxardırsan? ........................................................................ 282
Doqquzdan sonra haramdır ........................................................................ 282
Onu sən deyirsən ........................................................................ 283
Xam göndürsə, halal olu ........................................................................ 284
Öz çırağımı söndürüb sənin çırağını yandırıram .............. 285
Sənin ağlın olsaydı... ........................................................................ 285
Oynasan da, burcutma ........................................................................ 286
Bir yana çıxarıq ........................................................................ 286
Eşşək elə sənin eşşəyindir ........................................................................ 287
Apar ulağı suvar ........................................................................ 288
Ölü halva yeyər? ........................................................................ 288
Dünya necədir? ........................................................................ 289
Ayağı sudadır ........................................................................ 289
Ən yeməli şey ........................................................................ 290
Tüstüyə qızındım ........................................................................ 290
Can, yarımcan, zəhrimar ........................................................................ 290
Qarının toyu ........................................................................ 291
Qızıl çəngəl-bıçaq əhvalatı ........................................................................ 292
Tayda dərz var döyməli ........................................................................ 293
Həmin dolmasan ........................................................................ 294
Arvad, şilən durudur ........................................................................ 294
Bilirəm dediyin nə idi ........................................................................ 295

Hər kəsin dərdi özünə dəvə boydadır ............................... 296
Südlü aş ........................................................................... 297
Bu havada heç qar yağar? ................................................. 297
Biz də qiraətlə dedik ........................................................ 298
Göy gözlərim görməz ......................................................... 299
Duzsuz halva ..................................................................... 299
Pay yığan dərviş ................................................................ 300
Mülki bəyin qonaqlığı ....................................................... 300
Çarıq ................................................................................. 301
Sən nə vermisən? ............................................................... 301
Xəncər əhvalatı ................................................................. 302
Döh deməyə də haqqım yoxdur? ....................................... 302
Kalba Səməd ..................................................................... 303
Ocaqqulu ........................................................................... 303
Aşıq Oruc .......................................................................... 304
Aşın altındakı cücə ............................................................ 304
Sən allah, bura haradır? ..................................................... 305
Yemişin kalı ...................................................................... 305

**İNANCLAR ........................................................................ 307**

**BAYATILAR ....................................................................... 316**

**MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ ..................................... 330**

**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT ..................... 343**

**Kitab AMEA Folklor İnstitutunun “Sosial-demoqrafik proseslər kontekstində Zəngəzur folkloru: milli-mədəni yaddaş və bəşəri zənginlik” elmi-tədqiqat proqramı çərçivəsində nəşr olunur.**

**Zəngəzur folklor örnəkləri**, I cild.
Bakı, Elm və təhsil, 2021.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığan:
**Səfa Əliyeva**

Korrektor:
**Nərgiz Hüseynzadə**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ləman Abdulxalıqova**

Kağız formatı: 60/84  1/16
Mətbəə kağızı: №1
Həcmi: 22,25 ç/v
Tirajı: 400

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də
ofset üsulu ilə çap olunmuşdur.